Məntlərin müəlliflərinin tanınması sahəsində çoxsaylı işlər görülmüşdür. Almaniyadakı bir qəzetdəki mətnlərin müəllifliyinin identifikasiyası üçün dayaq vektorlar üsulundan (ing. support vector machine, SVM) istifadə olunmuşdur. Həmin işdə mətnlərdəki bəzi nitq hissələrinə (isim, sifət və feil) aid sözləri işarələrlə ifadə edərək tanıma aparmışdırlar, lakin bu, modellərin göstəricilərini bir qədər pisləşdirmişdir. [2] 2-qram, 3-qram və 4-qramlardan ibarət altı fərqli əlamət dəsti "naive bayes", SVM, təsadüfi meşə (ing. random forest, RF,), K ən yaxın qonşu (ing. K-nearest neighbours) ilə müəllifin cinsiyyətinin təyini, sənədin növünün təyini aparılmışdır. Ümumilikdə Türkiyənin 4 fərqli qəzetin onlayn nəşrlərindən toplanmış 3 dataset istifadə olunub. Biri cinsiyyətin təyini, biri müəllifliyin tanınması, digəri mətnin növünün təyini üçün istifadə olunmuşdur. [3] Fərqli kateqoriyalarda və fərqli cinslərin nümayəndələri tərəfindən yazılan Türk dilindəki mətnlərdən ibarət 3 fərqli dataset üzərində 16 əlamət istifadə etməklə Süni Neyron Şəbəkələrin (ing. artificial neural network, ANN) köməyi ilə məntlərin müəlliflərinin tanınması aparılmışdır. [4] Əlamət kimi sözlərin kökləri və 2-qramlar, dataset kimi türk dilindəki və inglis dilindəki mətnlərdən ibarət datasetlər istifadə olunmuşdur. İlkin əlamət dəstindən informativliyi yüksək əlamətlərin seçimi üçün əvvəl başlıca komponent analizi (ing. principal component analysis, PCA) kimi yanaşmalardan istifadə olunmuş, sonra sinifləşdirmə aparılmışdır. [5] 2-qram və 3-qramlardan ibarət əlamətlər 6 fərqli maşın öyrənməsi alqoritmi ilə istifadə olunmuşdur. Mətnlərin əlamət çıxarılışından əvvəl LZW – Lempel-Ziv-Welch alqoritmi ilə sıxışdırılaraq (ing. compression) ilkin emalının istifadəsi təhlil olunmuşdur. [6] Dil və mövzudan asılı olmayan n-qram əsaslı əlamətlər təklif olunmuş, ərəb, inglis, çin və s. dillərdəki məntlərdə istifadə olunmuşdur. [7] Dil, janr və mövzu fərqi olmadan çalışan bir yanaşma da holland, inglis, yunan, ispan və alman dillərindəki mətnlər üzərində ümumilikdə 28 test bazası üzərində təhlil olunmuşdur. [8] Sözlərdəki orta simvol sayı; cümlələrdəki orta söz sayı; fərqli sözlərin sayı; vergül, nöqtə-vergül, sual və s. işarələrin sayları və s. əlamətlərdən istifadə etməklə "Milliyet" qəzetindəki türk dilindəki mətnlərdən yığılan datasetlər üzərində məntlərin müəllifliyinin tanınması məsələsinə baxılmışdır. [9] Şeirlərin müəllifliyinin tanınması üzrə görülən bir işdə funksional və məzmundan çıxarılan söz və söz birləşmələri əlamət kimi istifadə olunmuşdur. [10] Azərbaycan dilindəki kiçik həcmli qəzet

məqalələri məntlərinin müəllifliyinin tanınmasında 1-qram və 2-qram əlamətlər statistik üsullar və SVM ilə istifadə olunmuşdur. [11] Azərbaycan dilindəki böyük həcmli bədii əsər mətnlərinin müəllifliyinin tanınması üçün SVM və ANN-in istifadəsinin müqayisəli təhlili aparılmışdır. Bu işdə 2-qramlardan istifadə olunmuş, informativ 2-qramların seçimi üçün bəzi meyarların effektivliyi təhlil edilmişdir. [12]

İşdə Azərbaycan dilindəki böyük həcmli (povest, roman) və kiçik həcmli (hekayə) mətnlərin müəlliflərinin tanınması üçün leksik, simvol əsaslı və məzmun əsaslı bəzi əlamətlərin SVM, ANN və RF ilə istifadəsi təhlil olunmuşdur. Bununla yanaşı, informativ 2-qram əlamətlərinin seçilməsi və iki ölçülü massiv halında bükülmə neyron şəbəkə (ing. convolutional neural network, CNN) ilə istifadəsinin effektivliyi təhlil olunub.

Məsələnin qoyuluşu.

İşdə Azərbaycan dilindəki mətnlərin müəllifliyini tanıyan kompüter sistemində istifadə üçün bəzi mətn əlamətlərinin çıxarılışı və informativ əlamətlərin seçilməsi üçün alqoritm və proqram təminatı hazırlanmışdır. Tanıma modeli kimi süni neyron şəbəkə ANN, SVM, RF istifadə olunduqda təyin edilmiş əlamət qruplarının istifadəsinin effektivliyinin müqayisəli təhlili aparılmışdır.

Məlum mətn əlamətlərinin bəzilərinin təsviri.

Ədəbiyyatlarda mətn əlamətlərini, adətən, aşağıdakı kateqoriyaya bölürlər [1]:

1. Leksik əlamətlər. Leksik əlamətlərin çıxarılışında mətndəki sözlər əsas götürülərək aşağıdakı kimi əlamətlər çıxarıla bilir:
2. söz uzunluqları sayları – mətndəki fərqli uzunluqlu sözlərin (məs., 4 hərfli, 5 hərfli) sayları,
3. cümlə uzunluqları sayları – mətndəki fərqli uzunluqlu cümlələrin (məs., 4 sözlü, 5 sözlü) sayları,
4. lüğət zənginliyi – mətnin lüğətinin həcminin (mətndəki unikal sözlərin sayının) mətndəki ümumi söz sayına nisbəti (burada təkcə söz yox, söz, ədəd və durğu işarələri də istifadə oluna bilər),
5. mətndə cəmisi bir dəfə işlənən sözlərin sayı və s.

Leksik əlamətlərin müsbət cəhəti dildən asılı olmamasıdır. Lakin mətndə abreviaturaların olması sözlərin sayılmasında çətinlik yarada bilir. Bunlarla yanaşı Çin dilindəki mətnlərdə söz sayımının ayrı çətinliyi də mövcuddur.

Simvol əlamətləri. Simvol əlamətlərinin çıxarılışında mətndəki simvollar əsas götürülərək aşağıdakı kimi əlamətlər çıxarıla bilir:

1. hərflərin sayları (məs., “A” hərfinin sayı, “B” hərfinin sayı),
2. rəqəmlərin sayları (məs., “1” rəqəminin sayı, “2” rəqəminin sayı),
3. durğu işarələrinin sayları,
4. böyük/kiçik hərflərin sayı.

Yuxarıda sadalanan simvol əlamətlərini (sonuncudan başqa) 1-qram adı altında ümumiləşdirmək olar. Müvafiq olaraq verilmiş n simvolun ardıcıl şəkildə mətndə işlənmə tezliyi də n-qram adlandırılır. Mətndəki orfoqrafik səhvlər, durğu işarələrindən yersiz istifadə n-qram əlamətinə drammatik təsir etmir. Sözlərin köklərə ayrılışı, “tokenization” çətin olan dillərdə n-qramlar uyğun həlldir.

1. Sintaktik əlamətlər. Sintaktik əlamətlərin çıxarılışında sözlər yox, sözlərin cümlədəki funksiyaları (hansı nitq hissəsi olmaları və s.) nəzərə alınır. Bu cür əlamət çıxarılışına nümunə kimi aşağıdakıları göstərmək olar:
2. Nitq hissələri ilə etiketləmə (ing. part-of-speech tagging). Mətndəki sözlərin hər biri olduğu nitq hissəsi (məs., isim, sifət, feil) ilə əvəzlənir. Sonra bu nitq hissələrindən hər birinin mətndə işlənmə tezliyi əsasında əlamətlər hazırlana bilər. Hətta bir etiket yox, etiketlər biqramı və ya triqramı

istifadə oluna bilər (məs., “O gəldi.” cümləsindəki əvəzlik və feili, biqram şəklində ifadə edərək, həmin cümləni “əvəzfeil” ilə əvəz edə bilərik). [13]

3. Dilimləmə (ing. chunking). Bu əlamətlərin çıxarılışında nitq hissələri ilə etiketləmədən fərqli olaraq birdən çox sözün cümlədə bəlli bir sintantik vəzifəni icra edə biləcəyi nəzərə alınır. [14]

4. Sahəyə müvafiq spesifik əlamətlər. Bu növ əlamətləri də öz növbəsində aşağıdakılara bölmək olar:

5. Struktur əsaslı əlamətlər. Bu növ əlamətlər mətnin cümlə və abzas nöqteyi-nəzərdən strukturunu təsvir etmək məqsədi ilə çıxarılır [15]. Struktur əlamətlərinə aşağıdakıları misal göstərmək olar:

abzasların sayı, cümlələrin sayı, abzasbaşına düşən orta cümlə sayı, abzasbaşına düşən orta söz sayı, abzasbaşına düşən orta simvol sayı.

Məzmun əsaslı əlamətlər. Bu əlamətlər mətnlərin məzmununa uyğun olaraq seçilmiş açar sözlərin tezliklərindən alınır.

Dil əsaslı əlamətlər. Bu əlamətlər dilin spesifikasını nəzərə alaraq seçilən açar sözlərin tezliklərindən alınır.

Eksperimentlərin bəzi xarakteristikaları.

İşdə istifadə olunan əlamətlər. İşdə söz uzunluqları sayları (3.1.1), cümlə uzunluqları sayları (3.1.2) kimi leksik əlamətlər (3.1); hərf 1-qramları, hərf 2-qramının (biqram) qiymətləri, biqramların qiymətlərinin mətn daxili statistik göstəriciləri kimi simvol əlamətləri (3.2), cümlələrin sayı (3.4.1.2), məzmun əsaslı əlamətlər (3.4.2) kimi sahəyə müvafiq spesifik əlamətlərdən (3.4) istifadə olunub.

İnformativ biqramların seçilməsi alqoritmlərinin təsviri.

1. Datasetdəki məntlərdə tezliyi yüksək biqramların seçilməsi. Datasetdəki bütün mətnlərdə ümumilikdə çox az istifadə olunmuş – çox az tezliyə malik biqramlar əlamət qrupundan çıxarılaraq daha çox istifadə olunan biqramlardan ibarət əlamət qrupu hazırlanır.

2. Biqramların datasetdəki mətnlərin daxili statistik göstəriciləri əsasında seçilməsi. Datasetdəki hər mətni verilmiş sayda hissələrə bölməklə alt mətnlər alınır. Bu alt məntlərin hər birində (yuxarıda) 1-ci əlamət seçmə mərhələsində alınmış biqramların qiymətləri hesablanır. Bu alt mətnlərdəki biqram qiymətlərinin ədədi ortası və dispersiyası mətnin statistik xarakteristikası olaraq götürülür. Verilmiş müəllifin statistik göstəriciləri isə müəllifin mətnlərinin statistik göstəriciləri əsasında tapılır. Datasetdəki müəlliflərin statistik göstəricilərindəki fərq çox olan biqramlar seçilir.

Mətnin daxili statistik əlamətlərinin çıxarılışı. Mətnin hissələrinin biqram qiymətləri statistikası əsasında əlamətlər çıxarılışının alqoritmi aşağıdakı kimidir:

1. Verilmiş mətn müəyyən sayda hissəyə bölünür.
2. Hər hissədə n-qramların qiymətləri hesablanır.
3. Hər n-qram üçün 2-ci mərhələdəki verilmiş sayda mətnin hər birində hesablanmış qiymətlərin orta qiymət və dispersiyası tapılır.

Datasetin təsviri. Datasetdə 11 azərbaycanlı müəllifin 28-i böyük həcmli olmaqla 151 azərbaycan dilindəki bədii əsərinin mətnlərindən istifadə olunmuşdur. Həmin əsərlərin mətnlərini ayrı-ayrı hissələrə bölməklə çoxsaylı mətnlər alınmış, bu məntlərdən ibarət dataset yaradılmışdır.

Dataseti 80:20 nisbətində bölməklə öyrətmə və test bazaları alınmışdır. Modellər öyrətmə bazası ilə öyrədilib, əvvəlcə test bazasını tanıma dəqiqliyi əsasında qiymətləndirilib. Ardınca seçilmiş bədii əsərlərin bölünməmiş variantının müəllifini tanıma dəqiqliyi əsasında qiymətləndirilib.

Modelləşdirmə. Əlamət qrupları iki fərqli strukturlu (səviyyələrinin sayı, səviyyələrdəki neyronların sayı) ANN-lər, RF və üç fərqli nüvəli (ing. kernel) SVM-lərdə istifadə olunmuşdur. SVM-lərdə istifadə olunan nüvələr aşağıdakılardır [16]:

- xətti,
- polinomial,
- “Gaussian radial basis function”.

Bunlarla yanaşı biqramların qiymətlərinin iki ölçülü matris şəklinə salınaraq CNN-də istifadəsi təhlil olunub.

Nəticə

Aparılmış eksperimentlərin nəticələri və onların analizi ən informativ əlamət qruplarını, istifadə olunan modellər üçün isə ən effektiv əlamət qruplarını müəyyən etməyə imkan verdi. Eksperimentlər mətn müəllifliyinin tanınması sisteminə bir deyil, müxtəlif modellərdən və onlara uyğun əlamət qruplarından istifadə edən bir neçə tanıma altsisteminin daxil edilməsinin zəruriliyini göstərmişdir.

Ədəbiyyat

1. Stamatatos, E. (2009). A survey of modern authorship attribution methods. Journal of the American Society for information Science and Technology, 60(3), 538-556.
2. Diederich, J., Kindermann, J., Leopold, E., & Paass, G. (2003). Authorship attribution with support vector machines. Applied intelligence, 19(1), 109-123.
3. Doğan, S., & Banu, D. İ. R. İ. (2010). Türkçe dokümanlar için N-gram tabanlı yeni bir sınıflandırma (Ng-ind): yazar, tür ve cinsiyet. Türkiye Bilişim Vakfı Bilgisayar Bilimleri ve Mühendisliği Dergisi, 3(1), 11-19.
4. Levent, V. E., & Diri, B. (2014). Türkçe Dokümanlarda Yapay SinirAğları İle Yazar Tanıma. Akademik Bilişim, 14, 5-7.
5. Yasdi, M., & Diri, B. Soyut Özellik Çıkarımı İle Yazar Tanıma.
6. Bilgin, M. (2019). Türkçe metinlerin siniflandirma başarisini artirmak için yeni bir yöntem önerisi. Uludağ Üniversitesi Mühendislik Fakültesi Dergisi, 24(1), 125-136.
7. Graovac, J. (2014). Text categorization using n-gram based language independent technique. Intelligent Data Analysis, 18(4), 677-695.
8. Halvani, O., Winter, C., & Pflug, A. (2016). Authorship verification for different languages, genres and topics. Digital Investigation, 16, S33-S43.
9. Bozkurt, I. N., Baghoglu, O., & Uyar, E. (2007, November). Authorship attribution. In 2007 22nd international symposium on computer and information sciences (pp. 1-5). IEEE.
10. Coyotl-Morales, R. M., Villaseñor-Pineda, L., Montes-y-Gómez, M., & Rosso, P. (2006, November). Authorship attribution using word sequences. In Iberoamerican Congress on Pattern Recognition (pp. 844-853). Springer, Berlin, Heidelberg.
11. Ayda-zade, K., & Talibov, S. (2017). Analysis of The Methods for The Authorship Identification of the Text in the Azerbaijani Language. Problems of information technology, 8(1), 14-23.
12. R.B.Əzimov, E.M.Mustafayev. (2022). Comparıson of SVM and ANN methods for recognition of authorship of texts. “Информационный бюллетень Омского научно-образовательного центра ОмГТУ и ИМ СО РАН в области математики и информатики», S.60-61. Omsk, Russia.
13. Part-of-Speech online system, website, https://parts-of-speech.info/
14. DeepDive system, website, http://deepdive.stanford.edu/example-chunking
15. Zheng, R., Li, J., Chen, H., & Huang, Z. (2006). A framework for authorship identification of online messages: Writing- style features and classification techniques. Journal of the American society for information science and technology, 57(3), 378-393.
16. Scikit-learn library, website, https://scikit-learn.org/stable/modules/svm.html#svm-kernels

РЕЗЮМЕ
СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ РАЗЛИЧНЫХ ГРУПП ПРИЗНАКОВ ДЛЯ ИСПОЛЬЗОВАНИЯ В КОМПЬЮТЕРНОЙ СИСТЕМЕ, РАСПОЗНАЮЩЕЙ АВТОРСТВО ТЕКСТОВ НА АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ
Мустафаев Е.М., Азимов Р.Б.

Ключевые слова*: *распознавание авторство текстов, выделение признаков, искусственная нейронная сеть, метод опорных векторов.

Развитие компьютерных технологий, рост количества оцифрованных текстов, расширение интернет-СМИ (блоги, страницы онлайн-форумов, сообщения электронной почты и т. д.) увеличивают потребность в работе в области авторского анализа текстов. В данной работе разработан алгоритм и программное обеспечение для извлечения некоторых текстовых признаков и выбора информативных признаков для использования в компьютерной системе, распознающей авторство текстов на азербайджанском языке. Проведен сравнительный анализ эффективности использования заданных групп признаков при использовании в качестве модели распознавания искусственной нейронной сети (англ. artificial neural network, ANN), метода опорных векторов (англ. support vector machine, SVM) и случайного леса (англ. random forest, RF).

SUMMARY
COMPARATIVE ANALYSIS OF DIFFERENT FEATURE SETS FOR USE IN A COMPUTER SYSTEM THAT RECOGNIZES AUTHORSHIP OF TEXTS IN AZERBAIJANI LANGUAGE
Mustafayev E.M., Azimov R.B.

Keywords*: *authorship attribution, feature extraction, Artificial Neural Network, Support Vector Machine.

The development of computing techniques, the growth of digitalized texts, the expansion of internet media (blogs, online forum pages, email posts, etc.) increase the need for studies to be carried out in the field of authorship analysis of texts. In the study, an algorithm and software for extracting some text features and selecting informative features for use in a computer system that recognizes the authorship of texts in the Azerbaijani language has been developed. A comparative analysis of the effectiveness of the use of the feature sets was carried out where Artificial Neural Network (ANN), Support Vector Method (SVM), and Random Forest (RF) were used as recognition models.

TOZVARİ MATERİALLARIN "QAYNAR" LAYDA DƏNƏVƏRLƏŞDİRİLMƏSİ PROSESİNİN RİYAZİ MODELİ

Mustafayeva Nigar İbrahim qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nigar.mustafayeva.78@mail.ru

Açar sözlər: *dənəvərləşmə, intensiv, qaynar lay, tozvari, polidispers, mexanizm.*

Məqalədə tozvari superfosfatın dənəvərləşdirilməsi zamanı dənələrin əmələ gəlmə mexanizminin elmi əsaslandırılmasına baxılmışdır. Bu işdə göstərilmiş fiziki model əsas götürülmüşdür, yəni dənələrin böyüməsi intensiv qarışma şəraitində hissəciklərin bir-biri ilə toqquşması və yapışması hesabına baş verir.

Hissəciklərin belə böyüməsinin riyazi yazılması üçün onlar şar şəklində təsvir edilir [1.2]. Bu zaman vahid uzunluqda yolda diametri D, olan hissəciklərin toqquşmaların sayını aşağıdakı bərabəliklə təyin etmək olar.

$$v = \pi D_0^2 \cdot n_r \tag{1}$$

Əgər hissəciklərin diametrinin $2\Delta S = 2(S_H - S_U)$ qədər artdığını qəbul etsək onda dənələrin ölçüsunun dəyişməsini aşağıdakı tənliklə ifadə etmək olar:

$$\mathrm{d}D_r = 2\pi D_r^2 \cdot n_r(S_H - S_U)\mathrm{dl} \quad (2)$$

Qaynar layın vahid həcmindəki hissəciklərin sayını $n_r = \frac{6(1-\varepsilon)}{\pi D_r^2}$ və qət etdikləri elementar yolun $dl = v_r \cdot d\tau_r$ (2) tənliyində yerinə yazsaq aşağıdakı ifadəni alarıq.

$$D_r \cdot \mathrm{d}D_r = 12(1-\varepsilon)v_r \cdot (S_H - S_U) \cdot d\tau_r \quad (3)$$

burada v-hissəciklərin toqquşmalarının sayı; D_r-toqquşmaya qədər hissəciklərin diametri, m, n_r-qaynar layın vahid həcmində hissəciklərin sayı; S_H, S_U – müvafiq olaraq artımın və aşınmanın miqdarıdır, m; ε-hissəciklər arasındakı boşluqlar; τ_r-dənəvərləşmə müddətidir.

(3) tənliyi monodispers layda tozvari materialların dənəvərləşməsi zamanı dənələrin böyüməsinin, yaxud paylanmasının riyazi modelini ifadə edir. Polidispers layda isə hissəciklərin paylanmasının riyazi ifadəsini tərtib etmək çətindir. Bu hissəciklərin toqquşmasının nizamsız olması ilə əlaqədardır, başqa sözlə toqquşma həm eyni ölçülü, həm də müxtəlif ölçülü hissəciklər arasında baş verir [3]. Ona görə də polidispers layda dənələrin böyüməsinin riyazi yazılışı hissəciklərin toqquşmasının ehtimal olunan aşağıdakı variantda həll edilə bilər:

Tutaq ki, polidispers layda dənələrin böyüməsi eyni ölçülü hissəciklərin bir-biri ilə toqquşması nəticəsində baş verir. Bu halda hissəciklərin hərəkətinin vahid uzunluğunda toqquşmaların sayı aşağıdakı tənliklə yazıla bilər:

$$v = 6(1-\varepsilon)\left[\frac{X_1}{D_1} + \frac{X_2}{D_2} + \frac{X_3}{D_3} + \cdots . + \frac{X_l}{D_l}\right] = 6(1-\varepsilon)\frac{1}{D_E} \quad (4)$$

Analiz edilən variant üçün dənələrin böyüməsini aşağıdakı kimi ifadə etmək olar:

$$D_E dD_E = 12(1-\varepsilon)v_r \cdot (S_H - S_U) \cdot d\tau_r \quad (5)$$

burada $D_1, D_2, D_3, \ldots \ldots . D_l$- polidispers sistemində hissəciklərin diametridir, m; $X_1, X_2, X_3, \ldots \ldots . X_l$ –qaynar layda müxtəlif ölçülü hissəciklərin kütlə payıdır; D_E-polidispers layda hissəciklərin ekvivalent diametridir.

Ədəbiyyat

1. Heydər Əliyev “Mühəndislik yollarında”. Bakı, 1997, səh 510.
2. Вилесов Н.Г.,Скрипко В.Я., Ломазов В.Л., Танченко И.М. Процессы гранулирования в промышленности- Киев: Техника, 1976, 192с.
3. Кочетков В.Н. Гранулирование минеральных удобреий,- М: Химия, 1975, 224с.

РЕЗЮМЕ

МАТЕМАТИЧЕСКАЯ МОДЕЛЬ ПРОЦЕССА ЦИКЛИРОВАНИЯ ОТХОДОВ В «ГОРЯЧЕМ» РАСТВОРЕ

Мустафаева Н.И.

Ключевые слова: *гранулирование, интенсивное, горячий слой, порошкообразный, полидисперсный, механизм.*

В статье рассмотрен и научно обоснован механизм образования зерен при гранулировании порошкообразного суперфосфата. Физическая модель, представленная в данной работе, основана на предположении, что рост зерен происходит за счет столкновений и слипания частиц в условиях интенсивного перемешивания.

SUMMARY

MATHEMATICAL MODEL OF THE PROCESS OF GRANULATION OF POWDERY MATERIALS IN A” HOT " LAYER

Mustafayeva N.İ.

Keywords: granulation, intensive, hot bed, powdery, polydisperse, mechanism.

In the article, the scientific justification of the mechanism of grain formation during the granulation of powdered superphosphate was considered. The physical model presented in this work is based on the assumption that grain growth occurs due to particle collisions and adhesion under intense mixing conditions.

EHTİMAL NƏZƏRİYYƏSİNİN MÜHƏNDİSLİKDƏ VƏ İQTİSADİYYATDA ROLU

Sadıqova Rəhimə Məhəmməd qızı
Naxçıvan Universiteti
rehimesadiqova41@gmail.com

Açar sözlər: *iqtisadiyyat, riyaziyyat, ehtimal nəzəriyyəsinin tətbiqi, iqtisadi linqvistik.*

İlk dəfə ehtimal nəzəriyyəsi XVII əsrin ortalarında yaranmağa başlamışdır. Ehtimal nəzəriyyəsi elmi istiqamətləri, məsələn, riyazi statistikanın inkişafında mühüm rol oynayır. Ehtimal nəzəriyyəsi olmadan biz fizikanı, riyaziyyatı, iqtisadiyyatı, linqvistikanı təsəvvür etməyimiz mümkün deyil. Təbiətdə baş verən müəyyən bir hadisəni öyrənmək üçün insanlar müəyyən müşahidələr aparırlar. Hər nəzəriyyə kimi, ehtimal nəzəriyyəsi də ayrı – ayrı konkret təsadüfi hadisə və kəmiyyətləri deyil, onların ümumi xassələrini və qanunauyğunluqlarını öyrənir.
Ehtimal nəzəriyyəsinin müxtəlif tətbiq sahələri vardır. Biz əsas tətbiq sahələri olaraq ehtimal nəzəriyyəsinin iqtisadiyyatda və mühəndislikdə rolundan danışacağıq.

İqtisadiyyatın sığorta ehtiyatı, ehtiyat gücləri, Dövlət ehtiyatı və bu kimi anlayışları statistik qanuna uyğunluqlar mövcudluğunu təsdiq edir. Bazar iqtisadiyyatı şəraitində xalq təsərrüfatı sahələrinin əlaqələri daha da mürəkkəbləşir. Beləliklə, dinamik sistemin inkişaf qanuna uyğunluqlara görə sosial-iqtisadi hadisələri təsvir edən qanunların statistik xarakteri güclənir.
Bütün bunlar iqtisadi hadisə və proseslərin statistik analizinin bir vasitəsi kimi ehtimal nəzəriyyəsi və riyazi statistikanın metodlarının mənimsənilməsini zəruri edir.

Ehtimal nəzəriyyəsiz fizika, riyaziyyat və. s elmləri necə ki, təsvvür edə bilmiriksə, ehtimal nəzəriyyəsiz mühəndisliyi də təsəvvür etmək olmaz. Mühəndislərin soyuqqanlı olmasının əsas predmentlərindən biri ehtimal nəzəriyyəsidir. Ehtimal nəzəriyyəsi proqramlaşdırma sahəsində ehtimalların analizində geniş istifadə olunur. Proqramlaşdırmada bildiyiniz kimi təsadüfü (*random*) ədədlərin tapılması üçün əmrlərdən istifadə olunur. Hər proqramlaşdırma dilində bu əmrlər fərqlidir. Misal üçün nümunə olaraq Python proqramlaşdırma dilində bunu random əmri ilə edirlər. Nümunə proqram göstərək:

İmport random
R = random.randint(1,10)
Print("1 ilə 10 arasındakı təsadüfü rəqəm: ")
Print(r)

Bu proqram bizə hər dəfə işlətdiyimizdə 1 ilə 10 arasında təsadüfü rəqəm verəcək. Bu proqramı ilk dəfə işlətdiyimizdə bizə 7 nəticəsini verdi, ikinci dəfə işlətdiyimizdə 3 nəticəsini. Tamamilə təsadüfü şəkildə heç bir ardıcıllıq, uyğunluq yoxdur. Bu funksiyadan istifadə edərək müəyyən oyunlar da hazırlana bilir. Hətta müəyyən mərc oyunları, əyləncə oyunları buna nümunə olaraq göstərilə bilər. Misal üçün daş, kağız və qəyçi oyununu götürək. Bu oyun da random funskiyasından istifadə edilərək hazırlanmışdır. Biz əlimizi sensor qarşısına gətirdikdə hər dəfəsində qarşı tərəfdən 3 mümkün hadisədən yalnızca birini təsafüfü şəkildə bizim qarşımıza çıxarır. Biz burada mümkün ola biləcək hadisəni təxmin edə bilərik ama bizim burada qazanma

şansımız yalnızca 1/3 dür. İndi isə ehtimal nəzəriyyəsinə aid bir neçə məsələnin həllinə baxaq:

Məsələ1: Detalın yoxlamadan keçmə ehtimalı p=0,2-dir. 400 detaldan yoxlanılmayan detalların sayının 70 ilə 100 arasında olması ehtimalını tapın.

Həlli. n=400, $k_1 = 70$, k_2=100, p=0,2, q=1-p=0,8 olduğundan axtarılan ehtimal aşağıdakı şəkildə hesablanar:

$$P_{400}(70;100) \approx \phi\left(\frac{100-400\times 0.2}{\sqrt{400\times 0.2\times 0.8}}\right) - \Phi\left(\frac{70-400\times 0.2}{\sqrt{400\times 0.8}}\right) = \phi(2{,}5) - \Phi(-1{,}25)$$
$$= \Phi(2{,}5) + \Phi(-1{,}25) = 0{,}4938 + 0{,}3944 = 0{,}8882.$$

Ədəbiyyat

1. Kərimov T.Q., Seyfullazadə N.Z. Ehtimal nəzəriyyəsi və riyazi statistikanın əsasları. Dərs vəsaiti, Gəncə 2008.
2. Əhmədova H.M. Ehtimal nəzəriyyəsi və riyazi statistikanın əsasları. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2009.
3. Gözəlova M. Ehtimal nəzəriyyəsi və riyazi statistikanın əsasları. Sumqayıt, 2020, 82 s.

РЕЗЮМЕ

РОЛЬ ТЕОРИИ ВЕРОЯТНОСТИ В ТЕХНИКЕ И ЭКОНОМИКЕ

Садыгова Р.М.

Ключевые слова: *экономика, математика, применение теории вероятности, экономическая лингвистика.*

Теория вероятности впервые появилась в середине 17 века. Теория вероятности играет важную роль в развитии научных направлений, например, математической статистики. Без теории вероятности невозможно представить физику, математику, экономику, лингвистику. Для того чтобы изучить определенное явление, происходящее в природе, люди производят определенные наблюдения. Как и всякая теория, теория вероятности изучает не конкретные случайные события и величины, а их общие свойства и закономерности. Теория вероятности имеет различные приложения. Мы рассмотрели роль теории вероятности в экономике и технике как основных областях применения.

SUMMARY

THE ROLE OF PROBABILITY THEORY IN ENGINEERING AND ECONOMICS

Sadigova R.M.

Keywords: *economics, mathematics, application of probability theory, economic linguistics.*

Probability theory first appeared in the middle of the 17th century. Probability theory plays an important role in the development of scientific directions, for example, mathematical statistics. Without probability theory, we cannot imagine physics, mathematics, economics, linguistics. In order to study a certain phenomenon that occurs in nature, people make certain observations. Like any theory, probability theory does not study specific random events and quantities, but their general properties and regularities. Probability theory has various applications. We will talk about the role of probability theory in economics and engineering as the main areas of application.

FÖVQƏLADƏ HAL RİSKLƏRİNİN PROQNOZLAŞDIRILMASINDA RİYAZİ-STATİSTİK METODİKANIN ƏHƏMİYYƏTİ

Yunusov Mir Ramin Mir Qasım oğlu

Bakı Mühəndislik Universiteti, İdarəetmə Sistemləri İnstitu, Bakı, Azərbaycan

mirramin.yunusov@fhn.gov.az

Açar sözlər: *reqression, korrelyasiya, Matlab/Simulink, imitasiya, simulyasiya.*

Məqalədə fövqəladə hallar baş verdikdə hadisələrin idarə edilməsi üçün onların simulyasiya yolu ilə riyazi-statistik modelləşdirilməsindən bəhs edilir.

Hər hansı mürəkkəb fövqəladə hadisəni optimal idarə etmək üçün onun alqoritmi məlum olmalıdır. İdarəetmə alqoritmi dedikdə riyazi və məntiqi əməliyyatlar ardıcıllığı başa düşülür. Bu halda hadisənin baş vermə səbəbləri, vəziyyəti və ətraf mühit haqqında olan informasiya əsasında onun optimal rejimi müəyyən edilir. Aydındır ki, belə məsələləri həll etmək üçün riyazi model olmadan tədqiq etmək qeyri-mümkündür.

Məlumdur ki, fövqəladə hallar baş verdikdə praktiki olaraq qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması həmin hadisələrin nəticələrinin aradan qaldırılmasında, habelə zərərçəkmişlərin xilas edilməsində mühüm yeri tutur. Lakin, fövqəladə halların idarə olunmasında effektiv nəticə əldə olunmanın müxtəlif istiqamətləri vardırki, bunlardan da ən əhəmiyyətlisi baş verə biləcək hadisələrin komputerdə simulyasiya edilməsidir [1].

Riyazi-statistik modelləşdirmənin qurulması üçün statistik məlumatların və riyazi üsulların tətbiq edilməsinə gərək duyulur. Əldə olunan statistik məlumatlar keçmişdə baş vermiş hadisələrin, onların xarakterinin, növünün və baş vermə səbəblərinin müəyyənləşdirilməsinə kömək edir. Əldə edilən məlumatlar sayəsində hadisələrin gedişatına müdaxilə, nəticələrin aradan qaldırılmasına və bütün bu proseslərin uyğun şəkildə tədqiq olunmasında statistik metodlardan istifadə effektiv rol oynayır. [2]. Bu zaman uyğun statistik metodların (reqression analizi metodu, korrelyasiya analizi metodu və s.) tətbiq olunması məqsədə uyğundur.

Fövqəladə halların idarə olunmasında model anlayışı real hadisələrin mövcud xüsusiyyətlərinin əlverişli şəkildə təsviri olaraq başa düşülür. Əksər hallarda hadisənin modelinin qurulması əsas fiziki qanunlardan (Nyuton, Maksvell, Kirhof qanunları və s.) istifadə etməklə proseslərin riyazi təsvirlərinin alınmasından ibarətdir. Hadisələri xarakterizə edən parametrlər arasındakı asılılıqlar adi və xüsusi törəməli differensial tənliklər şəklində və s. yazılır. Lakin bir çox hallarda proseslərin fiziki mahiyyətini öyrənmək çətin və ya qeyri-mümkün olur. Bu halda obyektin çıxış və giriş parametrləri haqqında olan empirik (statistik) informasiya ilə kifayətlənmək lazım gəlir. Eksperiment zamanı tədqiqat obyekti "qara qutu" kimi araşdırılır. Hadisələrin modellərinin qurulması aşağıdakı mərhələlərdən ibarətdir:

- modelin strukturunun seçilməsi,
- modelin parametrlərinin eksperiment məlumatlar əsasında qiymətləndirilməsi,
- diaqnostik yoxlama və modelin təsdiq edilməsi,
- modelin öz təyinatı üzrə istifadə edilməsi.

Riyazi modelləşdirmə bütün mümkün proseslərin və hadisələrin riyazi vasitələrin köməyi ilə təsviri, əks etdirilməsi, öyrənilməsi və proqnozlaşdırılmasıdır. Əgər yeni texniki məmulatın riyazi modelləşdirilməsindən söhbət gedirsə, bu onun xarakteristikalarının müxtəlif daxili parametrlərdən asılılığını sınaqdan keçirməyə və hətta konstruksiyanı optimallaşdırmağa imkan verir. Digər hallarda riyazi modelləşdirmə prinsipcə əks etdirilməsi mümkün olmayan yaxud arzuolunmaz vəziyyətləri imitasiya etməyə imkan verir.

Modelləşdirmə prosesində, o cümlədən, modellərin qurulmasında komputer böyük rol oynayır. Analitik araşdırmaların özündə belə komputerin tətbiqi zərurəti yaranır. Təsadüfi deyildir ki, bu gün əksər elm sahələrində aparılan mükəmməl tədqiqatların əsasını kompüter modelləşdirilməsi, komputerdə riyazi modelləşdirmə ve hesablama sınağı təşkil edir. Mürəkkəb sistemlərin fəaliyyət prosesi komputerdə realizə olunan müəyyən alqoritm şəklində göstərilir ki, bu da imitasiya modelləşdirilməsinin mahiyyətini təşkil edir. İmitasiya modelləşdirilməsi (ing. Simulation modelinq) kifayət qədər çevik modelləşdirmə üsuludur.

Riyazi-statistik modelləşdirmədə riyazi vasitələrdən (tənliklər, qanunlar və s.) və statistik məlumatlardan istifadə olunur. Riyazi-statistik modelləşdirmə və imitasiya elm və texnikanın demək olar ki, bütün sahələrini əhatə edir. Bundan əlavə, imitasiya vasitələri geniş proqram vasitələrindən və kompyuterdə realizasiya olunmuş müxtəlif tətbiqi sistemlərdən ibarətdir. Məsələn, Matlab/Simulink proqram paketi [4].



Şəkil. MATLAB/SİMULİNK proqram paketində riyazi model

İmitasiya modelləşdirməsinin ən geniş yayılma üsullarından biri Monte-Karlo (1949) və ya statistik sınaqlar üsuludur. Monte-Karlo üsulunun nəzəri əsasları kompyuterlərin meydana çıxmasından çox əvvəl məlum olmasına baxmayaraq geniş tətbiq tapa bilməmişdir. Buna əsas səbəb təsadüfi kəmiyyətlərin əl ilə hesablanmasının səmərəsiz olmasıdır. Kompyuterlərin vüsətli inkişafı ilə əlaqədar olaraq bu üsulun praktiki tətbiq sahəsi olduqca genişlənmişdir. Bu ədədi üsulun köməyi ilə kompyüter proqramı vasitəsi ilə aşağıdakı məsələləri təqribi həll etmək mümkündür:

- təsadüfi kəmiyyətlərin modelləşdirilməsi;
- sahələrin və çoxqat inteqralların hesablanması;
- tənliklərin həlli ;
- dinamik sistemlərinin məlun modelləri əsasında müxtəlif xarakteristikaların alınması və s. [3]

Müasir dövrün aktual məsələlərindən olan fövqəladə halların idarə olunmasında uyğun riyazi-statistik metodlar tətbiq etməklə komputerdə müvafiq proqram təminatı vasitəsilə modellərin qurulması uyğun məlumatların tədqiqi, araşdırılması, habelə yaranan nəticələrin analiz edilərək gələcəkdə baş verə biləcək fövqəladə halların nəticələrinin verdiyi zərərlərin minumuma endirilməsində rol oynayacaqdır.

Ədəbiyyat

1. Ocaqov H.O. Fövqəladə halların idarə olunması. Ali məktəblər üçün dərslik: Bakı: Təhsil, 2008.
2.İstatistiksel Tahmin Yöntemleri: Yapay Sinir Ağları Metodu İle Ürün Talep Tahmini Uygulaması, Prof. Dr. Mahmut Tekin, Konya 2011
3.İstatistiksel Süreç Kontrolü Ve Uygulamalar, Tuğba Çolak, Adana 2007
4.Statistika, Qafqaz Universiteti, Dərslik, Bakı 2015

РЕЗЮМЕ
ЗНАЧЕНИЕ МАТЕМАТИЧЕСКОЙ И СТАТИСТИЧЕСКОЙ МЕТОДОЛОГИЙ В ПРОГНОЗИРОВАНИИ ЧРЕЗВЫЧАЙНЫХ СИТУАЦИЙ
Юнусов М.М.

Ключевые слова: *регрессия, корреляция, Matlab/Simulink, имитация, моделирование*

В статье рассматривается математико-статистическое моделирование средствами имитационного моделирования для управления чрезвычайными ситуациями.

SUMMARY
THE IMPORTANCE OF MATHEMATICAL AND STATISTICAL METHODOLOGY IN FORECASTING EMERGENCY RISKS
Yunusov M.M.

Keywords: *regression, correlation, Matlab/Simulink, initation, simulation.*

The article deals with mathematical-statistical modeling by means of simulation for the management of emergency situations.

KOŞİ-RİMAN TƏNLİYİ ÜÇÜN DÜZBUCAQLI ÜÇBUCAQDA SƏRHƏD MƏSƏLƏSİNİN FREDHOLMLUĞU

Zeynalov Ramin Mübariz oğlu
İdarəetmə Sistemləri İnstitutu, Bakı, Azərbaycan
raminz.math@gmail.com

Açar sözlər: *Koşi-Riman tənliyi, Steklov məsələsi, zəruri şərtlər, fredholmluq.*

İşdə düzbucaq təpəsi koordinat başlanğıcında olan, hipetenozu iki vahid olub, absis oxuna paralel yuxarı yarımmüstəvidə yerləşən bərabəryanlı düzbucaqlı üçbucaqda Koşi-Riman tənliyi üçün sərhəd məsələsinə baxılmışdır. Bu məsələ sərhəd qiymətlərinə nəzərən nüvəsində məxsusiyyəti zəif olan ikinci növ Fredholm tipli inteqral tənliklər sisteminə gətirilmişdir.

Aşağıdakı sərhəd məsələsinə baxaq:

$$\frac{\partial u(x)}{\partial x_2} + i\frac{\partial u(x)}{\partial x_1} = 0,\ \ x = (x_1, x_2) \in R^2, \tag{1}$$

$$u(x_1,1) = \alpha u(x_1, |x_1|) + \varphi(x_1),\ \ x_1 \in [-1,1], \tag{2}$$

burada $i = \sqrt{-1}$, $\alpha \in C$ - verilmiş sabit ədəd, $\varphi(x_1)$ isə $x_1 \in [-1,1]$ olduqda verilmiş kəsilməz funksiyadır. Bu tənlik üçün müxtəlif sərhəd məsələlərinə baxılmışdır[1-4].

Məlumdur ki, (1) tənliyinin fundamental həlli [5].

$$U(x-\xi) = \frac{1}{2\pi}\frac{1}{x_2 - \xi_2 + i(x_1 - \xi_1)}, \tag{3}$$

funksiyasıdır. Verilmiş (1) tənliyini (3) fundamental həllinə vurub, D oblastı boyunca inteqrallayaq:

$$0 = \int_D \frac{\partial u(x)}{\partial x_2} U(x-\xi)dx + i\int_D \frac{\partial u(x)}{\partial x_1} U(x-\xi)dx.$$

Alınmış ifadəyə Ostroqradski-Qauss düsturunu tətbiq edək:

$$\int_{\Gamma} u(x)U(x-\xi)\cos(\nu,x_2)dx-\int_{D} u(x)\frac{\partial u(x-\xi)}{\partial x_2}dx+i\int_{\Gamma} u(x)U(x-\xi)\cos(\nu,x_1)dx-i\int_{\Gamma} u(x)\frac{\partial U(x-\xi)}{\partial x_1}dx=0 \qquad (4)$$

Burada ν-ilə D oblastının sərhəddinə çəkilmiş xarici normal işarə edilmişdir. Oblast üzrə inteqralları sağ tərəfə keçirsək, (4) dən alarıq:

$$\frac{1}{2\pi}\int_{\Gamma}\frac{u(x)}{x_2-\xi_2+i(x_1-\xi_1)}\left[\cos(\nu,x_2)+i\cos(\nu,x_1)\right]dx=\int_{D} u(x)\delta(x-\xi)dx=\begin{cases}u(\xi),\xi\in D,\\ \frac{1}{2}u(\xi),\ \ \xi\in\Gamma=\partial D.\end{cases} \qquad (5)$$

Göründüyü kimi (5) əsas münasibəti iki hissədən ibarətdir, birinci hissəsi $(\xi\in D)$ (1) tənliyinin D-də təyin olunmuş ixtiyari həllini, ikinci hissəsi isə $(\xi\in\Gamma)$ zəruri şərtləri
verir. Bu şərtləri ayıraq:

$$\frac{1}{2\pi}u(\xi_1,|\xi_1|)=\frac{1}{2\pi}\int_{-1}^{1}\frac{u(x_1,|x_1|)}{|x_1|-|\xi_1|+i(x_1-\xi_1)}\left[-\frac{\sqrt{2}}{2}+isign\ x_1\frac{\sqrt{2}}{2}\right]\frac{2dx_1}{\sqrt{2}}+\frac{1}{2\pi}\int_{-1}^{1}\frac{u(x_1,1)}{1-|\xi_1|+i(x_1-\xi_1)}dx_1,$$

$$\frac{1}{2\pi}u(\xi_1,1)=\frac{1}{2\pi}\int_{-1}^{1}\frac{u(x_1,|x_1|)}{|x_1|-1+i(x_1-\xi_1)}\left[-\frac{\sqrt{2}}{2}+isign\ x_1\frac{\sqrt{2}}{2}\right]\frac{2dx_1}{\sqrt{2}}-\frac{i}{2\pi}\int_{-1}^{1}\frac{u(x_1,1)}{x_1-\xi_1}dx_1,$$

və ya

$$u(\xi_1,-\xi_1)=\frac{-1-i}{\pi}\int_{-1}^{0}\frac{u(x_1,-x_1)}{-x_1+\xi_1+i(x_1-\xi_1)}dx_1+\frac{-1+i}{\pi}\int_{0}^{1}\frac{u(x_1,x_1)}{x_1+\xi_1+i(x_1-\xi_1)}dx_1+\frac{1}{\pi}\int_{-1}^{1}\frac{u(x_1,1)}{1+\xi_1+i(x_1-\xi_1)}dx_1,$$

$$u(\xi_1,\xi_1)=\frac{-1-i}{\pi}\int_{-1}^{0}\frac{u(x_1,-x_1)}{-x_1-\xi_1+i(x_1-\xi_1)}dx_1+\frac{-1+i}{\pi}\int_{0}^{1}\frac{u(x_1,x_1)}{x_1-\xi_1+i(x_1-\xi_1)}dx_1+\frac{1}{\pi}\int_{-1}^{1}\frac{u(x_1,1)}{1-\xi_1+i(x_1-\xi_1)}dx_1$$

$$u(\xi_1,1)=\frac{-1-i}{\pi}\int_{-1}^{0}\frac{u(x_1,-x_1)}{-x_1-1+i(x_1-\xi_1)}dx_1+\frac{-1+i}{\pi}\int_{0}^{1}\frac{u(x_1,x_1)}{x_1-1+i(x_1-\xi_1)}dx_1-\frac{i}{\pi}\int_{-1}^{1}\frac{u(x_1,1)}{x_1-\xi_1}dx_1$$

yaxud da

$$\begin{cases}u(\xi_1,-\xi_1)=\frac{i}{\pi}\int_{-1}^{0}\frac{u(x_1,-x_1)}{x_1-\xi_1}dx_1-\frac{1-i}{\pi}\int_{0}^{1}\frac{u(x_1,x_1)}{x_1+\xi_1+i(x_1-\xi_1)}dx_1+\frac{1}{\pi}\int_{-1}^{1}\frac{u(x_1,1)}{1+\xi_1+i(x_1-\xi_1)}dx_1,\ \xi_1\in[-1,0],\\ u(\xi_1,\xi_1)=\frac{i}{\pi}\int_{0}^{1}\frac{u(x_1,x_1)}{x_1-\xi_1}dx_1+\frac{1+i}{\pi}\int_{-1}^{0}\frac{u(x_1,-x_1)}{x_1+\xi_1-i(x_1-\xi_1)}dx_1+\frac{1}{\pi}\int_{-1}^{1}\frac{u(x_1,1)}{1-\xi_1+i(x_1-\xi_1)}dx_1,\ \xi_1\in[0,1],\\ u(\xi_1,1)=-\frac{i}{\pi}\int_{-1}^{1}\frac{u(x_1,1)}{x_1-\xi_1}dx_1+\frac{1+i}{\pi}\int_{-1}^{0}\frac{u(x_1,-x_1)}{x_1+1-i(x_1-\xi_1)}dx_1-\frac{1-i}{\pi}\int_{-1}^{1}\frac{u(x_1,x_1)}{x_1-1+i(x_1-\xi_1)}dx_1,\ \xi_1\in[-1,1].\end{cases} \qquad (6)$$

İndi isə (2) sərhəd şərtini nəzərə almaqla (6)-nın köməyi ilə aşağıdakı xətti kombinasiyanı quraq:

$$\begin{aligned}&-u(\xi_1,1)-\alpha u(\xi_1,-\xi_1)=\frac{i}{\pi}\int_{-1}^{0}\frac{\varphi(x_1)}{x_1-\xi_1}dx_1+\ldots\ ,\qquad \xi_1\in[-1,0],\\ &-u(\xi_1,1)-\alpha u(\xi_1,\xi_1)=\frac{i}{\pi}\int_{0}^{1}\frac{\varphi(x_1)}{x_1-\xi_1}dx_1+\ldots\ ,\qquad \xi_1\in[0,1],\end{aligned} \qquad (7)$$

Burada (...) ilə sinqulyar olmayan hədlərin cəmi işarə edilmişdir. Əgər,

$$\varphi(-1)=\varphi(0)=\varphi(1)=0,\qquad \varphi(x_1)\in C^{(1)}[-1,1], \qquad (8)$$

şərti ödənilərsə, onda (7) ifadələri requlyardır. Nəhayət (2) sərhəd şərti ilə (7) requlyar ifadələrinə birlikdə baxsaq, alarıq:

$$\begin{cases} u(\xi_1,1)-\alpha u(\xi_1,-\xi_1)=\varphi(\xi_1) \ , \\ -u(\xi_1,1)-\alpha u(\xi_1,-\xi_1)=\dfrac{i}{\pi}\displaystyle\int_{-1}^{0}\dfrac{\varphi(x_1)}{x_1-\xi_1}dx_1+\ldots \ , \qquad \xi_1\in[-1,0], \end{cases} \tag{9}$$

$$\begin{cases} u(\xi_1,1)-\alpha u(\xi_1,\xi_1)=\varphi(\xi_1) \ , \\ -u(\xi_1,1)-\alpha u(\xi_1,\xi_1)=\dfrac{i}{\pi}\displaystyle\int_{0}^{1}\dfrac{\varphi(x_1)}{x_1-\xi_1}dx_1+\ldots \ , \qquad \xi_1\in[0,1], \end{cases} \tag{10}$$

Əgər

$$\Delta=\begin{vmatrix} 1 & -\alpha \\ -1 & -\alpha \end{vmatrix}=-\alpha-\alpha=-2\alpha\neq 0, \tag{11}$$

Şətri ödənilərsə, onda (9) və (10) dan

$$u(\xi_1,1),\ u(\xi_1,-\xi_1),\quad \xi_1\in[-1,0] \ \text{ və } \ u(\xi_1,1),\ u(\xi_1,\xi_1),\quad \xi_1\in[0,1]$$

üçün normal şəkilli ikinci növ Fredholm tipli, nüvəsində sinqulyarlıq olmayan inteqral tənliklər sistemi almış oluruq. Beləliklə, aşağıdakı hökmü almış oluruq.

Teorem. Əgər $\alpha\neq 0$ verilmiş sabit ədəd, verilmiş $\varphi(x_1)$ funksiyası (8) şərtini ödəyirsə, onda (1) Koşi-Riman tənliyi üçün baxılan (1), (2) sərhəd məsələsi Fredholm tiplidir.

Ədəbiyyat

1. Aliyev N.A., Zeynalov R.M., Abbasova A.X., About one Steklov problem for two-dimentional Laplace equation with non-local boundary conditions, Actual problems of humanitarian and nature sciences (journal of scientific articles) Russia, Moscow, 2013, pp.10-13.
2. Aliev Nehan Ali, Abbasova Aygun Khanlar, Zeynalov Ramin M. Non-local boundary condition Steklov problem for a Laplace equation in bounded domain// Science Journal of Applied Mathematics and Statistics, New York, USA,Vol.1, № 1, 2013, pp.1-6.
3. Zeynalov R.M., Əliyev N.Ə. Məhdud müstəvı oblastda Koşi-Riman tənliyi üçün bir sərhəd məsələsinin həllinin araşdırılması // Riyaziyyatin fundamental problemləri və intellektual texnologiyalarin təhsildə tətbiqi respublika elmi konfransı. Sumqayıt -2020, s. 30-32.
4. Zeynalov R.M., Aliyev N.A., Zaremba-Steklov's problem for a Cauchy-Riemann equation. Bulletein of the Dagestan State University, Makhachkala , Russia, vol.30, №6, 2015, pp.74-79.
5. Владимиров В.С.. Уравнения математической физики, "Наука" Москва, 1981, 512 стр.

РЕЗЮМЕ

ФРЕДГОЛЬМОСТЬ ГРАНИЧНОЙ ЗАДАЧИ В ПРЯМОУГОЛЬНОМ ТРЕУГОЛЬНИКЕ ДЛЯ УРАВНЕНИЯ КОШИ-РИМАНА

Зейналов Р.М.

Ключевые слова: *уравнения Коши-Римана, задача Стеклова, необходимые условия, фредгольмовость*

В работе рассмотрена граничная задача для уравнения Коши-Римана в равнобедренном прямоугольном треугольнике, вершина которого находится в начале координат, гипотенуза которого равна двум единицам, расположенным на верхней полуплоскости, параллельной оси абсцисс. Эта задача приводится в систему интегральных уравнений типа Фредгольма второго типа, которые в своих ядрах, относительно граничных значений, имеют слабую особенность.

SUMMARY
FREDHOLM PROPERTY OF A BOUNDARY VALUE PROBLEM FOR A CAUCHY-RIEMANN EQUATION IN A RIGHT TRIANGLE
Zeynalov R.M.

***Keywords**: Cauchy-Riemann equations, Steklov's problem, necessary conditions, fredholmness property.*

İn the paper we consider a boundary value problem for the Cauchy-Riemann equation in an equilateral right triangle located in the upper half-plane parallel to the abscissa axis and with rectangular for at the origin of coordinates and unit two unit hypotenuse this problem was reduced to the system of second kind Fredholmness type integral equations with weak singularity with respect to the boundary values.

РАВНОМЕРНАЯ СХОДИМОСТЬ РАЗЛОЖЕНИЙ В РЯДЫ ФУРЬЕ ПО СИСТЕМЕ КОРНЕВЫХ ФУНКЦИЙ ЗАДАЧИ ПО СОБСТВЕННЫМ ЗНАЧЕНИЯМ ЧЕТВЕРТОГО ПОРЯДКА СО СПЕКТРАЛЬНЫМ ПАРАМЕТРОМ В ГРАНИЧНЫХ УСЛОВИЯХ

Абдуллаева Конуль Фаиль кызы
Сумгаитский государственный университет, Сумгаит, Азербайджан
konul.abdullayeva.15@mail.ru

***Ключевые слова**: собственное значение, разложение в ряд Фурье, базис, простой нуль функция.*

В тезисах рассматривается спектральная задача для обыкновенного дифференциального уравнения четвертого порядка со спектральным параметром в граничном условии. Найдены необходимые и достаточные условия для равномерной сходимости рядов Фурье непрерывных функций.

Проблема (1) - (3) рассматривалась в [2, 4], где, в частности, было показано, что спектр этой задачи является дискретным и состоит из бесконечной последовательности собственных значений, которые накапливаются в $\{\lambda_k\}_{k=1}^{\infty}$. При этом для собственных значений задачи (1) - (3) содержится одно из следующих утверждений: (i) все являются реальными и простыми; (ii) все являются реальными, и все, за исключением одного двойного или тройного, являются простыми; (iii) все простые и все, за исключением сопряженной пары ненастоящих, являются реальными. Здесь также получена асимптотическая формула и установлены достаточные условия для того, чтобы система корневых функций задачи (1) - (3) сформировала основу в пространстве $L_p(0,1),\ 1<p<\infty,$ после удаления одной функции.

Следует отметить, что асимптотические формулы собственных значений этой задачи были уточнены в недавней статье [1].

В этой заметке изучается равномерная сходимость расширений рядов Фурье непрерывных функций в подсистемах корневых функций задачи (1) - (3).

Наряду с граничной задачей (1) - (3) мы рассматриваем задачу собственного значения (1), (2) и известно, что (см. [3]) собственные значения этой задачи являются положительными, простыми и образуют бесконечную возрастающую последовательность $\{\mu_k\}_{k=1}^{\infty}$..

Предположим, что расширения функций ряда Фурье $f(x)\in C[0,1].$ в системе $\{\vartheta_k(x)\}_{k=1}^{\infty}$ равномерно сходятся на интервале $[0,1]$.

Пусть - произвольное положительное целое число. В силу [2, Теорема 6.2] система образует базис в пространстве, который является безусловным базисом для тогда и только тогда $s_m \neq 0$ (определение см. [2, Лемма 6.3]). Предположим, что это система, которая сопряжена с системой Тогда, расширение ряда Фурье

$$f(x) = \sum_{k=1,\, k\neq m}^{\infty} (f, u_k) y_k(x) \tag{4}$$

функции $f(x)$ в системе $\{y_k(x)\}_{k=1,\, k\neq m}^{\infty}$ сходится в пространстве $L_p(0,1), 1 < p < \infty,$, где $(f,u) = \int_0^1 f(x)\overline{u(x)}\,dx.$

Основным результатом этой заметки является следующая теорема.

Теорема. Позвольте быть произвольно фиксированное положительное целое такое, что $s_m \neq 0,$ $f(x) \in C[0,1],$ *и расширение ряда Фурье этой функции в системе* $\{\vartheta_k(x)\}_{k=1}^{\infty}$ *равномерно сходится на данном отрезке. Если* $(f, \vartheta_m) = 0$ или $(f, \vartheta_m) \neq 0$ и $d = 0,$ затем ряд (4) равномерно сходится; если $(f, \vartheta_m) \neq 0$ и $d \neq 0,$ тогда затем ряд (4) равномерно сходится на интервале $[0, \theta]$ для $0 < \theta < 1.$

Литература

1. K.F. Abdullayeva, Asymptotic formulas for eigenvalues and eigenfunctions of some ordinary differential operators of fourth order, Trans. Natl. Acad. Sci. Azerb. Ser. Phys.-Tech. Math. Sci. Mathematics 38 (4) (2018), 8-16.
2. Z.S. Aliev, Basis properties in L_p of systems of root functions of a spectral problem with spectral parameter in a boundary condition, Diff. Equ. 47 (6) (2011), 766-777.
3. D.O. Banks, G.J. Kurowski, A Prufer transformation for the equation of a vibrating beam subject to axial forces, J. Differential Equations 24 (1977), 57-74.
4. N.B. Kerimov, Z.S. Aliev, On the basis property of the system of eigenfunctions of a spectral problem with spectral parameter in a boundary condition, Diff. Equ. 43(7) (2007), 905-915.

XÜLASƏ

SƏRHƏD ŞƏRTİNƏ SPEKTRAL PARAMETR DAXİL OLAN DÖRDÜNCÜ TƏRTİB MƏXSUSİ QİYMƏT MƏSƏLƏSİNİN MƏXSUSİ VƏ QOŞULMUŞ FUNKSİYALARI ÜZRƏ FURYE SIRASINA AYRILIŞLARIN MÜNTƏZƏM YIĞILMASI

Abdullayeva K.F.

Açar sözlər*: *məxsusi ədəd, Furye sırasına ayrılış, bazis, sadə sıfır, funksiya

Tezis sərhəd şərtində spektral parametri olan adi dördüncü dərəcəli diferensial tənlik üçün spektral problemi nəzərdən keçirir. Davamlı funksiyaların Fourier seriyalarının vahid yaxınlaşması üçün lazımi və kifayət qədər şərait tapıldı.

SUMMARY

UNIFORM CONVERGENCE OF FOURIER SERIES EXPANSIONS IN THE SYSTEM OF ROOT FUNCTIONS OF THE FOURTH ORDER EIGENVALUE PROBLEM WITH A SPECTRAL PARAMETER CONTAINED IN THE BOUNDARY CONDITION

Abdullayeva K.F.

Keywords: *eigenvalue, Fourier series expansion, basis, simple zero, function.*

The thesis considers a spectral problem for an ordinary differential equation of the fourth order with a spectral parameter in the boundary condition. Necessary and sufficient conditions for uniform convergence of Fourier series of continuous functions are found.

II BÖLMƏ

DİFERENSİAL TƏNLİKLƏR, MODELLƏŞDİRMƏ, OPTİMALLAŞDIRMA VƏ OPTİMAL İDARƏETMƏ MƏSƏLƏLƏRİ

PAYLANMIŞ PARAMETRLİ GECİKMƏLİ SİSTEMLƏR ÜÇÜN OPTİMAL İDARƏETMƏ MƏSƏLƏSİ

Əliyeva Hicran Hamlet qızı, Abdullayeva İranə Əziz qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt şəhəri, Azərbaycan
hicran_rh@bk.ru

Açar sözlər: paylanmış parametrli sistemlər, gecikməli tənlik, optimal idarəedici.

Təqdim olunan işdə paylanmış parametrli gecikməli sistem üçün optimal idarəetmə məsələsi araşdırılır. Optimal idarəedicinin varlığı və yeganəliyi haqqında teorem isbat olunur. Sonda konkret hal üçün optimal idarəedici təyin edilir.

Fərz edilir ki, idarəolunan sistem

$$a_0\frac{\partial^2 y(t,x)}{\partial t^2}+a_1\frac{\partial y(t,x)}{\partial t}+a_2Ly(t,x)+a_3Ly(t-\omega,x)+ \\ +a_4\frac{\partial y(t-\omega,x)}{\partial t}+a_5y(t-\omega,x)=U(t,x) \tag{1}$$

tənliyi,

$$\begin{cases} c_0y(t,0)+d_0y'_x(t,0)=0 \\ c_1y(t,l)+d_1y'_x(t,l)\ \ =0 \end{cases} \tag{2}$$

sərhəd şərtləri və

$$\begin{cases} y(t,x)=\varphi(t,x) \\ y'_t(t,x)=\varphi(t,x),\ \ 0\le x\le l, -\omega\le t\le 0 \end{cases} \tag{3}$$

başlanğıc şərtləri ilə təsvir olunmuşdur.

Burada c_0, d_0, c_1, d_1 həqiqi sabitləridir və $c_0^2+d_0^2>0$, $c_1^2+d_1^2>0$, L - xətti öz-özünə qoşma olan iki tərtibli xətti diferensial ifadədir, ω – sabit gecikmə, a_0, a_1, a_2, a_3, a_4, a_5 – eyni zamanda sıfıra çevrilməyən sabitlərdir, $\varphi(x,y)$, $\psi(x,y)$ funksiyaları $D=\{-\omega\le t\le 0,\ 0\le x\le l\}$ – düzbucaqlısında verilmiş hamar funksiyalardır. $U(t,x)$ - $G=\{0\le t\le T,\ 0\le x\le l\}$ düzbucaqlısında təyin olunmuş idarəedici funksiyadır.

Aşağıdakı optimal idarəetmə məsələsinə baxılır: elə $U(t,x)\in L_2(G)$ idarəedicisini tapmalı ki, o, (1)-(2) sistemini ən tez zamanda (3) başlangıc vəziyyətindən

$$y(T,x)=0, y'_t(T,x)=0,\ \ 0\le x\le l, \tag{4}$$

vəziyyətinə gətirsin.

Teorem. $T\ge\omega$ olarsa, onda (1)-(3) sistemi idarə olunandır və minimal zaman ω-ya bərabərdir. Bundan əlavə idarəedici

$$\begin{cases} \int_0^\omega u_k(\tau)e^{\frac{a_1}{2a_0}\tau}\sin q_k\tau d\tau=\gamma_k, \\ \int_0^\omega u_k(\tau)e^{\frac{a_1}{2a_0}\tau}\cos q_k\tau d\tau=\delta_k\,, \quad k=0,1\ldots \end{cases}$$

moment probleminin həlli olar.

Ədəbiyyat

1. Мамедов А.Д. Задача оптимального подвижного управления системами с распределёнными параметрами с запаздыванием нейтрального типа. // Известия вузов. “Математика”, 1983. №3, 837-845 ст.
2. Məmmədov Ə.C., Alıyev X.H. Çubuğun eninə rəqsinin optimal idarə edilməsi məsələsi. // Azərbaycan Texniki Universitetinin Elmi əsərləri Fundamental elmləri. 2019, №1, 94-99 s.
3. Беллман Р., Кук К. Дифференциально-разностные уравнения. М.: Мир, 1967, 548 ст.

РЕЗЮМЕ

ЗАДАЧА ОПТИМАЛЬНОГО УПРАВЛЕНИЯ СИСТЕМАМИ С РАСПРЕДЕЛЁННЫМИ ПАРАМЕТРАМИ ЗАПАЗДЫВАНИЯ

Алиева Х.Г., Абдуллаева И.А.

Ключевые слова: *система с распределёнными параметрами, уравнение с запаздыванием, оптимальное управление.*

В работе рассматривается задача оптимального управления системами с распределёнными параметрами с запаздыванием. Поставленная задача сведена к решению проблемы моментов. Доказана теорема о существовании и единственности решения поставленной задачи.

SUMMARY

THE PROBLEM OF OPTIMAL CONTROL OF SYSTEMS WITH DISTRIBUTED DELAY PARAMETERS

Aliyeva H.H., Abdullayeva I.A.

Key words: *system with distributed parameters, lag equation optimal control.*

The paper considers the problem of optimal control of systems with distributed parameters with delay. Task is reduced to solving the problem of moments. A theorem on the existence and uniqueness of a solution to the problem is proved.

SONLU PARÇADA İKİNCİ TƏRTİB DİFERENSİAL TƏNLİK ÜÇÜN BİR SƏRHƏD MƏSƏLƏSİNİN MƏXSUSİ ƏDƏDLƏRİ VƏ MƏXSUSİ FUNKSİYALARI HAQQINDA

Hətəmova Röya Fikrət qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

hetemova_roya@mail.ru

Açar sözlər: *Hilbert fəzası, öz-özünə qoşma operator, diferensial tənlik, sərhəd şərtləri, məxsusi ədədlər, məxsusi vektor-funksiyalar, operatorun nüvəsi.*

Təqdim olunmuş işdə Hilbert fəzasında sonlu parçada və özünə qoşma operator əmsalla ikinci tərtib diferensial tənlik üçün sonlu parçada sərhəd məsələsinin məxsusi ədədləri tədqiq edilmiş requlyarlaşmış iz düsturu öyrənilmişdir. Bu məqsədlə əvvəlcə olduğu halda məsələnin məxsusi ədədləri öyrənilmiş, müəyyən şərtlər daxilində $\lambda \in \rho(L_0)$ qiymətlərində $Q(x)R_\lambda^0 : H_1 \to H_1$ operatorunun nüvə tipli operator olması isbat olunmuşdur.

Tutaq ki, H - separabel Hilbert fəzasıdır.

$H_1 = L_2[[0,1]; H]$ fəzasında

$$\ell(y) = -y'' + Q(x)y, \quad 0 \le x \le 1 \tag{1}$$

diferensial ifadəsi və $$y(0)=0,\ y'(1)+ay(0)=0,\ a>0 \qquad (2)$$
$$M_1(u)=\frac{|u|^{\alpha}}{\alpha} \qquad (\alpha>1), \qquad M_2(u)=e^{u^2}-1$$

funksiyalarını göstərmək olar.

Aydındır ki, birinci funksiya üçün $p_1(t)=M_1'(t)=t^{\alpha}-1$, ikinci funksiya üçün isə $p_2(t)=M_2'(t)=2te^{t^2}$ bərabərlikləri doğrudur.

Tərifdən aydındır ki, istənilən N-funksiya cütdür, kəsilməzdir, arqumentin müsbət qiymətlərində artandır və $M(0)=0$ *[4]*.

N-funksiyanın qabarıq olduğunu göstərək.

Həqiqətən də əgər $0\leq u_1<u_2$ götürsək onda $p(t)$ -nin monotonluğuna əsasən alırıq ki:

$$M\left(\frac{u_1+u_2}{2}\right)=\int_0^{\frac{u_1+u_2}{2}} p(t)dt\leq\int_0^{u_1} p(t)dt+\frac{1}{2}\left[\int_{u_1}^{\frac{u_1+u_2}{2}} p(t)dt+\int_{\frac{u_1+u_2}{2}}^{u_2} p(t)dt\right]=$$

$$=\frac{1}{2}\left[\int_0^{u_1} p(t)dt+\int_0^{u_2} p(t)dt\right]=\frac{1}{2}\left[M(u_1)+M(u_2)\right]$$

İstənilən u_1 və u_2 üçün

$$M\left(\frac{u_1+u_2}{2}\right)=M\left(\frac{|u_1+u_2|}{2}\right)\le M\left(\frac{|u_1|+|u_2|}{2}\right)\le\frac{1}{2}\left[M(u_1)+M(u_2)\right]$$

(1)-də $u_2=0$ qəbul etsək, alarıq ki:

$$M(\alpha u_1)\le\alpha M(u_1)\qquad(0\le\alpha<1)\tag{3}$$

(2) şərtlərinin birincisi onu göstərir ki,

$$\lim_{u\to 0}\frac{M(u)}{u}=0\tag{4}$$

(2) şərtlərinin ikincisindən alırıq ki,

$$\lim_{u\to\infty}\frac{M(u)}{u}=\infty\tag{5}$$

Belə ki,

$$\frac{M(u)}{u}=\frac{1}{u}\int_0^u p(t)dt\ge\frac{1}{u}\int_{\frac{u}{2}}^u p(t)dt\ge\frac{1}{2}p\left(\frac{u}{2}\right)$$

Ədəbiyyat

1. Красносельский М.А., Рутицкий Я.Б. Выпуклые функции и пространства Ордича, М., 1958, с.12-21
2. Макаров Б.М., Подкарытов А.Н. Лекции по вещественному анализу. СПб., 2011, Т.1, с.110-121
3. Абдуллаев С.К., Агарзаев Б.К. Теорема Соболева-Ильина для потенциалов Рисса с обобщенным сдвигом и почти монотонным ядром // Ученные записки Орёлского государственного университета, №3 (59), 2014, с.11-14
4. Abdullayev S.A., Abdullayev F.A., Mehrabov V.A. Riyazi analiz (dərs vəsaiti), Bakı, 2016, s.210-220

РЕЗЮМЕ

***N*-ФУНКЦИИ И ИХ СВОЙСТВА**

Агарзаев Б.К.

Ключевые слова: *функция, непрерывный, выпуклый, монотонный, неравенство.*

В статье представлена информация о N–функциях и их свойствах. Эти функции играют роль важного математического аппарата при изучении сингулярных интегралов, потенциалов Рисса и пространств Орлича [2],[3].

SUMMARY

***N*-FUNCTIONS AND THEIR PROPERTIES**

Agharzayev B.K.

Key words: *function, continuous, convex, monotone, inequality*

The article has given an information about the N-function and its properties. Thus, these functions play the role of an important mathematical apparatus in the study of singular integrals, Riesz potentials and Orlicz spaces [2],[3].

TAMƏDƏDLİ ÇANTA MƏSƏLƏSİNDƏ OPTİMAL QİYMƏTİN AŞAĞI VƏ YUXARI SƏRHƏDLƏRİNİN TAPILMASI

Əsədova Fatimə Mətləb qızı
İdarəetmə Sistemləri İnstitutu, Bakı, Azərbaycan
fatimeseferli94@gmail.com

Açar sözlər: *tamədədli çanta məsələsi, maksimal qiymət, təqribi həll, aşağı və yuxarı sərhədlər*

Məqalədə tamədədli çanta məsələsində funksionalın maksimal qiymətinin aşağı və yuxarı sərhədlərinin asanlıqla tapılması qaydası işlənmişdir.

Aşağıdakı kimi verilmiş tamədədli çanta məsələsinə baxaq:

$$\sum_{j=1}^{n} c_j x_j \to \max, \tag{1}$$

$$\sum_{j=1}^{n} a_j x_j \le b, \tag{2}$$

$$0 \le x_j \le d_j, (j = \overline{1,n}) \tag{3}$$

$$x_j - \text{tamdır}, (j = \overline{1,n}) \tag{4}$$

Burada c_j,a_j, d_j, $(j = \overline{1,n})$ və başqa verilmiş müsbət tam ədədlərdir.

Əvvəlcə qeyd edək ki, (1)-(4) məsələsi mühüm praktiki əhəmiyyətə malik olduğundan geniş tədqiq olunur və onun optimal həllinin tapılması üçün müxtəlif üsullar təklif olunub (məsələn, "budaqlanmalar və sərhədlər", "dinamik praqramlaşdırma" və s.) [1]. Lakin bu üsulların hər biri eksponensial zaman mürəkkəbliyinə malik olduğundan , yalnız kiçik ölçülü məsələni həll edə bilirlər. Ona görə də real praktiki məsəslələri həll etmək tələbatını ödəmək üçün (1)-(4) məsələsinin müəyyən təqribi (suboptimal) həllərinin tapılması üsulları işlənmişdir [2]. Tapılmış belə təqribi həllin optimal həllə yaxınlığını qiymətləndirmək üçün, aydındır ki,optimal həllin yuxarı sərhədlərini də bilməliyik. Ona görə də bu məqalədə məlum prinsiplərdən istifadə etməklə (1)-(4) məsələsində (1) funksiyasının maksimal f^* qiymətinin f^t aşağı sərhədlərini və f^{op} yuxarı sərhəddinin daha asanlıqla tapmaq qaydası verilmişdir.

Ümumiliyi pozmadan fərz etmək olar ki,(1)-(4) məsələsinin əmsalları aşağıdakı kimi nömrələnmişdir. $c_j/a_j \ge c_{j+1}/a_{j+1}$, (j=1,2,...,n-1)

Onda (1)-(4) məsələsinin təqribi $X^t = (x_1^t, x_2^t, \dots, x_n^t)$ həllinin hər bir x_j^t, $j = (\overline{1,n})$ koordinatını aşağıdakı kimi tapa bilərik: j=1,2,...,n nömrələrinin hər biri üçün

$$x_j^t = \left\{ d_j, \quad \text{əgər } a_j d_j \le b - \sum_{i=1}^{j-1} a_i x_i^t \right\},$$

$$x_j^t = \left\{ \left[(b - \sum_{i=1}^{j-1} a_i x_i^t)/a_j \right], \text{əgər } a_j d_j > b - \sum_{i=1}^{j-1} a_i x_i^t \right\}.$$

Burada $[a]$ işarəsi a ədədinin tam hissəsini göstərir.Onda (1) funksiyasının bu həllə uyğun qiyməti

$$f^t = \sum_{j=1}^{n} c_j x_j^t$$

olar.

Qeyd edək ki, (4) şətini nəzərə almasaq,onda (1)-(3) məsələsi adi xətti proqramlaşdırma məsləsinə çevrilir və onun optimal $X^{op} = \left(x_1^{op}, x_2^{op}, \dots, x_n^{op}\right)$ həlli aşağıdakı kimi analtik olaraq tapıla bilər (simpleks üsula uyğun olaraq): *j*=(1,2,...,n) nömrələrinin hər biri üçün

$$X_j^{op} = \left\{ d_j, \text{əgər } a_j d_j \le b - \sum_{i=1}^{j-1} a_i x_i^{op} \right\},$$

$$X_j^{op} = \left\{ (b - \sum_{i=1}^{j-1} a_i x_i^{op})/a_j \,, p \coloneqq j, \text{əgər} a_j d_j \le b - \sum_{i=1}^{j-1} a_i x_i^{op} \right\},$$

$$X_j^{op} \coloneqq 0, (j = 1,2, \dots, n).$$

Onda (1) funksiyasının bu həllə uyğun qiyməti

$$f^{op} = \sum_{j=1}^{n} c_j x_j^{op}$$

olar.

Beləliklə (1)-(4) məsələsində (1) funksiyasının f^t təqribi qiyməti və f^* maksimal qiymətin yuxarı sərhəddi olan f^{op} qiyməti aşağıdakı bərabərsizliyi ödəyər: $f^t \le f^* \le f^{op}$. Çünki (4) şərtini nəzərə almadıqda mümkün həllər oblastı genişlənir və maksimallaşma məsələsinə baxdığımıza görə bu zaman tapılmış f^{op} qiyməti $f^{op} \ge f^*$ şərtini ödəyər.

Nəticədə (1)-(4) məsələsində optimal qiymətinin aşağı və yuxarı sərhədləri tapılmış olur.

Ədəbiyyat

1. Сигал И.Х., Иванова Ф.П. Введение в прикладное дискретное программирование, М.Физмат. Лит. 2007, 304 стр.
2. Kellerer H., Pferschy I., Pisinger D. Knapsack problems, Springer-Verlag, Berlin, Helderberg, New-york, 2004, 546 pp.

РЕЗЮМЕ

НАХОЖДЕНИЕ ОПТИМАЛЬНОГО ЗНАЧЕНИЯ НИЖНЕЙ И ВЕРХНЕЙ ГРАНИЦЫ ЦЕЛОЧИСЛЕННОЙ ЗАДАЧИ РАНЦА

Асадова Ф.М.

Ключевые слова: *целочисленная задача о ранце, максимальное значение, приближённое решение, нижняя и верхняя границы.*

В статье разработан быстрый метод нахождения нижней и верхней границы максимального значения функционала в целочисленной задаче ранца.

SUMMARY

FINDING THE OPTIMUM VALUE OF THE LOWER AND UPPER BOUNDS OF THE INTEGER KRANZZ PROBLEM

Asadova F.M.

Keywords: *an integer knapsack problem, a maximum value, an approximate solution, lower and upper bounds.*

In the article a fast method for finding the lower and upper bounds of the maximum value of the functional in the integer knapsack problem.is developed.

ADİ DİFERENSİAL TƏNLİKLƏ TƏSVİR OLUNAN DİNAMİK SİSTEMİN RİYAZİ MODELİNİN SİNERGETİK ANALİZİ

Həşimov Sadıq Akif
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
s.hashimov@list.ru

Açar sözlər: *riyazi model, populyasiya, sinergetik analız, xaos*

İşdə halı adi diferensial tənliklə təsvir olunan dinamik sistemlin riyazi modelinin sinergetik analizi aparılır. Prosesin tədqiqində riyazi modelinin qurulmasının praktiki əhəmiyyəti izah olunur. Əhali artımının sadə modelinin analizi gətirilir. Əhali artımı modelinin stasionar nöqtə ətrafında populyasiyanın stasionar vəziyyətinin ədədi qiymətləndirilməsi izah olunur. Baxılan məsələni kompüter texnologiyasının tətbiqi ilə tədqiq etmək üçün məsələnin riyazi modelinin diskret analoquna baxılır. Kompüter texnologiyasının tətbiqi ilə əhali artımının riyazi modeli əsasında qeyri xətti proseslərə xas olan nizam və xaos kimi mühüm xüsusiyyətlər araşdırılır.

Təbiətdə baş verən qeyri xətti prosesləri tədqiq etmək, bu növ proseslərdə baş verən dəyişiklikləri nəzarətdə saxlamağa və zərurət olduqda idarə etməyə imkan verir [1-3]. Prosesdə baş verən özünə məxsus qanunauyğunluğu tədqiq etmək, prosesin gedişini təxmin etmək olur. Ona görə də təbiətdə baş verən qeyri –xətti prosesləri tədqiq etməyə ehtiyac duyulur. Aparılan tədqiqatlar aparanda çox vaxt paradoksal nəticələr müşahidə edilir. Bəzən çox qəliz bir xaotik prosesdə kiçik də olsa qanuna uyğunluq tapmaq olur. Bu qanuna uyğunluqlar paradoksal olsalar da prosesin tədqiqinə böyük təkan verirlər.

Tədqiq olunan prosesin riyazi modelində parametrin dəyişməsinə uyğun nizam və xaosun özünü necə aparmasını tədqiq etmək mürəkkəb məsələdir [3]. Bu hal prosesin riyazi modelin düzgün qurulmasından asılı olur. Qurulan riyazi model baxılan prosesə adekvat qurulmadıqda, prosesi tam tədqiq etmək mümkünsüz olur.

Elə proseslər var ki, onlar dinamık olaraq dəyişirlər. Bu proseslərə misal olaraq Xəzər dənizində baş verən prosesi misal göstərmək olar. Xəzər dənizinin dərinliyinin dinamik dəyişməsi buna bariz nümunədir. Qurulmuş model əsasında müəyyən etmək olar ki, zaman keçdikcə Xəzər dənizinin dərinliyi hansı qanuna uyğunluqla dəyişir. Araşdırmalar belə nəticə verib ki, konkret dərinlik gah təkrarlanmır, gah da təkrarlanır. Təkrarlanmanın özü də sadə deyil mürəkkəb formada baş verir. Təkrarlanma zamanı müəyyən periodlu dövrlər baş verir. Müəyyən olunan periodun özü də mürəkkəbdir. Yəni təkrarlanma iki ildən bir, dörd ildən bir və s. ardıcıllıqla davam edir. Bu da prosesi tam təsvir etmir. Elə bir vaxt gəlib çıxır ki, alınan nəticələr arasında heç bir qanuna uyğunluq olmur (xaos baş verir).

İşdə baxılan məsələ dinamik sistemlərə aiddir. Dinamik sistemlərin sinergetik analizi adətən kompüter texnologiyasının tətbiqi ilə aparılır. Belə ki, kompüterin imkanları çox qəliz hesablamaları həyata keçirməyə imkan verir. Bəzən müəyyən bir prosesi ε dəqiqliyi ilə hesablamaq lazım gəlir. Bunu isə kompütersiz etmək çətin məsələdir. Lakin kompüterdə həll edilə bilməyən problemlər var. Real proseslərdə başlanğıc şərtlər hər zaman məlum olur. Ona görə də başlanğıc şərtlərə görə həssas sistemin özünü necə aparacağı məsələ hava proqnozu vermək məsələsinə bənzəyir.

Halı adi diferensial tənliklə təsvir olunan prosesin riyazi modelinin sinergetik analizini əhali artımın modeli əsasında aparaq. Əhali artımının ən sadə modeli aşağıdakı şəkildədir:

$$\dot{x} = \lambda x, \tag{1}$$
$$x(t_0) = x_0. \tag{2}$$

Burada $x = x(t)$ əhalinin t zamanında artımıdır. $\lambda > 0$ parametri artımın surətini ifadə edir. Qeyd edək ki, bu model eksponensial artımı proqnozlaşdırır: Doğrudan da $x(t) = x_0 e^{\lambda t}$. Burada x_0 $t_0 = 0$ anında olan başlanğıc artım miqdarıdır.

Məlumdur ki, eksponensial artım sonsuz davam edə bilməz Əhali sıxlığını resursların məhdudluğunun təsirlərini modelləşdirmək üçün bioloqlar çox vaxt fərz edirlər ki, adam başına düşən $\frac{\dot{x}}{x}$ artım sürəti şəkil 1 -də göstərildiyi kimi, x kifayət qədər böyük olduqda azalır. x –in kiçik qiymətlərində artım sürəti əvvəlki kimi λ –ya bərabərdir. Lakin müəyyən daşıma qabiliyyəti k –dan çox olan populyasiya üçün artım sürəti faktiki olaraq mənfi olur. Yəni bu ölüm nisbəti doğum nisbətindən böyük olması deməkdir. Bu deyilənlərin riyazi cəhətdən əlverişli yolu adambaşına düşən $\frac{\dot{x}}{x}$ artım sürətin x –ilə xətti azaldığını fərz etməkdir (şəkil 2). Bu deyilənlər əhali populyasiyasını təsvir etmək üçün aşağıdakı tənliyə gətirib çıxarır.



Şəkil 1.

$$\dot{x} = \lambda x\left(1 - \frac{x}{k}\right). \tag{3}$$

(3) tənliyini analitik şəkildə həll etmək olar, lakin qrafik şəkildə yanaşmaya üstünlük verək. Artım sürətin x –ilə əlaqəsini nəzərdən keçirək. Qeyd edək ki, biz yalnız $x \geq 0$ planını tərtib edirik, çünki mənfi populyasiya haqqında düşünməyin mənası yoxdur (şəkil 3). (1) tənliyində $\dot{x} = 0$ götürsək $x_* = 0$ və $x_* = k$ tapırıq. Şəkil 3 -ə nəzər saldıqda görürük ki, $x_* = 0$ qeyri sabit nöqtə, $x_* = k$ isə sabit nöqtədir. Bioloji baxımdan $x = 0$ qeyri sabit tarazılıqdır. Belə ki, kiçik bir populyasiya eksponensial surətlə artacaq və $x = 0$–dan uzaqlaşacaq. Digər tərəfdən əgər x k –dan bir qədər fərqlənsə pozulma monoton $x(t) \to k$ yığılar $t \to \infty$ olduqda.



Şəkil 2

Əslində şəkil 3 göstərir ki, faza nöqtəsini hər hansı $x_0 > 0$ –dan başlasaq, atım $x = k$ istiqamətində olacaq. Yalnız $x_0 = 0$ olduqda çoxalmağa başlamaq üçün ətrafda heç kim olmadığından bütün zaman üçün $x = 0$ olur. Şəkil 3 keyfiyyət formanı üzə çıxarmağa imkan verir. Misal üçün $x_0 < \frac{k}{2}$ olarsa, faza nöqtəsi $x = \frac{k}{2}$ –ni kəsənə qədər daha surətlə hərəkət edir və parabolanın maksimumuna çatır. Sonra faza nöqtəsi azalaraq $x = k$ –ya doğru gedir. Bioloji dildə desək bu o deməkdir ki, populyasiya əvvəlcə surətli şəkildə artır və $x = \frac{k}{2}$ –dən başlayaraq törəmə $\dot{x}$ azalmağa başlayır.



Şəkil 3

Misal. $\dot{x} = f(x)$ sistemin mövcudluğu və həllini $f(x) = 1 + x^2$, $x(0) = 0$ olduqda araşdıraq. Beləliklə aşağıdakı məsələni alırıq.

$$\frac{dx}{dt} = 1 + x^2, \tag{4}$$

$$x(0) = 0\,. \qquad (5)$$

(4) tənliyini (5) şərti daxilində həll etsək $x(t) = tg(t\ )$ həllini alırıq. Tapılmış həll $-\frac{\pi}{2} < t < \frac{\pi}{2}$ olduqda mövcuddur. Belə ki, $t \to \pm\frac{\pi}{2}$ olduqda $x(t) \to \pm\infty$ olur. $-\frac{\pi}{2} < t < \frac{\pi}{2}$ vaxt intervalından kənarda $x(0) = 0$ üçün məsələnin həlli yoxdur. Bu misalın mühüm cəhəti sistemin sonlu zamanda sonsuzluğa çatan həllərinin olmasıdır. Bu hal qeyri xətti sistemlərə məxsus olub bəzi proseslərdə fiziki əhəmiyyət kəsb edir.

Qeyri xətti proseslərin malik olduğu nizam və xaos kimi mühüm xüsusiyyətlər kompüter texnologiyasının tətbiqi ilə tədqiq olunur. Baxılan məsələni kompüter texnologiyasının tətbiqi ilə tədqiq etmək üçün məsələnin (3) riyazi modelinin diskret analoqunu aşağıdakı şəkildə yazmaq olur.

$$x_{n+1} = \bar{\lambda} x_n \left(1 - x_n\right) \qquad (6)$$

Qeyd edək ki, bir sıra proseslərin halı (6) sisteminə gətirilir. Burada x_n sistemin $n-$ ci zaman anındakı vəziyyəti, x_{n+1} sistemin $n+1-$ ci zaman anındakı vəziyyətidir, $\bar{\lambda}$ - idarəedici parametrdir. $\bar{\lambda}$ parametrinin qiymətini dəyişməklə dinamik sistemin vəziyyətinin dəyişməsinə təsiri öyrənilir.

$\bar{\lambda}$ parametrinin dəyişməsinə uyğun olaraq sistemdə aşağıdakı hallar müşahidə olunur:

- $\bar{\lambda} \in [0,1]$ üçün x_0 başlanğıc qiymətindən aşlı olmayaraq x_* nöqtəsi dayanıqlı olur;
- $\lambda \in (1,3)$ intervalında dəyişdikdə sistemdə nizam baş verir, yəni S^2, S^4, S^8, S^{16} və sairə dövrlər müşahidə olunur;
- $\lambda \approx 3{,}57$ qiymətində sistemdə xaos müşahidə olunur.

Ədəbiyyat

1. Ахромеева Т.С., Курдюмов С.П., Малинецкий Г.Г., Самарский А.А. Нестационарные структуры и диффузионный хаос. М.” Наука” гл. ред. физ. - мат. лит., 1992, -544 с.
2. Магницкий Н.А.. Теория динамического хаоса. – М.: Ленанд, 2011. – 320 с.
3. Гашимов С.А. Управление хаосом в динамических системах. Третий международный молодежный симпозиум. «Современные проблемы математики. Методы, модели, приложения» 21 - 24 ноября 2017 года, Воронеж, стр. 127-131.

РЕЗЮМЕ

СИНЕРГЕТИЧЕСКИЙ АНАЛИЗ МАТЕМАТИЧЕСКОЙ МОДЕЛИ ДИНАМИЧЕСКОЙ СИСТЕМЫ, ОПИСЫВАЕМОЙ ОБЫКНОВЕННЫМ ДИФФЕРЕНЦИАЛЬНЫМ УРАВНЕНИЕМ

Хашимов С.А.

Ключевые слова: *математическая модель, популяция, синергетика, хаос.*

В статье проведен синергетический анализ математической модели динамической системы, описываемой обыкновенным дифференциальным уравнением. Объясняется практическая важность построения математической модели при исследовании процесса. Анализируется простая модель роста населения. Объяснена численная оценка стационарного состояния популяции вокруг стационарной точки модели роста популяции. Рассмотрен дискретный аналог математической модели задачи с целью исследования рассматриваемого вопроса с применением вычислительной техники. На основе математической модели роста населения с применением компьютерных технологий исследуются такие важные черты, как порядок и хаос, присущие нелинейным процессам.

SUMMARY

SYNERGETIC ANALYSIS OF THE MATHEMATICAL MODEL OF A DYNAMIC SYSTEM DESCRIBED BY AN ORDINARY DIFFERENTIAL EQUATION

Hashimov S.A.

Keywords: *mathematical model, population, synergy, chaos.*

The article presents a synergetic analysis of the mathematical model of a dynamic system described by an ordinary differential equation. The practical importance of constructing a mathematical model in the study of the process is explained. A simple model of population growth is analyzed. The numerical estimation of the stationary state of the population around the stationary point of the population growth model is explained. A discrete analogue of the mathematical model of the problem is considered in order to study the issue under consideration using computer technology. On the basis of a mathematical model of population growth using computer technology, such important features as order and chaos inherent in nonlinear processes are studied.

SÜXURLARI RELAKSASİYALI DEFORMASİYAYA UĞRAYAN NEFT LAYININ İŞLƏNİLMƏ GÖSTƏRİCİLƏRİNİN SÜZÜLMƏNIN BİRİNCİ FAZASI ÜZRƏ TƏYİNİ

[1]Kazımov Bünyad Zinhar oğlu, [2]Zeynalov Ramin Mübariz oğlu

[1]Neft və Qaz İnstitutu, [2]İdarəetmə Sistemləri İnstitutu, Bakı, Azərbaycan

bunyadkazymov1969@gmail.com, raminz.math@gmail.com

Açar sözlər: *deformasiya, maye, süxur, süzülmə, relaksasiya, lay təzyiqi, birinci faza*

Mayenin birfazlı süzülməsi şəraitində süxurları relaksasiyalı deformasiya olunan neft laylarının işlənilmə göstəricilərinin təyini imkanları tədqiq olunmuşdur. Bu zaman, süzülmənin birinci fazası çərçivəsində layın keçiriciliyi və mayenin özlülüyünün real lay şəraitinə uyğun lay təzyiqindən asılı olaraq dəyişməsi nəzərə alınmışdır. Müvafiq hidrodinamik məsələ formulə edilmiş və onun tədqiqi nəticəsində, hesablama eksperimentləri aparılmaqla layın işlənilmə xarakteristikalarının ədədi hesablanmalarının aparılmasına, onların dəyişmə xüsusiyyətlərinin tədqiqinə imkan verən riyazi münasibətlər və həll sxemi gətirilmişdir.

Neft və qaz yataqlarının işlənilməsi prosesində onları təşkil edən süxurlar yüksək geostatik təzyiqin təsiri şəraitində qeyri-elastiki səciyyəli deformasiyalara məruz qalırlar. Bu deformasiyalar adətən reoloji xüsusiyyət daşımaqla relaksasiyalı və sürüngəcli təbiətə malik olurlar. Belə şəraitlə səciyyələnən yataqların işlənilməsi prosesini səciyyələndirən işlənmə göstəricilərinin zaman və fəza koordinatları üzrə dəyişməsinin təyini üsullarının yaradılması elmi-təcrübi əhəmiyyət daşıyan vacib məsələlərdən hesab edilir [4,5].

İndiyədək qeyd olunan istiqamətlə bağlı bir çox nəzəri tədqiqatlar aparılmış, süxurlarda baş verən müəkkəb deformasiya xüsusiyyətlərinin yataqların işlənilmə göstəricilərinə təsirini qiymətləndirməyə, eləcə də lay parametrlərinin təyinatını həyata keçirməyə imkan verən analitik, ədədi və təqribi üsullar işlənilmişdir [1-5].

Bu istiqamətdə aparılan elmi-tədqiqat işlərinin əhəmiyyətini nəzərə alınaraq, hazırkı işdə süxurları relaksasiyalı deformasiya olunan neft laylarının işlənilməsi prosesində birfazlı mayenin (neftin) quyuya oxasimmetrik müstəvi-paralel radial süzülməsini səciyyələndirən göstəricilərin, ilk növbədə, lay təzyiqinin paylanmasının təyini məsələsi həll edilmişdir. Məsələ başlıca olaraq, süzülmənin birinci fazası çərçivəsində, habelə layın keçiriciliyi və mayenin özlülüyünün real lay şəraitinə uyğun lay təzyiqindən asılı olaraq dəyişməsi nəzərə alınmaqla aşağıdakı qoyuluşda tədqiq edilmişdir [4,5]:

$$\frac{1}{r}\frac{\partial}{\partial r}\left[r\frac{k(p)}{\mu(p)}\frac{\partial p}{\partial r}\right]=\frac{\partial(m(1+\beta_m(p-p_0)))}{\partial t}\quad,\ R_q<r<R(t)\ ,\ t>0 \tag{1}$$

$$m+\tau_m\frac{\partial m}{\partial t}=m_0\exp\left(\beta_s(p-p_0)\right),\ R_q<r<R(t)\ ,\ t>0 \tag{2}$$

$$m(r,0)=m_0\,,\ p(r,0)=p_0\ ,\ \ R_q<r<R(t) \tag{3}$$

$$p(R_q,t)=p_q\ ,\ t>0 \tag{4}$$

$$p(R(t),t)=p_0\ \ ,\ t>0 \tag{5}$$

burada p - lay təzyiqi; p_0 - başlanğıc lay təzyiqi; p_q - quyudibi təzyiqi; m - məsaməlik; k - keçiricilik; m_0 - başlanğıc məsaməlik; μ - mayenin özlülüyü; β_m - mayenin sıxılma əmsalı; τ_m - məsaməliyin relaksasiya vaxtı; β_s - süxurun elastiki sıxılma əmsalı; h - layın qalınlığı; $R(t)$ - quyunun qidalanma zonasının radiusu; R_q - layın radiusu; t - zamandır.

Qeyd edək ki, birinci faza ərzində quyunun istismara başladığı andan etibarən lay üzrə həyəcanlanmış və həyəcanlanmamış iki zona ayrılır. Birinci zonada təzyiq qradiyentinin dəyişməsini təsvir edən təzyiq qıfı yaranır. Bu zonanın dəyişən sərhədi - $R(t)$ kəmiyyəti başlanğıc zaman anına uyğun gələn R_q qiymətindən başlayaraq layın konturna qədər təzyiq qıfı zonasının genişlənməsinə müvafiq surətdə artımı müşayiət olunur. Bu zaman ikinci həyəcanmamış zonada təzyiq başlanğıc lay təzyiqinə bərabər olur. (1)-(5) qoyuluşuna müvafiq olaraq, birinci həyəcanlanmış zona üzrə lay təzyiqinin paylanmasının təyini tələb olunur. Qəbul edilir ki, süxurların məruz qaldığı relaksasiyalı deformasiya prosesi bu zona üzrə təzyiq paylanmasının xüsusiyyətlərinə əsaslı təsir göstərə bilər. Qoyuluşdan aydın olduğu kimi, məsələnin həlli $R(t)$ kəmiyyətinin təyini məsələsi ilə eynigüclü səciyyə daşıyır.

Qeyd olunanlara əsasən, nəzərdən keçirilən birinci zonada $R(t)$ kəmiyyətinin təyini başlıca olaraq (5) şərti və aşkar olan

$$R(0)=R_q \tag{6}$$

şərti çərçivəsində aparılır.

Birinci faza üzrə təzyiq paylanmasının təyini üçün aşağıdakı qeyri-aşkar münasibət alınmışdır:

$$p=p_0-\frac{\int\limits_r^{R(t)}\frac{1}{r}\frac{\mu(p)}{k(p)}dr}{\int\limits_{R_q}^{R(t)}\frac{1}{r}\frac{\mu(p)}{k(p)}dr}\left(p_0-p_q\right) \tag{7}$$

(7) həllinə daxil olan $R(t)$ kəmiyyətinin təyini üçün, əlavə olaraq, quyunun debitinin məlum olması çərçivəsində aşağıdakı inteqral münasibət alınmışdır:

$$\int\limits_{R_q}^{R(t)}\frac{1}{r}\frac{\mu(p)}{k(p)}dr=\frac{2\pi h}{q}(p_0-p_q)\,. \tag{8}$$

$R(t)$ kəmiyyətinin təyini zamanı (6) şərti nəzərə alınır. (8)-dən istifadə etməklə, (7) həlli üçün aşağıdakı daha yığcam yazılışa malik ifadə alınmışdır:

$$p = p_0 - \frac{q}{2\pi h}\int_r^{R(t)} \frac{1}{r}\frac{\mu(p)}{k(p)}dr \ . \qquad (9)$$

Eyni zamanda, mayenin neft layında birinci faza üzrə süzülməsi prosesində lay təzyiqinin hər bir radial koordinat üzrə zamandan asılı olaraq dəyişməsinin təyini üçün aşağıdakı diferensial tənlik alınmışdır:

$$\frac{\partial p}{\partial t} = \frac{(1+\beta_m p)^2}{\tau_m (m_0 + \beta_m p_0)\beta_m}\left(\frac{m_0 + \beta_m p_0}{1+\beta_m p} - m_0 \exp\left(\beta_s (p - p_0)\right)\right). \qquad (10)$$

(10) diferensial tənliyi (2) tənliyi və (3) şərtləri nəzərə alınmaqla birinci həyəcanlanma zonasında məsaməliyin təyninə imkan verir.

Beləliklə, (7)-(10) münasibətlərinin birgə nəzərə alınması nəticəsində mayenin birinci faza üzrə süzülməsi prosesini səciyyələndirən əsas işlənmə xarakteristikaları, o cümlədən birinci həyəcanlanma zonasının konturunun zaman üzrə yerdəyişməsi təyin edilir.

Gətirilən həll sxemi əsasında süxurların relaksasiyalı deformasiya xüsusiyyəti nəzərə alınmaqla süzülmənin birinci faza ilə səciyyələnən başlanğıc mərhələsində layın işlənilməsinin zəruri hidroqazdinamik xarakteristikalarının zaman və radial koordinat üzrə paylanmasının təyinini həyata keçirmək mümkündür.

Işdə hesablama eksperimentləri aparılmaqla layın qeyd edilən zəruri işlənilmə xarakteristikalarının ədədi hesablanması həyata keçirilmiş, onların dəyişmə xüsusiyyətləri tədqiq edilmişdir. Sadə iterasiya yanaşması tətbiq edilməklə (10) tənliyinin $p(r,0) = p_0$ başlanğıc şərti çərçivəsində həllinin tədqiqi

$$p_{ij+1} = p_{ij} + \frac{(1+\beta_m p_{ij})^2 \Delta t}{\tau_m (m_0 + \beta_m p_0)\beta_m}\left(\frac{m_0 + \beta_m p_0}{1+\beta_m p_{ij}} - m_0 \exp\left(\beta_s (p_{ij} - p_0)\right)\right)$$

$$p_{i0} = p_0, \quad i, j=0,1,2...$$

iterasiya sxeminə əsaslanmaqla həyata keçirilmişdir (i və j – radial koordinat və zamana görə zaman-fəza koordinat sistemində ayrılmış diskret şəbəkənin düyün nöqtələrinin müvafiq indeksləri, Δt - zamana görə diskretləşdirmə addımıdır; $p_{0j} = p_q(t_j)$).

Ədəbiyyat

1. Kazımov B.Z., Nəsirova K.K. Relaksasiyalı mühitə malik qaz yatağının işlənmə göstəricilərinin təqribi təyini üsulu. “Gənc alimlərin əsərləri”, №2, 2009, s.81-92

2. Zeynalov R.M. Kazımov B.Z. Mayenin birfazlı süzülməsi şəraitində süxurları relaksasiyalı deformasiya olunan layların təbii-texnoloji göstəricilərinin təyini. Riyaziyyatın tətbiqi məsələləri və yeni informasiya texnologiyaları IV respublika elmi konfransı, SDU, 09-10 dekabr 2021, s. 114-116

3. Казымов Б.З., Зейналов Р.М. Выбор оптимального режима эксплуатации газовой скважины с учетом ползучей деформации горных пород. Материалы III научно-практической конференции “Современное программирование” (Нижневартовск, 27-29 ноября 2020 года), НВГУ - 2021, с. 159-162

4. Кулиев А.М., Казымов Б.З. Деформация горных пород и ее влияние на их фильтрационно-емкостные свойства и на процессы фильтрации и разработки месторождений нефти и газа. Баку, изд. “Элм”, 2009, 88 с.

5. Молокович Ю. М., Осипов П.П. Основы теории релаксационной фильтрации. Казань, изд. Казанс. Гос. Универ., 1987, 118 с.

РЕЗЮМЕ

ОПРЕДЕЛЕНИЕ ПО ПЕРВОЙ ФАЗЕ ФИЛЬТРАЦИИ ПОКАЗАТЕЛЕЙ РАЗРАБОТКИ ПЛАСТОВ, ГОРНЫЕ ПОРОДЫ КОТОРЫХ ПОДВЕРГАЮТСЯ РЕЛАКСАЦИОННОЙ ДЕФОРМАЦИИ

Казимов Б.З., Зейналов Р.М.

Ключевые слова: *деформация, жидкость, горная порода, фильтрация, релаксация, пластовое давление, первая фаза*

Исследованы возможности определения показателей разработки нефтяных пластов, породы которых подвергаются релаксационной деформации в условиях однофазной фильтрации жидкости. При этом в рамках первой фазы фильтрации, по реальным пластовым условиям, учитывались изменения проницаемости пласта и вязкости жидкости в зависимости от пластового давления. Сформулирована соответствующая гидродинамическая задача и в результате ее исследования приведены математические соотношения и схема решения, позволяющие проводить численные расчеты характеристик разработки пластов путем проведения вычислительных экспериментов, и исследования характеристик их изменения.

SUMMARY

DETERMINATION BY THE FIRST PHASE OF FILTRATION OF RESERVOIR DEVELOPMENT INDICATORS, THE ROCKS OF WHICH ARE SUBJECTED TO RELAXATION DEFORMATION

Kazimov B.Z., Zeynalov R.M.

Keywords: *deformation, liquid, rock, filtration, relaxation, reservoir pressure, first phase*

The possibilities of determining the indicators of development of oil reservoirs, the rocks of which are subjected to relaxation deformation under conditions of single-phase fluid filtration, have been studied. At the same time, within the first phase of filtration, according to real reservoir conditions, changes in reservoir permeability and fluid viscosity depending on reservoir pressure were taken into account. The corresponding hydrodynamic problem is formulated and, as a result of its study, mathematical relationships and a solution scheme are given that allow numerical calculations of reservoir development characteristics by conducting computational experiments, and studying the characteristics of their change.

ORTOQONAL ÇOXHƏDLİLƏRİN ASKİ SXEMİNƏ DAXİL OLAN PSEVDO-YAKOBİ VƏ ERMİT ÇOXHƏDLİLƏRİ ARASINDAKI MÜXTƏLİF LİMİT İFADƏLƏRİNİN MÜQAYİSƏLİ ANALİZİ

Məmmədova Aygün Məmməd qızı

Fizika İnstitutu, Bakı, Azərbaycan

a.mammadova@physics.science.az

Açar sözlər: *Psevdo-Yakobi çoxhədliləri, Ermit çoxhədliləri, ortoqonal çoxhədlilərin Aski sxemi, limit ifadələri, hiperhəndəsi funksiyalar*

Ortoqonal çoxhədlilərin Aski sxeminə daxil olan ${}_2F_1$ tip psevdo-Yakobi çoxhədlilərindən ${}_2F_0$ tip Ermit çoxhədlilərinə birbaşa keçidi təsvir edən limitlərin mövcud müxtəlif analitik ifadələri tədqiq edilərək, bu analitik ifadələrin hansı şərtlərdə doğru olduğu göstərilmişdir.

Giriş. Psevdo-Yakobi çoxhədliləri ortoqonal çoxhədlilərin Aski sxeminə daxil olan ən maraqlı klassik çoxhədlilərdən sayılırlar. Ortoqonal çoxhədlilərin Aski sxemi 1985-ci ildə ilk dəfə daxil edildiyində [1,2], ${}_2F_1$ tip hiperhəndəsi funksiyalarla ifadə olunan çoxhədlilər sinifində onun adı yox idi. Bunun da əsas səbəbi ondan ibarət idi ki, psevdo-Yakobi çoxhədlilərinin Yakobi çoxhədlilərindən əsalində çox da fərqlənmədikləri hesab edilirdi. Lakin, nəzərə almaq lazımdır ki, psevdo-Yakobi çoxhədliləri hələ 1884-cü ildə ikinci tərtib diferensial tənliyin sonsuz konfiqurasiya

fəzasında dəqiq həlli kimi tapılmış [3] və daha sonra yenidən 1929-cu ildə Yakobi çoxhədlilərinə bənzər sonlu sistem kimi yenidən riyaziyyat elminə qazandırılmışdır [4]. Son illərdə, psevdo-Yakobi çoxhədlilərinin bir çox təbiət hadisələrinin izahı üçün uğurlu tətbiqləri, həmçinin onların Yakobi çoxhədlilərinin xassələrindən kəskin fərqlənən bir çox yeni xassələrinin meydana çıxması [5], Aski sxeminin yenilənmiş versiyasında bu çoxhədlilərin ${}_2F_1$ tip hiperhəndəsi funksiyalarla ifadə olunan çoxhədlilər sinifində ayrıca olaraq öz yerini almasına səbəb olmuşdur [6].

Aski sxeminin ən əsas xüsusiyyəti onun bir yerə yığdığı ortoqonal çoxhədlilərin bir-biri ilə mümkün limit ifadələri və xüsusi hal keçidləri ilə əlaqələrinin olmasıdır. Maraqlı fakt ondan ibarətdir ki, ${}_2F_1$ tip hiperhəndəsi funksiyalarla ifadə olunan çoxhədlilər sinifinə daxil olan və Aski sxemində mövcud olan ortoqonal çoxhədlilərin həm özlərindən yüksək, həm də aşağı sinifə mənsub bir çox çoxhədlilərlə belə əlaqələri mövcuddur. Belə ki, daha yüksək sinifə malik Uilson, Han və kəsilməz Han çoxhədliləri analitik yolla limit halında Yakobi çoxhədlilərinə tam dəqiqliklə keçirlər. Eyni zamanda, Yakobi çoxhədliləri özləri yenə də analitik yolla tam dəqiqliklə özlərindən bir aşağı sinifə mənsub Lager, Bessel və Ermit çoxhədlilərinə keçə bilirlər. Oxşar ifadələr, ${}_2F_1$ tip hiperhəndəsi funksiyalarla ifadə olunan çoxhədlilər sinifinə daxil olan və Yakobi çoxhədlilərinin xüsusi halları olan Gegenbauer, Çebışev və Lejandr çoxhədliləri üçün də doğrudur. Lakin, psevdo-Yakobi çoxhədliləri halında isə onlar üçün Aski sxemində məlum olan yeganə limit ifadəsi yuxarı sinif çoxhədli olan, yəni ${}_3F_2$ tip hiperhəndəsi funksiya ilə ifadə olunan kəsilməz Han çoxhədlilərinin ${}_2F_1$ tip hiperhəndəsi funksiyalarla ifadə olunan psevdo-Yakobi çoxhədlilərinə keçməsidir. Bu səbəbdən, [7] psevdo-Yakobi çoxhədlilərinin Ermit çoxhədlilərinə analitik yolla keçiş yollarını tədqiq edərək, bu iki çoxhədli arasında yeni limit münasibəti daxil etmişdir. Daha sonra isə, [8-10] psevdo-Yakobi çoxhədliləri ilə Ermit çoxhədliləri arasında daha iki fərqli limit münasibətlərinin mövcudluğunu göstərmişdir.

Hazırki məqalənin əsas məqsədi nəyə görə psevdo-Yakobi və Ermit çoxhədliləri arasında üç müxtəlif limit ifadəsinin mövcudluğunu araşdırmaq və onların hansının psevdo-Yakobi çoxhədliləri üçün daha ümumi ifadə olduğunu göstərməkdir.

1.Ermit və psevdo-Yakobi çoxhədliləri

Ermit çoxhədliləri ortoqonal çoxhədlilərin Aski sxeminə daxil olan çoxhədlilər arasında ən sadə çoxhədli sayılır və ${}_2F_0$ tip hiperhəndəsi funksiyalarla aşağıdakı şəkildə ifadə olunurlar:

$$H_n(x) = (2x)^n {}_2F_0\left(-\frac{n}{2}; -\frac{n-1}{2}; -\frac{1}{x^2}\right), n = 0,1,2, ... \tag{1.1}$$

Burada ${}_rF_s$ tip hiperhəndəsi funksiya özü aşağıdakı şəkildə təyin olunur:

$${}_rF_s\left(\begin{matrix} a_1, \cdots, a_r \\ b_1, \cdots, b_s \end{matrix}; x\right) = \sum_{k=0}^{\infty} \frac{(a_1,\cdots,a_r)_k}{(b_1,\cdots,b_s)_k} \frac{x^k}{k!}, \tag{1.2}$$

və təyinata görə

$$(a_1, \cdots, a_r)_k = (a_1)_k \cdots (a_r)_k,$$

$(a)_k$ isə Pohammer simvolu olub aşağıdakı analitik ifadəyə malikdir:

$$(a)_0 = 1 \text{ və } (a)_k = a(a+1)(a+2)\cdots(a+k-1), k = 1,2,3, ... \tag{1.3}$$

Xüsusi funksiyalar nəzəriyyəsindən yaxşı məlumdur ki, əgər (1.2) ifadəsinin surətindəki Pohammer simvollarının hasillərini təyin edən a_i ədədlərindən heç olmazsa hər hansı biri $-n$-ə bərabər olarsa, harda ki, n müsbət tam ədəddir, o zaman ${}_rF_s$ hiperhəndəsi funksiyasını təyin edən sonsuz sıra sonsuzluq yerinə qeyd edilən n müsbət tam ədədində kəsilərək sonlu cəmə çevriləcək və ${}_rF_s$ hiperhəndəsi funksiyası isə x dəyişəninin çoxhədlisi olacaq.

(1.1) düsturu ilə təyin olunan Ermit çoxhədliləri aşağıdakı ikinci tərtib diferensial tənliyin dəqiq həllidirlər:

$$y''(x) - 2x \cdot y'(x) + 2n \cdot y(x) = 0, y(x) = H_n(x). \tag{1.4}$$

Ermit çoxhədliləri x dəyişəninin bütün həqiqi oblasdakı qiymətləri üçün aşağıdakı ortoqonallıq şərtini ödəyirlər:

$$\frac{1}{\sqrt{\pi}}\int_{-\infty}^{\infty} e^{-x^2} H_m(x)H_n(x)dx = 2^n n!\,\delta_{mn}. \tag{1.5}$$

Psevdo-Yakobi çoxhədliləri isə qeyd etdiyimiz kimi, ${}_2F_1$ tip hiperhəndəsi funksiyalarla ifadə olunan ortoqonal çoxhədliləridir və aşağıdakı qaydada təyin olunurlar:

$$P_n(x;\nu,N) = \frac{(-2i)^n(-N+i\nu)_n}{(n-2N-1)_n}\,{}_2F_1\left(\begin{matrix}-n; n-2N-1\\ -N+i\nu\end{matrix}; \frac{1-ix}{2}\right),\ n = 0,1,2,\dots,N. \tag{1.6}$$

Burada, ν ixtiyari həqiqi, N isə ixtiyari natural ədəddir. Qeyd edilən çoxhədlilər aşağıdakı ikinci tərtib diferensial tənliyin dəqiq həlləridir:

$$(1+x^2)y''(x) + 2(\nu - Nx)y'(x) - n(n-2N-1)y(x) = 0,\ y(x) = P_n(x;\nu,N). \tag{1.7}$$

(1.6) ifadəsindən də görünür ki, psevdo-Yakobi çoxhədlilərinin Ermit çoxhədlilərindən əsas fərqi çoxhədlinin ümumi tərtibini təyin edən n ədədinin sonlu olmasıdır. Lakin, psevdo-Yakobi çoxhədliləri də Ermit çoxhədliləri kimi x dəyişəninin bütün həqiqi oblasdakı qiymətləri üçün aşağıdakı ortoqonallıq şərtini ödəyirlər:

$$\frac{1}{2\pi}\int_{-\infty}^{\infty}(1+x^2)^{-N-1}e^{2\nu\arctan x}P_m(x;\nu,N)P_n(x;\nu,N)dx = \frac{\Gamma(2N+1-2n)\Gamma(2N+2-2n)2^{2n-2N-1}n!}{\Gamma(2N+2-n)|\Gamma(N+1-n+i\nu)|^2}\delta_{mn}. \tag{1.8}$$

2.**Psevdo-Yakobi və Ermit çoxhədliləri arasindaki limit keçidləri**

Girişdə qeyd etmişdik ki, [7] psevdo-Yakobi çoxhədliləri ilə Ermit çoxhədliləri arasında yeni limit münasibəti daxil etmişdir. Bu münasibətin riyazi ifadəsi aşağıdakı kimidir:

$$\lim_{N\to\infty} N^{\frac{n}{2}}P_n\left(\frac{x}{\sqrt{N}};\frac{\nu}{N},N\right) = \frac{1}{2^n}H_n(x). \tag{2.1}$$

Daha sonra isə, [8-10] psevdo-Yakobi çoxhədliləri ilə Ermit çoxhədliləri arasında daha iki fərqli limit münasibətlərinin mövcudluğunu göstərmişdir ki, bu limit münasibətləri də aşağıdakı ifadələrə malikdirlər:

$$\lim_{N\to\infty} N^{\frac{n}{2}}P_n\left(\frac{x}{\sqrt{N}};\nu,N\right) = \frac{1}{2^n}H_n(x), \tag{2.2}$$

$$\lim_{N\to\infty} N^{\frac{n}{2}}P_n\left(\frac{x}{\sqrt{N}};\nu\sqrt{N},N\right) = \frac{1}{2^n}H_n(x-\nu). \tag{2.3}$$

(2.1) və (2.2) limit münasibətlərini qarşılıqlı olaraq analiz edək. Əvvəlcə nəzərə alaq ki,

$$P_0(x;\nu,N) = 1,\ P_1(x;\nu,N) = x - \frac{\nu}{N},\ \dots, \tag{2.4}$$

$$H_0(x) = 1,\ H_1(x) = 2x,\ \dots. \tag{2.5}$$

Yuxarıdakı ifadələrdə, hər iki çoxhədlinin $n = 0$ halında ifadələri üst-üstə düşsə də, $n = 1$ halında bu qiymətlər fərqlənir və artıq psevdo-Yakobi çoxhədlisi həm ν, həm də N-dən asılı olur. $n = 1$ qiymətində (2.1) və (2.2) limitlərinin müqayisəli analizinə baxaq. (2.1) ifadəsindən alırıq ki:

$$\lim_{N\to\infty}\sqrt{N}\left(\frac{x}{\sqrt{N}} - \frac{\nu}{N^2}\right) = x. \tag{2.6}$$

Nəzərə alsaq ki, burada ν yuxarıda qeyd edildiyi kimi, ixtiyari həqiqi ədəddir, onda (2.6) ifadəsinin hətta $\nu \to \pm\infty$ şərti daxilində də doğruluğu pozulmayacaq. Bu o deməkdir ki, (2.1) limit ifadəsi ν həqiqi parametrinin istənilən qiymətləri üçün doğrudur.

Eyni yanaşmanı indi isə (2.2)-yə tətbiq edək. Bu zaman alırıq ki,

$$\lim_{N\to\infty}\sqrt{N}\left(\frac{x}{\sqrt{N}} - \frac{\nu}{N}\right) = x. \tag{2.7}$$

Bu ifadənin digər yazılışı

$$\lim_{N\to\infty}\frac{\nu}{\sqrt{N}} = 0 \tag{2.8}$$

deməkdir ki, buradan aydın olaraq görürük ki, $\nu \to \pm\infty$ qiymətlərində (2.8) ifadəsinin doğruluğu pozulur. Yəni, müqayisəli analizdən belə nəticəyə gəlirik ki, (2.2) ifadəsi ilə verilən limit ν həqiqi parametrinin yalnız xüsusi halda sonlu qiymətləri üçün doğrudur.

Qeyd etmək istəyirik ki, $n = 1$ halı üçün artıq müqayisəli analizin nəticəsində doğru cavabı aldığımızdan, yüksək tərtibli $n > 1$ halları üçün daha mürəkkəb limitləri araşdırmırıq. Lakin, bu tip analizin də eyni nəticəyə gətirib çıxaracağı aydındır.

Sonda qeyd etmək istəyirik ki, biz (2.3) limit ifadəsini müqayisəli analizdən kənarda saxladıq. Çünki, (2.3) limiti həm (2.1), həm də (2.2) limitlərindən fərqli olaraq psevdo-Yakobi çoxhədlisinin sürüşən dəyişənli Ermit çoxhədlisinə doğru keçidinin analitik ifadəsidir, və sonda, Ermit çoxhədliləri ν həqiqi parametrini sürüşən parametr kimi qoruduğundan, $\nu \to \pm\infty$ halı (2.3) ifadəsinin doğruluğunu heç bir qiymətlər oblastında pozmur.

Ədəbiyyat

1. Labelle, J. Tableau d'Askey. Lect. Notes Math. 1985, 1171, xxxvi–xxxvii.
2. Askey, R.; Wilson, J. Some basic hypergeometric orthogonal polynomials that generalize Jacobi polynomials. Mem. Am. Math. Soc. 1985, 54, 319.
3. Routh, E.J. On some properties of certain solutions of a differential equation of the second order. Proc. Lond. Math. Soc. 1884, 16, 245–261.
4. Romanovski, V.I. Sur quelques classes nouvelles de polynomes orthogonaux. CR Acad. Sci. Paris 1929, 188, 1023–1025.
5. Koepf,W.; Masjed-Jamei, M. A generic polynomial solution for the differential equation of hypergeometric type and six sequences of orthogonal polynomials related to it. Integral Transform. Spec. Funct. 2006, 17, 559–576.
6. Koekoek, R.; Lesky, P.A.; Swarttouw, R.F. Hypergeometric Orthogonal Polynomials and Their q-Analogues; Springer: Berlin, Germany, 2010.
7. Jafarov, E.I.;Mammadova, A.M.; Van der Jeugt, J. On the Direct Limit from Pseudo Jacobi Polynomials to Hermite Polynomials. Mathematics 2021, 9, 88.
8. Nagiyev, Sh.M. On a limit relation between pseudo-Jacobi and Hermite polynomials. Trans. ANAS: Phys. Astron. 2021, 41, 3-9.
9. Nagiyev, Sh.M. On a limit relation between pseudo-Jacobi and Hermite polynomials with a shifted argument. AJP Fizika, Sec.En., 2021, 27, 29-32.
10. Nagiyev, Sh.M. On two direct limits relating pseudo-Jacobi polynomials to Hermite polynomials and the pseudo-Jacobi oscillator in a homogeneous gravitational field. Theor. Math. Phys. 2022, 210, 121-134.

РЕЗЮМЕ

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ РАЗЛИЧНЫХ ПРЕДЕЛЬНЫХ ВЫРАЖЕНИЙ МЕЖДУ МНОГОЧЛЕНАМИ ПСЕВДО-ЯКОБИ И МНОГОЧЛЕНАМИ ЭРМИТА, ВХОДЯЩИМИ В СХЕМУ АСКИ ОРТОГОНАЛЬНЫХ МНОГОЧЛЕНОВ

Мамедова А.М.

Ключевые слова: *многочлены псевдо-Якоби, многочлены Эрмита, схема Аски ортогональных многочленов, предельные выражения, гипергеометрические функции*

Исследуются существующие разные аналитические выражения пределов, описывающих прямой переход от многочленов псевдо-Якоби ${}_2F_1$ типа в многочлены Эрмита ${}_2F_0$ типа, которые входят в схему Аски ортогональных многочленов, и показан при каких условиях эти три выражения правильны.

SUMMARY

COMPARATIVE ANALYSIS OF DIFFERENT LIMIT EXPRESSIONS BETWEEN PSEUDO-JACOBI POLYNOMIALS AND HERMIT POLYNOMIALS INCLUDED IN ASKEY SCHEME OF THE ORTHOGONAL POLYNOMIALS

Mammadova A.M.

Keywords: *pseudo-Jacobi polynomials; Hermite polynomials; Askey scheme of the orthogonal polynomials; Limit expressions; Hypergeometric functions*

Existing analytical expressions of the limits from the pseudo-Jacobi polynomials of ${}_2F_1$ type to Hermite polynomials of ${}_2F_0$ type of the Askey scheme of the orthogonal polynomials are studied and their correct behaviour conditions are shown.

TƏYYARƏNİN HƏRƏKƏT TƏNLİYİNƏ DİFERENSİAL TƏNLİKLƏRİN TƏTBİQİ

Rəsulzadə Aynur Füzuli qızı, Axundov Qəzənfər Nəsrulla oğlu

Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan

resulzadeaynur@gmail.com, aqezenfe01@gmail.com

Açar sözlər: *diferensial tənlik, hərəkət, törəmə, istiqamət, hərəkət tənliyi.*

Məqalədə təyyarənin istiqamətini dəyişmə məsələsinə diferensial tənliyin tətbiqi məsələsinə baxılmışdır. Verilmiş məsələnin hərəkət tənliyi araşdırılmış, ona uyğun diferensial tənlik qurulmuş və həll olunmuşdur. Alınmış nəticə konkret misal nümunəsi ilə realizasiya olunmuşdur.

Riyaziyyatın, fizikanın, kimyanın və digər elmlərin müxtəlif məsələlərinin həllində tez-tez asılı olmayan dəyişəni, axtarılan funksiyanı və onun törəmələrinin əlaqələndirən tənliklər şəklində riyazi modellərdən istifadə olunur ki, bu [1,2,3] tənliklərə də diferensial tənliklər deyilir. Diferensial anlayışı ilk dəfə 1676-cı ildə Leybnis tərəfindən irəli sürülmüşdür. Biz aşağıdakı kimi təyyarənin hərəkət istiqamətinin dəyişmə məsələsinə baxaq.

Təyyarənin istiqamətini dəyişmək üçün onun qabaq təkərinin istiqamətini dəyişən zamanı arxa təkər də həmin istiqamət üzrə hərəkət üçün çevrilir və həmin mövqe istiqamət üzrə yaxınlaşır ancaq heç vaxt tam şəkildə gəlmir daha sonra isə təyyarələr istiqamətlərini dəyişən zaman buna nə qədər zaman ayıracaqları məsələləri qarşıya gəlir. Bu məsələnin həlli modelinə baxacağıq. Yəni şəkildə verilmiş təyyarənin ön təkəri istiqamətini dəyişərək x oxu istiqamətində hərəkət etməsi zamanı arxa təkər x oxu istiqamətinə tam şəkildə çevrilib-çevrilmədiyi və bunun üçün nə qədər zaman sərf edəcək məsələsinə baxaq.



Şəkil. Təyyarənin hərəkət modeli

Şəkildə l təyyarənin ön və arxa təkətləri arasındakı məsafədir. Bu zaman bilirik ki, x oxu istiqamətində hərəkət edən təyyarənin hərəkət getdiyi yol tənliyi:

$$x = vt$$

olacaq. Onda müəyyən zaman müddətində getdiyi yolun dəyişməsi də aşağıdakı şəkildə olacaq:

$$dx = vdt$$

Ancaq təyyarə bir müddət hərəkətini y öxu üzrə edir. Sonra x oxuna keçir. Onda məsələmiz üçün olan tənlik hələki x oxu üzrə yox y oxu üzrə hərəkət edəcək. dy isə yuxarıdan aşağıya doğru azaldığına görə tənlikdə nəzərə alarkən mənfi işarəsini yazmalıyıq. Burada təyyarənin hərəkət etdiyi sürət arxa təkərin hərəkət sürəti ilə üst-üstə düşməyəcək. Onda müəyyən zaman müddəti üçün:

$$dy = -vdt \sin\alpha \tag{1}$$

yaza bilərik. (1) tənliyində göründüyü kimi həm y, həm də α məchul dəyişənləri oldu. Bu halı aradan qaldırmaq üçün Şəkil 1-də AOB düzbucaqlı üçbucağına baxsaq:

$$\sin\alpha = \frac{y}{l} \tag{2}$$

(2)-ni (1) tənliyində yerinə yazsaq alınan tənlik:

$$dy = -\frac{y}{l} vdt \tag{3}$$

olacaq. İndi isə (3) tənliyi həll edək:

$$\frac{dy}{y} = -\frac{v}{l} dt$$

$$\int \frac{d}{y} = -\frac{v}{l} \int dt$$

$$\ln|y| = -\frac{v}{l} t + C$$

$$y = e^{-\frac{v}{l}t + C}$$

$$y = e^{-\frac{v}{l}t} \cdot e^{C}$$

$$y = C \cdot e^{-\frac{v}{l}t} \tag{4}$$

Məsələnin həllini aldıq. burada t=0 anında $y = Ce^0$ olacaq. Beləliklə $C = y_0$

$$y = y_0 \cdot e^{-\frac{v}{l}t} \tag{5}$$

İndi isə belə bir məsələyə baxaq. 40 m uzunluqlu təyyarənin 10 m/san ilə hərəkəti zamanı $y_0 = 20$ m olarsa $y = 0.2$ m zamanı buna nə qədər zaman və yol sərf edəcək?

$$0.2 = 20 \cdot e^{-\frac{10}{40}t}$$

$$0.04 = e^{-\frac{1}{4}t}$$

$$\ln(0.04) = -\frac{1}{4} t$$

$$t = -4 \cdot \ln(0.04)$$

$$t \approx 12.9 san$$

Bu zaman müddətində 129 m yol qət etmişdir.

Ədəbiyyat

1. Əhmədov Q., Həsənov K., Yaqubov M. Adi diferensial tənliklər. Bakı: Maarif, 1978.
2. Məmmədov R. Ali riyaziyyat kursu, I, II hissə. Bakı, 1984.
3. Aslanov H. Adi diferensial tənliklər və riyazi fizika tənlikləri. Bakı, 2001.

РЕЗЮМЕ

ПРИМЕНЕНИЕ ДИФФЕРЕНЦИАЛЬНЫХ УРАВНЕНИЙ К ДВИЖЕНИЮ САМОЛЕТА

Расулзаде А.Ф., Ахундов Г.Н.

Ключевые слова: *дифференциальное уравнение, движение, производная, направление, уравнение движения.*

В статье рассмотрено применение дифференциального уравнения к задаче об изменении направления плоскости. Исследовано уравнение движения данной задачи, установлено и решено соответствующее дифференциальное уравнение. Полученный результат реализован на конкретном примере.

SUMMARY

APPLIED OF DIFFERENTIAL EQUATIONS TO AIRCRAFT'S MOTION

Rasulzada A.F., Akhundov G.N.

Keywords: *differential equation, motion, derivative, direction, equation of motion.*

The application of the differential equation to the problem of changing the direction of the plane was considered in the article. The equation of motion of the given problem was investigated, the corresponding differential equation was established and solved. The obtained result was realized with a concrete example.

NAZİK LÖVHƏNİN RƏQSLƏRİNİN QEYRİ-XƏTTİ TƏNLİYİ ÜÇÜN OPTİMAL İDARƏETMƏ MƏSƏLƏSİ

Seyfullayeva Xəyalə İdris qızı, Xəlilova Aynur Ağaş qızı

Sumqayıt Dövlət Universiteti

xeyaleseyfullayeva82@gmail.com, aynur.xelilova79@mail.ru

Açar sözlər: *nazik lövhə, optimal idarəetmə, varlıq teoremi, zəruri və kafi şərt.*

Təqdim olunan işdə nazik lövhənin rəqslərinin qeyri-xətti tənliyi üçün optimal idarəetmə məsələsinə baxılmışdır. Əvvəlcə hər bir qeyd olunmuş idarəedici üçün baxılan sərhəd məsələsinin ümumiləşmiş həllinin varlığı və yeganəliyi isbat edilmiş, sonra optimal idarəedicinin varlığı teoremi isbat edilmiş, sonda optimallığın Pontryaginin maksimum prinsipi tipli zəruri şərti çıxarılmışdır.

Məlumdur ki, bir sıra proseslər dördtərtibli xüsusi törəməli diferensial tənliklərlə təsvir olunur. Bunlardan çubuğun, kamertonun, üçlaylı lövhələrin, elastiki lövhələrin, nazik lövhələrin və s. rəqsləri tənliklərini misal göstərmək olar [1], [4], [5]. Ona görə də belə tənliklərlə təsvir olunan proseslərdə optimal idarəetmə məsələlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, son dövrlərdə belə proseslər üçün optimal idarəetmə məsələlərinin intensiv tədqiqinə başlanılıb [2], [3].

Tutaq ki, nazik lövhələrin rəqslərinin qeyri-xətti tənliyi olan

$$\rho\frac{\partial^2 u}{\partial t^2}+\nabla^2(D\nabla^2 u)+(1-\nu)\left(2\frac{\partial^2 D}{\partial x\partial y}\frac{\partial^2 u}{\partial x\partial y}-\frac{\partial^2 D}{\partial x^2}\frac{\partial^2 u}{\partial y^2}-\frac{\partial^2 D}{\partial y^2}\frac{\partial^2 u}{\partial x^2}\right)=f\left(x,y,t,u,\frac{\partial u}{\partial x},\frac{\partial u}{\partial y},\upsilon\right), \qquad (1)$$

tənliyi,

$$u(x,y,0)=u_0(x,y)\,,\ \frac{\partial u(x,y,0)}{\partial t}=u_1(x,y) \tag{2}$$

başlanğıc şərtləri və

$$\begin{gathered} u(0,y,t)=0,\frac{\partial u(0,y,t)}{\partial x}=0,u(x,0,t)=0,\frac{\partial u(x,0,t)}{\partial y}=0,\\ u(a,y,t)=0,\frac{\partial u(a,y,t)}{\partial x}=0,u(x,b,t)=0,\frac{\partial u(x,b,t)}{\partial y}=0 \end{gathered} \tag{3}$$

sərhəd şərtləri ilə təsvir olunur.

Burada $Q_T=\Omega\times(0,T)$, $\Omega=(0,a)\times(0,b)$, a, b, $T>0$ müsbət ədədlər, $u_0(x,y)$, $u_1(x,y)$-verilmiş funksiyalardır, $u(x,y,t)$ yerdəyişmə, $D=\dfrac{Eh^3}{12(1-\nu^2)}$ əyilmə möhkəmliyi, $h(x,y)$ qalınlıqdır. $0<\mu_1\le h(x,y)\le\mu_2$, μ_1, μ_2-verilmiş ədədlərdir və $h(x,y)$-in $\overline{\Omega}$-da iki tərtibə qədər kəsilməz törəmələri var, E ($E>0$)-Yunq modulu, ν $\left(0<\nu<\dfrac{1}{2}\right)$-Puasson əmsalıdır, ∇^2-Laplas operatorudur, yəni, $\nabla^2 u\equiv\Delta u\equiv\dfrac{\partial^2 u}{\partial x^2}+\dfrac{\partial^2 u}{\partial y^2}$, $\rho(x,y)$-lövhənin kütlə sıxlığıdır, $f(x,y,t,u,p,q,\upsilon)$-verilmiş funksiyadır.

Mümkün idarəedicilər sinfi U_{ad} olaraq $L_2(Q_T)$-də kompakt və qiymətləri $[\nu,\mu]$ parçasına daxil olan $\upsilon(x,y,t)$ funksiyalar çoxluğu götürülür, burada ν, μ-verilmiş ədədlərdir.

Hər bir $\upsilon(x,y,t)$ mümkün idarəedicisinə uyğun (1)-(3) məsələsinin ümumiləşmiş həlli dedikdə elə $u(x,y,t)\in W_2^{2,1}(Q_T)$ başa düşülür ki, o ixtiyari $\eta(x,y,t)\in W_2^{2,1}(Q_T)$, $\eta(x,y,T)=0$,

$$\begin{gathered} \eta(0,y,t)=0,\frac{\partial\eta(0,y,t)}{\partial x}=0,\eta(x,0,t)=0,\frac{\partial\eta(x,0,t)}{\partial y}=0,\\ \eta(a,y,t)=0,\frac{\partial\eta(a,y,t)}{\partial x}=0,\eta(x,b,t)=0,\frac{\partial\eta(x,b,t)}{\partial y}=0 \end{gathered}$$

funksiyası üçün

$$\int_{Q_T}\left[-\rho\frac{\partial u}{\partial t}\cdot\frac{\partial\eta}{\partial t}+D\nabla^2 u\nabla^2\eta+(1-\nu)\left(2\frac{\partial^2 D}{\partial x\partial y}\frac{\partial^2 u}{\partial x\partial y}-\frac{\partial^2 D}{\partial x^2}\frac{\partial^2 u}{\partial y^2}-\frac{\partial^2 D}{\partial y^2}\frac{\partial^2 u}{\partial x^2}\right)\eta\right]dxdydt-$$

$$-\int_{\Omega}\rho u_1(x,y)\eta(x,y,0)dxdy=\int_{Q_T}f(x,y,t,u,\frac{\partial u}{\partial x},\frac{\partial u}{\partial y},\upsilon)\eta(x,y,t)dxdydt$$

inteqral eyniliyini və $u(x,y,0)=u_0(x,y)$ şərtini ödəsin.

Aşağıdakı kimi optimal idarəetmə məsələsi qoyulur: U_{ad} sinfindən elə idarəedici tapmalı ki, o, (1)-(3) sərhəd məsələsinin həlli ilə birlikdə

$$J(\upsilon)=\int_{Q_T}f_0(x,y,t,u,\frac{\partial u}{\partial x},\frac{\partial u}{\partial y},\upsilon)dxdydt \tag{4}$$

funksionalına minimum qiymət versin, burada $f_0(x,y,t,u,p,q,\upsilon)$-verilmiş funksiyadır.

İşdə (1)-(3) məsələsinin hər bir qeyd olunmuş $\upsilon(x,y,t)$ mümkün idarəedici üçün $u(x,y,t)$ həllinin varlığı və yeganəliyi haqqında aşağıdakı teorem Faedo-Qalyorkin üsulu ilə isbat olunmuşdur.

Teorem. Hər bir qeyd olunmuş $\upsilon(x, y, t)$ idarəedicisi üçün (1)-(3) məsələsinin yeganə ümumiləşmiş həlli var.

Sonra isə (1)-(4) optimal idarəetmə məsələsində idarəedicinin varlığı isbat edilir və optimallıq üçün zəruri şərt çıxarılır.

Ədəbiyyat

1. Арман Ж.-Л.П. Приложения теории оптимального управления системами с распределенными параметрами к задачам оптимизации конструкций, М.: Мир, 1977, 144 с.
2. Daqun Tong and Robert L. Williams II, Sunil K. Agrawal. Optimal shape control of composite thin plates with piezoelectric actuators. Journal of Intelligent Material Systems and Structures. Vol. 9, pp. 458-467, June, 1998.
3. Deineka V.S. Optimal control of the dynamic state of a thin compound plate. Cybernetics and Systems Analysis. Vol. 42, pp. 151-175, No 4, 2006.
4. Комков В. Теория оптимального управления демпфированием колебаний простых упругих систем, М.: «Мир», 1975, 160 с.
5. Тихонов А.Н., Самарский А.А. Уравнения математической физики, М.: «Наука», 1972, 736 с.

РЕЗЮМЕ

ЗАДАЧА ОПТИМАЛЬНОГО УПРАВЛЕНИЯ ДЛЯ НЕЛИНЕЙНОГО УРАВНЕНИЯ КОЛЕБАНИЙ ТОНКОЙ ПЛАСТИНЫ

Сейфуллаева Х.И., Халилова А.А.

Ключевые слова: *тонкая пластина, оптимальное управление, теорема существования, необходимое и достаточное условие.*

Third part for searches for vertical and horizontal algorithms using horizontal clusters. It uses intersection of set of vertices adjacent to cluster's head with vertical edge vertices.

Comparison

This algorithm shows good results and is showing linear results for real datasets. It doesn't pass through all vertices. Only horizontal cluster heads vertices are used as key for a search. Advantages are simplicity and low complexity for real datasets. This algorithm is both counting and listing.

Implementation

This method was implemented in C++ without use of STL libraries. Only arrays are used to store vertices, horizontal edges. Queue (FIFO) is also implemented as an array. Memory allocation made only on start. This approach besides high speed also lets to use limited memory resources more effectively with possibility to work with many vertices. For test was used laptop HP Ryzen 7 3700U, 12Gb RAM, 256GB SSD, Windows 10 Home.

Optimization

Several optimization methods used in this algorithm.

Conclusion

This method uses the notion of horizontal edges based on the BFS algorithm. Algorithm complexity is lower than O(n^2). For tested real graphs its complexity is O(n). Horizontal edges could be used for finding higher k-cliques in graphs.

Algorithm work results

N	Graph	V	E	Visits	Lvls	HECnt	TriCnt	Duratio sec	Vis/E
1	**2**	**3**	**4**	**5**	**6**	**7**	**8**	**9**	**10**
1	SlashDot0811	77,360	905,468	25,629,194	8	223,588	**551,724**	0.57	28
2	AmznUngraph	334,863	925,872	8,313,942	34	363,987	**667,129**	0.77	9
3	CA-AstroPh	18,772	198,110	7,422,714	10	123,500	**1,351,441**	1.93	37
4	socEpin1	75,879	508,837	26,619,297	9	216,364	**1,624,481**	0.61	52
5	comDblp	317,080	1,049,866	14,300,547	15	525,236	**2,224,385**	0.89	14
6	Gowalla	196,591	950,327	38,106,767	10	482,810	**2,273,138**	1.07	40
7	Youtube	1,134,890	2,987,624	143,229,102	14	1,083,367	**3,056,386**	6.44	48
8	Amzn0312	400,727	3,200,440	33,450,754	14	1,231,105	**3,686,467**	1.91	10
9	Amzn0601	403,394	3,387,388	35,425,358	18	1,290,578	**3,986,507**	2.08	10
10	NotreDame	325,729	1,497,134	40,442,181	25	634,024	**8,910,005**	0.69	27
11	WikiTalk	2,394,385	5,021,410	628,733,562	8	1,406,572	**9,203,519**	44.98	125
12	Stanford	281,903	2,312,497	451,199,698	662	1,192,617	**11,329,473**	13.45	195
13	Skitter	1,696,415	11,095,298	678,574,897	22	4,684,364	**28,769,868**	18.56	61

1	2	3	4	5	6	7	8	9	10
14	socPokec	1,632,803	30,622,564	1,074,651,142	10	12,728,265	**32,557,458**	73.07	35
15	WikiTopcats	1,791,489	28,511,807	1,545,753,661	10	14,297,603	**52,106,893**	236.80	54
16	BerkStan	685,230	7,600,595	420,886,412	704	4,285,180	**64,690,980**	7.44	55
17	comLiveJournal	3,997,962	34,681,189	2,027,535,026	14	19,951,230	**177,820,130**	103.56	58
18	socLJ1	4,847,571	66,993,773	3,173,322,004	12	25,192,978	**285,730,264**	173.82	47

References

1.Noga Alon, Raphael Yuster, and Uri Zwick. Finding and counting given length cycles. Algorithmica, 17(3):209–223, 1997.

2. Chu and S. , Cheng J. Triangle listing in massive networks and its applications, in Proc. of KDD, 2011.

3. Ortmann M. and Brandes U. Triangle listing algorithms: Back from the diversion, in Proceedings of the Meeting on Algorithm Engineering & Expermiments. SIAM, 2014, pp. 1–8.

XÜLASƏ

BÖYÜK QRAFLAR ÜÇÜN ÜÇBUCAQLILARIN HESABLAMA ALQORİTMİ (HETA)

Abıyev Ə.Y.

Açar sözlər*: *qraf alqoritmləri, böyük qraflar, üçbucaq sayının hesablanması, horizontal tillər

Bu üsul BFS alqoritminə əsaslanan horizontal tillər konsepsiyasından istifadə edir. Alqoritmin mürəkkəbliyi O(n^2)-dən aşağıdır. Sınaqdan keçirilmiş real qraflar üçün onun mürəkkəbliyi O(n)-dir. Qraflarda daha yüksək k-klilikləri tapmaq üçün üfüqi kənarlardan istifadə edilə bilər.

РЕЗЮМЕ

АЛГОРИТМ ПОДСЧЕТА ТРЕУГОЛЬНИКОВ ДЛЯ БОЛЬШИХ ГРАФОВ (HETA)

Абыев А.Ю.

Ключевые слова*: *алгоритмы графов, большие графы, подсчет треугольников, горизонтальные ребра.

Этот метод использует понятие горизонтальных ребер на основе алгоритма BFS. Сложность алгоритма ниже O(n^2). Для проверенных реальных графов его сложность равна O(n). Горизонтальные ребра можно использовать для поиска более высоких k-клик в графах.

QEYRİ-İNFORMAL MÖVZULARIN MƏNİMSƏNİLMƏSİNDƏ KOMMUNİKASİYANIN ÖNƏMİ

Babayeva Səbinə Etibar qızı

Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan

Babayevasabina96@gmail.com

Açar sözlər: *informatika, təlimin xüsusiyyətləri, kompüter dəstəkli təhsil, İKT, kompüter.*

Bu araşdırmanın məqsədi universitet tələbələrinin iş mühitlərində kommunikasiya texnologiyalarından məmnunluq səviyyələrini ölçmək, qurumun öz effektivlik qavrayışlarını və bu amillər arasındakı əlaqəni araşdırmaqdır. Nəticələrə görə, bir neçə təhsil müəssisəsi daxilində effektiv kommunikasiya sisteminin inkişafı baxımından potensial olaraq effektiv fəaliyyətin hərəkətverici qüvvəsi ola bilər və nəticələr də bu araşdırmada aparıcı amildir. Burada ünsiyyət

müəllimlərin birliyinin dinamikasını maksimum dərəcədə vurğulayır, ünsiyyət amilini universitet və məktəb fəaliyyətinin bütün aspektləri ilə əlaqələndirməyə çalışılır.

Təhsildə informasiya texnologiyalarından istifadə ölkəmiz və digər inkişaf etməkdə olan ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir. Həm tədris proseslərinin keyfiyyətinin və səmərəliliyinin artırılması, həm də əhalinin sürətli artımı ilə ayaqlaşa bilməyən tədris təqdimatındakı qeyri-adekvatlıqlar səbəbindən təhsil sahəsində informasiya texnologiyalarından yararlanmaq zərurətə çevrilmişdir [2].

Təhsilin daha səmərəli, effektiv və təsirli olması, onun yayılması və fərdiləşdirilməsi istiqamətində aparılan səylər nəticəsində ortaya çıxan komputer dəstəkli təhsil effektiv təhsil təcrübəsi olmuşdur. Bütövlükdə kompüter texnologiyalarının gətirdiyi imkanlardan təhsil prosesində istifadə edilməsidir. Yerindən asılı olaraq dizayn, təqdimat və ya oyun ola bilər. Tələbə üçün fənnindən asılı olmayaraq kompüterin köməkçi kurs vasitəsi kimi istifadə olunduğu istənilən proqram Kompüter Dəstəkli Təhsil (KDT) kimi qəbul edilir. Hansı məqsədlə istifadə olunmasından asılı olmayaraq burada əsas məqsəd fənni öyrətməkdir. Öyrənmənin daha səmərəli və qalıcı olması üçün öyrənmə-tədris fəaliyyətlərində kompüterlərdən istifadə kompüteri "alət"ə çevirir. Mövzunun mənimsənilməsində kompüterdən tam olaraq kurs kimi deyil, köməkçi vasitə kimi istifadə etmək mümkündür[3]. Dərsin məzmununun birbaşa sinif mühitində təqdim edilməsi, öyrənilənlərin başqa üsullarla təkrarlanması, problemlərin həlli, məşqlərin yerinə yetirilməsi kimi fəaliyyətlərdə kompüterdən öyrənmə-tədris vasitəsi kimi istifadə ilə bağlı tətbiqlərə kompüter dəstəkli təhsil deyilir. Beləliklə, kompüter həm tədris vasitəsi, həm də öyrənmənin baş verdiyi mühit kimi istifadə olunur [4].

Ballone və Czerniak tərəfindən elm dərslərində öyrənmə üslublarından istifadə ilə bağlı müəllimlərin fikirlərini araşdıran bir iş aparılmışdır. Universitetlərdə təbiət elmləri olan fakültələrdə öyrənmə üslublarının istifadəsi ilə bağlı çoxlu araşdırmalar var, lakin bu məsələ ilə bağlı müəllimlərin fikirləri də son dərəcə vacibdir. "Planlı davranış nəzəriyyəsi"nə görə, üç əsas konstruksiyaya diqqət etmək lazımdır: davranışa münasibət, subyektiv norma və qəbul edilən davranış nəzarəti. Bu üç əsas xüsusiyyət baxımından müəllim qrupları arasındakı fərqlər araşdırılmışdır. 109 Ohayo müəllimi təsadüfi seçilmiş, tədqiqatın nəticələrinə görə, müəllimlərin öyrənmə üslubları arasında münasibət ölçüləri ilə davranışlara dair subyektiv normalar arasında fərqlər müşahidə edilmişdir [1].

Nəticə etibarilə, bu kimi təcrübələrdən istifadə edərək komputerdən istifadənin mənimsəmə prosesində effektiviyin artırılmasında və tədris prosesində qeyri-informal fənlərdə mövzuların mənimsənilməsində böyük əhəmiyyətə malik olduğunu müşahidə etmək olar.

Ədəbiyyat

1. Ballone, L. M. Czerniak, C. M. (2001). Teachers' Beliefs About Accommodating Students' Learning Styles In Science Classes. Electronic Journal of Science Education, c. 6, s. 2, ss. 1-43.

2. Brown, A. O. (2004). Teaching Finite Elements Using The Kolb Learning Cycle. MSC. Software Virtual Product Development Conference, 18–20 October, California.

3. Novak, S., Shah, S., Wilson, J. P., Lawson, A. K., Salzman, R. D. (2006). Pharmacy Students' Learning Styles Before And After A Problem-Based Learning Experience. American Journal of Pharmaceutical Education, 70 (4), 74.

4. Sam, H. K., Ling, C. K. (2000). Effects Of Learning Styles On Undergraduates' Attitudes, Navigational Patterns, And Use Of Navigational Tools In Hypermedia-Based Learning. The Electronic Journal on İnformation Systems in Developing Countries, 2(3), 1-11.

РЕЗЮМЕ
ВАЖНОСТЬ КОММУНИКАЦИИ ПРИ УСВОЕНИИ НЕФОРМАЛЬНЫХ ТЕМ
Бабаева С.Е.

Ключевые слова: *информатика, особенности обучения, компьютерное обучение, ИКТ, компьютер*.

Целью данного исследования является измерение уровня удовлетворенности студентов университетов коммуникационными технологиями в их рабочей среде, изучение собственного восприятия эффективности учебного заведения и взаимосвязи между этими факторами. Согласно результатам, это потенциально может быть движущей силой эффективного функционирования с точки зрения разработки эффективной системы коммуникации в рамках нескольких учебных заведений, и результаты также являются ведущим фактором в этом исследовании. Коммуникация Максимально подчеркивает динамику единства учителей, стремясь связать фактор коммуникации со всеми аспектами университетской и школьной деятельности.

SUMMARY
THE IMPORTANCE OF COMMUNICATION IN THE ASSIMILATION OF INFORMAL TOPICS
Babayeva S.E.

Keywords: *computer science, training features, computer training, ICT, computer*.

The purpose of this study is to measure the level of satisfaction of university students with communication technologies in their working environment, to study their own perception of the effectiveness of the educational institution and the relationship between these factors. According to the results, this can potentially be the driving force of effective functioning from the point of view of developing an effective communication system within the framework of several educational institutions, and the results are also a leading factor in this study. Communication maximally emphasizes the dynamics of the unity of teachers, striving to connect the factor of communication with all aspects of university and school activity.

BUL PROQRAMLAŞDIRMASI MƏSƏLƏSİNİN TƏQRİBİ HƏLLİ ÜÇÜN DAXİLİ VEKTORLAR ÜSULU

Əhmədova Aydan Fətəli qızı
İdarəetmə Sistemləri İnstitutu, Bakı, Azərbaycan
akmedoff55@gmail.com

Açar sözlər*: Bul proqramlaşdırması məsələsi, sütun vektorları, təqribi həll, daxili vektorlar.*

Bu işdə Bul proqramlaşdırması məsələsinin bir təqribi həll üsulu işlənmişdir. Bu üsul mümkün həllər oblastının daxilində yerləşən vektorların seçilməsinə əsaslanır.

Aşağıdakı kimi Bul proqramlaşdırması məsələsinə baxaq :

$$\sum_{j=1}^{n} c_j\, x_j \;\to max \;, \tag{1}$$

$$\sum_{j=1}^{n} a_{ij}\, x_j \;\le\; b_i \;, \qquad \left(i = \overline{1,m}\right), \tag{2}$$

$$x_j = 1 \vee 0 \;,\; \left(j = \overline{1,n}\right). \tag{3}$$

Burada qəbul edirik ki, $c_j > 0\,, a_{ij} \ge 0, b_i > 0,\;\; \left(i = \overline{1,m}\;;\; j = \overline{1,n}\right)$ verilmiş müsbət ədədlərdir.

Əvvəlcə qeyd edək ki, (1) – (3) məsələsi ədəbiyyatda Bul proqramlaşdırması məsələsi adlanır. Bu məsələnin optimal həllinin tapılması üçün məlum olan "Budaqlanmalar və sərhədlər" və ya kombinator tipli üsullar vasitəsilə yalnız kiçik ölçülü məsələlər real zaman müddətində həll oluna bilər [1, 2].

Lakin praktikada böyük ölçülü (1) – (3) məsələsinə tez–tez rast gəlindiyindən, onun müxtəlif təqribi həll üsulları işlənmişdir [3, və s.]. Bu üsulların hansının daha səmərəli olmasını isə göstərmək olmur. Ona görə də yeni və daha sürətlə işləyən təqribi həll üsullarının işlənməsi lazım gəlir.

İşdə belə bir həll üsulu təklif olunmuşdur. Bu üsul mümükün həllər oblastının daxilində yerləşməklə

$$\overrightarrow{P_1} = (a_{11}, a_{21}, \dots, a_{m1})^T\ ,\ \overrightarrow{P_2} = (a_{21}, a_{22}, \dots, a_{2m})^T\ , \dots ,\ \overrightarrow{P_n} = (a_{n1}, a_{n2}, \dots, a_{nm})^T$$

vektorlarının hansılarının və hansı ardıcıllıqla seçilməsinə əsaslanıb.

Burada T – transponirə olmağı göstərir, yəni onlar sütun vektorlarıdır.

$\overrightarrow{P_0} = (b_1, b_2, \dots,\ b_n)^T$ işarə edək. (1) – (3) məsələsinin təqribi həllinin qurulması

$$X^t = (x_1^t,\ x_2^t,\ \dots, x_n^t) = (0, 0, \dots, 0)$$

həllindən başlayır. Bundan sonra isə müəyyən j_* nömrəsi seçilir və $x_{j_*}^t := 1$ qəbul edilir (əgər mümkündürsə). j_* nömrəsinin seçilməsi isə aşağıdakı kriteriyaya əsaslanır :

$$\max_{j \in A} \{\cos(\overrightarrow{P_j}, \overrightarrow{P_0})\} = \cos(\overrightarrow{P_{j_*}}, \overrightarrow{P_0}) \qquad (4)$$

Burada A= $\{1, 2, \dots, n\}$ çoxluğudur.

Qeyd edək ki, işin həcmi imkan vermədiyindən, bu kriteriyanın çıxarılmasının isbatını vermirik.

Əgər (4) kriteriyası ilə tapılmış j_* nömrəsi üçün $\overrightarrow{P_{j_*}} \le \overrightarrow{P_0}$ olarsa, onda $x_{j_*}^t := 1$ və $\overrightarrow{P_0} := \overrightarrow{P_0} - \overrightarrow{P_{j_*}}$ qəbul edib j_* nömrəsini A = $\{1, 2, \dots, n\}$ çoxluğundan çıxırıq. Bundan sonra isə (4) kriteriyası ilə növbəti yeni j_* nömrəsi tapılır.

Əgər $\overrightarrow{P_{j_*}} > \overrightarrow{P_0}$ olarsa, onda $x_{j_*}^t := 0$ və A : = A \ $\{j_*\}$ qəbul etməklə (4) kriteriyası ilə növbəti j_* nömrəsi tapılır.

Bu proses bütün *j, (j = 1,2,...,n)* nömrələrinə baxıldıqdan sonra başa çatır.

Qeyd edək ki, hər dəfə yeni seçilmiş $\overrightarrow{P_{j_*}}$ vektoru üçün $\overrightarrow{P_{j_*}} \le \overrightarrow{P_0}$ şərtinin ödənilməsi yoxlandığından, bu vektorların cəmi (deməli hər biri) mümkün həllər oblastının daxilində yerləşəcək. Ona görə də bu üsula daxili nöqtələr, yaxud daxili vektorlar üsulu deyirik.

Nəhayət qeyd edək ki, n sayda məchuldan hər birinə yalnız bir dəfə baxılıb, qiymət verildiyindən bu üsul sonlu sayda addımdan sonra başa çatar.

İşdə təklif olunmuş üsulun proqramı qurulmuş və müəyyən hesablama eksperimentləri aparılmışdır.

Ədəbiyyat

1. Сигал И.Х., Иванова А.П. Введение в прикладное дискретное программирование: модели и вычислительные алгоритмы. М. Физ. Мат. Лит. 2007, 304 ст.

2. Kellerer H., Pferchy U., Pisinger D. Knapsack problems. Springer – Verlag, Berlin, Heidelberg, New – York, 2004, 546 p.

3. Ковалев М.М. Дискретная оптимизация (целочисленное программирование). М. УРСА, 2003, 191 ст.

РЕЗЮМЕ
МЕТОД ВНУТРЕННИХ ВЕКТОРОВ ДЛЯ ПРИБЛИЖЕННОГО РЕШЕНИЯ ЗАДАЧИ БУЛЕВОГО ПРОГРАММРОВАНИЯ
Ахмедова А.Ф.

Ключевые слова: *задача булевого программирования, вектор столбцов, приближённое решение, внутренние векторы.*

В этой работе разработан один приближённый метод для задач Булевого программирования. Этот метод основан на выборе векторов, принадлежащих внутренней области допустимых решений.

SUMMARY
INTERNAL VECTOR METHOD FOR APPROXIMATE SOLUTION BOOLEAN PROGRAMMING PROBLEMS
Ahmadova A.F.

Keywords: *Boolean programming problem, a column vector, an approximate solution, an internal vectors.*

In this paper, one approximate method for Boolean programming problems has been developed. This method is based on the choice of vectors that belong inside the domain of feasible solutions.

ŞƏBƏKƏ STRUKTURLU SİSTEMDƏ MƏNBƏLƏRİN YERLƏRİNİN VƏ GÜCLƏRİNİN OPTİMALLAŞDIRILMASI

Əşrəfova Yeganə Ramiz qızı
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
ashrafova.yegana@gmail.com

Açar sözlər: *mənbələr, mənbələrin yerləşdirilməsi, qeyri-lokal şərtlər, optimallıq şərtləri, funksionalın qradiyenti.*

Şəbəkə strukturlu mürəkkəb obyektin fəaliyyətinə təsir edən toplanmış mənbələrin yerlərinin və güclərinin optimallaşdırılması məsələsinin həlli tədqiq olunur. Obyekt çoxlu sayda birölçülü obyektlərdən ibarətdir ki, onların hər birinin vəziyyəti ayrılmamış sərhəd şərtli adi diferensial tənliklər sistemi ilə təsvir olunur. Həm mənbələrin gücü, həm də yerlərinə nəzərən məqsəd funksionalının qradiyentinin komponentləri üçün düsturlar alınmışdır.

1. Giriş

Məqalədə mürəkkəb obyektin fəaliyyətinə təsir edən toplanmış mənbələrin yerlərinin və güclərinin optimallaşdırılması məsələsinin həlli tədqiq olunur [2,6,7]. Obyekt çoxlu sayda birölçülü obyektlərdən ibarətdir, onların hər birinin vəziyyəti qeyri-lokal sərhəd şərtli adi diferensial tənliklər sistemi ilə təsvir olunur. Alt obyektlər bir-biri ilə yalnız başlanğıc və ya son nöqtələrindəki qiymətləri ilə ixtiyari qaydada birləşmişdir. Qonşu alt obyektlərin əlaqə nöqtələrində fiziki qanunlara analoji olan şərtlər ödənilir, məsələn, enerjinin saxlanması qanunları, maddi tarazlıq və s.

Altobyektlərin ayrı-ayrı nöqtələri və onların əlaqə nöqtələrində həm ayrı-ayrı altobyektlərin, həm də bütövlükdə bütün obyektin fəaliyyətinə təsir edən mənbələr mövcuddur. Mənbələrin altobyektlərə təsir nöqtələri və onların təsir gücü məsələdə verilmiş məqsəd funksionalına əsasən optimallaşdırılır.

Belə mürəkkəb obyektləri [5]-ə analoji şəbəkə strukturlu dinamik obyektlər, müvafiq riyazi modelləri isə şəbəkə modelləri adlandıracağıq. Belə obyektlərin strukturunu istiqamətlənmiş qraf kimi təqdim etmək rahatdır [11]. Hesab olunur ki, qraf natamamdır, yəni, əlaqə matrisinin əksər

elementləri sıfra bərabərdir. Bu matrisin sıfırdan fərqli elementləri qrafın bitişik tillərinə uyğun gələn ayrı-ayrı blokların başlanğıc və son vəziyyətləri arasında əlaqənin mövcudluğuna uyğundur.

Məqalədə məqsəd funksionalının optimallaşdırılan mənbələrin təsir gücləri və yerlərinə nəzərən qradienti üçün əldə edilmiş düsturlardan istifadə etməklə birinci tərtib optimallaşdırma metodlarına [4,9] əsaslanan ədədi həlli sxemi təklif olunur.

Baxılan məsələyə, xüsusən də mürəkkəb konstruksiyaya malik boru kəmərləri şəbəkələrində mayenin (qazın) qeyri-stasionar hərəkətinin optimal idarə edilməsi məsələsi gətirilir [3,10]. Bu proseslərin riyazi modelləri hiperbolik tipli xüsusi törəməli diferensial tənliklərin alt sistemlərindən ibarətdir ki, onların hər biri boru kəmərinin ayrıca sahəsində hərəkət prosesini təsvir edir. Sahələrin qovşağında axının davamlılığı və maddi tarazlıq şərtləri təmin edilir ki, bu da ayrılmamış sərhəd şərtlərinə səbəb olur. Zaman və ya məkan dəyişənlərinə nəzərən düz xətlər üsulunun tətbiqi (dekompozisiya üsulunun tətbiqinin analoqu) nəql şəbəkəsində xammalın hərəkət rejimlərinə nəzarət problemini bu məqalədə tədqiq olunan problemə gətirir.

2. Məsələnin qoyuluşu

Baxılan mürəkkəb obyekt bir-birilə ixtiyari qaydada birləşdirilmiş m sayda blokdan ibarətdir və onun strukturunu istiqamətlənmiş qraf kimi təsvir etmək uyğun olar. Qrafın hər bir tili vəziyyəti adi diferensial tənliklər sistemi ilə təsvir olunan müstəqil alt obyekt (blok) ilə əlaqələndirilir.

Qrafın təpələri çoxluğunu I ilə işarə edək, başlanğıcı $k \in I$ təpəsində və sonu $s \in I$ təpəsində olan l^{ks} uzunluqlu (k,s) tilləri çoxluğunu $J = \{(k,s): k,s \in I\}$, ilə işarə edək, $|I| = N$, $|J| = m$, $|I|$ çoxluğun elementlərinin sayını göstərir.

Tutaq ki, $J_i^+ = \{(j,i): j \in I_i^+\}$, $J_i^- = \{(i,j): j \in I_i^-\}$ – i-ci təpəyə daxil olan və ondan çıxan tillər çoxluğudur, I_i^+ və I_i^- – i-ci təpə ilə qonşu təpələr çoxluğudur, hansıki, bu təpələr J_i, $J_i = J_i^+ \bigcup J_i^-$, çoxluğundan olan tillərin sonu və başlanğıcıdır: $I_i = I_i^+ \bigcup I_i^-$.

$$|J_i^+| = |I_i^+| = \overline{n}_i, \ |J_i^-| = |I_i^-| = \underline{n}_i, \ \overline{n}_i + \underline{n}_i = n_i, \ i \in I$$

işarə edək. Aydındır ki,

$$\sum_{i \in I} \underline{n}_i = \underline{n}, \ \sum_{i \in I} \overline{n}_i = \overline{n}, \ \underline{n} + \overline{n} = 2m, \ \sum_{i \in I} n_i = 2m.$$

Praktik tətbiqlərdə bir qayda olaraq $n_i << N$, $i \in I$, münasibəti doğrudur, yəni hər hansı bir təpə ilə qonşu olan təpələrin sayı ümumilikdə bütün təpələrin sayından qat-qat azdır.

Tutaq ki, hər bir $(k,i) \in J$, $k \in I_i^+$, $i \in I$ tilinin, blokunun vəziyyəti $\aleph$-ölçülü xətti qeyri-avtonom adi diferensial tənliklər sistemi ilə təsvir edilir:

$$\frac{du^{ki}(x)}{dx} = A^{ki}(x)u^{ki}(x) + B^{ki}w^{ki}\delta(x - \xi^{ki}) + f^{ki}(x), \ x \in (0, l^{ki}), \tag{2.1}$$

M_i, $M_i \le n_i \cdot \aleph$ sayda xətti asılı olmayan sərhəd şərtləri ayrılmamış şəkildə verilib:

$$\sum_{s=1, k_s \in I_i^-}^{\underline{n}_i} g_j^{ik_s} u^{ik_s}(0) + \sum_{s=1, k_s \in I_i^+}^{\overline{n}_i} q_j^{k_s i} u^{k_s i}(l^{k_s i}) = \mathrm{v}_j^i, \quad j = \overline{1, M_i}, \quad i \in I. \tag{2.2}$$

Burada $u^{ki}(x) = u^{ki}(x;\upsilon) \in \mathrm{R}^{\aleph}$ funksiyaları l^{ki} uzunluqlu (k,i)-tilinin $x \in [0, l^{ki}]$ nöqtəsindəki vəziyyətini xarakterizə edir; $\upsilon = (w, \mathrm{v}, \xi)$ – optimallaşdırılan parametrlər vektorudur, parametrləri: $w \in \mathrm{R}^{\mu}, w = (w^{ki} = (w_1^{ki}, ..., w_{\mu_{ki}}^{ki}) \in \Omega_{w^{ki}} \subset \mathrm{R}^{\mu_{ki}} : k \in I_i^+, i \in I)$, w_j^{ki} – j-cu komponenti μ_{ki}-ölçülü (k,i)-ci xarici mənbənin gücüdür və bu mənbə (k,i)-ci altsistemə $\xi^{ki} \in \Omega_{\xi^{ki}} \equiv [0, l^{ki}]$ nöqtəsində təsir edir,

$\xi=(\xi^{ki}:k\in I_i^+,i\in I)$, $\xi\in \mathrm{R}^{\bar{m}}$, $\bar{m}\le m$; $\mathrm{v}\in \mathrm{R}^M$, $\mathrm{v}=\left(\mathrm{v}^i\in\Omega_{\mathrm{v}^i}\subset \mathrm{R}^{M_i},i\in I\right)$, $\mathrm{v}^i=\left(\mathrm{v}_1^i,...,\mathrm{v}_{M_i}^i\right)^{\mathrm{T}},\mathrm{v}_j^i-i$ -ci təpəyə təsir edən xarici mənbənin j -cu komponentidir. $\mu=\sum_{i\in I}\sum_{k\in I_k^+}\mu_{ki}$, $M=\sum_{i=1}^{N}M_i$ işarə edək. Məsələdə verilənlər aşağıdakılardır: $A^{ki}(x)\ne \mathrm{const}$, $f^{ki}(x)-$uyğun olaraq hər bir $x\in[0,l^{ki}]$ üçün $\aleph$ -ölçülü kəsilməz kvadrat matris və vektor funksiyalardır; $B^{ki}-$ $(\aleph\times\mu_{ki})$-ölçülü skalyar matrislərdir; $g_j^{ik_s}=\left(g_{j,1}^{ik_s},...,g_{j,\aleph}^{ik_s}\right)$, $k_s\in I_i^-$, $s=\overline{1,\underline{n}_i}$, $q_j^{k_si}=\left(q_{j1}^{k_si},...,q_{j\aleph}^{k_si}\right)$, $k_s\in I_i^+$, $s=\overline{1,\bar{n}_i}$, $j=\overline{1,M_i}$, $i\in I$ sətir vektorlardır. Əgər $B^{ki}=0_{\aleph\times\mu_{ki}}$, bu o deməkdir ki, (k,i)-ci sahədə mənbə yoxdur.

Praktiki məsələlərdə w^{ki}, $k\in I_i^+$, $i\in I$ mənbə parametrlərinin işarəsindən asılı olaraq ξ^{ki} nöqtəsindəki xarici mənbə "çıxan axın" və ya "daxil olan axın" adlanır.

Alt sistemlərin ümumi sayı (2.1)-də cari vəziyyətləri yalnız ayrılmamış (qeyri-yerli) sərhəd şərtləri (2.2) vasitəsilə ixtiyari qaydada bitişik keçidlərlə (bloklarla) birləşdirilən əlaqələrin sayına m-ə bərabərdir. (2.1) sistemindəki diferensial tənliklərin ümumi sayı $m\aleph$-ya bərabərdir və o da M -ə (2.2) sərhəd şərtlərinin sayına bərabər olmalıdır: $M=m\aleph$.

Hesab edəcəyik ki, (2.1), (2.2) sərhəd məsələsinin yeganə həlli var. Bu məlumdur ki [9], yalnız $A^{ki}(x)$, $k\in I_i^+$ matrislərindən, $g_j^{ik_s}$, $k_s\in I_i^-$, $s=\overline{1,\underline{n}_i}$, $q_j^{k_si}$, $k_s\in I_i^+$, $s=\overline{1,\bar{n}_i}$, $j=\overline{1,M_i}$, $i\in I$ vektorlarından asılıdır və digər verilənlərdən asılı deyil, xüsusən də naməlum w,v,ξ vektorlardan.

Praktik mülahizələrə əsaslanaraq, məsələdə optimallaşdırılan w^{ki}, ξ^{ki}, v^i, $k\in I_i^+$, $i\in I$ parametrlərinin qiymətləri üzərində məhdudiyyətlər mövcuddur :

$$w^{ki}\in\Omega_{W^{ki}},\ \mathrm{v}^i\in\Omega_{V^i},\ \xi^{ki}\in\Omega_{\xi^{ki}}\equiv[0;l^{ki}],\ \Omega^{ki}=\Omega_{W^{ki}}\times\Omega_{V^i}\times\Omega_{\xi^{ki}}. \tag{2.4}$$

Hesab edəcəyik ki, $\Omega_{W^{ki}}$, Ω_{V^i} mümkün qiymətlər çoxluğu qabarıq kompaktdır.

Məsələ $\upsilon=(w,\mathrm{v},\xi)$ vektor komponentlərinin elə qiymətlərinin tapılmasından ibarətdir ki,

$$\Im(w,\mathrm{v},\xi)=\sum_{i\in I}\sum_{k\in I_i^+}\int_0^{l^{ki}}f_0^{ki}(u^{ki}(x),x)dx+\Phi(\underline{u},\bar{u},w,\mathrm{v},\xi) \tag{2.5}$$

funksionalı minimal qiymət alsın. Burada verilmiş funksiyalar $f_0^{ki}(u^{ki},x)$, $\Phi^i(\underline{u}^i,\bar{u}^i,w,\xi,\mathrm{v})$ arqumentlərinə görə kəsilməz diferensiallanandır. Aşağıdakı işarələmələri qəbul edək:

$$u=u(x)=(u^{ki}(x):k\in I_i^+,i\in I),\ \underline{u}^i=\left(u^{ik_1}(0),...,u^{ik_{\underline{n}_i}}(0)\right)^{\mathrm{T}}\in\mathrm{R}^{\underline{n}_i\cdot\aleph},\qquad \underline{u}=\left(\underline{u}^i:i\in I\right)\in\mathrm{R}^{\underline{n}},$$

$$\bar{u}^i=\left(u^{k_1i}(l^{k_1i}),...,u^{k_{\bar{n}_i}i}(l^{k_{\bar{n}_i}i})\right)^{\mathrm{T}}\in\mathrm{R}^{\bar{n}_i\cdot\aleph},\qquad \bar{u}=\left(\bar{u}^i:i\in I\right)\in\mathrm{R}^{\bar{n}}.$$

Formalaşdırılmış (2.1), (2.2), (2.4), (2.5) məsələsi parametrik optimal idarəetmə məsələləri sinfinə aid edilə bilər. Xarici mənbələrin parametrlərini və yerlərini təyin edən optimallaşdırılan sonluölçülü vektor real məsələlərdə (2.1) diferensial tənliklər sisteminin böyük ölçüsünə baxmayaraq kiçik ölçüyə malikdir.

3. Məsələnin ədədi həlli

Məlum olduğu kimi, (w,ξ,v) vektorunun verilmiş qiymətləri üçün (2.1), (2.2) sərhəd məsələsinin həlli müəyyən bir hesablama mürəkkəbliyinə malikdir. Mürəkkəblik ayrılmamış (qeyri-lokal) sərhəd şərtləri və təbii ki, (2.1) diferensial tənliklər sisteminin ölçüsü ilə bağlıdır. Belə ki, optimallaşdırma məsələsinin ədədi həlli üçün (w,ξ,v) optimallaşdırılan vektorunun cari qiymətlərində funksionalın qiymətini təkrar-təkrar təyin etmək lazımdır və nəticədə (2.1), (2.2) sərhəd məsələsini həll etmək lazımdır. Buna görə də həm optimallaşdırma məsələlərinin səmərəli

həll üsullarından istifadə etmək, həm də (2.1), (2.2) sərhəd məsələsinin həllinə xüsusi diqqət yetirmək vacibdir.

Funksionalın diferensiallanan olduğunu tədqiq edək və optimallaşdırılan $\upsilon=(w,\mathrm{v},\xi)$ üçlüyünə nəzərən qradientinin komponentləri üçün düsturlar alaq.

Aşağıdakı işarələmələri daxil edək. $\underline{c}_j^i=\left(g_j^{ik_1},...,g_j^{ik_{\underline{n}_i}}\right)$, $\overline{c}_j^i=\left(q_j^{k_1 i},...,q_j^{k_{\overline{n}_i} i}\right)$ – ilə uyğun olaraq $\underline{n}_i\cdot\aleph$ və $\overline{n}_i\cdot\aleph$ ölçülü sətir vektorlarını işarə edək. $u^i=\left(\underline{u}^i,\overline{u}^i\right)^{\mathrm{T}}$ – ilə $n_i\cdot\aleph$ ölçülü genişlənmiş vektoru işarə edək. Tutaq ki, $C_i=\left(c_{js}^i\right)_{j=1,s=1}^{M_i,n_i\cdot\aleph}$, $i\in I$, genişlənmiş matrisdir, və bu matrisin hər sətri $n_i\cdot\aleph$ ölçülü $c_j^i=(\underline{c}_j^i,\overline{c}_j^i)$ genişlənmiş sətir vektorudur. (2.2) şərtlərinin xətti asılı olmamazlığı fərziyyəsinə görə aşağıdakı münasibət doğrudur:

$$\mathrm{rank}C_i=M_i\,. \tag{3.1}$$

C_i matrisinin ölçüsü $M_i\times(n_i\cdot\aleph)$, $M_i\le n_i\cdot\aleph$, $i\in I$ olduğundan, C_i matrisindən ranqı M_i olan tərsi olan $\widehat{C}_i$ altmatrisi (minor) ayırmaq mümükündür. Sütunların yerlərini dəyişərək genişlənmiş matrisi yenidən $C_i=[\widehat{C}_i,\breve{C}_i]$ ilə işarə edək. Burada $\breve{C}_i-$ matrisi C_i genişlənmiş matrisinin $\widehat{C}_i$ matrisinə daxil olmayan sütunlarından tərtib olunmuşdur. Buna analoji olaraq u^i vektoru $\widehat{C}_i$ matrisinə analoji olaraq M_i-ölçülü $\widehat{u}^i=(\widehat{u}_1^i,...,\widehat{u}_{M_i}^i)^{\mathrm{T}}$ vektoruna və $(n_i\cdot\aleph-M_i)$-ölçülü $\breve{u}^i=(\breve{u}_1^i,...\breve{u}_{(n_i\cdot\aleph)-M_i}^i)^{\mathrm{T}}$ vektoruna bölünür. Tutaq ki, $\widehat{\mu}_j$, $j=1,...,M_i-$ C_i matrisinin $\widehat{C}_i$ matrisinə daxil edilən sütunlarının nömrələridir, $\breve{\mu}_j$, $j=1,...,(n_i\cdot\aleph-M_i)-$ isə C_i matrisinin $\breve{C}_i$ matrisinə daxil edilən sütunlarının nömrələridir. Onda $\widehat{u}^i=(u_{\widehat{\mu}_1}^i,...,u_{\widehat{\mu}_{M_i}}^i)^{\mathrm{T}}$, $\breve{u}^i=(u_{\breve{\mu}_1}^i,...u_{\breve{\mu}_{(n_i\cdot\aleph)-M_i}}^i)^{\mathrm{T}}$

Burada və sonra $\dfrac{\partial f_0^{ki}}{\partial u^{ki}},\dfrac{\partial\Phi}{\partial\underline{u}},\ \dfrac{\partial\Phi}{\partial\overline{u}},\dfrac{\partial\Phi}{\partial w},\dfrac{\partial\Phi}{\partial\mathrm{v}},\dfrac{\partial\Phi}{\partial\xi}\ \ \dfrac{\partial\Phi}{\partial\widehat{u}^i}=\left(\dfrac{\partial\Phi}{\partial u_{\widehat{\mu}_1}^i},...,\dfrac{\partial\Phi}{\partial u_{\widehat{\mu}_{M_i}}^i}\right)$, $\dfrac{\partial\Phi}{\partial\breve{u}^i}=\left(\dfrac{\partial\Phi}{\partial u_{\breve{\mu}_1}^i},...,\dfrac{\partial\Phi}{\partial u_{\breve{\mu}_{(n_i\cdot\aleph)-M_i}}^i}\right)$ törəmələri uyğun ölçülü sətir vektorlarıdır.

Asılı olmayan arqumentlərə nəzərən [9] funksionalın artım üsulundan istifadə edərək, aşağıdakı teoremin doğruluğunu sübut edə bilərik.

Teorem. Tutaq ki, (2.1), (2.2), (2.4), (2.5) məsələsində iştirak edən funksiya və parametrlər üzərinə qoyulan şərtlər yerinə yetirilir. Onda (2.5) funksionalı diferensiallanandır və w^{ki}, ξ^{ki}, v^i, $k\in I_i^+$, $i\in I$ *optimallaşdırılan parametrlərinə görə onun gradientinin komponentləri aşağıdakı düsturlarla təyin edilir:*

$$\mathrm{grad}_{w^{ki}}\Im(w,\mathrm{v},\xi)=-\left(B^{ki}\right)^{\mathrm{T}}\psi^{ki}(\xi^{ki})+\frac{\partial\Phi}{\partial w^{ki}}\,, \tag{3.2}$$

$$\mathrm{grad}_{\xi^{ki}}\Im(w,\mathrm{v},\xi)=-\left(B^{ki}\right)^{\mathrm{T}}\left.\frac{d\psi^{ki}(x)}{dx}\right|_{x=\xi^{ki}}w^{ki}+\frac{\partial\Phi}{\partial\xi^{ki}}\,, \tag{3.3}$$

$$\mathrm{grad}_{\mathrm{v}^i}\Im(w,\mathrm{v},\xi)=\left(\widehat{C}_i^{-1}\right)^{\mathrm{T}}\left(\left(\frac{\partial\Phi}{\partial\widehat{u}^i}\right)^{\mathrm{T}}+\widehat{\psi}^i\right)+\frac{\partial\Phi}{\partial\mathrm{v}}\,, \tag{3.4}$$

burada $\psi^{ki}(x)\in\mathrm{R}^{\aleph}$, $x\in[0,l^{ki}]$, $k\in I_i^+$, $i\in I$ *kəsilməz-diferensiallanan vektor funksiyaları aşağıdakı qoşma diferensial tənliklər sisteminin həllidir:*

$$\frac{d\psi^{ki}(x)}{dx}=\left(\frac{\partial f_0^{ki}(u^{ki}(x),w^{ki},\xi^{ki},\mathrm{v}^i)}{\partial u^{ki}}\right)^{\mathrm{T}}-(A^{ki}(x))^{\mathrm{T}}\psi^{ki}(x)\,,\quad x\in(0,l^{ki}),\ \ k\in I_i^+,\ \ i\in I, \tag{3.5}$$

ayrılmamış sərhəd şərtləri aşağıdakı şəkildədir:

$$\left(\frac{\partial\Phi}{\partial\breve{u}^i}\right)^{\mathrm{T}}+\breve{\psi}^i-\left(\breve{C}_i\right)^{\mathrm{T}}\left(\widehat{C}_i^{-1}\right)^{\mathrm{T}}\left(\left(\frac{\partial\Phi}{\partial\widehat{u}^i}\right)^{\mathrm{T}}+\widehat{\psi}^i\right)=0,\quad i\in I\,, \tag{3.6}$$

burada $\widehat{\psi}^i=(\psi^i_{\widehat{\mu}_1},...,\psi^i_{\widehat{\mu}_{M_i}})^{\mathrm{T}}$, $\breve{\psi}^i=(\psi^i_{\breve{\mu}_1},...\psi^i_{\breve{\mu}_{(n_i\cdot m)-M_i}})^{\mathrm{T}}$.

Bir çox praktik tətbiqlərdə xarici mənbələr heç də obyektin bütün sahələrində və təpələrində iştirak etmir. Xüsusilə, bəzi bağlantılar və ya təpələrdə onların qiymətləri verilə bilər və optimallaşdırılmaya bilər. Bu hallarda, funksional gradiyentlərinin müvafiq komponentləri hesablanmır və sıfra bərabər hesab olunur.

Qeyd. Əgər məsələnin ədədi həlli nəticəsində kifayət qədər kiçik ε üçün $\left\|w^{ki}\right\|_{R^{\mu_{ki}}}<\varepsilon$, ya $\left|\xi^{ki}\right|<\varepsilon$, ya da $\left|\xi^{ki}-l^{ki}\right|<\varepsilon$ o deməkdir ki, (k,i)-ci sahə daxilində xarici mənbə yoxdur.

Əgər $\left\|w^{ki}\right\|_{R^{\mu_{ki}}}>\varepsilon$ olarsa, lakin $\left|\xi^{ki}\right|<\varepsilon$ və ya $\left|\xi^{ki}-l^{ki}\right|<\varepsilon$ olarsa, bu o deməkdir ki, w^{ki} parametrləri olan mənbə k-cı və ya i-ci təpəyə təsir edir və müvafiq olaraq v^k və ya v^i parametrlərinin qiymətlərinə w^{ki} parametrlərinin qiymətləri əlavə edilməlidir.

Ədəbiyyat

1. Abdullayev V.M. Numerical Solution to Optimal Control Problems with Multipoint and Integral Conditions // Proc. of the Institute of Mathematics and Mechanics. 2018. V. 44. No. 2. P. 171–186.
2. Aida-zade K.R., Ashrafova Y.R. Optimal Control of Sources on Some Classes of Functions // Optimization: A Journal of Mathematical Programming and Operations Research. 2014. V. 63. No. 7. P. 1135–1152.
3. Aida-zade K.R., Ashrafova E.R. Numerical Solution to the Problem of Determination of Places and Volume of the Fluid Leakage under Non-stationary Regimes in a Pipeline Network // Computational Mathematics and Mathematical Physics. 2017. V. 57. No. 12. P. 1919–1934.
4. Aida-zade K.R., Bagirov A.H. On the Problem of Placement of Oil Wells and Control of Their Flow-rates // Autom. Remote Control. 2006. No. 1. P. 52–61.
5. Aida-zade K.R. Investigation of Non-Linear Optimization Problems of Networks Structure // Autom. Remote Control. 1990. V. 51. No. 2. P. 135–145.
6. Lions J.L. Controle des Systemes Distributes Singuliers, Gauthier-Villars, Paris, 1987.
7. Miller B.M., Rubinovich E.Y. Impulsive Control with Impulsive Actions of Two Types //Autom. Remote Control. 2009. V. 70. No. 11. P. 1795–1813.
8. Ащепков Л.Т. Оптимальное управление системой с промежуточными условиями // ПММ. 1981. Т. 45. Вып. 2. С. 215–222.
9. Васильев Ф.П. Методы оптимизации. М.: Факториал Пресс. 2002.
10. Тихонов А.Н., Васильева А.Б., Свешников А.Г. Дифференциальные уравнения. М.: Физматлит, 2005.
11. Черноусько Ф.Л. Оптимальное перемещение многозвенной системы в среде с сопротивлением // Тр. ИММ УрО РАН. 2011. Т. 17. № 2. С. 240–255.

РЕЗЮМЕ

ОПТИМИЗАЦИЯ МЕСТ И МОЩНОСТЕЙ ИСТОЧНИКОВ СИСТЕМЫ СЕТЕВОЙ СТРУКТУРЫ

Ашрафова Е.Р.

Ключевые слова: *источники, размещение источников, нелокальные условия, условия оптимальности, градиент функционала.*

Исследуется решение задачи оптимизации мест размещения и значений мощностей сосредоточенных источников, влияющих на функционирование сложного объекта сетевой структуры. Объект состоит из большого числа одномерных объектов, состояние каждого из которых описывается системой обыкновенных дифференциальных уравнений с неразделенными краевыми условиями. Получены формулы для компонент градиента функционала как по значениям мощностей, так и местам сосредоточения источников.

SUMMARY

OPTIMIZATION OF PLACES AND CAPACITIES OF SOURCES OF THE NETWORK STRUCTURE SYSTEM

Ashrafova Y.R.

Keywords: *sources, source placement, non-local conditions, optimality condition, functional gradient.*

The solution of the problem of optimization of locations and capacities of lumped sources that affect the functioning of a complex object of a network structure is investigated. The object consists of a large number of one-dimensional objects, the state of each of which is described by a system of ordinary differential equations with unseparated boundary conditions. Formulas for the components of the functional are obtained both for the capacities and for the places where the sources are concentrated.

RADİOELEKTRON MÜBARİZƏ SİSTEMLƏRİNƏ MALİK PİLOTSUZ UÇUŞ APARATI

Əzizullayev Muxtar Qalib, Əfəndiyev Həmzə Ziya, Fərzəliyev Adışirin Xələddin

Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu

Bakı, Azərbaycan

azizullayevmuxtar27@gmail.com, ferzeliyevadisirin@gmail.com

Açar sözlər: *PUA, REM, GPS, EH, ED, radar, verici, osilator, radiolokasiya.*

Məqalədə, radioelektron mübarizə sistemlərinin pilotsuz uçuş aparatı (PUA) vasitəsilə həyata keçirilməsi üzrə tədqiqat işi aparılmış, radar sistemlərinin iş prinsipləri və sxemləri təhlil olunmuşdur. Bu məqsədlə, bu sahədə mövcud texniki ədəbiyyatlar araşdırılmışdır. Alınmış ümumi nəticələr əsasında müxtəlif təyinatlı radioelektron mübarizə qurğularının üstün cəhətlərini özündə cəmləşdirən pilotsuz uçuş aparatının layihələndirilməsi tərəfimizdən təklif olunmuşdur.

Giriş: Son illərdə dünyada baş verən münaqişələrdə, o cümlədən Liviya, Suriya, Qarabağda və hazırda Ukraniyada gedən döyüşlərdə PUA-lardan və radioelektron mübarizə (REM) vasitələrindən geniş istifadəni müşahidə etmişik. Daha müasir intellektual idarə etmənin tədbiq edildiyi Azərbaycan ordusuna məxsus PUA-ı öz üstünlüyünü Qarabağda aparılan döyüş əməliyyatlarında nümaiş etdirdi.[1] Qeyd etmək lazımdır ki, bu tip avadanlıqlarla mübarizənin effektiv yolu radioelektron mübarizədir. Müasir silahlarda yəni təkcə PUA-lar deyil (artileriya, hava hücümundan müdafiə sistemləri, zirehli maşınlar və s) naviqasiya sisteminə bağlıdır. REM vasitələri düşmənə məxsus silahı onun özünə qarşı istifadə etməyə, onu ələ keçirməyə və ya komanda məntəqələri arasında əlaqəni pozmağa imkan verir. Bu məqalədə sözü gedən sistemlərin qarşılıqlı birgə istifadəsi nəzərdə tutulur. Yəni elə radioelektron mübarizə PUA-ı konustruksiya olunmalıdır ki, optimal konstruksiyanın sadəliyinə, yüngül çəkiyə malik olmasına və daşınmasına görə istənilən ərazidə düşmənin rabitə, radioelektron mübarizə vasitələrinə və pilotsuz uçuş aparatına qarşı susturma əməliyyatı aparsın.

İşin məqsədi: Radioelektron mübarizə imkanlarına malik pilotsuz uçuş aparatı ilə düşmənin rabitə, radioelektron mübarizə vasitələrinə və pilotsuz uçuş aparatına qarşı susturma əməliyyatı icra etməkdən ibarətdir.

Əsas hissə:

Radioelektron mübarizə düşmən qüvvələri tərəfindən elektromaqnit spektrindən istifadənin qarşısını almaq, düşmənin radioelektron quğularının effektivliyini azaltmaq, dezinformasiya hallarına qarşı yönəlmiş əks tədbir fəaliyyətidir [11]. Elektron müharibəyə insanların, rabitə vasitələrinin, radar sistemlərinin və digər obyektlərin havadan, qurudan, dənizdən və ya kosmosdan idarə olunan və pilotsuz sistemlərdən istifadə edərək məhv edilməsi daxildir [10]. Bu texnologiyalardan istifadə edən vasitələrdən biri də pilotsuz uçuş aparatlarıdır ki, (PUA) buda hərbi tətbiq sahəsindən, mülki tətbiq sahəsinə qədər geniş vəzifələrdə istifadə edilir və bu səbəblə PUA-nın tətbiq sahələri gündən-günə genişlənməkdədir [1]. Sadə dillə desək, PUA-lar uzaqdan radioidarətmə sistemləri ilə, avtonom və ya yarı avtonom idarə oluna bilən, bortunda insan olmayan hava nəqliyyat vasitələridir. PUA-ı seçilmiş tapşırığı müvəffəqət ilə başa vura, baş verə biləcək situatisayadan aslı olaraq hərbi bazaya qayıda bilə və özünü məhvetmə kimi tapşırıqları icra etmə imkanlarına malik olan, yeni nəsil müharibələr üçün əvəzedilməz vasitə kimi istifadə edilməkdədir [1]. Bu proseslərin aparılmasında əsas amillərdən biridə radar sistemləridir. Radar sistemləri, II Dünya müharibəsindən bəri istifadə olunur. Bu, radio siqnalları ilə yer və məsafə tapmaq sistemidir [7]. Əsas iş prinsipinə baxsaq, radio dalğası ötürücü antenna vasitəsilə ötürücü dövrə tərəfindən yayılır [14]. Ötürülən dalğanın bir hissəsi hədəfə dəyir və yenidən radar qəbuledici antenasına əks olunur. Bu əks əks-səda adlanır. Bu cür prosesin aparılması üçün obyektin əksetdirici qabiliyyətə malik olması zəruridir (Şəkil 1.) [9].



Şəkil 1 Obyektdən əksolunma [5].

Fəzanın elektromaqnit xüsusiyyətlərindən (elektrik və maqnit nüfuzluluğu) fərqli olaraq istənilən obyekt az və ya çox dərəcədə bu cur xassələrə malikdir [5]. Obyektdən əks olunan elektromaqnit enerjisinin bir hissəsi radar stansiyası istiqamətində yayılır, antenalar tərəfindən qəbul edilən əks-səda dalğası nümayiş üçün siqnalı demodulyasiya edilir [13]. Ekrana siqnallar göndərilir ki, bu da hədəfin mövcudluğunu göstərən göstərici kimi çıxış edir. Bununla belə, göstərici hədəfin məsafəsini, sürətini, istiqamətini və bir çox məlumatı da göstərir [11].

Radarlar üçün osilator dövrəsinin nümunəsi modeli aşağıdakı sxemdə göstərilmişdir. Osilator dövrələrinin məqsədi kvadrat - üçbucaq - mişar elektron siqnallarını yaratmaq üçün hazırlanmış bir dövrədir (Şəkil 1) [9].



Şəkil 2 Radar üçün osilator dövrəsinin nümunəsi [9].

Qəbuledicilər istənilən tezlik və gücün radio siqnallarını izləmək və qəbul edilən siqnalı gücləndirmək üçün nəzərdə tutulmuş sxemlərdir [8].

Radar sistemlərinin vasitəsi ilə əldə olunan məlumatlar əməliyyat qərarları qəbul etməyə kömək edir və vəziyyətə uyğun olaraq düzgün qərarlar qəbul etməyə imkan verir [12]. Bundan əlavə radioelektron mübarizə zamanı baxılması vacib olan elementlərdən biridə elektron kəşfiyyatdır. Elektron kəşfiyyatdır aşağıdakı növlərinə görə təsnif olunur.

- Radiokəşfiyyat;
- Radiotexniki kəşfiyyat;
- Radiolokasiya kəşfiyyatı;

Radiokəşfiyyat - radioelektron kəşfiyyatın ən qədim formasıdır. Bu, müxtəlif rabitə vasitələrinə qarşı yönəldilmiş kəşfiyyat növüdür [3]. Radiokəşfiyyatın əsas vəzifəsi - açıq, gizli, məxfi və kodlanaraq göndərilən siqnalların aşkar edilməsi və tutulması, siqnalların pelenq olunması, əldə olunan məlumatların açılması məqsədilə analiz olunması və siqnal ötürən stansiyaların yerləşdiyi ərazini təyin etməkdən ibarətdir [6].

Radiotexniki kəşfiyyat – radiolokasiya stansiyalarının, radionaviqasiya və radio-telekommunikasiya sistemlərinin aşkarlanması və tanınması üçün aparılan radio-elektron kəşfiyyat növüdür.[6] Radiotexniki kəşfiyyat radiosiqnal qəbulu, istiqaməti təyin emək və radio siqnalların analizləri metodlarından istifadə edilərək həyata keçirilir [2].

Radiolokasiya kəşfiyyatı – informasiya radiolokasiya stansiyaları vasitəsilə əldə edilir. RLS daşınan və sabit ola bilər [6]. Radilokasiya kəşiyyatı aparmaq üçün hava vasitələrində və kosmik aparatlarda, yerüstü və dəniz vasitələrində quraşdırılan sabit və daşınan radiolokasiya qurğularından istifadə olunur [4].

Məqalədə sözü gedən sistemdə PUA-ı ilə elektron hücumun (PEH) məqsədi düşmənin elektromaqnit spektrindən səmərəli istifadə etməsinin qarşısını almaqdır. Daha aydın şəkildə şərh etsək radioelektron mübarizə qurğusunun PUA-a quraşdırmaqla radioelektron mübarizə sistemlərinə malik pilotsuz uçuş aparatının hazırlanmasıdır. Bu sistem, düşmənin elektromaqnit mərkəzi sistemlərinin səmərəliliyini azaltmaq elektromaqnit dalğası tərəfindən yüksək enerji yükü ilə sxemləri, tranzistorları və digər elektron cihazları məhv etməsi və onları yararsız hala gətirməsi prinsipi üzərində işləyir. Bu qurğu vasitəsi ilə dezinformasiya məlumatlar göndərərək düşməni yalnış hədəflərə istiqamətləndirmək və əsas hədəflərdən yayındırmaq metodlarınında aparılması yolveriləndir.

Nəticə və təklif.

Məqalədə radioelektron mübarizə sistemlərinin pilotsuz uçuş aparatı (PUA) vasitəsilə həyata keçirilməsi üzrə tədqiqat işi aparılmış, radar sistemlərinin iş prinsipləri və sxemləri təhlil olunmuşdur. İstinad etdiyimiz ədəbiyyatlarda radioelektron mübarizə prosesinin PUA-ı vasitəsi ilə aparılmasına rast gəlməmişik. Təklif etdiyimiz layihədə radioelektron mübarizə sistemlərinə malik pilotsuz uçuş aparatı vasitəsi ilə düşmənin rabitə, radioelektron mübarizə vasitələrinə və pilotsuz uçuş aparatına qarşı susturma əməliyyatı aparması prosesi nəzərdə tutulmuşdur.

Ədəbiyyat

1. Mobile & Personal Communications Committee of the Radio Advisory Board of Canada, "Use of jammer and disabler Devices for blocking PCS, Cellular & Related Services" http://www.rabc.ottawa.on.ca/e/Files/01pub3.pdf

2.Braun, T.; Carle, G.; Koucheryavy, Y.; Tsaoussidis, V., Wired/Wireless Internet Communications, Third International Conference, WWIC 2005, Xanthi, Greece, May 11- 13, 2005, Proceedings, p188.

3. John Scourias, Overview of the Global System for Mobile Communications, http://ccnga.uwaterloo.ca/~jscouria/GSM/gsmreport.html#1

4.Rick Hartley, RF / Microwave PC Board Design and Layout, www.jlab.org/accel/eecad/pdf/050rfdesign.pdf

5.http://www.mumor.org/public/publications/ISCAS_2004_MuMo_Receiver.pdf

6. https://ordu.az/az/news/164023

7.https://tr.wikipedia.org/wiki/Elektronik_sava%C5%9F

8.Electron Scattering And Related Spectroscopies. M.De.Crescenzi.pdf

9.https://www.savunmasanayist.com/elektronik-harp-nedir/

10.https://www.kitapyurdu.com/kitap/elektronik-harp-ve-sinyal-savaslari/114186.html

11.https://thinktech.stm.com.tr/uploads/docs/1619620343_stm-insansiz-hava-araclarinda-elektronik-harp.pdf?

12.Cayirci, E., & Rong, C. (2009). Information Operations and Electronic Warfare.

13. Tsui, J. B. (2010). Special Design Topics in Digital Wideband Receivers. Artech House.

14.Graham, A. (2010). Non-Communications Electronic Warfare. Graham, A. (2010). Radio Links in the Presence of Noise.

РЕЗЮМЕ

БПЛА С РАДИОЭЛЕКТРОННЫМИ БОЕВЫМИ СИСТЕМАМИ

Азизуллаев М.Г., Афандиев Г.З., Фарзалиев А.Х.

Ключевые слова*: *БПЛА, РЭМ, GPS, ЭГ, ЭД, РЛС, передатчик, генератор, радиолокация.

В статье проведена научно-исследовательская работа по реализации систем радиоэлектронного боя с помощью беспилотных летательных аппаратов (БПЛА), проанализированы принципы работы и схемы радиолокационных комплексов. Для этого была изучена существующая техническая литература в этой области. На основании полученных общих результатов предложена конструкция беспилотного летательного аппарата, включающая в себя преимущества радиоэлектронных боевых средств различного назначения.

SUMMARY

UAV WITH RADIO ELECTRONIC COMBAT SYSTEMS

Azizullayev M.G., Afandiyev H.Z., Farzaliyev A.K.

Keywords: *UAV, REM, GPS, EH, ED, radar, transmitter, oscillator, radiolocation*

In the article, research work on the implementation of radio-electronic combat systems by means of unmanned aerial vehicles (UAVs) was conducted, the working principles and schemes of radar systems were analyzed. For this purpose, the existing technical literature in this field was examined. Based on the general results obtained, we proposed the design of an unmanned aerial vehicle that includes the advantages of radio-electronic combat devices of various purposes.

"ELMİ-KADRLAR" MİLLİ İNFORMASİYA SİSTEMİNİN KONSEPTUAL ƏSASLARI

Hacırəhimova Məkrufə Şərif qızı, İsmayılov Raqif Mayıl oğlu
İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
raqif.ismayilov@gmail.com

Açar sözlər: *elmi kadrlar, informasiya sistemi, konsepsiya, intellektual analiz*

Məqalədə Azərbaycanda elmi fəaliyyətlə məşqul olan ali təhsil və elmi qurumlarda elmi fəaliyyətlə məşğul olan kadrların və onların intellektual fəaliyyətinin nəticələrinin uçotunun avtomatlaşdırılmış sisteminin yaradılmasından bəhs edilir. "Elmi kadrlar" Milli İnformasiya Sisteminin yaradılmasna konseptual yanaşma təklif edilmişdir. Sistemin əsas məsələləri formalaşdırılmış və funksional və texniki imkanları şərh edilmişdir. Yaradılmış informasiya sistemi ölkə üzrə elmi kadrların vahid informasiya fəzasının formalaşdırılmasını və intellektual potensialın monitorinqini təmin edən proqram-informasiya kompleksi olaraq təqdim olunmuşdur.

Giriş

Rəqəmsal texnologiyalar gündəlik həyatımızda və fəaliyyətimizdə inqilabi dəyişikliklər etdi. Belə ki, informasiya texnologiyalarının inkişafı idarə və təşkilatlara mühasibat, kadrlar (*insan resursları*), kitabxana və s. kimi əl üçot sistemlərini kompüterləşdirməyə - daha sürətli və dəqiq rəqəmsal uçot informasiya sistemləri ilə əvəz etməyə imkan verdi [4-8]. İnformasiya sistemləri, təşkilatın fəaliyyətinin planlaşdırılması və idarə edilməsində faydalı məlumatların əldə edilməsində, informasiyanın toplanması, emalı, saxlanması, axtarışı və müxtəlif məqsədlər üçün analiz edilməsində bir alət kimi müəyyən edilə bilər [9]. Bütün dünyada olduğu kimi Azərbaycan üçün də XXI əsr informasiya texnologiyalarının cəmiyyətin bütün sahələrinə intensiv tətbiqi ilə səciyyələnir və bu hal getdikcə cəmiyyətin informasiyalaşdırılması kimi xarakterizə olunmaqdadır. Belə ki, istər dövlət səviyyəsində, istərsə də ayrı-ayrı təşkilatlarda müxtəlif məqsədlərlə yaradılmış elektron sistemlər tətbiq edilməkdədir. Bunlara nümunə olaraq e-gov.az portalına inteqrasiya olunmuş dövlət qrumlarının elektron sistemlərini göstərmək olar. Təşkilatlarda resursların qeydiyatını həyata keçirən (*ERP - enterprise resource planning*) sistemləri olsa da, intellektual əməklə məşğul olan elmi kadrlar haqqında informasiyanın ölkə üzrə avtomatlaşdırılmamış vahid reyestrinin olmaması problemi mövcuddur. Eyni zamanda elmi fəaliyyətlə məşğul olan qurumların fəaliyyətinin obyektiv qiymətləndirilməsi çox önəmli məsələlərdəndir [9-13]. Belə ki, dövlət elmi fəaliyyətə kifayət qədər vəsait ayırır və onun müqabilində alınmış nəticələr maraq doğurur. Müasir şəraitdə elmi kadrlar və onların fəaliyyəti haqqında informasiyanın toplanması, saxlanması və analizi üçün xüsusi informasiya sistemi olmadan elmi fəaliyyətin qiymətləndirilməsini həyata keçirmək mümkün deyildir. "Elmi-kadrlar" İnformasiya Sisteminin yaradılması elmi qurumların gələcək strateji hədəflərini müəyyən etmək və proqnozlaşdırmaq, prosesləri sürətləndirmək üçün vacibdir, qərarların qəbulu prosesində əhəmiyyətli ola bilər.

“Elmi kadrlar” milli informasiya sisteminin yaradılmasını şərtləndirən əsas amillərdən biri də Azərbaycan Respublikasında qəbul edilmiş hüquqi sənədlər və həyata keçirilən bir sıra tədbirlərin təşkil edilməsidir. Belə ki, son illər Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı, elmi innovasiya fəaliyyətinin dəstəklənməsi və elmi nailiyyətlərin stimullaşdırılması sahələrində bir sıra tədbirlər həyata keçirilib, proqram, strategiya qəbul olunuş, sərəncamlar verilmişdir [1-3]. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyəti (RH) mühüm sosial-iqtisadi problemlərin həllində elmin və texnikanın rolunun yüksəldilməsi, dövlətin informasiya ehtiyatlarının artırılması və innovasiya proseslərinin sürətləndirilməsi məqsədilə Azərbaycanda elm sektorunun inkişaf strategiyasını hazırlamışdır. Ölkə səviyyəsində elmi fəaliyyətin monitorinqi və proqnozlaşdırılması, analitik və statistik təhlillərin aparılması, elektron hesabat formalarının hazırlanması və elmi informasiyanın əlçatanlığının təmin edilməsi, eləcə də elmi kadrlar haqqında vahid elektron informasiya sisteminin yaradılması çox vacibdir. Bunları nəzərə alaraq, AMEA-nın Prezidentinin 12 mart 2019-cu il 131 saylı sərəncamına uyğun olaraq AMEA İnformasiya Texnologiyaları İnstitutu tərəfindən “Elmi kadrlar” Milli İnformasiya Sistemi yaradılması işlərinə başlanılmışdır.

Elmi kadrlar analitik informasiya sisteminin konseptual modeli

Tədqiqatın məqsədi “Elmi kadrlar” milli informasiya sisteminin yaradılmasına konseptual yanaşmanın hazırlanması və sistemin proqram təminatının işlənməsidir. Təqdim olunan konsepsiyanın ideyası ölkənin bütün elm və təhsil sahəsində fəaliyyət göstərən elmi karların vahid informasiya məkanında toplamaqdır. Yəni, təklif olunan konseptual yanaşmanın əsas ideyası elmi kadrların əsas göstəriciləri kimi şəxsi məlumatlar, elmi əsərlər, kitablar, monoqrafiyalar, dərsliklər və dərs vəsaitləri, elmi ekspertiza fəaliyyəti, patentlər və ixtiralar, qrant layihələrində iştirak, eləcə də kadr hazırlığı, respublika, beynəlxalq və xarici ölkələrin elmi qurumlarında təmsil olunma, əlaqə məlumatları daxil etməkdir. Sistemdə informasiyanın daxil edilməsi proseduru unifikasiya olunmuş formada və verilənlərin saxlanması standartlaşdırılmışdır. Konseptual olaraq sistem şəkil 1- dəki kimi təqdim olunmuşdur.



Şəkil 1. Elmi kadrlar Milli informasiya sisteminin konseptual sxemi

İstifadəçi modulu– Sistemin əsas istifadəçiləri ali təhsil , elmi müəssisə və təşkilatlarda elmi fəaliyyətlə məşğul olan elmi kadrlar və sistemi idarə edən administratorlardan ibarətdir. Sistemin

istifadəçilərinin sistemdə identifikasiyası və autentifikasiyası əsas məsələlərdəndir. Bu moduldan istifadə etməklə elmi müəssisə və təşkilatlarda elmi fəaliyyətlə məşğul olan kadrların sistemdə qeydiyyatı, özü haqqında və yuxarıda qeyd olunan elmi fəaliyyətinə aid bütün məlumatların sistemə daxil etməsi həyata keçirilir.

Elmi kadrlar sisteminin əsas istifadəçi interfeysi şəkil 2 - də təqdim olunmuşdur.

Şəkil 2. Elmi kadrlar sisteminin istifadəçi interfeysi

Təhlükəsizlik modulu – İnformasiya sistemi hazrlanarkən onun təhlükəsizliyinin təmin edilməsi əsas məsələlərdən biridir. Sistemdə elmi kadrın sistem üzərindəki şəxsi səhifəsinə özünün icazəsi olmadan digər şəxslərin daxil olmasının qarşısı alımışdır və məlumatların üzərində əməliyyatlar aparılarkən ortaya çıxan problemlərin həlli üçün təhlükəsizlik tədbirləri görülmüşdür.

İdarəetmə modulu – İstifadəçilər tərəfindən sistemə daxil edilmiş məlumatlar verilənlər bazasında toplanılır və onların üzərində müxtəlif əməliyyatların aparılması üçün idarəetmə bölməsinə təqdim edilir. Sistemin administratoru tərəfindən sistem üzərində müxtəlif formalarda tərtib olunmuş axtarış əməliyyatları, analizlərin aparılması və hesabatların əldə olunması mümkündür.

Axtarış modulu – "Elmi kadrlar" milli informasiya sistemin əsas funksional imkanlarından biri də 110-dan çox məlumat sahələri üzrə sadə və kombinə olunmuş sorğu əsasında axtarış əməliyyatlarının aparılmasıdır. Elmi kadrlar üçün istifadəçi səhifəsində yalnız özünün sistemə daxil etdiyi məlumatların üzərində axtarış əməliyyatlarının yerinə yetrilməsi mümkündür, administrator isə idarəetmə səhifəsində verilənlər bazası üzərində bütün məlumatlar üzrə axtarış əməliyyatlarını yerinə yetirə bilir.

Verilənlər bazası (MB)– Elmi kadrlar haqqında məlumatların saxlanması və onların idarə edilməsi verilənlər bazası modulu vasitəsilə həyata keçirilir. Siatemdə verilənlər bazası 15 asılı cədvəllərdən təşkil olunmuş və cədvəllər ID kod vasitəsilə əlaqələndirilmişdir. Verilənlər bazasının strukturu şəkil 3-də təqdim olunmuşdur.

Analiz və hesabatlar bloku– sistemdə yuxarıda qeyd olunmuş məsələlərlə yanaşı, müxtəlif məqsədlər üçün təhlillərin və qiymətləndirmələrin aparılmasına imkan verir. Toplanmış məlumatlar müxtəlif parametrlər üzrə həm ölkə, həm, təşkilat, həm də fərd üzrə statistik təhlillərin aparılmasına, elmi problemlərin klassifikasiyasına, elmi tədqiqatlarda təkrarçılığın aşkarlanması, demoqrafik, elmmetrik və s. kimi analitik təhlillərin aparılmasına, idarəetmə qərarlarının formalaşdırılması və qəbuluna dəstək verir. Onu da qeyd etmək lazımdır ki, analiz və axtarışın nəticələrini elektron arayışlar və tipik hesabatlar şəklində qərar qəbul edən şəxslərə təqdim etmək mümkündür. Sistemin

intellektuallıq imkanlarının genişləndirilməsi məqdədi ilə data mining, maşın təlimi (machine learning), dərin təlim (deep learning), Big data analitika, qeyri-səlis axtarış alqoritmlərinnin, bir sözlə süni intellekt üsullarının tətbiqi istiqamətində işlər həyata keçirilməkdədir.



Şəkil 3. Məlumat bazasının strukturu

Sistemin texniki aspektləri

"Elmi kadrlar"analitik-informasiya sistemi layihələndirilərkən mövcud texnologiyalar təhlil edilmiş və geniş imkanlara malik Dot.Net 4.5. platforması və verilənlər bazası idarəetmə sistemi olaraq MS SQL Server seçilmişdir. Sistemin özəlliyi ondan ibarətdir ki, o, istifadəçi kompüterlərində xüsusi proqram təminatının quraşdırılmasını tələb etmir. Sistem kliyent-server arxitekturasına malikdir və veb proqram formasında yaradılmışdır. Sistemin bütün proqram kodu və verilənlər bazası (VB) serverdə yerləşir. Proqram kodunda bütün dəyişikliklər serverdə baş verir, ona görə də sistemin kliyent hissəsi həmişə proqramın ən son versiyası ilə işləyir. Bütün bunlar sistemin əsas üstünlükləri kimi qiymətləndirilə bilər.

Nəticə və gələcək işlər

Azərbaycanda ali təhsil və elmi tədqiqat müəssisələrində elmi kadrların və onların fəaliyyətinin nəticələrinin uçotu və monitorinqinin aparılması məqsədilə yaradılmış "Elmi kadrlar" Milli İnformasiya Sistemi elmi kadrlar, elmi tədqiqatlar haqqında məlumat bazasının formalaşdırılması və elmi informasiyalara əlçatanlığın təmin edilməsinə imkan verir. Toplanmış məlumatlar əsasında müxtəlif səviyyələrdə klassifikasiya, axtarış, müxtəlif məqsədlər üçün analizlərin aparılması və nəticələrin analitik hesabatlar olaraq təqdim olunmasına imkan verir. Sistemdən istifadə həm də elmi fəaliyyətin qiymətləndirilməsi sahəsində idarəetmənin və tənzimləmənin təkmilləşdirilməsinə şərait yaradır. Elmi kadrlar haqqında məlumatların intellektual

analizi metodundan və qeyri-səlis axtarış alqoritmindən istifadə tədqiqat işinin gələcək istiqamətini təşkil edir. Gələcəkdə hazırlanmış sistemə Google Academy, Web of Science, Scopus və s. kimi tanınmış elmmetrik sistemlərdən elmi məqalələrin axtarışı və yüklənməsi alt sistemi də daxil ola bilər. Növbəti mərhələdə sistemin digər sistemlərlə inteqrasiyası məsələsi nəzərdə tutulur.

Ədəbiyyat

1. "AR-də 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "AR-də 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 4 may 2009-cu il.
2. "Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılması işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 10 dekabr 2018-ci il.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"
4. Ball, Kirstie S. (2001). The use of human resource information systems: a survey. Personnel Review, 30(6) pp. 677–693. DOI: https://doi.org/10.1108/EUM0000000005979
5. The Role of Human Resource Information Systems (HRIS) in Strategic Master of Science Theses in Accounting, Swedish School Of Economics and Business Administration, 2007.
6. Monteiro, A.; Cepêda, C. Accounting Information Systems: Scientific Production and Trends in Research. Systems 2021, 9, 67. https: //doi.org/10.3390/systems9030067
7. Dalci, G.A.; Tanis, V.N. Benefits of Computerized Accounting Information Systems on the JIT Production Systems. Rev. Soc. Econ. Bus. Stud. 2003, 2, 45–64.
8. Sivertsen, G. (2019). Developing Current Research Information Systems (CRIS) as Data Sources for Studies of Research. In: Glänzel, W., Moed, H.F., Schmoch, U., Thelwall, M. (eds) Springer Handbook of Science and Technology Indicators. Springer Handbooks. Springer, Cham.
9. Гайдамакин, Н.А. Автоматизированные информационные системы, базы и банки данных / Н.А. Гайдамакин. – М.: Бином-Пресс, 2002 – С. 365.
10. Dorofeeva, V. I., Nikol'skii, D. N., & Fedyaev, Y. S. (2019). The Information System for Monitoring Research Activities in the Innovative Structure of a University. Scientific and Technical Information Processing, 46(1), 28–33. doi:10.3103/s0147688219010064
11. Akhmetzhanova Sh., Adilova A. Modeling of the information-analytical system of accounting of scientific works of university employees // Scientific Journal of Astana IT University, 2021, № 5, pp. 4-10. DOI: 10.37943/AITU.2021.24.37.001
12. Столяров Р.А., Чугреев В.Л. Автоматизированная система учета результатов интеллектуальной деятельности в научной организации // Вопросы территориального развития. 2015. № 6 (26). URL: http://vtr.isert-ran.ru/article/1512
13. Синицын А.А., Никифоров О.Ю., Андреев М. А. Концепция и структура информационно-аналитической системы анализа публикационной активности сотрудников научно-образовательной организации // Фундаментальные исследования, 2014. № 11. с. 1276–1280.
14. Mukhtarbekova Rasita M., Методы и программные средства для учета и оценки результатов научной деятельности в вузах кыргызской республики и россии //Прикаспийский журнал: управление и высокие технологии, 2017, № 4 (40), стр. 135-151.

РЕЗЮМЕ
КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ НАЦИОНАЛЬНОЙ ИНФОРМАЦИОННОЙ СИСТЕМЫ "НАУЧНЫЕ КАДРЫ"
Гаджирахимова М.Ш., Исмаилов Р.М.

Ключевые слова: *научный персонал, информационная система, концепция, интеллектуальный анализ.*

В статье говорится о создании автоматизированной системы учета кадров, занимающихся научной деятельностью, и результатов их интеллектуальной деятельности в высших учебных заведениях и научных учреждениях, занимающихся научной деятельностью в Азербайджане. Предложен концептуальный подход к созданию Национальной информационной системы «Научные кадры». Были сформулированы основные вопросы системы и разъяснены функциональные и технические возможности. Созданная информационная система была представлена как программно-информационный комплекс, обеспечивающий формирование единого информационного пространства и мониторинг интеллектуального потенциала научных кадров в масштабах страны.

SUMMARY
CONCEPTUAL FOUNDATIONS OF THE NATIONAL INFORMATION SYSTEM "SCIENTIFIC PERSONNEL"
Hajirahimova M.Sh., Ismayilov R.M.

Keywords: *scientific personnel, information system, concept, intellectual analysis*.

The article refers to the creation of an automated system for recording personnel engaged in scientific activities and the results of their intellectual activity in higher educational institutions and scientific institutions engaged in scientific activities in Azerbaijan. A conceptual approach to the creation of the National Information System "Scientific Personnel" is proposed. The main issues of the system were formulated and the functional and technical capabilities were explained. The created information system was presented as a software and information complex that ensures the formation of a single information space and monitoring of the intellectual potential of scientific personnel throughout the country.

VERİLƏNLƏR BAZASININ İDARƏETMƏ SİSTEMLƏRİNDƏ SƏNƏDLƏRİN SERİYALI VƏ SÜRƏTLİ ÇAP PROSESİNİN BİR ALQORİTMİ VƏ PROQRAMI

Hacıyev Akif Əsgər oğlu, Məmmədov Fərman Oruc oğlu
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
Akif.Hajiyev@edu.gov.az, fomamedov50@mail.ru

Açar sözlər: *seriyalı çap, alqoritm, blok sxem, elektron poçt, sürətli çap*.

İşdə müəssisə və təşkilatlarda sənədlərin çapının sürətləndirilməsi məqsədi ilə seriyalı və sürətli çap prosesinin əhəmiyyəti və praktiki tətbiqindən söhbət açılır. Eyni zamanda qeyd edilən məsələnin bir həll alqoritmi və blok-sxemi tərtib edilmişdir. Həmçinin, həmin məsələnin alqoritminə uyğun olaraq Visual Foxpro 9 alqoritmik dilində bir qrup təşkilatın bir sənədi üzrə proqram mətni göstərilmişdir. Eləcə də çap edilmiş sənədlərin, təşkilatların müvafiq elektron poçt ünvanlarına göndərilməsi alqoritminin də proqram modulu qurulmuş və göstərilən proqrama daxil edilmişdir.

Müasir dövrdə verilənlərin məlumat bazalarında saxlanılması, onların emalı və emal prosesi nəticəsində alınmış nəticələrin çapı müxtəlif üsullarla yerinə yetirilir. Həmçinin tərtib edilmiş proqramların icrası zamanı alınmış nəticələrin çap edilməsi müəyyən əmrlərlə yerinə yetirilir ki, bu halda alınan çıxış məlumatları ya monitora ötürülür, ya da kağıza çap edilir. Bununla yanaşı

proqramların icrası prosesində alınan nəticələrin müəyyən tip fayllarda saxlanılmasına ehtiyac yaranır. Odur ki, alqoritmik dilin imkanlarından istifadə etməklə proqramçı nəticələrin müəyyən adla .txt genişlənməli fayl şəklində saxlaya bilər. Bu isə Verilənlər Bazasının İdarəetmə Sistemlərində (VBİS) set alternate əmrlərindən istifadə etməklə mümükündür. Məsələn, nəticələri mətn.txt faylında saxlamaq üçün:

```
set alternate to mətn.txt
set alternate on
.......................
set alternate off
close alternate
```

proqram modulundan istifadə edilir. Hətta VBİS-lərdə alınan mətni faylların üzərində hər hansı bir redaktə əməliyyatlarının aparılması məqsədilə mətn redaktoru yaratmaq imkanı vardır. Belə ki, həmin mətn redaktorlarında bu faylları açmaq və onların üzərində redaktə işləri aparmaq, faylları başqa adla saxlamaq, çap etmək və s. əməliyyatları aparmaq mümkün olur. Bu VBİS-lərin MS DOS əməliyyat sistemində işləyən variantlarında geniş tətbiq edilirdi. Lakin vizual proqramlaşdırma dillərində buna ehtiyac qalmır. Çünki, Windows əməliyyat sistemində işləyən və vizual proqramlaşdırma dillərində tərtib edilmiş proqramlarla ofis proqramları (Word,Excel və s.) arasında əlaqə yaratmaq imkanları geniş olduğu üçün əlavə mətin redaktoru yaratmağa ehtiyac qalmır. Belə ki, vizual proqramlar Windows əməliyyat sistemində işlədiklərinə və bu əməliyyat sistemində proqramlararası əlaqə vasitələrindən istifadə etmək mümkün olduğuna görə, müxtəlif emal işlərinin məhz OLE-(ingilis dilində:Object Linking and Embedding) obyektlər, yəni məlumatların obyektlərlə əlaqələndirilməsi vasitəsilə həyata keçirilir və proqramın icrası zamanı alınan nəticələr ofis proqramlarına (Word,Excel və s.) göndərilir. Qeyd etdiyimiz kimi, bu əlaqələndirmələr Microsoft Office paketinin tətbiqi proqramlarının hər birində makrosların yaradılması proseslərində geniş tətbiq olunan VBA (Visual Basic for Application) alqoritmik dilinin imkanlarından istifadə etməklə həyata keçirilir.

1.Seriyalı və sürətli çap prosesinin bir alqoritmi və proqramı. Təqdim edilən məqalədə verilənlər bazasının məlumatlarının ardıcıl olaraq davamlı, yəni seriyalı çapının alqoritmi və proqramı barədə söhbət açacağıq.

Adətən proqram tərtibatı zamanı müəyyən təşkilat, firma, müəssisə və ya fiziki şəxslərə məxsus məlumat bazalarından tək bir təşkilata, firmaya, şəxsə və s. aid olan məlumatın çap edilməsi nəzərdə tutulur. Hətta bir təşkilata, firmaya, şəxsə və s. məxsus bir deyil bir neçə müxtəlif xarakterli məlumat bazaları ola bilər və bunların hər birinin çap edilməsi ayrıca həyata keçirilir. Lakin müəyyən hesabatvermə proseslərində bir təşkilata, müəyyən qrup təşkilatlara məxsus bütün sənədlərin eyni zamanda çap edilməsi zərurəti yaranır. Əgər təşkilatların siyahısından və hər təşkilata uyğun sənədlər siyahısından sənədi seçib ayrı-ayrı çap etsək həddindən artıq vaxt itkisi yarana bilər. Bu baxımdan vaxt itkisinin aradan qaldırılması, sənədlərin sürətli və davamlı çap edilməsi məsələsi ortaya çıxır.

Qeyd edilən məsələnin müəyyən qrup müəssisə üzrə yerinə yetirilməsi aşağıda göstərilən alqoritm əsasında həyata keçirilə bilər:

1. Təsnifat koduna uyğun olaraq verilənlər bazasından bir qrup təşkilata məxsus məlumatlar seçilir və onlar təşkilatlar və onlara məxsus sənəd növlərinə görə çeşidlənir;
2. Çeşidlənmiş məlumat cədvəli və məlumatların yönəldilməli olduğu ofis proqramı açılır;
3. Təşkilatlar cədvəlindən təşkilat seçilir;
4. Çeşidlənmiş məlumat cədvəlindən götürülən təşkilat və həmin təşkilata məxsus sənədə aid məlumatlar ofis sənədinə yönəldilir;

5. Baxılan təşkilata məxsus götürülmüş sənəd üzrə məlumatların yönəldilmə prosesinin başa çatdığını bildirən şərt ödənildikdə ofis proqramının sənədi müəyyən adla saxlanılaraq bağlanır.
6. Baxılan təşkilata uyğun elektron poçt ünvanı götürülür və tərtib edilmiş sənəd təşkilatın elektron poçt ünvanına göndərilir;
7. Yenidən 2-ci bəndə uyğun olaraq məlumatların yönəldilməli olduğu ofis proqramı açılır və 4-cü addıma keçid edilir;
8. Baxılan təşkilat üzrə bütün məlumatların ofis sənədlərinə yönəldilmə prosesi başa çatdıqdan sonra 3-cü bəndə keçid edilir;
9. Nəhayət bütün təşkilatlar üzrə məlumatlar çap edilərək ofis sənədləri şəklində hər bir təşkilatın elektron poçt ünvanına göndərildikdən sonra proses başa çatır.

Verilmiş alqoritmin blok sxemi aşağıdakı kimidir:



Qeyd edilən alqoritm əsasında müəyyən qrup təşkilatlar üzrə bütün məlumatların çap edilərək ofis sənədlərinə yönləndirilməsi və onların təşkilatların elektron poçt ünvanına göndərilməsinin proqram təminatının həcmi böyük olduğu üçün yalnız bir qrup təşkilatın bir sənədi üzrə məlumatların seriyalı çapının proqramını veririk:

```
Para kor
CD &ptf
ERASE forma2ksc.dbf
USE forma1s
COPY TO forma2ksc FOR ALLTRIM(korg)=ALLTRIM(kor)
CD &ptf
ERASE forma2kss.dbf
USE forma2ks
SORT ON korg,paragraf TO forma2kss.dbf
use
```

```
SELECT 1
USE tashk.dbf
SELECT 2
USE forma2kss
PUBLIC faun1
SELECT 2
Oleam=createobject("Excel.Application")
Oleam.Visible=.T.
faun=ptf+"forma2k.xlsx"
Oleam.Workbooks.Open(faun)
kg=korg
par=paragraf
SELECT 1
LOCATE FOR kg=korg
tasad=norg
Oleam.Cells(5,2).value=tasad
Oleam.Cells(9,5).value=par
i=0
SELECT 2
DO WHILE .not. EOF()
IF  ALLTRIM(kg)<>ALLTRIM(korg) .or. ALLTRIM(par)<>ALLTRIM(paragraf)
faun1=pt+kg+"forma2ks"+par+".xlsx"
IF FILE(faun1)=.T.
ERASE &faun1
Oleam.ActiveWorkbook.SaveAs(faun1)
Oleam.quit
ELSE
Oleam.ActiveWorkbook.SaveAs(faun1)
Oleam.quit
endif
Local loOutlook, loNewEmail
 loOutlook = Createobject("Outlook.Application")
 loNewEmail = loOutlook.createitem(0)
 loNewEmail.subject = "hesabat"
 loNewEmail.To =mailun
 loNewEmail.cc =mailun1&& "a.haciyev58@mail.ru"
 loNewEmail.body = "Hesabat"
  loNewEmail.Attachments.Add(faun1)
 loNewEmail.Send
Oleam=createobject("Excel.Application")
Oleam.Visible=.T.
faun=ptf+"forma2k.xlsx"
Oleam.Workbooks.Open(faun)
Oleam.Range(Oleam.Cells(8,2),Oleam.Cells(8,4)).select
Oleam.Selection.Font.Name="A3 Times AzLat"
SELECT 2
i=0
kg=korg
par=paragraf
SELECT 1
```

```
LOCATE FOR kg=korg
tasad=norg
Oleam.Cells(5,2).value=tasad
Oleam.Cells(9,5).value=par
endif
SELECT 2
Oleam.Cells(14+i,3).value=sumtg1
Oleam.Cells(14+i,4).value=sumng1
Oleam.Cells(14+i,5).value=sumng
Oleam.Cells(14+i,6).value=sumtg
kg=korg
par=paragraf
i=i+1
SELECT 2
SKIP
faun1=pt+"forma2ks"+par+kg+".xlsx"
Oleam.ActiveWorkbook.SaveAs(faun1)
Oleam.quit
CLOSE DATABASES
Local loOutlook, loNewEmail
 loOutlook = Createobject("Outlook.Application")
 loNewEmail = loOutlook.createitem(0)
 loNewEmail.subject = "hesabat"
 loNewEmail.To =mailun
 loNewEmail.cc =mailun1
 loNewEmail.body = "Hesabat"
loNewEmail.Attachments.Add(faun1)
 loNewEmail.Send
```

Proqramın mətnindən görünür ki, hər dəfə məlumatların Excel fayla yönləndirilməsi başa çatdıqdan sonra alınan sənəd yeni adla saxlanılır və həmin sənəd bağlanılır ki, növbəti sənədin hazırlanılmasına başlanılsın. Burada bir məqamı qeyd etmək lazımdır ki, hər sənədin adının formalaşmasında müvafiq təşkilatın kodu, sənədin forması, tipi və s. kimi parametrləri yer alır və həmin sənəd proqramın yerləşdiyi qovluqda saxlanılır. Ancaq sənədlərin saxlanıldığı qovluğun ünvanını dəyişmək mümkündür. Burada bir nüans qeyd edilməlidir. Belə ki, eyni sənədlərin yeni çapı prosesində verilmiş ünvanda təkrar saxlanılması zamanı sistem ekrana



xəbərdaredici məlumatı çıxarır və istifadəçi isə işin başa çatdırılması üçün göstərilən “Hə” və ya “Yox” cavablarından birini seçməlidir. Əgər nəzərə alsaq ki, seriyalı çap zamanı məlumat bazalarından yüzlərlə və hətta minlərlə yeni sənəd formalaşır və sənədlər avtomatik olaraq eyni ünvanda saxlanılır, onda bu rejimlərdən birinin hər dəfə seçilməsi nə qədər vaxt itkisinə və istifadəçinin fiziki yorğunluğuna səbəb ola bilər. Odur ki, proqramda istifadə edilən

```
faun1=pt+kg+"forma2ks"+par+".xlsx"
```

```
IF FILE(faun1)=.T.
ERASE &faun1
Oleam.ActiveWorkbook.SaveAs(faun1)
Oleam.quit
ELSE
Oleam.ActiveWorkbook.SaveAs(faun1)
Oleam.quit
endif
```

əmrlər ardıcıllığı vasitəsilə qeyd edilən problemi aradan qaldırmaq mümkündür. Yəni sənədin adı formalaşan kimi proqram bu sənədin göstərilən ünvanda olub olmamasını yoxlayır. Əgər həmin sənəd verilmiş ünvanda varsa proqram onu silir və yeni variantı həmin ünvanda saxlayır.

Bu alqoritm vasitəsilə bir təşkilatın bütün sənədlərinin və eləcə də məlumat bazasında olan bütün müəssisələr üzrə sənədlərin seriyalı və sürətli çapını təşkil etmək mümkündür və yekunda qeyd etmək istəyirik ki, bu tip çap əməliyyatları mühasibat, bank və s. işlərində geniş tətbiq oluna bilər.

Ədəbiyyat

1. Баженова И.Ю. Visual FoxPro 6.0, , М.: ДИАЛОГМИФИ, 2001.
2. Самоучитель Visual FoxPro 9, Л.Омельченко, Дюссельдорф-Киев-Москва-Санкт-Петербрг.

РЕЗЮМЕ

ОДИН АЛГОРИТМ И ПРОГРАММА ДЛЯ СЕРИЙНОЙ И БЫСТРОЙ ПЕЧАТИ ДОКУМЕНТОВ В СИСТЕМЕ УПРАВЛЕНИЕ БАЗАМЫ ДАННЫХ

Гаджиев А.А., Мамедов Ф.О.

Ключевые слова: *серийная печать, алгоритм, блок-схема, электронная почта, быстрая печать.*

В работе обсуждается важность и практическое применение серийного и быстрого процесса печати документов на предприятиях и в организациях. При этом был составлен алгоритм решения и блок-схема указанной задачи. Также по алгоритму задачи показан текст программы для одного документа одной группы организаций на алгоритмическом языке Visual Foxpro 9. Также был построен и включен в указанную программу программный модуль алгоритма отправки распечатанных документов на соответствующие адреса электронной почты организаций.

SUMMARY

ONE ALGORITHM AND PROGRAM FOR SERIAL AND FAST PRINTING OF DOCUMENTS IN THE DATABASE MANAGEMENT SYSTEM

Hajiyev A.A., Mammadov F.O.

Keywords*: serial printing, algorithm, block scheme, e-mail, fast printing.*

The importance and practical application of the serial and fast printing process in order to speed up the printing of documents in enterprises and organizations is discussed here. At the same time, a solution algorithm and a block diagram of the mentioned problem were drawn up. Also, according to the algorithm of that issue, the program text for one document of a group of organizations in the algorithmic language of Visual Foxpro 9 is shown. Also, the software module of the algorithm for sending the printed documents to the relevant e-mail addresses of the organizations was built and included in the specified program

BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ MÜƏSSİSƏNİN İNFORMASİYA SİSTEMİNIN İDARƏ EDİLMƏSİ

Kərimova Xavər Fazil qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
xaver-1974@mail.ru

Açar sözlər: *bazar iqtisadiyyatı, menecment, elmi idarəetmə, inzibati, informasiyanın idarə edilməsi, proqram təminatı, istehsal informasiya sistemləri.*

İşdə bazar iqtisadıyyatı şəraitində müəsisənin işinin tələb və təkliflər əsasında qurulması məsələsinə baxılmışdır. Bu məqsədlə idarəetmə elminin konsepsiyaları verilmiş, burada informasiya sistemlərinin rolu və onun hansı keyfiyyətlərə malik olması qaydaları verilmişdir. Bu informasiya sistemlərinin tipləri haqqında, son istifadəçi sistemləri və onların xüsusiyyətləri haqqında məlumat verilmişdir.

Müasir dövrdə bazar iqtisadiyyatı şəraitinə uyğun olaraq, müəssisənin fəaliyyətini bazarın tələb və təkliflərinə yönəldən, az xərclə istehsalın səmərəliliyini artırmaq istiqamətində fəaliyyət göstərən idarəetmə metodlarının hazirlanması vacibdir. Menecment sistemi yalnız öz fəaliyyətlərini mənfəət əldə etməyə yönəldən müəsisələrə şamil edilir [1].

İdarəetmə bir **elmdir** və onun: 1) elmi; 2) inzibati; 3) insanların psixologiyası, onlar arasındakı münasibətlər və davranışların öyrənilməsi; 4) idarəetməyə proses kimi yanaşma; 5) sistem kimi yanaşma; 6) situasiya kimi yanaşma konsepsiyaları mövcuddur.

Klassik idarəetmə məktəbinin məqsədi universal prinsiplərinin yaradılması olmuşdur. Bu, məsələnin həllinin iki aspektini nəzərdə tuturdu: 1) təşkilatın idarə edilməsinin rasional sisteminin yaradılması; 2) işçi kollektivinin idarə edilməsi və təşkili formasının müəyyənləşdirilməsi.

İS bütövlükdə müəssisə və onun ayrı-ayrı bölmələrini və müxtəlif ixtisaslı mütəxəssislərini biri-biri əlaqələndirir. Hər bir müəssisənin uğuru onun öz işçilərinin keyfiyyətli əməyindən asılıdır. Müasir dövrdə idarə rəhbərinin vəzifəsi istehsalın miqyasının genişlənməsi və bununla əlaqədar olaraq material, maliyyə, əmək və digər ehtiyatlara olan tələbatın artması ilə əlaqədar olaraq xeyli mürəkkəbləşir [3].

İS baza informasiya resursularından təşkil edilir. **İnformasiya resursu** informasiya sistemlərində informasiya massivlərini, biliklər və verilənlər bazalarını birləşdirən informasiyanın sənədləşdirilmiş məcmusudur. Bunlara əllə tərtib olunmuş, çap edilmiş və elektron formada olan sənədlər aiddir [2].

Dürüst və operativ informasiyanın olması uğurlu idarəetmənin ən mühüm amillərindən biridir. İnformasiya aşağıdakı **keyfiyyətlərə** malik olmalıdır: aydınlıq və dəqiqlik; həqiqilik və tamamlıq; aktuallıq və qiymətli olmaq. İşin həqiqi vəziyyətini təhrif etməyən informasiya həqiqi hesab edilir. Həqiqi olmayan informasiya düzgün olmayan anlayışa və ya səhv qərarların qəbuluna gətirib çıxara bilər.

İnformasiyanın idarə edilməsinin məqsədi – İS və İT istifadə etməklə müəssisənin fəaliyyətinin səmərəliliyini yüksəltməkdir.

Belə sistemlərinin idarə edilməsi strateji, inzibati və operativ tapşırıqları yerinə yetirir. Strateji tapşırıqlara müəssisənin informasiya infrastrukturunun yaradılması və belə texnologiyalarının idarə edilməsi daxildir. Operativ və inzibati tapşırıqlar daha məhdud və tabeçilik xarakteri daşıyır, idarəedilməsinin əsas vəzifəsi müəssisənin fəaliyyətinin informasiya ilə təmin edilməsidir [2].

İS **texnoloji** mühitinə aşağıdakılar aiddir:

1) Texniki vasitələr (mikroprosessor, kompüterlər, periferiya avadanlıqları);
2) Telekommunikasiya vasitələri (lokal və qlobal informasiya şəbəkələri, telefoniya);
3) Proqram təminatı (əməliyyat sistemi, verilənlər bazası, proqram).

İS-lərin əsas **texniki** elementləri prosessor və mikroprosessor hesab olunur və **proqram təminatı** kompleksinin əsas funksiyalarına aşağıdakılar daxildir:

1) Verilənlər bazasının yaradılması və genişləndirilməsi;
2) İstifadəçi sorğularının emal üçün hazırlanması;
3) Verilənlərin tamlığının və mühafizəsinin təmini;
4) Sistem kataloqunun yaradılması və idarə edilməsi.

İS-in əsas **xüsusiyyətləri** aşağıdakılardır:

1) inkişaf edən dinamik sistemdir;
2) ümumi prinsipləri əsasında yerinə yetirilir;
3) çıxış məhsulu qərarların qəbul edilməsi üçün informasiyadır.

İdarəetmə informasiya sistemlərinin üç əsas tipi vardır:

1) hesabatların generasiyası;
2) qərarların qəbul edilməsinin dəstəklənməsi;
3) strateji qərarların qəbul edilməsinin dəstəklənməsi.

Hesabatların generasiyası sistemləri (HGS) istifadəçiləri qərarların qəbul edilməsində gündəlik tələbatların təmin edilməsi üçün zəruri olan informasiya ilə təmin edirlər.

Qərarların qəbul edilməsinin dəstəklənməsi sistemləri (QQS)- sistemlərinin və hesabatların generasiyası sistemlərinin inkişafıdır. Bu sistemlər interaktiv kompüter informasiya sistemləridir. Onlar idarə qərarlarının qəbul edilməsində idarə işçilərinə yardım üçün ixtisaslaşdırılmış verilənlər bazalarından və qərarların modellərindən istifadə edirlər.

Strateji qərarların qəbul edilməsinin dəstəklənməsi sistemləri (SQQDS)– yüksək səviyyəli rəhbərliyin strateji informasiya tələbatlarına uyğunlaşdırılmış İS-lərdir. Bu rəhbərlik əl və kompüter sistemləri vasitəsilə məktubları sistemə daxil edir və tabeliyində olan təşkilatlardan informasiyanı alır [3].

Son istifadəçi sistemləri –operativ, idarəetmə funksiyalarına bilavasitə kömək edən kompüter informasiya sistemləridir.

İstənilən təşkilatın idarəetmə strukturu 3 səviyyədən ibarətdir: operativ, funksional və strateji. Operativ səviyyəsi dəfələrlə təkrarlanan məsələlərin və əməliyyatların həllini və cari informasiyanın dəyişməsinə çevik (cəld) reaksiya verilməsini təmin edir.

İstehsal informasiya sistemlərinin bir funksiyası kağız sənədlərin dövriyyəsinin və idarənin işinin ənənəvi əl metodlarının yenidən qurulmasıdır. Bunun üçün də Karğüzarlığın avtomatlaşdırılması sistemi (KAS) yaradılıb tətbiq olunur. Müəllif tərəfindən belə sistemin avtomatlaşdiriması istıqamətində sənəd dövriyyəsinin riyazi optimallaşdırılması məsələsi qoyulmuş və həll edilmişdir [4].

Ədəbiyyat

1. Ramazanov M.K. İnformasiya sistemləri menecmenti. Dərslik. Bakı: DTX-nin Heydər Əliyev adına Akademiyasının nəşriyyatı, 2017, 187 s.
2. İmamverdiyev Y.N. İnformasiya təhlükəsizliyi terminlərinin izahlı lüğəti. Bakı: “İnformasiya Texnologiyaları” nəşriyyatı, 2015,160 s.
3. Müasir informasiya sistemlərinin idarə edilməsi. Dərslik. Bakı: “MSV NƏŞR“, 2016, 248 s.

4. Андреева, В.И., Делопроизводство. Требования к документообороту фирмы (на основе ГОСТов РФ)/ В.И. Андреева. - М.: Бизнес-школа Интел-Синтез; Издание 2-е, перераб. и доп., 2016.- 222 с.

РЕЗЮМЕ
УПРАВЛЕНИЕ ИНФОРМАЦИОННОЙ СИСТЕМОЙ ПРЕДПРИЯТИЯ В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ
Каримова Х.Ф.

Ключевые слова: *рыночная экономика, менеджмент, научный менеджмент, административное управление, информационный менеджмент, программное обеспечение, производственные информационные системы.*

В данной работе рассмотрен вопрос становления бизнеса предприятия на основе спроса и предложения в условиях рыночной экономики. Для этого приводятся понятия науки управления, отмечается роль информационных систем в управлении и их качество. Дается информация о методах использования информационных систем в управлении, характеристиках систем конечных пользователей и производственных информационных систем.

SUMMARY
MANAGEMENT OF INFORMATION SYSTEM OF THE ENTERPRISE IN THE MARKET ECONOMY
Karimova K.F.

Keywords: *market economy, management, scientific management, administrative management, information management, software, production information systems*

In this work, the issue of establishment of the business of the enterprise on the basis of demands and offers in the conditions of the market economy was considered. For this purpose, the concepts of management science are given, the role of information systems in management and the rules of what qualities it has are given. Information is provided about the methods of information systems in management, the characteristics of end-user systems and production information systems.

OLE TEXNOLOGİYASININ İMKANLARI VƏ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN BU TEXNOLOGİYADAN İSTİFADƏ BACARIQLARI

Mazanova Səadət Bəybala qızı, Əliyeva Xuraman Əliqulu qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
saadat.mazanova@gmail.com, khuraman.alieva1972@gmail.com

Açar sözlər: *OLE texnologiyası, Drag and drop, Plug and Play, insert, exsel, server, kliyent.*

Məqalədə OLE texnologiyasından istifadə etməklə ali məktəb tələbələrinin sərbəst iş, kurs işi, dissertasiya işi, məqalə və s. yazmağın daha səmərəli üsulunu tapmaq yolları göstərilmişdir. Gələcəkdə bu vərdişlərin tədris prosesində bir çox problemlərin həllinə kömək edəcəyini nəzərdə tuturuq. Nəinki sadalanan məsələlərdə, hətta gələcək kariyeralarında , məsələn işlədikləri yerlərdə hesabatların hazırlanmasında, verilənlər bazası ilə işləyərək hər hansı sənədin hazırlanmasında OLE texnologiyası ilə işləmək məqsədə uyğun və səmərəli hesab olunur.

Dünyada gedən qloballaşma həyatın bir çox sahələrinə öz təsirini göstərir. Təhsildə aparılan islahat məhzhəmin zərurətdən yaranmışdır. Təhsilin keyfiyyətini yüksəltmək, yeni pedaqoji texnologiyaları öyrənib onlardan səmərəli istifadə etmək başlıca vəzifə kimi qarşıda durur.

Təlim və təhsilin nəticələrindən biri tələbələrin müasir kompüter texnologiyalarını mənimsəməyə hazırlığı və onların köməyi ilə əldə edilən məlumatları gələcək özünüidarə üçün yeniləmək bacarığı olmalıdır. Bu məqsədlərə nail olmaq üçün müxtəlif tədris strategiyalarının tətbiqi və ilk növbədə təhsil prossesində informasiya-kommunikasiya texnologiyalarından istifadə zərurəti yaranır.

Bu mənada tədrisdə tələbələrin sərbəst iş, kurs işi, dissertasiya işi və s., hazırlamasında Windows əməliyyat sisteminin texnologiyalarından istifadəsində, onların işini daha da asanlaş-dıracaqdır.

Windows əməliyyat sisteminin 3 əsas texnologiyası var.

1. Drag and drop texnologiyası - (“Çək” və “Burax”)
2. Plug and Play texnologiyası - (“Qoş” və “İstifadə et”)
3. OLE (Object Linking Embedding) texnologiyası - (əlaqə və obyektlərin tətbiq edilməsi)

OLE-dən istifadənin əsas üstünlüyü (fayl ölçüsünü azaltmaqdan başqa) proqramın daxil olduğu əsas faylı yaratmağa imkan verməsidir. Mənbə sənədinə qaytarılan bu fayl emal edildikdən sonra verilənlər üzərində işləyə bilər.

OLE mürəkkəb sənədlərin emalında istifadə olunur, ötürülmə interfeysi (sürüklə və burax) vasitəsilə müxtəlif əlaqəli olmayan sistemlər arasında məlumatların ötürülməsi zamanı, həmçinin mübadilə buferi ilə əməliyyatların yerinə yetirilməsi zamanı istifadə edilə bilər. Yerləşdirmə ideyası, HTML səhifələrində (hipermətn işarələmə dili) və ya digər fayllarda şəkillər, səs, video, animasiya ötürülməsindən istifadə edən veb səhifələrdə (məsələn, Web TV) multimedia məzmunu ilə işləyərkən geniş istifadə olunur. mətn işarələməsindən də istifadə edilir (məsələn, XML və SGML). Bununla belə, OLE texnologiyası "qalın müştəri" arxitekturasından, yəni lazımsız hesablama resurslarına malik şəbəkəli fərdi kompüterdən istifadə edir. Bu o deməkdir ki, istifadə edilən fayl və ya proqram növü müştərinin kompüterində mövcud olmalıdır. Məsələn, OLE Microsoft Excel elektron cədvəllərində işləyirsə, istifadəçinin kompüterində Excel tətbiqi proqramı yüklənməlidir. OLE – nin yaradılmasında məqsəd , müxtəlif tip verilənlərdən sənədlərin tərtib olunmasıdır. OLE-bir tətbiqi proqram paketi obyektinin digərlərinə əlavə olunmasından ibarətdir.

Beləki, Word proqramında işləyərkən “İnsert”(вставка) menyusuna daxil olub, “Object “ alt menyusundan istənilən proqramı seçib,



Word proqramı ilə əlaqələndiririk. Məsələn , Exsel sənədinin üzərində mausun sol düyməsini tıklayıb, exsel cədvəlini açırıq.



Exseldə hər hansı əməliyyatları yerinə yetiririk.



Əməliyyat qurtardıqdan sonra faylın kənarında mausun sol düyməsini tıklasaq Word faylında hər hansı cədvəldə işlənmiş əməliyyat görəcəyik.



Lakin yenidən Worddəki cədvəlin üzərində mausun sol düyməsini tıkladıqda Exsel proqramı yenidən aktivləşəcəkdir. Tablar görsənəcəkdir.

Bu zaman istifadə etdiyimiz proqramlardan biri kliyent, digəri isə server olur.

Kliyent dedikdə resurslardan istifadə edən kompüter, server dedikdə isə resursları paylayan kompüter nəzərdə tuturduq. Proqram mənasında da bu fikir özünü göstərir. Bu OLE kliyent, OLE server anlayışlarıdır. Beləki, işlədiyimiz misalda Exsel öz resurslarını istifadə üçün paylayıb. Deməli, Exsel proqramı OLE serverdir. Word isə həmin paylanmış resurslardan istifadə etdiyi üçün OLE kliyent adlanır.

Ole texnologiyasında object alt menyusunda olan digər proqramlara da müraciət etmək olar. Riyaziyyatçılar düstur yazarkən Microsoft Equation, Filoloqlar WordPad , Microsoft Power Point və s., proqramlardan istifadə edə bilərlər.

Ədəbiyyat

1. TQDK “İnformatika” vəsaiti. Bakı, 2015.
2. Pələngov Ə. Musayeva M. Əməliyyat sistemləri. Bakı, 2016.
3. Kərimov S.Q., Həbibullayev S.B. və b. Informatika. Ali məktəb tələbələri üçün dərslik. Bakı, 2010.
4. İbiyev F., Seyidzadə E. Kompüter sistemləri və əməliyyat sistemləri. Bakı: Bakı Qafqaz Universiteti, 2014.

РЕЗЮМЕ
ВОЗМОЖНОСТИ ТЕХНОЛОГИИ OLE И НАВЫКИ СТУДЕНТОВ ПО ИСПОЛЬЗОВАНИЮ ЭТОЙ ТЕХНОЛОГИИ

Мазанова С.Б., Алиева Х.А.

Ключевые слова: *технология OLE, перетаскивание, Plug and Play, вставка, Excel, сервер, клиент.*

В статье с помощью OLE-технологии старшеклассники могут написать самостоятельную работу, курсовую работу, диссертацию, статью и т.д. Показаны способы более эффективного написания письма. В будущем эти привычки помогут решить многие проблемы в образовательном процессе. Работа с OLE - технологией считается целесообразной и эффективной не только в перечисленных вопросах, но и в дальнейшей профессиональной деятельности, например, при составлении отчетов на своих рабочих местах, при составлении какого-либо документа при работе с базой данных

SUMMARY

OPPORTUNITIES OF OLE TECHNOLOGY AND HIGH SCHOOL STUDENTS' SKILLS TO USE THIS TECHNOLOGY

Mazanova S.B., Aliyeva K.A.

Keywords: OLE technology, Drag and drop, Plug and Play, Insert, Excel, server, client

In the article, using OLE technology, high school students can write free work, coursework, dissertation, article, etc. ways to find a more efficient way of writing are shown. In the future, we believe that these habits will help to solve many problems in the educational process. Working with OLE technology is considered appropriate and effective not only in the listed issues, but also in their future careers, for example, in the preparation of reports in their workplaces, in the preparation of any document by working with the database.

DAXİLİYANMA MÜHƏRRİKLƏRİNDƏ ƏMƏLƏ GƏLƏN NASAZLIQLARIN ARADAN QALDIRILMASI ÜÇÜN AVTOMATİK İDARƏETMƏNİN TƏTBİQİ

Məmmədova Şamama Həsən qızı, Allahverdiyev Bəhruz Allahverdi oğlu, Quliyeva Humay Güləhməd qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

samama-mamedova@mail.ru

Açar sözlər: *intiqal sistemi, ilişmə muftası, sürətlər qutusu, kipləşmə, mexanizm, idarəetmə bloku.*

Məqalədə maşın və avadanlıqların yüksək keyfiyyətdə hazırlanması və onların uzunömürlü olmasını təmin etmək üşün mühərrikdə yüksək temperatur yaranan zaman avtomatik olaraq mühərrikin dayandırılması təklif edilmişdir. Maşınqayırmada avtomatlaşdırmanın tətiq edilməsi müasir tələblərə cavab verən keyfiyyətli maşın və avadanlıqların hazırlanmasına şərait yaradır. Texniki və iqtisadi cəhətdən əlverişli quruluşun yaradılması texnoloji səmərəliliyi artırır. Mühərrikdə yüksək temperatur yaranan zaman əgər soyuducu sisten soyutmanı təmin edə bilmirsə avtomatik idarıetmə proqramı əsasında mühərrikin dayandırılması onun sıradan şıxmasının qarşısını alar.

Avtomobilin intiqal sisteminə mühərrik, soyutma sistemi, ilişmə muftası və sürətlər qutusu aid edilir. Soyutma sistemində mayenin dövr etmə ardıcıllığı



Şəkil 1.

Elektron idarəetməli soyutma sistemlərində su nasosu , ventilyator və termostat elektron idarə olunur. Su nasosu və ventilyator elektrik mühərrikindən hərəkət alaraq işləyir. Soyuducu

mayenin temperaturu mühərrikin sürət və iş rejiminə görə idarə olunur. Mühərrikdə baş verən nasazlıqlar, soyutma sisteminin öz funksiyasını lazımı qaydada yerinə yetirə bilməməsi nəticəsində baş verir. Daxiliyanma mühərrikində yüksık temperatur əmələ gəlir, istilik nəticəsində hər hansı bir hissənin genişlənməsi baş verir, bunun nəticəsində mühərrikdə kipləşmə yaranır və surtgü yağının həmin sahələrdə işləməsinə imkan olmur [1,2].

Yağlama sistemi mühərrikin hərəkətdə olan və sürtünən hissələrinə fasiləsiz olaraq yağ vrməklə xidmət edir. Yağlama sistemi ilə yağın kifayət qədər verilməməsi mühərrikin gücünün azalmasına, detalların yeyilməsinə, yataqların həddindən artıq qızaraq əriməsinə, porşenlərin pərşimlənməsinə və mühərrikin sıradan çıxmasına səbəb olur.

Yağlama sisteminin quruluşu



Şəkil 2.

Temperaturun yüksəlməsi nəticəsində soyutma sistemində əlavə qurğuların (soyutma ventilyatorunun) işə düşməsi avtomatik şəkildə baş verir. Bu soyutma sistemləri soyutmanı tam yerinə yetirə bilmədiyi halda maşın mexanizmlərinə mühərriki dayandırmaq əmrini verə bilən xüsusi qurğuların quraşdırılmasına ehtiyac var. Bu sistem maşın istehsalçıları tərəfindən nəzərdə tutulmamışdır[3]. Maşın mexanizmlərində temperaturun yüksək olması ancaq göstəricilərdə aşkarlanır. Bu da sürücülərin diqqətindən yayınır və nəticə etibarı ilə mühərrikin hissələrinin sıradan çıxmasına səbəb olur. Bunun qarşısını almaq üçün bizim tərəfimizdən təklif olunur ki, elektron idarəetmə blokuna avtomatik məlumat ötürən qurğu tətbiq etməklə mühərrik dayandırılsın.

Ədəbiyyat

1. İsmayılov A.Ş., Talıbov M.Ə. Nəqliyyat mühərrikləri, avtomobillər və traktorlar. (I hissə - Nəqliyyat mühərrikləri). Bakı: Təhsil NPM, 2006, 216 s.

2. Məmmədov Y.Ə. Avtomobil nəqliyyatı vasitələrinin istismar xüsusiyyətləri nəzəriyyəsi və hesabatı. II hissə. Dərslik. Bakı: Təhsil NPM, 2005, 506 s.

3. Вахламов В.К. Автомобили: Основы конструкции: учебник для студ. высш. учеб. заведений / В. К. Вахламов. - 4-е изд., стер. - М.: Издательский центр «Академия», 2008. 528 с.

РЕЗЮМЕ
ПРИМЕНЕНИЕ АВТОМАТИЧЕСКОГО УПРАВЛЕНИЯ ДЛЯ ПОИСКА НЕИСПРАВНОСТЕЙ В ДВИГАТЕЛЯХ ВНУТРЕННЕГО СГОРАНИЯ
Мамедова Ш.Г., Аллахвердиев Б.А., Кулиева Х.Г.

Ключевые слова: *трансмиссионная система, сцепление, коробка передач, формовка, механизм, блок управления.*

В статье предлагается автоматически останавливать двигатель при возникновении высокой температуры в холодном двигателе с целью изготовления машин и оборудования высокого качества и обеспечения их долговечности. Внедрение автоматизации в машиностроение создает условия для разработки качественных машин и оборудования, отвечающих современным требованиям. Создание технически и экономически выгодной структуры повышает технологическую эффективность. При высокой температуре двигателя, если система охлаждения не может обеспечить охлаждение, автоматическое отключение двигателя предотвратит его поломку.

SUMMARY
APPLICATION OF AUTOMATIC CONTROL FOR TROUBLESHOOTING IN INTERNAL COMBUSTION ENGINES
Mammadova Sh.H., Allahverdiyev B.A., Guliyeva H.G.

Keywords: *transmission system, clutch, gearbox, molding, mechanism, control unit.*

The article proposes to automatically stop the engine when a high temperature occurs in a cold engine in order to manufacture machines and equipment in high quality and ensure their durability. The introduction of automation in mechanical engineering creates the conditions for the development of high-quality machines and equipment that meet modern requirements. Creating a technically and economically advantageous structure increases technological efficiency. When the engine temperature is high, if the cooling system cannot provide cooling, automatic engine shutdown will prevent engine damage.

SİQNAL EMALI ÜÇÜN SÜZGƏCLƏMƏ ALQORİTMLƏRİ VƏ XƏTTİ RƏQƏMSAL SÜZGƏCLƏRİN SİNTEZİ HAQQINDA

Mənsurov Qadir Məmməd oğlu
Sumqayıt Dövlət Universiteti, Azərbaycan
dr.ing.mansurov@mail.ru

***Açar sözlər*:** *siqnal emalı, analoq prototip, rəqəmsal süzgəc, impuls xarakteristika, tezlik xarakteristika, invariantlıq.*

Təqdim olunan materialda analoq prototipin ötürmə funksiyasının z-çevirməsi zamanı alınan ifadənin rəqəmsal süzgəc üçün sistem funksiyası olmamağı nümunələr əsasında göstərilir. Qeyd olunur ki, prototipə adekvat olmağı təmin etmək üçün elə kəsr-rasional funksiya seçilməlidir ki, onun z-çevirməsi zamanı alınan ifadəsi rəqəmsal süzgəc üçün sistem funksiyası olsun. Sintez prosesində kompleks-tezlik xarakteristikanın invariant qalması üçün analoq prototipin ötürmə funksiyasında kompleks tezliyin $p = \frac{2}{\Delta} \cdot \frac{z-1}{z+1} -$ kimi əvəz olunması üstün hal kimi qeyd olunur.

Məlumdur ki, analoq süzgəclərdə olduğu kimi rəqəmsal süzgəclər də impuls və tezlik xarakteristikalarına görə sintez olunurlar. Rəqəmsal süzgəcləmə prosesi üçün sistem funksiyasının tərtib olunmasında üç veriləndən istifadə olunur [3,5]:

a) x_i-təsiredici siqnalın siqnalın zamanın i-ci anında qiyməti;

b) təsiredici siqnalın zamanın m-sayda əvvəlki anlarındakı $x_i, x_{i-1}, \ldots, x_{i-m} -$ qiymətləri;

c) reaksiya siqnalının zamanın n-sayda əvvəlki anlarındakı $y_{i-1}, y_{i-2}, \dots, y_{i-n}$ −qiymətləri.

Qeyd olunan verilənlər əsasında reaksiya siqnalının zamanın hər hansı i-ci anındaklı qiyməti təyin olunur. Verilənlərə uyğun transversal (qeyri-rekursiv) və rekursiv süzgəcləmə alqoritmləri fərqləndirilir. Belə ki, transversal filtrasiyada zamanın i-ci anında reaksiya siqnalının qiymətini hesablamaq üçün təsiredici siqnalın i-ci və ondan əvvəlki diskret anlardakı qiymətlərindən istifadə olunur:

$$y_i = \sum_{k=0}^{m} a_k x_{i-k} \tag{1}$$

Burada, $a_0, a_1, \dots, a_m$ −transversal süzgəcləmə əmsalları, m- süzgəcin tərtibidir.

$$H(z) = \frac{Y(z)}{X(z)} = \sum_{k=0}^{m} z^{-k} a_k = \frac{\sum_{k=0}^{m} a_k z^{m-k}}{z^m} \tag{2}$$

(2) ifadəsi ilə qiymətləndirilən sistem funksiya z-dəyişəninin kəsr-rasional funksiyasıdır, m-sayda sıfırlara və $z = 0 -$ nöqtəsində m-tərtibdə qütblərə malikdir. $a_0, a_1, \dots, a_m -$ əmsallar ardıcıllığı sintez olunan süzgəcin impuls xarakteristikalarıdır. (2) ifadəsi ilə süzgəcləmə prosesini reallaşdıran alqoritm və uyğun texniki qurğu 4 elementdən ibarət olmalıdır: $a_0, a_1, \dots, a_m -$ əmsallar üçün yaddaş, Z^{-1}- vahid ləngidici, vurucu və cəmləyici.

Transversal filtrasiyadan fərqli olaraq rekursiv filtrasiya prosesi üçün reaksiya siqnalının qiymətləndirilməsində həm giriş siqnalın verilmiş andakı və ondan əvvəlki diskret anlardakı qiymətlərindən, həm də çıxış siqnalın əvvəlki anlardakı qiymətlərindən istifadə olunur:

$$y_i = \sum_{k=0}^{m} a_k x_{i-k} + \sum_{j=1}^{n} b_j\, y_{i-j} \tag{3}$$

Burada $b_j -$ rekursiv hissənin əmsallarıdır və heç olmasa biri sıfırdan fərqlidir. (3)-münasibətin hər iki tərəfində z-çevirmə aparmaqla filtrasiya üçün sistem funksiyası yazılır:

$$H(z) = \frac{Y(z)}{X(z)} = \frac{\sum_{k=0}^{m} a_k z^{-k}}{1-\sum_{j=1}^{n} b_j z^{-j}} = \frac{\sum_{k=0}^{m} a_k z^{n-k}}{z^n-\sum_{j=1}^{n} b_j z^{n-j}} \quad , \tag{4}$$

(4) ifadəsi əsasında rekursiv süzgəcləmə prosesini reallaşdıran alqoritm və uyğun texniki qurğu 5 elementdən ibarət olmalıdır: $a_0, a_1, \dots, a_m$ −əmsallar üçün yaddaş, $b_1, b_2, \dots, b_n$ −əmsallar üçün yaddaş, Z^{-1}- vahid ləngidici, vurucu və cəmləyici.

Qeyd edək ki, (2) və (4) sistem funksiyalarında $z = exp(-j\omega\Delta) -$ əvəzləməsi aparmaqla rəqəm süzgəc üçün kompleks-tezlik xarakteristika ifadə olunur.

Praktikada analoq prototipə uyğun rəqəmsal süzgəcin sintezinə üstünlük verilir. Bu məqsədlə müxtəlif üsullardan və tətbiqi proqramlar paketindən istifadə olunur [2,4]. Çevirmələrin aparılması üçün əksər hallarda impuls və tezlik xarakteristikaların invariant olmasından, analoq dövrənin diferensial tənliyinin diskretləşdirilməsindən istifadə olunur [1,3]. Bu üsullardan istifadə zamanı əsas tələblərdən biri son nəticənin analoq süzgəcə adekvat olması, digəri süzgəcin dayanıqlığının təminatıdır. Göstərmək olar ki, əksər hallarda analoq süzgəcə adekvat olmağı yüksək dəqiqliklə təmin etmək olmur. Məsələn, məlumdur ki, inteqrallayıcı RC-dövrə aşağı tezlikli analoq süzgəc funksiyasını yerinə yetirir. Süzgəc üçün impuls xarakteristika

$$h(t) = \begin{cases} 0, t < 0 \\ exp(-\frac{t}{\tau}),\ t \geq 0 \end{cases} \tag{5}$$

kimi, kompleks-tezlik xarakteristika isə

$$K(j\omega) = {}^{1}/_{(1 + j\omega t)} \tag{6}$$

kimi ifadə olunur, burada $\tau = RC$ – inteqrallayıcı dövrə üçün zaman sabitidir.

Qeyri-rekursiv hal üçün impuls xarakteristikanın beş elementdən ibarət ardıcıllığını götürsək, sistem funksiyası və uyğun kompleks-tezlik xarakteristika aşağıdakı kimi ifadə olunar:

$$H(z) = 1 + \sum_{k=1}^{4} z^{-k} e^{-\frac{k\Delta}{\tau}} \tag{7}$$

$$K(j\omega) = 1 + \sum_{k=1}^{4} e^{-k\Delta(j\omega+\frac{1}{\tau})} \tag{8}$$

Sonsuz sayda elementdən ibarət impuls xarakteristikası ardıcıllığını götürsək uyğun ifadələr aşağıdakı kimi olar (bu hal rekursiv süzgəcə uyğundur):

$$H(z) = 1 + \sum_{k=1}^{\infty} z^{-k} e^{-\frac{k\Delta}{\tau}} = \frac{1}{1-z^{-1}e^{-\frac{\Delta}{\tau}}} \tag{9}$$

$$K(j\omega) = \frac{1}{1-e^{-\Delta(j\omega+\frac{1}{\tau})}} \tag{10}$$

Analoq prototipin, sintez olunan transversal və rekursiv süzgəclərin kompleks-tezlik xarakteristikaları üçün (6), (8) və (10) ifadələri ilə hesablamaların müqayisəli nəticələri şəkildə verilib. Nəticələrdən göründüyü kimi, baxmayaraq ki, hər üç süzgəc aşağı tezlik xarakterlidir, rekursiv hal analoq prototipə daha yaxındır.

$j := \sqrt{-1}$ $\quad \tau := 5$ $\quad \Delta := 0.5$ $\quad \omega := 0, 0.5 .. 3$ $\quad \phi(\omega) := j \cdot \omega \cdot \Delta + \frac{\Delta}{\tau}$

$\mathrm{Kanaloq}(\omega) := (1 + j \cdot \omega \cdot \tau)^{-1}$ $\quad \mathrm{Krekursiv}(\omega) := \left(1 - e^{-\phi(\omega)}\right)^{-1}$

$\mathrm{Ktransversal}(\omega) := 1 + e^{-\phi(\omega)} + e^{-2\cdot\phi(\omega)} + e^{-3\cdot\phi(\omega)} + e^{-4\cdot\phi(\omega)}$

$\left\lvert \frac{\mathrm{Kanaloq}(\omega)}{\mathrm{Kanaloq}(0)} \right\rvert$	$\left\lvert \frac{\mathrm{Krekursiv}(\omega)}{\mathrm{Krekursiv}(0)} \right\rvert$	$\left\lvert \frac{\mathrm{Ktransversal}(\omega)}{\mathrm{Ktransversal}(0)} \right\rvert$
1	1	1
0.371	0.372	0.939
0.196	0.198	0.77
0.132	0.135	0.529
0.1	0.104	0.267
0.08	0.085	0.085
0.067	0.073	0.181

Şəkil . Analoq prototip və uyğun rəqəm süzgəclərin kompleks-tezlik xarakteristikaları

Göstərmək olar ki, tezlik xarakteristikanın invariant olması da heç də həmişə rəqəmsal süzgəcin analoq prototipə adekvat olmağını təmin etmir.

Məlumdur ki, rəqəmsal süzgəcin kompleks tezlik xarakteristikası tezliyin periodik funksiyasıdır. Periodiklik $\Delta -$ diskret addımla təyin olunur və $\frac{2\pi}{\Delta}$ –qiymətə malikdir. Bu səbəbdən də analoq prototipin tezlik xarakteristikasını dəqiq təkrarlayan rəqəmsal süzgəc sintez etmək mümkün olmur. İnvariantlıq tələbi kimi, amplitud-tezlik xarakteristikanın formasını saxlamaq şərti ilə analoq süzgəcin tezliyinin sonsuz diapazonunu $(-\infty < \omega_a < \infty)$ rəqəmsal süzgəcin bir periduna $(-\frac{\pi}{\Delta} < \omega_r < \frac{\pi}{\Delta})$ çevirən şərti qoymaq olar. Lakin, baxmayaraq ki, analoq süzgəclər üçün də kompleks-tezlik xarakteristika kəsr-rasional funksiya kimi ifadə olunur, $z = exp(p\Delta) \Rightarrow p = \frac{1}{z} ln\, z -$ əvəzləməsinin aparılması heç də həmişə rəqəmsal süzgəc üçün sistem funksiyası formasına gətirmir. Bu səbəbdən, analoq prototip üçün elə kəsr-rasional funksiya axtarılmalıdır ki, $p = \frac{1}{z} ln\, z$ –çevirməsi onu rəqəmsal süzgəc üçün sistem funksiyası formasına gətirsin, yada digər çevirmə üsulu istifadə olunsun. Müxtəlif çevirmə üsulları mövcuddur və onlardan ən çox istifadə olunanı $p = \frac{2}{\Delta} \cdot \frac{z-1}{z+1}$ –əvəzləməsinə əsaslanır.

Ədəbiyyat

1. Mansurov Q.M. Siqnalların rəqəmli emalı. Sumqayıt: SDU-nun nəşri, 2010, s.84-93
2. Байдаров С. Ю. и др. Использование технологии виртуальных приборов для определения частотных характеристик элементов и устройств систем управления / С. Ю. Байдаров, М. М.
3. Бутаев, С. К. Куроедов, А. В. Светлов // Известия высших учебных заведений. Поволжский регион. Технические науки, 2012, № 1 (21), с. 105–115
4. Баскаков С.И. Радиотехнические цепы и сигналы. М.: Высшая школа, 2000, с.405-416 // https://studizba.com/files/show/djvu/2257-4-baskakov-s-i-radiotehnicheskie-cepi-i.html
5. Жуков К.Г., Бутусов Т.Н. Реализация цифровых фильтров методом последовательного интегрирования. Научно-технические ведомости СПбГПУ, 2009, №6, с. 26-35
6. Сергиенко А.Б. Цифровая обработка сигналов. СПб.: БХВ-Петербург, 2011, с. 202-206 // https://www.studmed.ru/sergienko-ab-cos-cifrovaya-obrabotka-signalov_8248baaee64.html

РЕЗЮМЕ
ОБ АЛГОРИТМАХ ФИЛЬТРАЦИИ ДЛЯ ОБРАБОТКИ СИГНАЛОВ И СИНТЕЗА ЛИНЕЙНЫХ ЦИФРОВЫХ ФИЛЬТРОВ
Мансуров Г.М.

Ключевые слова: *обработка сигналов, аналоговый прототип, цифровой фильтр, импульсная характеристика, частотная характеристика, инвариантность.*

В представленном материале на примерах показано, что выражение, полученное при z-преобразовании передаточной функции аналогового прототипа, не всегда является системной функцией для цифрового фильтра. Отмечено, что для обеспечения адекватности прототипу следует выбирать такую дробно-рациональную функцию, чтобы ее выражение, полученное при z-преобразовании, являлось системной функцией для цифрового фильтра. Для того чтобы комплексная частотная характеристика оставалась неизменной в процессе синтеза, предпочтительнее заменить комплексную частоту как $p=2/\Delta\cdot(z-1)/(z+1)$ в передаточной функции аналога-прототипа.

SUMMARY
ON FILTERING ALGORITHMS FOR SIGNAL PROCESSING AND SYNTHESIS OF LINEAR DIGITAL FILTERS
Mansurov G.M.

Keywords: *signal processing, analog prototype, digital filter, impulse response, frequency response, invariance.*

In the presented material, examples show that the expression obtained by z-transforming the transfer function of an analog prototype is not always a system function for a digital filter. It is noted that in order to ensure the adequacy of the prototype, one should choose such a fractional-rational function so that its expression obtained by the z-transform is a system function for the digital filter. In order to keep the complex frequency response unchanged during synthesis, it is preferable to replace the complex frequency as $p=2/\Delta\cdot(z-1)/(z+1)$ in the prototype analog transfer function.

FÖVQƏLADƏ HALLAR VƏ FƏLAKƏTLƏRİN İNTELLEKTUAL İDARƏETMƏ SİSTEMİ

Muradxanlı Leyla Qəzənfər qızı
Bakı Ali Neft Məktəbi, Bakı, Azərbaycan
leyla.muradkhanli@bhos.edu.az

Açar sözlər: *fövqəladə hal, fəlakət, intellektual sistem, biliklər bazası, məntiqi çıxarış mexanizmi.*

Fövqəladə hallar və fəlakətlərin idarə edilməsi prosesi və mərhələləri göstərilmişdir. Zərərlərin yumşaldılması, hazırlıq, cavab tədbirləri və bərpa mərhələləri izah edilmişdir. Fəlakətlərin idarə edilməsi sistemləri xüsusiyyətlərinə və istifadə olunduğu mərhələyə görə monitorinq sistemi, real vaxt sistemi və simulyasiya sistemləri kimi təsnif edilmişdir. Fövqəladə hallar və fəlakətlərin idarə edilməsində intellektual texnologiyalar əsasında fəaliyyət göstərən intellektual sistemlərdən qərarların qəbul edilməsi üçün isifadə olunması təklif olunmuşdur. İntellektual sistemlərin strukturu və istifadə edilməsi göstərilmişdir.

GİRİŞ

Fövqəladə hallar-qəza, təbii fəlakət və digər hallar nəticəsində müəyyən ərazidə yaranmış şəraitdir. Bunun nəticəsində insan tələfatı,onun sağlamlığına və ətraf mühitə zərər, böyük maddi ziyan vurulur və insanların normal həyat şəraiti pozula bilir [1].

Fövqəladə hallar təbii və texnogen mənşəli olmaqla iki qrupa bölünür. Təbii mənşəli fövqəladə hallar baş verən fəlakətli təbiət hadisələridir. Bunlar – zəlzələ, sel, daşqın, torpaq sürüşməsi, vulkan püskürməsi, qar uçqunu, sunami, fırtına və s. bu kimi təbii fəlakətlərdir. Texnogen mənşəli fövqəladə hallar isə insan fəaliyyəti nəticəsində baş verən hadisələrdir. Bunlardan - yanğın, partlayış, nəqliyyat qəzaları, kimyəvi qəzalar, radioaktiv qəzalar, tikililərin uçması, dəm qazı təhlükəsi, kommunal təsərrüfatda qəzalar və s. göstərə bilərik.

Fövqəladə halların qarşısının alınması əvvəlcədən görülən və fövqəladə hal riskinin qarşısının alınmasına və ya minimuma endirilməsinə, habelə insanların sağlamlığının qorunmasına, ətraf mühitə dəyən zərərin və baş verdikdə maddi itkilərin azaldılmasına yönəlmiş tədbirlər məcmusudur. Fövqəladə halların qarşısının alınması - istehsal və ya nəqliyyat proseslərinin pozulması və təhlükənin yaranması və ya təhlükəli vəziyyətin və ya hadisənin baş verməsi zamanı və onların fövqəladə vəziyyət miqyasında inkişafının qarşısının alınmasına yönəldilmiş prioritet tədbirlərdir.

Fövqəladə hallar və fəlakətlərin idarə edilməsinin müxtəlif aspektləri bir sıra məqalələrdə təsvir edilmiş və vurğulanmışdır. Fəlakətlərin idarə edilməsinin bir çox aspektləri müzakirə edilmiş və fəlakətlərin idarə edilməsini təkmilləşdirmək üçün uyğun informasiya texnologiyalarına əsaslanan həllər tövsiyə edilmişdir [2, 3].

FƏLAKƏTLƏRİN İDARƏ EDİLMƏSİ

Fəlakətlərin idarə edilməsi dörd mərhələni əhatə edir:

- Zərərlərin yumşaldılması (azaldılması),
- Hazırlıq,
- Cavab tədbirləri və
- Bərpa.

Zərərlərin yumşaldılması mərhələsi gələcək fövqəladə halların və nəticələrin qarşısının alınması və ya minimuma endirilməsi üçün uzunmüddətli tədbirlər ilə idarəetmə fəaliyyətlərinə aiddir. Təsirlərin azaldılması fəaliyyətlərinə misal olaraq qabaqcıl tikinti qaydaları və standartlarının tətbiqi, magistral yol keçidlərinin, xəstəxanaların və sığınacaqların təkmilləşdirilməsi, geniş ictimaiyyəti və əlaqədar maraqlı tərəflərin təhlükələr və potensial təsir azaltma strategiyaları haqqında məlumatlandırılması və maarifləndirilməsi daxildir.

Hazırlıq mərhələsi fövqəladə hal və ya fəlakətin baş verməsi ehtimalı olduqda baş verir. Bu, insanların həyatını xilas etmək və qida və su ehtiyatı saxlamaq, fövqəladə hallar zamanı əlaqə kontaktların yerləşdirilməsi və təxliyənin hazırlanması kimi cavab və xilasetmə əməliyyatlarına kömək etmək üçün fəlakətdən əvvəl hazırlıq fəaliyyətlərinə uyğundur.

Cavab mərhələsi əvvəlcədən hazırlanmış planlar və strategiyalar əsasında fəaliyyət göstərir. Cavab tədbirləri fəlakət zamanı baş verir, adətən təhlükə altında olan ərazilərin boşaldılması, yanğınsöndürmə, axtarış və xilasetmə işləri, sığınacaqların idarə edilməsi və humanitar yardım daxildir.

Fəlakətdən sonra bərpa mərhələsi normal və ya daha yaxşı funksionallıq səviyyəsinə qayıtmaq üçün təmir və yenidənqurma işlərinə aiddir. Bərpa tədbirlərinə adətən dağıntıların təmizlənməsi, zərərin dəqiq qiymətləndirilməsi və infrastrukturun yenidən qurulması, habelə dövlət qurumlarının və sığorta şirkətlərinin maliyyə yardımı daxildir.

FƏLAKƏTLƏRİN İDARƏ EDİLMƏSİ SİSTEMLƏRİNİN TƏSNİFATI

Fəlakətlərin idarə edilməsi sistemləri xüsusiyyətlərinə və istifadə olunduğu mərhələyə görə təsnif edilə bilər. Fəlakətlərin idarəetmə sistemlərinin təsnifatı aşağıdakı kimidir:

Monitorinq sistemi

Monitorinq sistemi real dünyada hadisələr baş verən kimi məlumatları qeyd edir. Bu məlumatlar risk altında olan əhaliyə vaxtında xəbərdarlıq etməkdə faydalıdır. Bu, onlara zəlzələlər, daşqınlar, sunamilər, meşə yanğınları və s. kimi hadisələrin törətdiyi can və mal itkisinin qarşısını almaq və azaltmaq üçün ehtiyat tədbirləri görməyə imkan verir. Monitorinq məlumatları aşağıda təsvir olunan simulyasiya sistemlərini işə salmaq üçün istifadə edilə bilər.

Real vaxt sistemi

Real vaxt sistemi, adından da göründüyü kimi, fəlakətin cavab, yardım və bərpa mərhələlərində işə düşə bilər. Bu cür sistemlər situasiya haqqında məlumatlandırma, məlumat toplama, mübadilə və yayma və yardım səyləri məlumatlarının idarə edilməsi kimi məsələlərdə cavabdehlərə kömək edə bilər.

Simulyasiya sistemləri

Simulyasiya sistemləri real dünya vəziyyətlərindən istifadə edərək kompüter tərəfindən yaradılan ssenariləri təqdim etmək üçün istifadə olunur. Bunlar xilasetmə, yardım və qərar qəbul edən heyətin hazırlanması üçün hazırlıq mərhələsində istifadə olunur. Simulyasiya sistemləri çox vacibdir, çünki onlar müxtəlif ssenariləri təqdim etmək və onlarla məşğul olmaq üçün prosedurların effektivliyini yoxlamaq üçün istifadə edilə bilər. Fəlakətin gedişatını və zərərin qiymətləndirilməsini proqnozlaşdırmaq üçün daha mürəkkəb simulyasiya sistemlərindən istifadə edilə bilər.

Simulyasiya sistemlərinin bir növü kimi qərarların qəbul edilməsi sistemlərini göstərmək olar. Fəlakətlərin idarə edilməsi üçün qərarların qəbul edilməsi sistemi şəkil 1-də göstərilmişdir.



Şəkil 1. Fəlakətlərin idarə edilməsi sistemi

İntellektual texnologiyalar əsasında fəaliyyət göstərən intellektual sistemlərin strukturunda 3 əsas komponenti göstərmək olar (şəkil 2) :

- biliklər bazası
- məntiqi çıxarış mexanizmi
- istifadəçi interfeysi

Şəkil 2. İntellektual sistemlərin struktu

Biliklər bazası problemin həllini əks etdirən faktlar və qaydalar toplusudur. Qaydalar biliklərin təsvir edilməsi modellərinə uyğun olaraq təşkil olunurlar. Məntiqi çıxarış mexanizmi intellektual sistemə biliklər bazası əsasında mühakimə yürütməklə nəticə çıxarmağa imkan verir. İstifadəçi interfeysləri sorğuları formalaşdırmağa və informasiyanı təqdim etməyə imkan verir.

Fövqəladə hallar və fəlakətlərin müxtəlif mərhələlərində (zərərlərin yumşaldılması, hazırlıq, cavab tədbirləri və bərpa) intellektual sistemlərdən istifadə etmək olar. İntellektual sistemin verdiyi qərarlar və tövsiyələr fövqəladə hallar və fəlakətlərin daha effektiv idarə edilməsinə, qərarların vaxtında və düzgün qəbul edilməsinə imkan verir.

NƏTİCƏ

Fövqəladə hallar və fəlakətlərin idarə edilməsi prosesi, onun mərhələləri göstərilmişdir. Fəlakətlərin idarə edilməsi sistemləri onların fəaliyyət mərhələsinə və xüsusiyyətlərinə görə təsnif edilmişdir. Fövqəladə hallar və fəlakətlərin idarə edilməsi fəaliyyətlərində qərarların qəbul edilməsi üçün intellektual sistemlərdən istifadə edilməsi təklif olunmuşdur. İntellektual texnologiyalar əsasında fəaliyyət göstərən intellektual sistemin strukturu və komponentləri göstərilmişdir.

Ədəbiyyat

1. https://az.wikipedia.org/wiki/Fövqəladə_vəziyyət
2. Abdalla R, Esmail M. Artificial intelligence and WebGIS for disaster and emergency management. In: WebGIS for disaster management and emergency response. Springer, 2018, pp 57–62.
3. Wenjuan Sun, Paolo Bocchini, Brian D. Davison Applications of artificial intelligence for disaster management, Springer, Natural Hazards, 2020, vol.103(3), pp.2631–2689.

РЕЗЮМЕ
ИНТЕЛЛЕКТУАЛЬНАЯ СИСТЕМА УПРАВЛЕНИЯ В ЧРЕЗВЫЧАЙНЫХ СИТУАЦИЯХ И БЕДСТВИЯХ
Мурадханлы Л.Г.

Ключевые слова : *чрезвычайная ситуация, бедствие, интеллектуальная система, база знаний, механизм логического вывода.*

Показаны процесс и этапы управления чрезвычайными ситуациями и бедствиями. Объясняются этапы смягчения последствий, готовности, реагирования и восстановления. Системы управления бедствиями классифицированы как система мониторинга, система реального времени и система моделирования в соответствии с их характеристиками и этапом использования. При управлении чрезвычайными ситуациями и бедствиями для принятия решений было предложено использовать интеллектуальные системы, работающие на основе интеллектуальных технологий. Показаны структура и использование интеллектуальных систем.

SUMMARY
INTELLIGENT EMERGENCY AND DISASTER MANAGEMENT SYSTEM
Muradkhanli L.G.

Keywords : *emergency, disaster, intelligent system, knowledge base, inference engine.*

The process and stages of emergency and disaster management are shown. Mitigation, preparedness, response and recovery phases are explained. Disaster management systems are classified as monitoring system, live system and simulation system according to their characteristics and stage of use. It was proposed to use intelligent systems operating on the basis of intelligent technologies for decision-making in the emergencies and disasters management. The structure and use of intelligent systems are shown.

RƏNGLİ ZAMAN PETRİ ŞƏBƏKƏLƏRİNİN FƏALİYYƏT ALQORİTMİNİN İŞLƏNMƏSİ

Mustafayev Valeh Azad oğlu, Salmanova Məlahət Nəsiman qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
malaxat_70@mail.ru

Açar sözlər*: model, alqoritm, markerləşmə, rəngli zaman Petri şəbəkəsi, rənglərin paylanma funksiyası.*

Rəngli zaman Petri şəbəkəsinin(RZPŞ) fəaliyyət alqoritmi işlənmiş, alqoritm əsasında Delphi 7.0 sistemində proqram tərtib olunmuşdur. RZPŞ hadisələr ardıcıllığını əks etdirir, informasiya axınını izləyir və tənzimləyir, paralel proseslərin qarşılıqlı əlaqəsini əks etdirir, mürəkkəb sistemlərin fəaliyyəti prosesində eyni zamanda bir neçə paralel hadisəni modelləşdirməyə imkan verir. Bu proqram təminatı kifayət qədər böyük ölçülü matrisə malik məsələlərin yerinə yetirilməsinə və mürəkkəb paylanmış sistemlərin modelləşdirilməsinə imkan verir.

Ümumiləşmiş RZPŞ şəbəkəsi formal olaraq $C=(N,R,\Lambda,\Phi,\Psi,Z,S,\mu_0)$ toplusu şəklində[1] təyin olunur, burada $N=(P,T,I,O)$– PŞ–nin strukturudur: $P=\{p_i\}$, $(i=1,...,n;$ n – mövqelərin sayıdır) –boş olmayan sonlu mövqelər çoxluğudur; $T=\{t_j\},(j=1,\ldots,m;$ m – keçidlərin sayıdır)– boş olmayan sonlu keçidlər çoxluğudur; $I:P\times T\to\{0,1\}$; $O:T\times P\to\{0,1\}$ – keçidlərin uyğun olaraq giriş və çıxış funksiyalarıdır; $R=\{r_i\},(i=1,...k;\ k-$ rənglərin sayıdır) – mövqelərdəki markerlərin boş olmayan sonlu rənglər çoxluğudur; $\Phi:(P\times R)\times T\to(0,1)$ və

$\Psi : T \times (P \times R) \to (0,1)$ –uyğun olaraq şəbəkənin keçidlərinin giriş və çıxış mövqelərində markerlərin rənglərinin paylanma funksiyalarıdır; $\Lambda -$mövqelərdə rənglərin paylanma funksiyalarıdır; $Z = (z_1, z_2, \ldots, z_n)$ –RZPŞ–nin mövqelərində markerlərin zamana görə gecikmə parametrlərinin vektorudur; $S = (s_1, s_2, \ldots, s_m)$–RZPŞ–nin icazəli keçidlərinin yerinə yetirilmə müddəti parametrlərinin vektorudur; μ_0 – şəbəkənin başlanğıc markerləşməsidir.

Mövqelərdəki markerlər iki vəziyyətdə olur: buraxılan(əlçatan) və buraxılmayan(əlçatmayan), yəni markerlərə mövqelərdə zamana görə gecikmələr təsir edir və markerlər həmin müddət ərzində bloklanır. Bloklanma müddəti başa çatdıqdan sonra, markerlər s_j zamanı müddətində icazəli t_j keçidlərinin çıxış mövqelərinə aşağıdakı qaydalarla yerdəyişirlər:

– t_j keçidinin hər bir giriş mövqeyi üçün aşağıdakı düstura əsasən:

$$\mu^{k+1}(p_i, r_l) = \mu^k(p_i, r_l) - \varphi(p_i, r_l) \cdot I(p_i, t_j), \; i = \overline{1, |I(t_j)|}, l = \overline{1, k};$$

– t_j keçidinin hər bir çıxış mövqeyi üçün aşağıdakı düstura əsasən:

$$\mu^{k+1}(p_i, r_l) = \mu^k(p_i, r_l) + \psi(p_i, r_l) \cdot O(t_j, p_i), \; i = \overline{1, |O(t_j)|}, l = \overline{1, k}.$$

Şəbəkənin fəaliyyəti, onun markerləşməsinin keçidlərin yerinə yetirilməyə başlanması və sona çatması nəticəsində dəyişməsi prosesini təsvir edir. Keçid yerinə yetirilməyə başlayandan τ_{t_j} zaman taktından sonra sona çatır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq RZPŞ-nin fəaliyyət alqoritmi işlənmişdir [2,3].

Alqoritmin başlanğıcı

Addım 1. $D^- = [d_{ij}^-]$ giriş insidentlik matrisinin yaradılması, burada d_{ij}^- elementi i–ci mövqe ilə j–cu keçidi birləşdirən tillərin sayına bərabərdir :

$$d_{ij}^- = \begin{cases} 1, & \leftrightarrow p_i \in I(t_j); \\ 0, & \leftrightarrow p_i \notin I(t_j). \end{cases}$$

Addım 2. $D^+ = [d_{ij}^+]$ çıxış insidentlik matrisinin yaradılması, burada d_{ij}^+ elementi j-cu keçidi i-ci mövqe ilə birləşdirən tillərin sayına bərabərdir:

$$d_{ij}^+ = \begin{cases} 1, & \leftrightarrow p_i \in O(t_j); \\ 0, & \leftrightarrow p_i \notin O(t_j). \end{cases}$$

Addım 3. $M = [\mu_{il}]$ başlanğıc markerləşmə matrisinin yaradılması, burada $i = \overline{1, n}, l = \overline{1, k}$ (k– rənglərin sayıdır). μ_{il} elementi p_i mövqeyindəki r_l rənginə malik markerlərin sayıdır;

Addım 4. Keçidlərin giriş mövqeləri üzrə markerlərin rənglərinin $\Phi = [\varphi_{jl}]$ paylanma funksiyaları matrisinin yaradılması, burada $j = \overline{1, m}, l = \overline{1, k}$:

$$\varphi_{jl} = \begin{cases} 1, & \leftrightarrow (p_j, t_l) = r_l; \\ 0, & \text{eks halda} \end{cases}$$

Addım 5. Keçidlərin çıxış mövqeləri üzrə markerlərin rənglərinin $\Psi = [\psi_{jl}]$ paylanma funksiyaları matrisinin yaradılması, burada, $j = \overline{1, m}, l = \overline{1, k}$:

$$\psi_{jl} = \begin{cases} 1, & \leftrightarrow (t_l, p_j) = r_l; \\ 0, & \text{eks halda.} \end{cases}$$

Addım 6. Mövqelərdəki markerlərin gecikmə zamanı vektorunun yaradılması: $z = (z_1, z_2, ..., z_n)$.

Addım 7. İcazəli keçidlərin yerinə yetirilmə zamanı vektorunun yaradılması: $s = (s_1, s_2, ..., s_m)$.

Addım 8. Şəbəkənin fəaliyyətə başlanması zamanı $\tau = 0$, şəbəkənin fəaliyyət müddəti T qəbul edilir.

Addım 9. İcazəli keçidin axtarışı: hər bir $t_j, j = \overline{1,m}$ keçidi üçün yerinə yetirilmə şərti yoxlanılır: *a)* $D^- = [d_{ij}^-]$ matrisindən t_j keçidinin bütün giriş mövqeləri təyin edilir: $p_{i_1}, p_{i_2}, \ldots, p_{i_q}$, $q = |I(t_j)|$; *b)* Φ matrisindən t_j keçidinin giriş mövqeləri üzrə rənglərin bütün mümkün paylanmaları təyin edilir: $r_{l_1}, r_{l_2}, \ldots, r_{l_i}$, $i \in [1,k]$; *c)* M matrisindən t_j keçidinin təyin edilmiş bütün giriş mövqeləri üzrə markerlərin müəyyən edilmiş rəngləri seçilir: $\mu_{i_q l_v} = (p_{i_q}, r_{l_v})$, $q = \overline{1,|I(t_j)|}$, $v = \overline{1,k}$; *d)* Əgər $\forall i_q$ üçün $\mu_{i_q l_v} \geq d_{i_q j}^-$ şərtini ödəyən $\exists l_v$ mövcuddursa, onda t_j keçidi icazəlidir və 11-ci addıma keçid edilir.

Addım 10. Əgər t_j keçidi üçün yerinə yetirilmə şərti ödənmirsə, onda j indeksi bir vahid artırılır: j=j+1. Əgər $j \leq m$ şərti ödənirsə onda 9-cu addımın *a)* bəndinə keçid edilir, əks halda tupik vəziyyət elan olunur və alqoritmin sonuna keçid edilir.

Addım 11. t_j keçidinin giriş mövqeləri üzrə markerlərin maksimal bloklanma müddətinin hesablanması: *a)* $z_{\max} = 0$; *b)* əgər bütün $p_i \in I(t_j)$ mövqeləri üçün $z_i > z_{\max}$ şərti ödənirsə, onda $z_{\max} = z_i$ qəbul edilir.

Addım 12. t_j keçidinin yerinə yetirilmə zamanı hesablanır: $\tau = \tau + z_{\max} + s_j$.

Addım 13. Əgər $\tau < T$ şərti ödənirsə , onda 14-cü addıma keçid edilir, əks halda şəbəkənin fəaliyyət müddəti başa çatır və alqoritmin sonuna keçid edilir.

Addım 14. Yeni M' markerləşmə matrisinin elementlərinin hesablanması:

$$\mu'_{i_q l} = \mu_{i_q l_v} - \varphi_{jl_v} d_{i_q l_v}^-, \; q = \overline{1,|I(t_j)|}, \; v = \overline{1,k}; \quad \mu'_{i_q l_v} = \mu_{i_q l_v} + \psi_{jl_v} d_{ji_q}^+, \; q = \overline{1,|O(t_j)|}, \; v = \overline{1,k}.$$

Addım 15. 9-cu addıma keçid edilir.

Alqoritmin sonu.

Ədəbiyyat

1. Jensen K., Kristensen L. M. Coloured Petri Nets: Modelling and Validation of Concurrent Systems. Lst Springer Publishing Company. Incorporated. 2009. 384 p.
2. Мустафаев, В.А., Салманова, М.Н. Модель функционирования производственной системы механообработки в виде раскрашенных временных сетей Петри // –Уфа: Электротехнические и информационные комплексы и системы, – 2018. Т.14, №2,– с.37-45.
3. Управление ГПС: Модели и алгоритмы. /под. общ. ред. академика АН СССР С.В. Емельянова, М.: Машиностроение. 1987, 368 с.

РЕЗЮМЕ

РАЗРАБОТКА АЛГОРИТМА ФУНКЦИОНИРОВАНИЯ РАСКРАШЕННЫХ ВРЕМЕННЫХ СЕТЕЙ ПЕТРИ

Мустафаев В.А., Салманова М.Н.

Ключевые слова: *модель, алгоритм, раскрашенные временные сети Петри, функция распределения цветов*

В работе рассмотрены раскрашенные временные сети Петри (РВСП), позволяющие анализировать моделируемые процессы без усложнения структуры сети, что дает возможность моделировать не только последовательность событий, но и их привязку ко времени. Разработан алгоритм функционирования РВСП. На основе предложенного алгоритма разработано программное обеспечение, позволяющее решать задачи с

матрицами достаточно больших размеров. Это отражает взаимодействие параллельных процессов, позволяет одновременно моделировать несколько параллельных событий в процессе работы сложных систем.

SUMMARY
DEVELOPMENT OF AN ALGORITHM FOR THE FUNCTIONING OF COLORED TIMED PETRI NETS
Mustafayev V.A., Salmanova M.N.

Keywords: *model, algorithm, colored timed Petri nets, color distribution function.*

In the article developed algorithm functioning of Colored Timed Petri Nets. Based on the proposed algorithm, software has been developed that allows solving problems with sufficiently large matrices, which fully meets the requirements for modeling complex distributed systems, controls and regulates information flows, reflects the interaction of parallel processes, and allows simultaneous simulation of several parallel events in the process of complex systems operation.

SİSTEMOTEXNİKİ LAYİHƏLƏNDİRMƏ MƏRHƏLƏSİNDƏ TEXNİKİ SİSTEMLƏRİN PETRİ ŞƏBƏKƏLƏRİ İLƏ TƏDQİQİ

Nəsirova Elmira Əliş qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
elmira12.02.63@gmail.com

Açar sözlər: *Petri şəbəkəsi, simulyasiya, ekspert sistemləri, verilənlər bazası, biliklərin təsviri*

Məruzədə mürəkkəb texnoloji proseslərin modelləşdirilməsi və kompüter eksperimentləri ilə tədqiq edilməsi üçün istifadə olunan ekspert sistemlərinin işlənilməsinin instrumental proqram vasitələrin tətbiqi məsələlərinə baxılıb. Klassik üsullarla texniki sistemləri simulyasiya edən ekspert sistemlərinin qurulması üçün tələb olunan vasitələr müəyyən edilmişdir. Müasir dövrdə informasiya-axtarış, proqnozlaşdırma kimi intellektual prosedurların avtomatlaşdırılmasını təmin edən Petri şəbəkəsinin müxtəlif formalizmləri və onların istifadə etdikləri proqram alətləri təhlil edilmişdir.

Klassik üsullarla texniki sistemlərin modelləşdirilməsi üçün ekspert sistemlərinin qurulma prinsipləri əsasında müəyyən edilmişdir ki, ekspert sisteminin işlənməsi üçün aşağıdakı vasitələr tələb olunur:

1. Prolog, Lisp kimi yüksək proqramlaşdırma dilləri;
2. Biliklərin təsviri üsulları (Produksiya, freym, semantik şəbəkə və b.);
3. Ekspert sistemlərinin yaradılmasının avtomatlaşdırılması vasitələri;
4. Ekspert sistemləri üçün örtüklər (ExpWin, EsPlan).

İntellektual tətbiqi proqram paketləri aşağıdakı modullar toplusundan ibarətdir: monitor, ünsiyyət sistemi, VB (verlənlər bazası) və BB (biliklər bazası), tətbiqi məsələlərin planlaşdırılması, tətbiqi proqram modulları kitabxanaları, funksional semantik şəbəkə, paylanmış verilənlər və biliklər bazasına icazə verilən müdaxilələrin təmin edilməsi və məsələlərin kollektiv həlli vasitələri. Sadələşdirilmiş varianta ünsiyyət sistemi, verilənlər və biliklər bazası daxil olmaya bilər.

Çevik istehsal sistemlərinin layihələndirilməsi prosesində texnoloji əməliyyatların təhlili üçün modelləşdirilmə alətlərinin işlənməsi və tətbiqi məsələlər həll edilmişdir. Mürəkkəb texniki dinamik sistem kimi təqdim olunan çevik istehsal sisteminin tədqiqi və optimallaşdırma

vasitələrinin istifadəsi ilə bu tip sistemlərin 1982-ci ildən 2015-ci ilə qədər mövcud olan və uğurla tətbiq olunan simulyasiya alətlərinin istifadə təcrübəsi və metodologiyası vardır. Müasir yanaşmada istifadəçi proqram dilində layihələndirilən sistemi formalizə edir və biliklər bazasının yaradılması üçün freymlərdən, məntiqi, semantik şəbəkələrdən, produksiya qaydalarından istifadə edir [3]. Bu da öz növbəsində predmet səviyyəsində sistemin modelinin müvafiq riyazi modelə avtomatik çevrilməsini təmin edir.

Əməliyyat sisteminin əmr və hərəkətlərin interpretasiyasını təyin edən baza elementi Shell (örtük) adlanır. Bu tipli sistemlər ümumilikdə özünü praktikada təsdiqləmiş hər hansı ekspert sisteminin əsasında təşkil edilir. Örtük yaradılarkən sistemin prototipindən onun bilavasitə tətbiq sahəsi üçün daha müvafiq olan komponentlər kənarlaşdırılır və məhdud ixtisaslaşmaya uyğun olmayanlar seçilir.

Müasir dövrdə Petri şəbəkəsinin müxtəlif növləri və onların istifadə etdikləri proqram alətləri işlənilib [1]. Bu tip əksər mövcud proqramların funksionallığı tam şəkildə deyil. İstehsal sistemlərinin nəticələrinin tədqiqinə dair modelləşdirmə prinsipləri əksər proqramlarda realizə olunmayıb. Daha müasir proqram alətləri tələb olunur və uyğun olaraq RAO-studio sistemini qeyd etmək olar [2], belə ki bu proqram təminatının nüvəsi xüsusi modelləşdirmə dilində işlənilib və Petri şəbəkəsinin vizual təsviri vasitəsi ilə yanaşı, bu sistem blokların yerləşdirilməsi əməliyyatlarının animasiyasını da təmin edir.

Baxılan məsələlərdə CLIPS informasiya-axtarış, proqnozlaşdırma kimi intellektual prosedurların avtomatlaşdırılmasını təmin edən proqram sistemidir. OPS isə CLIPS-C-də yazılmış faktlardan məqsədə aparan nəticədən istifadə edən oxşar məhsul sistemidir. CLIPS-nin məntiqi nəticə mexanizminə problemlərin həlli üçün qayda və strategiyaların dinamik əlavə edilməsi və müşayiəti də aiddir. Dinamik versiya daxil olmaqla CLIPS digər tətbiqi proqramlarda da yerləşdirilə bilər. FuzzyCLIPS versiyası qeyri-səlis parametr və qaydaların təqdim etməsinə və idarə olunmasına əsaslanan örtük proqramıdır. CLIPS-nin funksional imkanlarına əlavə olaraq, Fuzzy CLIPS qeyri-səlis biliklərlə, mürəkkəb mühakimələrlə işləyə bilir. BABYLON sistemi isə ekspert sistemlərinin işlənilməsi üçün mühitdir. O verilənlər modelini, uyğun məntiqi formalizmi və diaqnostik tətbiqi proqramların yazıldığı dili özündə saxlayır. Bu proqram LİSP-də yazılmışdır və aparat platformasının geniş diapozonuna köçürülə bilir.

Ekspert sistemlərinin örtük proqramlarının təhlili göstərir ki, kompleks təyinatlı ÇİS-lərin layihələndirilməsində bu sistemlərdən istifadə məhduddur və yalnız informasiya-axtarış, seçim və planlaşdırma prosedurlarının qurulmasında mümkün olur. Tədqiq obyekti kimi ÇİS-nin layihələndirmə prosesində onun strukturuna və idarəetmə funksiyalarına əsasən komponovka, idarəetmə, nəzarət, planlaşdırma məsələlərinin həllinə dair Prolog proqramlaşdırma sisteminin dilinin, semantik şəbəkə, Petri şəbəkəsi, produksiya modelləşdirmə üsullarından istifadə etmək daha məqsədəuyğundur.

PİPE-Petri şəbəkəsinin platformalı müstəqil redaktoru 2003-cü ildə İngiltərədə İmperator kollecinin kompüter bölməsinin aspirantlar qrupu tərəfindən işlənmişdir. Petri şəbəkəsinin qurulması açıq proqram təminatı prinsipi ilə həyata keçirilir. Modelləşdirmə rejimində keçidlərin siyahısı yaranır və mövqelərdə nişanların miqdarının dəyişilməsi əks olunur. Hər bir qövs üçün çəki əmsalı vermək olar. Java proqramlaşdırma platformasından istifadə etməklə proqramı müxtəlif əməliyyat sistemlərində işə salmağa imkan verir ki, bu da tədqiqatçının PİPE sistemini istifadəsini təmin edir.

Təhlil olunan ədəbiyyat mənbələrindən Petri şəbəkələrinin çatışmazlıqlarından aşağıdakıları qeyd etmək olar:

1. Mürəkkəb quruluş;

2. Zəif vizuallaşdırma prosesi;

3. Modelin funksionallaşdırılmasının qeyri-determinikliyi;

4. Sistemin optimallaşdırma vasitələrinin yetəri qədər inkişaf etməməsi.

Petri Net Simulator vasitəsi ilə Petri şəbəkəsinin aparatı əsasında ÇİS-lərin modelləşdirilməsini və animasiyasını qraf-sxem şəklində təsvir etmə mümkün olur. Bu proqram həm də diskret sistemlərin modelləşdirilməsi üçün istifadə olunur. Petri Net Simulatorun üstünlüyü ondan ibarətdir ki, bu proqramın funksiyaları xüsusi pəncərələrə paylaşdırılır. Proqramın başa düşülən quruluşu və ümumi görünüşü vardır.

İstehsal obyektlərinin fəaliyyətinin modellərlə təsvir edilməsi üçün istifadə olunan Petri şəbəkələri standart və qəbul olunmuş ənənəvi üsullar hesab olunmur. Bu onunla əlaqədardır ki, bu tip modellər texnoloji prosesi tam şəkildə təsvir imkanı olmur.

Ədəbiyyat

1. Əhmədov, M.A, Məmmədov, C.F, Nəsirova, E.Ə. Çevik istehsal sisteminin avtomatlaşdırılmış layihələndirmə alətinin arxitekturasının və fəaliyyətinin kompleks şəkildə Petri şəbəkəsi ilə tədqiqinin işlənməsi //-Bakı: Azərbaycan ali texniki məktəblərinin xəbərləri. ADNSU, -2022. cild 19. №1, -s. 4-14

2. Əhmədova S.M. İmitasiya modelləşdirilməsi alqoritminin işlənməsi və onun çevik istehsal sisteminin tədqiqinə tətbiqi// SDU-nun Elmi xəbərləri, texniki elmlər bölməsi, №2, -2019, -s. 64-71

3. Гусейнзаде Ш.С., Насирова Э.А. Создание структурных элементов сети Петри, имитирующей конечный автомат. Материалы международной научной конференции «Теоретические и прикладные проблемы математики». Сумгаит, 25-26 мая, 2017, стр. 215-216.

РЕЗЮМЕ

АНАЛИЗ ИССЛЕДОВАНИЯ СИСТЕМ С СЕТЯМИ ПЕТРИ НА ЭТАПЕ СИСТЕМАТЕХНИЧЕСКОГО ПРОЕКТИРОВАНИЯ

Насирова Е.А.

Ключевые слова: *сеть Петри, имитационное моделирование, экспертные системы, база данных, представление знаний.*

В докладе рассмотрены вопросы применения инструментальных программных средств для разработки экспертных систем, используемых для моделирования сложных технологических процессов и проведения исследований с помощью компьютерных экспериментов. Определены средства, необходимые для построения экспертных систем, моделирующих технические системы классическими методами. Проанализированы различные формализмы сети Петри, обеспечивающие автоматизацию таких интеллектуальных процедур, как поиск информации и прогнозирование в современное время, и используемые ими программные средства.

SUMMARY

RESEARCH ANALYSIS OF SYSTEMS WITH PETRI NETS AT THE STAGE OF SYSTEMATIC DESIGN

Nasirova E.A.

Keywords: *Petri net, simulation modeling, expert systems, database, knowledge.*

The report considers the issues of application of instrumental software tools for the development of expert systems used for modeling complex technological processes and conducting research using computer experiments. The means necessary for the construction of expert systems that model technical systems with classical methods are determined. Various formalisms of Petri nets, which provide automation of such intellectual procedures as searching for information and forecasting in modern times, and the software tools used by them are analyzed.

İNTERAKTİV SİMULYATORDA ŞƏBƏKƏLƏRİN TƏDRİSİ

Qafarov Anar Arif oğlu
Azərbaycan, Gəncə, Gəncə Dövlət Universiteti,
akafarov@inbox.ru

***Açar sözlər**: şəbəkə topologiyaları; virtual simulyator proqramı; şəbəkə avadanlıqları; konsol rejim; şəbəkə paketləri.*

Şəbəkələrin effektiv tədrisi hazırda ən aktual və mübahisəli problemlərdən biridir. Şəbəkə avadanlıqlarını düzgün əlaqələndirmək və informasiyanın ötürülməsində yüksək effektivliyə nail olmaq üçün interaktiv simulyatordan istifadə etmək məqsədəuyğundur. Belə simulyatorlara Cisco Packet Tracer, Boson NetSim, GNS3, VIRL, EVE-NG və başqaları aiddir. Simulyatorun interfeysində müxtəlif tədqiqatlar aparmaq, mümkün vəziyyətləri tədqiq etmək və optimal sxem üzrə şəbəkə avadanlıqlarını quraşdırıb informasiya paketlərinin itkisiz və sürətli ötürülməsini təmin etmək olur.

Şəbəkələr, şəbəkə avadanlıqları və proqramları müasir cəmiyyətin aktual anlayışlarıdır. Müasir gənclər vaxtını səmərəli istifadə etmək üçün, ən yeni məlumatları əldə edib vaxtında dəyərləndirmək üçün şəbəkələrdən məlumatlı olmalıdırlar. Odur ki, şəbəkələrin necə təşkil olunduğunu, şəbəkə topologiyalarının düzgün təşkili qaydalarını dərindən öyrənmək lazımdır. Tələbələrə, şagirdlərə və hətta pedaqoqlara şəbəkə avadanlıqlarının nə olduğunu, necə əlaqələndiyini, hansı prinsiplər əsasında işlədiyini interaktiv qaydada nümayiş etdirmək üçün virtual simulyatorlardan istifadə etmək məqsədəuyğundur. Belə simulyatorlardan biri də Cisco Packet Tracer proqramıdır.

Şəkil. Cisco Packet Tracer proqramı.

Proqramın interfeysində təqdim edilən rəngarəng şəbəkə avadanlıqlarını Drag&Drop texnologiyasından istifadə edərək İşçi Sahəyə sürükləyib, onları əlaqələndirmək və sonradan həmin əlaqələri kökləmək olur. Əlaqədə olan şəbəkə avadanlıqları arasında informasiya paketlərinin necə göndərildiyini, hansı yollarla lazımi yerlərə çatdığını izləmək və lazım gəldikdə düzəltmək çox əlverişlidir.

Ədəbiyyat

1. Бони Д. Руководство по Cisco IOS. Изд. Питер, Русская Редакция, 2008, 786 с.

2. Джером Ф. Димарцио. Маршрутизаторы CISCO. Пособие для самостоятельного изучения. Изд. Символ-Плюс, 2003, 512 с.
3. Руденко И.В., Маршрутизаторы CISCO для IP-сетей. Изд. КУДИЦ-ОБРАЗ, 2003, 656 с.
4. Сиротский А.А., Смакаев Б.Б. Моделирование локальной вычислительной сети в программной среде Cisco Packet Tracer // Современные проблемы информационной безопасности и программной инженерии. Сборник избранных статей научного семинара №1(5) кафедры информационной безопасности и программной инженерии 30 апреля 2013 г.. Российский государственный социальный университет, кафедра информационной безопасности и программной инженерии. Москва, 2013. С. 21-30.
5. Хмелевская А.В., Захаров В.С. Использование симулятора Cisco Packet Tracer в учебном процессе //Инфокоммуникации и информационная безопасность: состояние, проблемы и пути решения. Сборник научных статей по материалам III Всероссийской научно-практической конференции: в 2 частях. Ответственный редактор: В.Г. Андронов. 2016. С. 280-288.

РЕЗЮМЕ
ОБУЧАЮЩИЕ СЕТИ В ИНТЕРАКТИВНОМ СИМУЛЯТОРЕ
Гафаров А.А.

Ключевые слова: *сетевые топологии, программа виртуальной симуляции, сетевые устройства, консольный режим, сетевые пакеты*

В статье дается обоснование важности использования виртуальных симуляторов в преподавании сетей и сетевых технологий студентам, школьникам и даже педагогам, демонстрируется значимость настройки сетевых соединений и отслеживания приема-передачи сетевых пакетов между сетевыми узлами. Виртуальный симулятор CİSCO PACKET TRACER предоставляет исключительные возможности экспериментирования различных сетевых подключений с последующим выбором наиболее оптимального из них.

SUMMARY
TEACHING NETWORKS IN AN INTERACTIVE SIMULATOR
Gafarov A.A.

Keywords: *network topology; the program of virtual simulation; network devices; a console mode; network packages.*

In article the substantiation of importance of use of virtual simulators in teaching of networks and network technologies is given to students, schoolboys and even teachers, the importance of adjustment of network connections and tracing of reception-transfer of network packages between network knots is shown. Virtual simulator CİSCO PACKET TRACER gives exclusive experimentation opportunities various network connections with the subsequent choice of optimal of them.

KİBERFƏZANIN STRUKTUR MODEL ALQORİTMİ

[1]Rəhimov Şəfahət Rəhim oğlu, [2]Sadıqov Ülfət Kəramət Oğlu
[1]Sumqayıt Dövlət Universiteti, [2]Azərbaycan Texniki Universiteti
shafahat_61@mail.ru

Açar sözlər: *kiberfəza, informasiya xidmətləri, struktur model, resurs, proqram agentləri.*

Kiberfəzanın funksional yanaşmada resurslarının təsnifatlandırılması məsələlərinə baxılır. Kiberfəzanın bir məkan oblastı kimi təqdim etdiyi informasiya xidmətlərinin resurslarının paylanması qaydalarının struktur model alqoritmi formalaşdırılır. Kiberfəzada bir sıra konfliktlərin müəyyən edilməməsi proqram agentləri tərəfindən struktur model alqoritmini tətbiq etməklə təsdiqlənir.

Məlumdur ki, hal-hazırda dünyanın bütün magistral kompüter şəbəkələri bir-biri əlaqələndirilmış və onların hesablama resursları inteqrasiya olunmuşdur. Bu isə bəşəriyyət aləmində yeni bir intellektual komponentli oblast anlamı olan kiberfəza termininin yaradılmasını zəruriləşdirdi [1].

Kiberfəza ifadəsindəki fəza termini riyaziyyat elmində işlədilən üç ölçülü koordinat sistemi anlamı kimi deyil, özündə hər hansı informasiya çoxluğunu saxlayan məkan başa düşülür. Kiberfəza açıq məkan anlayışı olub, kompüterin yaddaşından istifadə etməklə internet üzərindən idarə olunan həm hesablama, həm də saxlanma əməliyyatlarını icra edir.

Kiberfəzanın əsas tərkib komponentlərindən biri də internetdir ki, bu, dünyanın istənilən yerindən mütəmadi əlaqə yaratmaq vasitəsi kimi məlumatların qarşılıqlı mübadiləsinin, hesablama resurslarının operativ həyata keçirildiyi məkandır. İnsan isə daima kiberfəzada münaqişə yaratmaq mənbəyi olmaqla yanaşı, həm də informasiyaya sahib olmaq uğrunda da mübarizə aparır ki, hər iki halda kiberfəzanın xarakterik komponent və xüsusiyyətlərinin müəyyənləşdirilməsini tədqiq etməlidir.

Kiberfəzada konfliklərin mənfi təsiri də daima diqqət mərkəzində olmuşdur ki, bu isə məkan mühitində yarana biləcək konfliklərin özünün necə aparmasından asılı olur.

Kiberfəza qeyri-bircins məkan kimi müxtəlif səviyyəli intellektual idarəetmə komponentlərindən təşkil olunduğuna görə süni hazırlanan konfliklər sonradan müəyyən edilir ki, bu da vəsait və bilik sərf etməklə yanaşı vaxt itgisi də yaradır.

Funksional yanaşmada kiberfəzanın fiziki strukturuna daxil olunan elementləri aşağıdakı kimi təsnifatlandırmaq olar[2]:

1. Siqnalların süni və təbii yayılma mühitinə;
2. İnformasiya kanalının formalaşması və paylanması vasitələrinə;
3. Kiberfəza elementlərinin ilkin xarakteristikalarının ölçülməsi və toplanması vasitələrinə;
4. İnformasiya ehtiyatlarının diferensiallaşdırılması və mühafizəsi vasitələrinə;
5. Kiberfəza fraqmentlərinə və onların funksiyalarına nəzarət vasitələrinə;
6. İnformasiya ehtiyatlarının saxlanması və emalı vasitələrinə;
7. İnformasiya resurslarının avtomatlaşdırılmış mənbələri və istehlakçılarına;
8. Naviqasiya məlumatlarını təyin etmək üçün vasitələrə;
9. İnsanın informasiya tələbatlarının və kiberfəzanın imkanlarının kommunikasiya interfeysi üçün qurğulara.

Nəzərə alsaq ki, kiberfəzanın tam elementi olan qurğuların hər biri potensial olaraq hesablama (Hr), informasiya (Ir) və telekommunikasiya resursuna (Tr) malikdir, onda mürəkkəb sistemlər nəzəriyyəsinə[3] görə kiberfəza resurslarını müvafiq olaraq

$$KF=h(K_1, K_2. K_3)$$

riyazi forma şəklində ifadə etmək olar. Burada K_1, K_2, K_3 komponentləri müvafiq olaraq kiberfəzanın informasiya, hesablama və telekommunikasiya resurslarını, h isə resurslar arasındakı kiberfəzanın əlaqəsini bildirir.

İnformasiya mübadiləsi təminatı proseslərinə isə aşağıdakılar daxildir: marşrutlaşdırma, kommutasiya, məlumatların işlənməsi və ötürülməsi, kanalyaratma, məlumatların saxlanması, təhlükəsizlik və s.

Bundan əlavə, kiberfəzanın struktur elementlərinin birləşməsi xətlər və kommunikasiya qovşaqları kimi mürəkkəb obyektlərin formalaşmasına imkan verir [4].

Kiberfəzanın xüsusiyyətlərini tədqiq etməyə imkan verən onun riyazi aparat elementi kimi struktur model alqortiminin işlənib hazırlanması, tədqiqat sahəsinin terminoloji baza əsasının formalaşmasını da təmin edir.

Kiberfəzanın təqdim etdiyi informasiya xidmətinin qurulması uyğun olaraq identifikasiya və autentifikasiya da daxil olmaqla xidmət resurslarının qaydaları əsasında formalaşdırılır. Xidmət resursları kimi proqram agentlərdən də istifadə edilə bilər. Belə ki, proqram agentlər informasiya subyektləri ilə birgə, həm də fiziki subyekt kimi də ifadə oluna bilər.

Proqram agentlərinin (yaxud sadəcə agentlərin) dinamikliyi, yəni dəyişkənliyi kiberfəzada bir sıra təhlükələrin yaranmasına da imkan verir ki, bunu isə saxta və ya zərərli agentlərin olması ilə əlaqələndirmək olar. Sistem üçün kənardan agentin tətbiqi onun saxta olması kimi informasiya təhlükəsizliyinin hər hansı xarakteristikasının zərərli xüsusiyyətlərini yarada bilər.

Kənar agentlərin əlavə kanallarla rabitə əlaqələri də ola bilər ki, bu da kiberfəzada tətbiqi zamanı məxfilik xarakteristikasının pozulmasıdır. İnformasiyanın qəbulu və paylanması qaydalarının düzgün yerinə yetirilməməsi də kiberfəzada informasiya tamlılığına nəzarətin itirilməsinə səbəb olur. Beləliklə, agentin orijinallıq şərtinin ödənilməsi onun kiberfəza üçün təhlükəsizliyinin təminatıdır.

Daxili və xarici agentlərin sayından asılı olaraq kiberfəza resursları da dinamik dəyişir. Daxili agentlər kiberfəzanın əsas nüvəsini təşkil edir və kiçik bir zaman period ərzində

$$KF = h\left(\sum_{j=1}^{N} K_j^{kf}\right)$$

şəklində ifadə olunur.

Kj^{kf} – kiberfəzanın j-cı agentinin resurs qiyməti; N – kiberfəzanın daxili agentlərinin sayı.

Xarici agent telekommunikasiya avadanlığının köməyi ilə giriş nöqtəsi vasitəsilə digər agentlərin yaratdığı kiberfəzanın resurslarına qoşulur. Xarici agent kiberfəzaya qoşularaq, onun bir hissəsinə çevrilməklə məkanda resursların həcmini dəyişəcək. Beləliklə, xarici agentlərin kiçik bir müddət ərzində məkana qoşulması şəraitində kiberfəzanın ümumi resursu aşağıdakı kimi təqdim edilə bilər:

$$KF = h\left(\sum_{j=1}^{N} K_j^{kf} + \sum_{k=1}^{M} K_k^{kft}\right)$$

K_k^{kft} – kiberfəzanın k-cı xarici agentinin resursu; M – kiberfəzaya qoşulan xarici agentlərin sayı.

Kiberfəzaya qoşulmuş agent tərəfindən əlavə edilmiş (və ya ləğv edilmiş) resurs aşağıdakı kimi təqdim edilə bilər:

$$d = R - (R_1 + R_2)$$

d - kiberfəzaya əlavə edilmiş (və ya ləğv edilmiş) ümumi resursun həcmi;

R - kiberfəza ilə əlaqələndirilən resurslar həcmi;

R_1 - elementin (məsələn, əməliyyat sistemi, tətbiqi proqram təminatı və s.) öz fəaliyyətinə sərf olunan resurs;

R_2 - kompüter proqram resursları ilə qarşılıqlı əlaqəyə sərf olunan resurs.

R, R_1 və R_2 riyazi işarələmələrin hər biri müvafiq olaraq informasiya, telekommunikasiya və hesablama resurslarını təmsil edir.

Kiberfəza elementlərinin funksiyalarını birləşdirərək, son nəticədə agentə ötürülən informasiya xidmətinin formalaşdırılmasını nəzərdən keçirsək, zamandan, mövqeyindən asılı olaraq, məkanın resursları ilə təmin olunan agentlər eyni qaydalarla fəaliyyət göstərib, müraciət formaları ilə fərqlənəcəklər. Müraciət formalarındakı fərqlilik isə məkan elementlərinin fiziki münasibətlərinə görə yaranır.

Nəticə. Qurulan struktur model alqoritmi kiberfəzada resurslara olan tələblərin formalaşdırılmasını və xassələrinin təhlilinin aparılmasını təmin edir. Kiberfəzanın resurslarının idarə edilməsi proseslərinin optimallaşdırılması üçün müvafiq məlumatlar bazası yaradılmışdır. Struktur model alqoritminin tətbiqi ilə kiberfəzadakı agentlərin resurs qiymətləndirilməsi aparılmışdır.

Ədəbiyyat

1. Зегжда Д.П. и др. Кибербезопасность прогрессивных производственных технологий в эпоху цифровой трансформации. Вопросы кибербезопасности №2(26) – 2018. с. 2-15.
2. Əlizadə M. N., Bayramov H. M., Məmmədov Ə. S. İnformasiya təhlükəsizliyi, Dərslik, Bakı, "İQTİSAD UNİVERSİTETİ" nəşriyyatı, şəkilli, 2016 - 384 s.
3. Зегжда Д.П., Ивашко А.М. Основы безопасности информационных систем. - М.:Горячая линия - Телеком, 2000. – 452 с.
4. Степенкин А.А. Доверительная модель информационной безопасности среды многоагентных робототехнических систем.// Вопросы кибербезопасности. 2020. № 6(40) с. 23-31.

РЕЗЮМЕ

АЛГОРИТМ СТРУКТУРНОЙ МОДЕЛИ КИБЕРПРОСТРАНСТВА

Рагимов Ш.Р., Садыгов У.К.

Ключевые слова: *киберпространство, информационные услуги, структурная модель, ресурс, программные агенты.*

Рассмотрены вопросы классификации ресурсов киберпространства в функциональном подходе. Сформирован алгоритм структурной модели правил распределения ресурсов информационных услуг, представленных киберпространством как пространственная область. Неопределение ряда конфликтов в киберпространстве подтверждается программными агентами путем применения алгоритма структурной модели.

SUMMARY

ALGORITHM STRUCTURAL MODEL OF CYBERSPACE

Rahimov Sh.R., Sadigov U.K.

Keywords: *cyberspace, information services, structural model, resource, software agents.*

The issues of classification of cyberspace resources in the functional approach are considered. The algorithm for the structural model of the rules for the distribution of information service resources, represented by cyberspace as a spatial area, has been formed. The non-determination of a number of conflicts in cyberspace is confirmed by software agents by applying the structural model algorithm.

İXRACYÖNÜMLÜ İSTEHSALIN İNFORMASİYA TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Səfərova Vəfa Elxan qızı
Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu
s.vefa@gmail.com

Açar sözlər: *informasiya, istehsal, əmək, məhsul, xidmət, biznes*

Tezisdə istehsal və istehsal prosesindən, ixrac yönümlü istehsalın informasiya təminatının təkmilləşdirilməsi istiqamətləridən danışılmışdır

İstehsal, insanın hər hansı bir avadanlıqın köməyi ilə əmək obyektinə təsiridir. Bunun nəticəsində hazır məhsullar, yeməklər, avadanlıqlar, kərpiclər və s. yaranır.

İstehsal prosesinin başa düşülməsinə iki tərəfdən yanaşmaq olar: Birinci halda, əmək obyektlərinin məruz qaldığı metamorfozaların ümumi sayı kimi. Bu halda, biz birbaşa texnoloji prosesdən danışırıq. İkincidə əmək obyektlərinin məqsədəuyğun şəkildə dəyişdirilməsinə yönəlmiş bütün işçilərin ümumi təsiri kimi, bu halda isə əmək prosesindən danışırıq. Texnoloji proses: əmək obyektlərinin vəziyyətini dəyişdirmək və ya müəyyən etmək üçün məqsədyönlü hərəkətləri ehtiva edən istehsal prosesinin bir hissəsidir.

İstehsal prosesi: texnoloji, informasiya, nəqliyyat, köməkçi, xidmət və digər prosesləri əhatə edir. [1,2]

Qlobal iqtisadiyyatda ticarət və XBİ-nin əhəmiyyəti ilə üzləşən hökumətlər və özəl sektorlar diqqətlərini elektron biznesin (e-biznes) inkişafına yönəldirlər. Tez-tez biznesdən biznesə (B2B), biznesdən hökumətə (B2G) və biznesdən istehlakçıya (B2C) bölünən elektron biznesin əməliyyat xərclərini azaldacağı, dünya iqtisadiyyatının inteqrasiyasını təşviq edəcəyi və texnologiya sektorunda yeni bizneslərin inkişafı üçün imkanlar yaradacağı düşünülür. Elektron biznesin inkişafı üçün optimal strategiya İT infrastrukturunun təkmilləşdirilməsi təşəbbüslərini və KOM-lar üçün İT-nin əlçatanlığını ehtiva edən müxtəlif aspektləri əhatə edir. [3,4]

Uğurlu ixraca əsaslanan strategiyanın əsas xarici lövbəri beynəlxalq/regional bazarların açıqlığı, ölçüsü və dinamikasındadır. Ticarətin liberallaşdırılması qlobal miqyasda, regional və hətta ikitərəfli azad ticarət sazişləri çərçivəsində, açıqlığa müvafiq və müsbət təkan yaradır və ixrac üçün yeni şanslar təqdim edir. Daxili tələbatın azalması və ya durğunluğu ixrac yönümlülük üçün təzyiq və ya təkan amili kimi çıxış edə bilər, çünki bir çox şirkətlər sağ qalmaq üçün yeganə şanslarını yeni xarici bazarlar tapmaqda görürlər. Onilliklər ərzində ixraca əsaslanan böyümə modelinin çatdırılması inandırıcı arqumentlərə əməl edilməlidir. O, yüksək artım yaradır, yeni iş yerləri yaradır, əmək məhsuldarlığının yüksəlməsinə gətirib çıxarır, istehsalın yeni təşkilati və idarəetmə üsullarını tətbiq edir, ixrac gəlirlərini əhəmiyyətli dərəcədə artırır və bir sıra hallarda ənənəvi ticarət kəsirini profisitə çevirir. [5]

Ədəbiyyat

1. Talıblı M.İqtisadiyyatda insan dəyəri. Bakı, 2014, 290 s.
2. Əhmədov M.M. Xidmət sahələrinin marketinqi. Bakı: İqtisad Universiteti, 2015, 372 s.
3. Əhmədov A., Hacıyev M. 2020 - Azərbaycanın iqtisadiyyatı. Bakı, 2017, 230 s.
4. Meybullayev M.X., Mikayılova S.M. İqtisadi təhlükəsizlik nəzəriyyəsi. Bakı, 2015, 280 s.
5. Hüseynov F.İ. İqtisadi nəzəriyyənin əsas prinsipləri. Bakı, 2015, 380 s.

РЕЗЮМЕ
СОВЕРШЕНСТВОВАНИЕ ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ ЭКСПОРТООРИЕНТИРОВАННОГО ПРОИЗВОДСТВА
Сафарова В.Е.

Ключевые слова: *информация, производство, лаборатория, продукт, услуга, бизнес.*

В данных тезисах говорится о производстве и производственном процессе, направлениях совершенствования информационного обеспечения экспортоориентированного производства.

SUMMARY
İMPROVİNG İNFORMATİON PROVİSİON OF EXPORT-ORİENTED PRODUCTİON
Safarova V.E.

Keywords: *information, production, labor, product, service, business*

This thesis talks about the production and production process, directions for improving the information provision of export-oriented production.

MÜASİR CƏMİYYƏTDƏ İNFORMASİYA VƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU

Zeynalova Səadət Cəbrayıl qızı
Naxcıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
seadet8787@mail.ru

Açar sözlər: *informasiya texnologiyaları, telekommunikasiya, kompüter*

Məqalədə müasir cəmiyyətin inkişafında informasiya, kommunikasiya və kompüter texnologiyalarının rolunu müəyyən edən tədqiqatın nəticələri təqdim olunur. İnformasiya, kommunikasiya və kompüter texnologiyalarının təsiri problemlərinə nəzəri və metodoloji yanaşma çərçivəsində baxılır, texnokratik informasiya və informasiya texnologiyaları istehsalın optimallaşdırılması və əmək məhsuldarlığının artırılması vasitəsi kimi qəbul edilir, humanist informasiya isə bu resurslardan biri hesab olunur. İnformasiya, kommunikasiya və kompüter texnologiyaları bəşəriyyətə qarşı yönəlmiş silah hesab olunur.

SQ xüsusi çəkisini $\gamma_{sel} = \rho_{sel} \cdot g, \left(N / m^3\right)$ düsturu vasitəsilə hesablamaq olar.

Qeyd edək ki, ən adekvat nəticələr, qruntlar mexanikasının dinamikasını ifadə edən, müəyyən spesifik dəyişiliklər olunmuş tənliklərdən istifadə olunduğu halda tenzor formada aşağıdakı kimidir:

$$\rho_{sel}\left(\frac{\partial U_i}{\partial t}+U_i\frac{\partial U_i}{\partial x_i}\right)=\rho_{sel}F_i-\frac{\partial P}{\partial x_i}+\frac{\partial \tau_{ij}}{\partial x_i}, \tag{7}$$

$$\frac{\partial \rho_{sel}}{\partial t}+\frac{\partial(\rho_{sel}U_i)}{\partial x_i}=0. \tag{8}$$

Burada: U_i–sel qarışığının hissəciyinin sürət vektorunun komponenti (yerli sürət), t, x_i–zaman və məsafə koordinatları, F–həcmi qüvvənin paylanması sıxlığının komponenti; τ_{ij}-gərginlik tenzorudur. (7) və (8) tənliklərində hidravlikada qəbul edilən əvəzetmələr və yaxınlaşmalar nəzərə alsaq, əlaqəli sel axınlarının hərəkəti və kəsilməzliyi üçün aşağıdakı birölçülü tənlikləri alırıq:

$$\frac{1}{g_0}\cdot\frac{\partial U}{\partial t}+\frac{U}{g_0}\cdot\frac{\partial U}{\partial x}-i_0+\frac{\partial H}{\partial x}+\frac{V}{g_0}\frac{q}{\omega}+i_1=0, \tag{10}$$

$$\frac{\partial \omega}{\partial t}+\frac{\partial Q}{\partial x}=q.$$

Selin sərbəst səthində isə $P=P_{atm}=const$, yəni səthdə təzyiq atmosfer təzyiqinə bərabər olur, ona görə də $\frac{\partial P}{\partial x}=0$ olur. Bu zaman $\rho F_i=-\nu_{sel}\cdot\frac{\partial^2 U}{\partial y^2}$ olur (g-sərbəstdüşmə təcilidir).

ν_{sel} - kinematik özlülük əmsalıdır, U-yerli sürətdir (axının hər hansı nöqtəsində surət). Birinci yaxınlaşmada $\nu_{sel}=const$ qəbul etməklə həllı tapırıq:

$$U=-\frac{g_i}{2\nu_{sel}}y^2+c_1y+c_2, \tag{11}$$

c_1 və c_2 sabitləri sərhəd şərtlərindən təyin olunur:

$$U=-\frac{g_i}{2\nu_{sel}}\left(2y(H-h_0)-y^2\right), \tag{12}$$

$y=H-h_0$ olduqda $U=U_{\max}=U_{nüvə}=\frac{g_i(H-h_0)^2}{2\nu_{sel}}$.

SQ xüsusi sərfi

$$q_{sər}=\int_0^{H-h_0}Udy \quad \text{və ya} \quad q_{sər}=\frac{g_i(H-h_0)^3}{3\nu_{sel}}$$

ilə təyin olunur. Burada

$$q_{nüvə}=U_{nüvə}\cdot h_0=\frac{g_i(H-h_0)^2h_0}{2\nu_2},$$

$$q=q_{sər}+q_{nüvə}=\frac{g_i(H-h_0)^2(2H+h_0)}{6\nu_{sel}},$$

$$V=\frac{q}{H}=\frac{g_i(H-h_0)^2(2H+h_0)}{6\nu_{sel}\cdot H},$$

Aydındır ki, SA tam su sərfi $Q(x)=q\cdot B(x)$ olar. $B(x)$-yatağın enidir. $Q_{\max}=q\cdot\max_x B(x)\cdot$

Bu zaman hidravlikadan məlum olan aşağıdakı ifadələr alınır.

$$U_{\max}=\frac{giH^2}{2\nu_{sel}}, \qquad q=\frac{giH^2}{3\nu_{sel}}, \qquad V=\frac{giH^2}{3\nu_{sel}},$$

$h_0=H$ olduqda axının sərfi sıfıra bərabərdir. Bu hal çox qatı sel qarışıqları (yüksək qatılıqlı lil və s.) olduqda baş verir. Bu cür ətraf Şvedov-Binqam mühiti adlanan çox qatı mayelərin hərəkətinin öyrənilməsi zamanı istifadə olunan mexaniki modellə ifadə olunur və $\tau = \tau_0 \pm \mu_{sel} \cdot \frac{dU}{dy}$, $\tau -$ toxunan gərginlikdir, onda $\tau = \gamma_{sel} \cdot iH$, $V = \frac{\gamma_{sel} \cdot iH \cdot K_1}{3\mu_{sel}}$ olduğunu alırıq.

$$U_{max}=U_{nüvə}=\frac{\tau_0}{\mu_c}(r_0 - R)+\frac{\gamma_c \cdot J}{4\mu_c}(R^2 - r_0^2),$$ J- hidravlik meyldir.

Onda qradient qatda

$$Q_{qr} = \int_{r_{nu}}^{r_0} 2U\pi r\, dr = \frac{\pi\tau_0}{3\mu_c}\left(3Rr_0^2 - 2r_0^3 - R^3\right)+\frac{\pi\gamma_c J}{8\mu_c}\left(r_0^2 - R^2\right)$$

alınır.

Çayın şərti real en kəsiyinin vahid zamanda keçən sel sərfi isə

$$Q = \frac{\pi\tau_0}{3\mu_{sel}}\left(3Rr_0^2 - 2r_0^2 - R^3\right)+\frac{\pi\gamma_c J}{8\mu_{sel}}\left(r_0^2 - R^2\right)+\frac{\pi\tau_0 r_0^2}{\mu_{sel}}(r_0 - R)+\frac{\pi\gamma_c J r_0^2}{4\mu_{sel}}\left(R^2 - r_0^2\right)$$

olar.

Tezisdə fərqli rejimli hərəkətini təsvir edən differensial tənliklər üçün sərhəd məsələləri qoyularaq həll edilmişdir.

Ədəbiyyat

1. Будагов Б.А. Геоморфология южного склона Большого Кавказа (в пределах Азерб. ССР), Баку: Элм, 1969., 201 с.
2. Флейшман С.М. Сели. Л.: Гидрометеоиздат, 1978, 462 с.
3. Həsənov A.B. və b. Çaylarda sel və daşqın hadisələrinin riyazi modelləşdirilməsi və proqnozlaşdırılması. Bakı, 2012, 144 s.

РЕЗЮМЕ
МАТЕМАТИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ДВИЖЕНИЯ СЕЛЕВЫХ ПОТОКОВ В РУСЛАХ ГОРНЫХ РЕК

Гасанов А.Б.

***Ключевые слова**: наводнение, затопление, переменные параметры окружающей среды, сопутствующие наводнения, многокомпонентная смесь.*

В статье связанные паводковые потоки, возникающие на горных реках, моделируются как двухфазная система, состоящая из твердой и жидкой составляющих, процентное содержание этих составляющих, физико-механические, реологические и динамические характеристики фаз рассматриваются как переменные количества. В работе наиболее адекватные результаты были получены при использовании уравнений, выражающих наиболее общую динамику механики грунтов с некоторыми специфическими изменениями.

SUMMARY
MATHEMATICAL MODELING OF MOVEMENT OF FLOOD FLOWS IN MOUNTAIN RIVER COURSES

Hasanov A.B.

***Keywords:** flood, flooding, variable environmental parameters, associated floods, multicomponent mixture.*

In the article, connected flood flows occurring in mountain rivers are modeled as a two-phase system consisting of solid and liquid components, the percentage of these components, the physical-mechanical, rheological and dynamic characteristics of the phases are considered as variable quantities. In these cases, the most adequate results

were obtained if the equations expressing the most general dynamics of soil mechanics, with certain specific changes, were used.

IV BÖLMƏ

RİYAZİYYAT VƏ İNFORMATİKANIN TƏDRİSİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ MƏSƏLƏLƏRİ

CƏBRİ MƏSƏLƏLƏRİN VEKTORLAR METODU İLƏ HƏLLİ

Ağayarov Mətləb Hüseynqulu oğlu, Əliyev Fəxrəddin Feyzullah oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
amisum-alava@mail.ru, af_64@mail.ru

***Açar sözlər*: *vektor, koordinat, modul, vektorlar metodu, tənlik, bərabərsizlik, tənliklər sistemi*.**

Məqalədə cəbri məsələlərin vektor üsulu ilə həlli əsaslandırılır. Bu sahədə vektorlardan istifadə edərək bərabərsizliklərin sübutu problemləri nəzərdən keçirilir: müəyyən şərtlərdə ifadənin ən böyük və ən kiçik qiymətlərinin tapılması, tənliklər sisteminin həlli və irrasional tənliklərin həlli nəzərdən keçirilir.

Riyazi məsələlərin vektorlar metodu ilə həlli müasir riyaziyyatın tədrisi metodikasında problemli suallardan biri olmuş və problem olmaqda qalır. Çünki bu mövzu məktəb həndəsə kursunun ənənəvi olaraq ən çətin mövzularından biridir. Məlumdur ki, bu mövzu həndəsə kursunda öyrədilir, ən çox da burada öz tətbiqini tapır.

Vektor anlayışı müasir riyaziyyatın fundamental anlayışlarından biridir. Vektorun ən əhəmiyyətli sahəsi onun müxtəlif fənlərə tətbiq edilməsidir. Fizika, nəzəri mexanika, klassik diferensial həndəsə, tenzor analizi və b. sahələrdə vektorun tətbiqi olduqca genişdir. Məhz ona görə də orta məktəb riyaziyyat kursunda vektorlar mövzusunun, vektorlar metodu ilə riyazi məsələlərin həllinin öyrədilməsi xüsusi əhəmiyyət kəsb edən mövzulardandır. Ona görə də belə hesab etmək olar ki, vektorların riyazi məsələlərin həllinə tətbiqi, aktual olmuş, aktualdır və zaman keçdikcə aktual olaraq qalacaqdır.

Vektor termini həndəsədə iki mənada işlədilir:

1) istiqamətlənmiş düz xətt parçası kimi; 2) fizikada vektorial kəmiyyət kimi.

Vektorlar metodu ilə həll olunan riyazi məsələləri iki qrupa bölmək olar: afin məsələlər və metrik məsələlər. Afin məsələlərin həllində vektorların skalyar hasili əməlindən istifadə olunmur, metrik məsələlərin həllində isə vektorların skalyar hasili əməlindən istifadə olunur.

Vektorlar metodu ilə həll olunan riyazi məsələlərin həlli üçün metodiki ədəbiyyatlarda öz əksini tapmış bəzi faydalı məsləhətlərdən aşağıdakı məzmunda istifadə oluna bilər:

- Məsələnin şərti vektor dilinə tərcümə edilir: vektorların daxil edilməsi, koordinat sisteminin seçilməsi, bazis vektorların seçilməsi, daxil edilmiş vektorların bazis vektorlar üzrə ayrılışı;
- vektorlar bərabərliyi sisteminin (yaxud bir bərabərliyin) tərtib edilməsi;
- vektorlar bərabərliyinin sadələşdirilməsi;
- vektorlar bərabərliyini cəbri tənliklə əvəz edib, həmin tənliyin həll edilməsi;

- alınmış tənliklər sisteminin (yaxud bir tənliyin) həllinin həndəsi mənasının aydınlaşdırılması.

Yuxarıda deyilənləri nəzərə alaraq, riyazi məsələlərin həllinə vektorlar metodunun tətbiqinin öyrənilməsi üçün qarşıya aşağıdakı məqsədlər qoyulur:

- müxtəlif həndəsə məsələlərinin (həm afin, həm də metrik məsələlərin) həllinin səmərəli üsullarını öyrənmək və teoremləri isbat etmək bacarıqlarına yiyələnmək;
- şagirdlərdə ümumiləşdirmə və konkretləşdirmə vərdişlərinin formalaşdırılması;
- şagirdlərdə çeviklik kimi elə təfəkkür keyfiyyəti aşılamaq ki, onlarda məqsədyönümlülük, rasionallıq və s. kimi keyfiyyətlər formalaşsın. [1]

Vektorlar metodu ilə bir neçə cəbri məsələnin həllinə baxaq.

Məsələ 1. x, y, z elə ədədlərdir ki, $x + y + z = 1$. $x \geq \frac{1}{4}, y \geq \frac{1}{4}, z \geq \frac{1}{4}$ olduqda $\sqrt{4x+1} + \sqrt{4y+1} + \sqrt{4z+1} < 5$ bərabərsizliyini isbat edin.

Həlli. $\vec{m}\left(\sqrt{4x+1}; \sqrt{4y+1}; \sqrt{4z+1}\right)$ və $\vec{n}(1; 1; 1)$ vektorlarını daxil edək. Aydındır ki, $|\vec{m} \cdot \vec{n}| \leq |\vec{m}| \cdot |\vec{n}|$ bərabərsizliyi koordinatlarla

$$|x_1 \cdot y_1 + x_2 \cdot y_2 + z_1 \cdot z_2| \leq \sqrt{x_1^2 + x_2^2 + x_3^2} \cdot \sqrt{y_1^2 + y_2^2 + y_3^2}$$

kimi yazıla bilər. Elə bu axırıncı bərabərsizlik verilmiş məsələnin həllinin açarıdır.

Deməli,

$$|\vec{m} \cdot \vec{n}| \leq \sqrt{4x+1} \cdot \sqrt{4x+1} \cdot 1 + \sqrt{4y+1} \cdot 1 + \sqrt{4z+1} \cdot 1 \leq$$
$$\leq \sqrt{4x+1+4y+1+4z+1} \cdot \sqrt{1^2+1^2+1^2} =$$
$$= \sqrt{4(x+y+z)+3} \cdot \sqrt{3} = \sqrt{4 \cdot 1 + 3} \cdot \sqrt{3} = \sqrt{7} \cdot \sqrt{3} = \sqrt{21} < 5.$$

Beləliklə, alırıq ki, $\sqrt{4x+1} + \sqrt{4y+1} + \sqrt{4z+1} < 5$.

Məsələ 2. $x^2 + y^2 + z^2 = 4$ olarsa, $5x + 3y - z$ ifadəsinin ən böyük və ən kiçik qiymətlərini tapın.

Həlli. $\vec{a} = (x; y; z)$ və $\vec{b} = (5; 3; -1)$ vektorlarına baxaq.

$\left(\vec{a} \cdot \vec{b}\right)^2 \leq |\vec{a}|^2 \cdot \left|\vec{b}\right|^2$ olduğu üçün

$$(5x + 3y - z)^2 \leq (x^2 + y^2 + z^2) \cdot (25 + 9 + 1)$$

alarıq. Buradan isə

$$(5x + 3y - z)^2 \leq 4 \cdot 35, |5x + 3y - z| \leq 2\sqrt{35}$$

və ya $-2\sqrt{35} \leq 5x + 3y - z \leq 2\sqrt{35}$ olar.

Deməli, $5x + 3y - z$ ifadəsinin ən böyük qiyməti $2\sqrt{35}$, ən kiçik qiyməti isə $-2\sqrt{35}$-dir.

Məsələ 3. Tənliklər sistemini həll edin:

$$\begin{cases} x\sqrt{y^2-1} + y\sqrt{x^2-1} = 3\sqrt{x^2+y^2-2}, \\ x^2 + y^2 = 9. \end{cases}$$

Həlli. $\vec{u}(x; y)$ və $\vec{v}\left(\sqrt{x^2-1}; \sqrt{y^2-1}\right)$ vektorlarına baxaq. Onda

$|\vec{u}| = \sqrt{x^2+y^2} = \sqrt{9} = 3$ və sistemin birinci tənliyi

$$\vec{u} \cdot \vec{v} = |\vec{u}| \cdot |\vec{v}| \qquad (1)$$

şəklinə düşür.

(1) bərabərliyi onu göstərir ki, $\vec{u}$ və $\vec{v}$ vektorları kollineardırlar. Onda

$$x\sqrt{x^2-1} = y\sqrt{y^2-1}. \qquad (2)$$

Aşkardır ki, $f(x) = x\sqrt{x^2-1}$ funksiyası $(-\infty; 1) \cup (1; +\infty)$ çoxluğunda artandır. Ona görə də (2)-dən alınır ki, $x = y$.

Bu halda sistemin ikinci tənliyi $x = y = \frac{3}{\sqrt{2}}$ şəklinə düşür. Asanlıqla yoxlamaq olar ki, $\left(\frac{3}{\sqrt{2}}; \frac{3}{\sqrt{2}}\right)$ cütü verilmiş tənlikər sisteminin həllidir.[2]

Cavab: $\left(\frac{3}{\sqrt{2}}; \frac{3}{\sqrt{2}}\right)$.

İndi isə üçməchullu iki tənlikdən ibarət olan tənliklər sisteminin həllinə baxaq.

Misal 4. Tənliklər sistemini həll edin: $\begin{cases} 12x^3 + 12y^3 + z^3 = 17, \\ x^6 + y^6 + z^6 = 1. \end{cases}$

Həlli. $\vec{m}(x^3; y^3; z^3)$ və $\vec{n}(12; 12; 1)$ vektorlarını daxil edək. Onda

$$|\vec{m}| = \sqrt{x^6 + y^6 + z^6} = 1;$$

$$|\vec{n}| = \sqrt{12^2 + 12^2 + 1^2} = 17 \text{ və } \vec{m} \cdot \vec{n} = 12x^3 + 12y^3 + z^3 = 17.$$

Buradan, verilən sistem aşağıdakı tənliklər sisteminə eynigüclü olur:

$$\begin{cases} |\vec{m} \cdot \vec{n}| = 17, \\ \vec{m} \cdot \vec{n} = 17. \end{cases}$$

Deməli, $\vec{m}$ və $\vec{n}$ vektorları kollineardır, yəni

$$\frac{x^3}{12} = \frac{y^3}{12} = \frac{z^3}{1}, x^3 = 12z^3, y^3 = 12z^3.$$

Bu halda tənliklər sisteminin birinci tənliyi

$$12 \cdot 12z^3 + 12 \cdot 12z^3 + z^3 = 17$$

şəklinə düşür.

Buradan $289z^3 = 17, z^3 = \frac{1}{17}, z = \sqrt[3]{\frac{1}{17}}$ alınır. Onda $x = \sqrt[3]{\frac{12}{17}}, y = \sqrt[3]{\frac{12}{17}}$ olar.

Cavab: $\left(\sqrt[3]{\frac{12}{17}}; \sqrt[3]{\frac{12}{17}}; \sqrt[3]{\frac{11}{17}}\right)$.

Məsələ 5. Tənliyi həll edin:

$$\sqrt{x-2} + \sqrt{4-x} = x^2 - 6x + 11.$$

Həlli. Əvvəlcə tənliyin sol tərəfini qiymətləndirək:

$$x^2 - 6x + 11 = (x-3)^2 + 2 \geq 2.$$

Bunun üçün $\vec{m}\left(\sqrt{x-2}; \sqrt{4-x}\right)$ və $\vec{n}(1; 1)$ vektorlarını daxil edək.

$\sqrt{x-2} + \sqrt{4-x} = \sqrt{x-2} \cdot 1 + \sqrt{4-x} \cdot 1$ olduğundan $|\vec{m} \cdot \vec{n}| \leq |\vec{m}| \cdot |\vec{n}|$ bərabərsizliyinə əsasən

$$\sqrt{x-2} \cdot 1 + \sqrt{4-x} \cdot 1 \leq \sqrt{\left(\sqrt{x-2}\right)^2 + \left(\sqrt{4-x}\right)^2} \cdot \sqrt{1^2 + 1^2} = \sqrt{2} \cdot \sqrt{2} = 2.$$

Onda aşağıdakı tənliklər sistemini alarıq:

$$\begin{cases} x^2 - 6x + 11 = 2, \\ \sqrt{x-2} + \sqrt{4-x} = 2. \end{cases}$$

Alınan tənliklər sistemini həll etməklə $x = 3$ olduğunu taparıq.

Cavab: $x = 3$.

İndi isə daha mürəkkəb bir bərabərsizliyin həllinə baxaq.

Məsələ 6. Bərabərsizliyi isbat edin:

$$-\frac{1}{2} \leq \frac{(x+y)(1-xy)}{(1+x^2)(1+y^2)} \leq \frac{1}{2}.$$

Həlli. $\vec{m}\left(\frac{2x}{1+x^2};\frac{1-x^2}{1+x^2}\right)$ və $\vec{n}\left(\frac{1-y^2}{1+y^2};\frac{2y}{1+y^2}\right)$ vektorlarını daxil edək. Ond aşkardır ki, $|\vec{m}| = \sqrt{\frac{4x^2}{(1+x^2)^2}+\frac{(1-x^2)^2}{(1+x^2)^2}} = \sqrt{\frac{4x^2+1-2x^2+x^4}{(1+x^2)^2}} = \sqrt{\frac{1+2x^2+x^4}{(1+x^2)^2}} = \sqrt{\frac{(1+x^2)^2}{(1+x^2)^2}} = 1,$

$$|\vec{n}| = \sqrt{\frac{(1-y^2)^2}{(1+y^2)^2}+\frac{4y^2}{(1+y^2)^2}} = \sqrt{\frac{1-2y^2+y^4+4y^2}{(1+y^2)^2}} = \sqrt{\frac{(1+y^2)^2}{(1+y^2)^2}}=1.$$

Vektorların skalyar hasilinin xassəsinə əsasən

$$|\vec{m}\cdot\vec{n}| \le |\vec{m}|\cdot|\vec{n}|$$

və ya

$$|\vec{m}\cdot\vec{n}| = \left|\frac{2x(1-y^2)}{(1+x^2)(1+y^2)}+\frac{2y(1-x^2)}{(1+x^2)(1+y^2)}\right| = \left|\frac{2(x-xy^2+y-x^2y)}{(1+x^2)(1+y^2)}\right| =$$

$$2\cdot\left|\frac{x+y-xy(x+y)}{(1+x^2)(1+y^2)}\right| = 2\cdot\left|\frac{(x+y)(1-xy)}{(1+x^2)(1+y^2)}\right| \le |\vec{m}|\cdot|\vec{n}| = 1\cdot 1 = 1.$$

Buradan alırıq ki,

$$\left|\frac{(x+y)(1-xy)}{(1+x^2)(1+y^2)}\right| \le \frac{1}{2}$$

və ya

$$-\frac{1}{2} \le \frac{(x+y)(1-xy)}{(1+x^2)(1+y^2)} \le \frac{1}{2}.$$

Məsələ 7. Funksiyanın ən böyük qiymətini tapın:

$$y = \sqrt{29-x}+\sqrt{x+11}.$$

Həlli. Əvvəlcə verilmiş funksiyanın təyin oblastını tapaq:

$$\begin{cases}29-x \ge 0,\\ x+11 \ge 0\end{cases} \Leftrightarrow \begin{cases}x \le 29,\\ x \ge -11\end{cases} \Leftrightarrow -11 \le x \le 29.$$

Deməli, verilmiş funksiyanın təyin oblastı $[-11;29]$ parçasıdır. Məsələnin həlli üçün $\vec{m}(\sqrt{x+11};\sqrt{29-x})$ və $\vec{n}(1;1)$ vektorlarını daxil edək.[3]. Onda alarıq:

$$|\vec{m}\cdot\vec{n}| \le |\vec{m}|\cdot|\vec{n}| = \sqrt{x+11+29-x}\cdot\sqrt{1+1} = \sqrt{50}\cdot\sqrt{2} = \sqrt{100} = 10.$$

Göründüyü kimi verilmiş funksiyanın ən böyük qiyməti 10-a bərabərdir. Bu isə $\vec{m}$ və $\vec{n}$ vektorlarının koordinatlarının mütənasib olduğu halda mümkündür: $\frac{\sqrt{x+11}}{1} = \frac{\sqrt{29-x}}{1}$. Alınan tənliyi həll edib $x = 9$ olduğunu taparıq. $x = 9$ qiyməti funksiyanın təyin oblastına daxildir. Deməli, funksiyanın ən böyük qiyməti $\sqrt{29-9}+\sqrt{9+11} = \sqrt{20}+\sqrt{20} = 4\sqrt{5}$.

Cavab. $4\sqrt{5}$.

Məqalənin aktuallığı. Baxılan problemin tədqiqinin nəticlərindən praktikada, müxtəlif məsələlərin intensivləşdiriməsində baxılan üsullardan istifadə etməklə şagirdlərin təfəkkürünün inkişaf etdirilməsində istifadə xüsusi aktuallıq kəsb edir.

Məqalənin elmi yeniliyi. Məqalədə vektorların tətbiqi ilə bərabərsizliklərin isbatı, irrasional tənlik və tənliklər sisteminin həlli metodları işlənmişdir.

Məqalənin praktik əhəmiyyəti. Baxılan həll üsullarından istifadə etməklə riyaziyyatın tədrisində fənlərarası əlaqələrin yaradılması geniş mənada desək, xüsusi aktuallıq kəsb edir. Çünki bərabərsizliklərin isbatında, tənlik və tənliklər sisteminin həllində vektorların tətbiqindən geniş surətdə istifadə olunur.Ona görə də baxılan problem nəzəri və praktiki əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Галкин Е. В. Нестандартные задачи по математике. Алгебра: Учеб. пособие для учащихся 7-11 кл. Челябинск: «Взгляд», 2004. 448 с.
2. Кушнир А.И. Векторные методы решение задач.- Киев, 1994.
3. Яковлев Г. Н., Купцов Л. П. и др. Всероссийские математические олимпиады школьников. Москва, Издательство «Просвещение », 1992 г.

РЕЗЮМЕ
АЛГЕБРАИЧЕСКИЕ ЗАДАЧИ, РЕШАЕМЫЕ МЕТОДОМ ВЕКТОРОВ
Агаяров М.Г., Алиев Ф.Ф.

***Ключевые слова*:** *вектор, координата, модуль, векторный метод, уравнение, неравенство, система уравнений*.

В статье обосновывается решение алгебраических задач векторным методом. В этой области рассматриваются задачи доказательства неравенств с применением векторов: нахождения наибольшего и наименьшего значения выражения при определенных условиях, рассматривались решения системы уравнений и решение иррациональных уравнений.

SUMMARY
SOLUTION ALGEBRAC PROBLEMS BY THE METHOD OF VECTORS
Agayarov M.H., Aliyev F.F.

Keywords: *a vector, coordinate, module, vektor method, equation, inequality, sestem of equation.*

The article substantiates the solution of algebraic problems by the vector method. In this area, problems of provinq inequalities using vectors are considered: finding the largest and smallest values of an expression under certain conditions, solving a system of equations and solving irrational equations were considered.

BİLİK, BACARIQ VƏ VƏRDİŞLƏRİN FORMALAŞDIRIMASI PROSESİNİN İDARƏ OLUNMASININ ƏNƏNƏVİ VASİTƏLƏRİ

Allahverdiyeva Natəvan Əhmədəli qızı, Əliyeva Aynurə Ruslan qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
natavan.sdu@gmail.com

Açar sözlər: *müasir təhsil, riyazi biliklər, təlim prosesi, ənənəvi qiymətləndirmə, təlim fəaliyyəti.*

Təhsil tərif verilməyən anlayışlardan biridir. Onun mahiyyətinin dəyişdirilməsi bir çox aspektlərinin itirilməsinə səbəb olur. Məqalədə müasir dövrdə təhsilin məqsədləri araşdırılmış, riyazi təhsilin rolu müəyyənləşdirilmişdir. Bu məqsədlə təlim prosesində bilik, bacarıq və vərdişlərin səmərəli şəkildə mənimsənilməsinin yolları göstərilmişdir.

Təhsil fəlsəfə, psixologiya, pedaqogika və praktikada geniş istifadə olunan tərif verilməyən anlayışlardan biridir. Onun mahiyyətinin istənilən formada dəqiqləşdirilməsi onun bir çox aspektlərinin itirilməsi ilə nəticələnər.

Müasir təhsilin məqsədləri aşağıdakılar hesab oluna bilər:

1) şəxsiyyətə və cəmiyyətə lazım olan şəxsi bacarıqların inkişafına tam nail olmaq;
2) Şəxsiyyəti sosial dəyərli fəallığa cəld etmək.

Riyaziyyatın inkişaf tarixinin indiki dövrü bütün elm sahələrinin "riyaziləşməsi" dövrü kimi xarakterizə etmək olar. Bu dövrdə riyazi təhsilin ümumi təhsil sistemindəki rolununu aşağıdakı göstəricilər əsasında müəyyən etmək olar:

1) bəşəriyyətin inkişafında riyazi biliklərin aparıcı vasitə olması;
2) riyazi biliklərin gündəlik həyatda geniş tətbiq olunması;
3) insanın şəxsiyyət kimi formalaşmasında riyaziyyatın əhəmiyyətli vasitə olması;
4) digər fənlərin öyrənilməsi prosesində riyazi biliklərin zəruri olması.

Müasir dövrdə riyazi təhsilin əsas məqsədləri kimi aşağıdakıları qeyd etmək olar:

1) riyazi vasitələrin köməyi ilə şəxsiyyəti inkişaf etdirmək;
2) şagirdlərə riyaziyyat elmi, riyazi tədqiqat metodları, riyazi faktların doğruluğunu göstərmək üsulları, təbiət və cəmiyyətdəki hadisələrin öyrənilməsində riyaziyyatın tətbiqləri haqqında doğru təsəvvürləri formalaşdıran riyazi bilik, bacarıq və vərdişlər sistemini mənimsətmək.

Təlim prosesinin idarə olunması aşağıdakıları nəzərdə tutur [2]:

1) təlimin məqsədlərinin müəyyən edilməsini;
2) qoyulmuş məqsədlərə nail olmaq üçün təlim prosesinin iştirakçıları arasında qarşılıqlı fəaliyyət üsulunun seçilməsi;
3) təlim prosesinin hər bir mərhələsində alınan nəticələr haqqında informasiyanın toplanılmasını;
4) pedaqoji prosesin korreksiyasını;
5) təlimin nəticələrinin qiymətləndirilməsini.

Keyfiyyətə təminat verən təlim prosesinin idarə olunmasında əsas vəzifə təlim prosesini optimallaşdırmaq, bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin səmərəliliyini yüksəltmək, şagirdlərin zehni bacarıqlarını inkişaf etdirməkdir.

Diaqnostika təlim prosesinin ən mühüm komponentidir və təlim məqsədlərinə nail olmanı müəyyən etmə vasitəsidir. Təlim prosesini diaqnostikasız idarə etmək mümkün deyildir. Diaqnostika təlim prosesinin nəticələrini dəqiq təyin etməyə imkan yaradır. Bilik və bacarıqların diaqnostikasına və qiymətləndirilməsinə aşağıdakı tələblər qoyulur:

1) obyektivlik (şagirdlərin real nəticələrini və çatışmazlıqlarını obyektiv qiymətləndirmək və qərəzçiliyə yol verməmək);
2) şagirdlərin real imkanlarını, sağlamlığını nəzərə almaq, diaqnostika prosesinin gedişi zamanı həvəsləndirici qiymətləndirmədən istifadə etmək;
3) qiymətləndirməni şəffaflıq şəraitində aparmaq və yalnız əsaslandırılmış qiymət qoymaq;
4) hər bir şagirdə gələcəkdə necə işləmək haqqında və nəticələrini necə yüksəltmək haqqında tövsiyyələr vermək və s.

Təlim prosesini təşkil etmək və idarə etmək müxtəlif səviyyələrdə aparıla bilər:

1) qanunvericilik səviyyəsində;
2) məktəb səviyyəsində;
3) sinif-dərs səviyyəsində.

Bilik, bacarıq və vərdişlərin formalaşdırılması prosesinin idarə olunmasında ənənəvi və müasir qiymətləndirmə vasitələrindən istifadə oluna bilər.

Ənənəvi qiymətləndirmə vasitələri aşağıdakılar hesab olunur:

- şifahi sorğu;
- yoxlama yazı işi;
- ev tapşırığı;
- şifahi imtahan;
- yazılı imtahan.

Şifahi sorğu şagirdin biliyinin yoxlama üsullarından biridir. Fərdi və frontal formada aparıla bilər. Fərdi sorğu zamanı müəllim əvvəlcə sualı bütün sinif kollektivinə ünvanlayır və vikirləşməyə vaxt verir. Sonra müəllim cavab verəcək şagirdin adını élan edir. Sorğunun sualı dəqiq və artıq sözsüz olmalıdır. Sualda yalnız bir tapşırıq olmalıdır.

Ev tapşırığı nəzarətin xüsusi formasıdır. Onun nəticələrinin müzakirəsi sinif kollektivinin öyrənmək marağının formalaşmasına güclü təsir göstərə bilər.

Yekun yoxlamalar zamanı şifahi və yazılı imtahanlardan istifadə oluna bilər.

"İmtahan" sözü latın dilində qiymət və sınaq mənası verən sözdən yaranmışdır. Pedaqogikada imtahan bu və ya digər fənn üzrə mənimsənilmiş bilik, bacarıq və vərdişlərin yoxlanılması prosesidir.

İmtahan şagirddə məsuliyyətlilik hissi formalaşdırır. İmtahan şagirdin böyük enerji və güc sərf etməyi tələb edən, həyacan və rahatsızlıqla zəngin olan prosesdir. Belə proseslər şagirdləri həyata hazırlamağa xidmət etmək məqsədi ilə təşkil olunur.

İmtahan şagirdlərdən müəyyən olunmuş yerdə və müəyyən olunmuş zaman intervalında işləməyi tələb edir. İmtahan onu verən iş qabiliyyətinin ən yüksək zirvəsinə çatmağa imkan verən iş şəraiti ilə təmin etməlidir.

İmtahanlar şifahi və yazılı formada aparıla bilər.

Ənənəvi yoxlama və qiymətləndirmə vasitələrini hazırlamaq müəllimlər üçün çətinlik yaratmır. Bu ənənəvi vasitələrin müsbət cəhətidir. Lakin ənənəvi vasitələrin həyata dairəsi geniş olur və bu vasitələrdən istifadə etməklə aparılan diaqnostikanın sürəti çox zəif olur. Ənənəvi qiymətləndirmə sistemi əsasən iki vəzifəni yerinə yetirir [1]:

1) şagirdlərin təlim nəticələrini qəbul olunmuş etalona uyğun qeydə almaq;
2) şagirdi sonrakı təlim fəaliyyətinə həvəsləndirmək.

Birinci vəzifəyə görə qiymətləndirmə konkret şagirdin təlim nəticələrinin səviyyəsinin göstəricisidir. Bu zaman müqayisə etalonu kimi təhsil standartlarının tələbləri götürülür. Qiymətləndirmə forması isə qiymət olur. Qiymət üçün aşağıdakılar xarakterdir:

1) təlim nəticəsinin real səviyyəsini qeydə almaq;
2) Şagirdin təlim fəaliyyətini idarə etməyə imkan yaratmaq;
3) Şagirdin sonrakı təlim fəaliyyətinin istiqamətini müəyyən etmək və s.

Qiymət bir qayda olaraq təlim prosesinin müəyyən mərhələsinin sonunda qoyulur. Şagirdlər nəticələrinin yaxşı qiymətləndirilməsində maraqlı olur. Şagirdlərin təlim fəaliyyətini idarə etmək və onları öyrənməyəhəvəsləndirmək üçün qiymətləndirmə aşağıdakı tələbləri ödəməlidir:

1) məktəbin imkanlarına uyğun olmaq;
2) invariant olmaq, yəni zamandan, yerdən imtahan götürənin şəxsiyyətindən asılı olmaq.

Bilik, bacarıq və vərdişlərin formalaşdırılması prosesinin idarə olunmasına ənənəvi yanaşma üçün aşağıdakılar xarakterikdir:

1) qeyri-operativlik;
2) obyektivlik;
3) Təlim nəticələrinin qiymətləndirilməsində vahid standartların olmaması və s.

Ədəbiyyat

1. Далингер В.А. Личностно-ориентированное обучение и процесс целепологания в школьном математическом образовании // Математика и информатика: Межвузовский сборник научных трудов, Омск, ОМГПУ, 2001, с.82-87.
2. Якиманская И.С. Личностно-ориентированное обучение в современной школе. М.: Сентябрь, 2000, 112 с.

РЕЗЮМЕ
ТРАДИЦИОННЫЕ СРЕДСТВА УПРАВЛЕНИЯ ПРОЦЕССАМИ ФОРМИРОВАНИЯ ЗНАНИЙ, НАВЫКОВ И УМЕНИЙ
Аллахвердиева Н.А., Алиева А.Р.

Ключевые слова: *современное образование, математические знания, учебный процесс, традиционное оценивание, учебная деятельность*.

Образование – одно из неопределенных понятий. Изменение его сущности ведет к утрате многих аспектов. В статье исследуются цели образования, определяется роль математического образования. С этой целью показаны пути эффективного приобретения знаний, умений и навыков в процессе обучения.

SUMMARY
TRADITIONAL MEANS OF MANAGEMENT OF FORMATION OF KNOVELEDGE, SKILSS AND HOBITS
Allahverdiyeva N.A., Aliyeva A.R.

Keyword: *modern education, mathematical knowledge, learning process, traditional assessment, learning activity*.

Education is one of the undefined concepts. Changing its essence leads to the loss of many aspects. In the article, the goals of education in modern times are investigated, the role of mathematical education is determined. For this purpose, the ways of effective acquisition of knowledge, skills and habits in the training process have been shown.

MÜASİR RİYAZİYYATÇININ PEDAQOJİ FƏALİYYƏTİ

Hadıyeva Sevinc Sabir qızı, Səfərli İlahə İlqar qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
smsff125@mail.ru, ilaheseferli20@gmail.com

Açar sözlər: *pedaqoji bacarıq, mühazirə tədrisinin problemi, pedaqoji vərdiş, kommunikativ xüsusiyyət, konstruktiv bacarıq.*

Bu məqalə riyaziyyatçı-müəllimin pedaqoji fəaliyyətinə həsr edilmişdir. Qeyd olunur ki, riyaziyyatçı-müəllimin pedaqoji fəaliyyəti müxtəlif, daim dəyişən vəzifələrin həlli kimi təqdim olunur ki, onların həlli keyfiyyəti universitetdə formalaşmış peşəkar bacarıq və bacarıqların səviyyəsindən asılıdır. Məqalədə qeyd olunur ki, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün ümumi qəbul edilmiş mühüm vasitə təlim bacarıqlarının təhsilin məzmununa daxil edilməsidir. Xüsusilə diqqət yetirilir ki, mahiyyət etibarı ilə bu, təhsildən deyil, tərbiyədən, bütöv şəxsiyyətin formalaşdırılmasından gedir.

Riyaziyyatçının pedaqoji fəaliyyəti tamamilə müxtəlif məsələlərin həllindən ibarət ola bilər. Bu məsələlərin həllinin keyfiyyəti isə riyaziyyatçının bitirdiyi ali təhsil müəssisəsində əldə etdiyi peşə bacarıq və vərdişlərinin səviyyəsindən asılıdır. Bəzi tədqiqatçılar hesab edirlər ki, pedaqoji bacarıq və vərdişlər riyaziyyatçılarda onların müstəqil riyaziyyatçı-müəllim fəaliyyətinə qədər formalaşdırılmalıdır. Digər alimlər isə hesab edirlər ki, pedaqoji bacarıq və vərdişləri əsasən, ali təhsil müəssisələrində formalaşdırmaq olar. Digər tərəfdən fərdi iş üsulu isə 5-7 il müstəqil fəaliyyətin nəticəsində formalaşır. Təcrübələr göstərir ki, hər iki rəy düzgündür. Məsələ ondadır ki, bəzi tələbələr pedaqoji vərdiş və bacarıqları tez mənimsəyir, başqaları üçün isə bunun üçün daha uzun müddət tələb olunur. İstənilən halda, elmin, bacarıq və vərdişlərin təməli ali təhsil müəssisəsində qoyulur. Pedaqoji fəaliyyətin müvəffəqiyyəti pedaqoqda konstruktiv, kommunikativ

və təşkilatçılıq xüsusiyyətlərinin və bunlara uyğun bacarıqların varlığı ilə təmin olunur. Riyaziyyatçı-pedaqoqun fəaliyyətində konstruktiv bacarıqlar daha vacib rol oynayır. Bu bacarıqlar isə layihələndirmə və diaqnostik bacarıqlar kimi qabiliyyətləri özündə birləşdirir və pedaqoji ustalığın xüsusiyyətlərini, üsul və fərdiliyini müəyyənləşdirir.

Qeyd edək ki, istənilən işin uğurla yerinə yetirilməsi üçün insanların qabiliyyətlərinin müxtəlifliyi qədər də müxtəlif üsullar vardır.

Fəaliyyət üsulları dedikdə aşağıdakılar nəzərdə tutulur:

1. Tədris üsullarında (vasitələrində) intellektual qabiliyyətlər bir-birindən izolə olunmuş şəkildə deyil, əksinə, mürəkkəb qarşılıqlı əlaqədə təzahür edir (yaddaş, diqqət, düşünmə qabiliyyəti təlimdə heç vaxt ayrı-ayrı qabiliyyətlər kimi fəaliyyət göstərmir).
2. Tədris üsullarında tələbənin tədris materialını tələb olunan səviyyədə mənimsəməsi üçün onun şəxsi yanaşması əks olunur (materialın mənimsənilməsi üçün tələbənin subyektiv olaraq üstünlük verdiyi üsul).
3. Tədris üsulu tələbə tərəfindən materialın mənimsənilməsi, fəaliyyətin təşkili və reallaşması prosesini xarakterizə edir.

Məlum olduğu kimi tədrisin keyfiyyətinin yüksəldilməsinin vasitələrindən ən önəmlisi tədrisin məzmununa təhsil bacarıqlarının daxil edilməsidir. Bu, fərdin öz fəaliyətini verilmiş materialın mənimsənilməsinə uyğun olaraq təşkil etmə üsulu, mənimsənilməyə dəstək vermək bacarığıdır. Bunların toplusu isə tədris bacarıqlarını təşkil edir. Lakin tədris bacarıqlarının ayrı-ayrı elementləri lazımi qədər işlənməmişdir. Elə buna görədir ki, bir çox müəllimlər şikayətlənirlər ki, tələbələr oxumağı və düşünməyi bacarmırlar. Pedaqoqlar tərəfindən əqli bacarıqlara nəzərən praktiki bacarıqların öyrədilməsinə daha çox fikir verilir, tələbələrin təşkilatçılıq bacarığına isə fikir verilmir.

Tədris zamanı daha bir vacib məsələni tələbənin təbii imkanlarını (istedadını) nəzərdən qaçırmaq olmaz. İstedadın lazım olan istiqamətdə inkişafı vacib məsələlərdəndir. Tələbənin şəxsiyyəti diqqət mərkəzində olduqda bu inkişaf ümumi qayda halını alır.

Pedaqogika elmi sübut edir ki, tədris fəaliyyətinin təşkilinin, modelləşdirilməsinin və planlaşdırılmasının elə metodları vardır ki, onların köməkliyi ilə bütün tələblər üçün eyni təlim səviyyəsi əldə etmək olar.

Bunun üçün aşağıdakılar tələb olunur:

- tələbələrə hər bir fənnin xüsusiyyətlərini və gələcək peşəsi üçün onun əhəmiyyətini izah etmək;
- tələbələrə fənn üzrə əqli fəaliyyətin rasional üsullarını öyrətmək;
- bütün təhsil müddəti ərzində hər bir mühazirədə, təcrübi məşğələdə, laboratoriya dərsində, seminarda sərbəst işləməyi öyrənməyin zəruri olduğuna tələbələri inandırmaq;
- tələbələri inandırmaq lazımdır ki, auditoriyada dərslərindən sonra, mütəmadi olaraq, 3-4 saat işləmək vacibdir. Bunun üçün tədris fəaliyyətinin fərdi üsulu işlənilməlidir. Bu üsul minimum vaxt sərf etməklə, maksimum nəticə əldə etməyə hesablanmalıdır.

Təlim metodlarını seçən fənni aparan müəllimdir. O, tələbələrə sərbəst işi necə qurmağı izah edir (az vaxt sərf etməklə işin keyfiyyətini yüksəltmək).

Fərdi iş üsulunun öyrədilməsi tələbələrin universitetdə kitabxana savadının artırılması, kataloqların qurulması prinsipləri və onların istifadə qaydaları, eləcə də İnformatikanın əsasları ilə tanışlığından başlanır. Bu məsələdə təkcə kitabxana işçisinə arxayınlaşmaq olmaz. Beləki, həm onun vaxtı məhduddur, həm də tələbələr bu sahədə özlərini çox savadlı hesab edirlər. Amma

təcrübə göstərir ki, bir çox tələbələr, hətta, diplom (buraxılış işi) müdafiəsinə qədər ədəbiyyatla işləmə bacarığına yiyələnmişlər.

Tədqiqatlar göstərir ki, tələbələrdə zehni əməyin strukturu və üsulu öz-özünə formalaşmır, əksinə xüsusi təlim tələb edir. Onlarda fərdi iş üsulu adi, geniş tətbiq edilən üsulları öyrəndikdən sonra və başqa şəraitdə yeni tapşırıqlar yerinə yetirməyə başladıqda formalaşır.

Bu halda müəllimin rolu, toplanmış təcrübəyə və bacarığa uyğun olaraq, tapşığın yerinə yetirilməsinin müxtəlif üsullarını göstərməkdən ibarət olur. Belə müstəqil işləri sırasına universitetlərdə yoxlanmış və aşağıda qeyd olunan işləri aid etmək olar:

1. Məntiqli düşünmə, isbat və keçilmiş materialın öyrənilməsini tələb edən sual-cavabla auditoriya ilə əks əlaqənin qurulması;
2. Əvvəlcədən məlum olan faktlara əsaslanan mülahizələrin tələbələr tərəfindən sübuta yetirilməsi;
3. Mühazirələrdə tədrisin problemli təlim metodundan istifadə edilməsi;
4. Gələcək peşəyə uyğun olaraq biliklərin dərinləşdirilməsi və dünyagörüşünün genişləndirilməsi məqsədilə fakultətiv fənlərdən istifadə edilməsi;
5. Tələbələrin fərdi qaydada yerinə yetirdiyi tapşırıqların texniki və pedaqoji seminarlarda müzakirəsi;
6. Müxtəlif ixtisas müəllimlərinin rəhbərliyi ilə sərbəst işlərin yerinə yetirilməsi və təhvili;
7. Mühazirələrdə baxılmamış mövzular üzrə tələbələr tərəfindən hazırlanmış məruzələr;
8. Uyğun nəzəri materialın öyrənilməsi və analizi üçün qabaqlayıcı tapşırığın verilməsi;
9. Laboratoriya işlərinin (seminar-məşğələ dərslərinin) hazırlanmasında tələbələrin iştirakı;
10. Ayrı-ayrı mövzuların tələbələrin müəllim-təlimatçı kimi iştirakı ilə kiçik tələbə qrupları ilə öyrənilməsi.

Təhsil prosesi layihələndirilərkən hər bir tələbənin vərdiş və bacarıqlarının təkmilləşdirilməsi yolu ilə fərdi fəaliyyətinin inkişaf imkanları nəzərdə tutulmalıdır. Bu halda hər bir tələbənin səriştəsinin aşkarlanması üçün xüsusi iş aparılmalıdır.

Ali təhsildə aparılan tədqiqatlar göstərir ki, təhsilin təkmilləşdirilməsi üçün bir neçə istiqamət üstün mövqe tutur. Əgər nəzərə alsaq ki, ali təhsilli mütəxəssislərin (bakalavrların) hazırlıq səviyyəsinin mövcud tələblərə cavab verməməsinin əsas səbəblərindən birincisi, tədris plan və proqramlarında nəzərdə tutulan biliklərin həcminin və xarakterinin lazımi səviyyədə olmasıdır, bu baxımdan onların genişləndirilməsi təklif olunur.

İkinci istiqamət-tədrisin intensivləşdirilməsidir. Yəni, elə vasitələr və metodlar axtarılmalıdır ki, eyni təhsil müddətində öyrənənlərə daha çox bilik verilə bilsin.

Üçüncü yol-tədris olunan fənlərin məzmununun təkmilləşdirilməsidir, yəni əldə edilmiş biliklər elə sıralanmalıdır ki, o şəxsiyyətin intellekt və bacarıqlarının inkişaf etdirilməsi vasitəsinə çevrilsin.

Müasir mütəxəssis elə hazırlanmalıdır ki, o, elmin və texnologiyanın inkişafı ilə ayaqlaşa bilsin. Bu halda təhsil alan həm intellektual yaradıcılığa, həm də başqaları tərəfindən görülmüş işlərin intellektual qəbul edilməsinə hazır olur.

Bununla bərabər, riyaziyatçı-müəllimin hansı keyfiyyətlərə malik olması məsələsinin araşdırılması da tədqiqatçıları daima düşündürən məsələlərdəndir.

Gənc mütəxəssislər özlərini peşələrinə tam həsr edirlərsə, işlərinə yaradıcı, öz şəxsiyyətlərinə isə hörmətlə yanaşırlarsa və bir qrup insanı idarə etmək qabiliyyətinə malikdirlərsə, bu halda qarşılıqlı təsirdə olan tərəflərin hər biri bu ünsiyyətdən razı qalır. Nəzərə alınmalıdır ki, bu keyfiyyətlər çox vacibdir və hər bir insan bunlara malik olmalıdır. Lakin bunlar sifarişlə və ya əmrlə insan keyfiyyətlərinə daxil edilə bilməz. Bu keyfiyyətlər hər bir insanın genlərində olur və onların

inkişaf etdirilərək kamilləşdirilməsi təlim-tərbiyə prosesində baş verir. Əslində isə bu proses kamil şəxsiyyətin formalaşdırılması prosesidir.

Ədəbiyyat

1. Столяренко Л.Д. Психология управления, уч.пособие, М.: Звес, 1997, с.115-151
2. Кузьмина Н.В. Методы исследования педагогической деятельности. М.: Высшая школа, 1970, с. 56-73

РЕЗЮМЕ
ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ СОВРЕМЕННОГО МАТЕМАТИКА
Хадиева С.С., Сафарли И.И.

Ключевые слова: *педагогическое мастерство, проблема чтения лекций, педагогический навык, коммуникативность, конструктивное мастерство*.

Данная статья посвящена педагогической деятельности математика-педагога. Указывается, что педагогическая деятельность математика-педагога представляется как решение различных, постоянно меняющихся задач, качество решения которых зависит от уровня сформированных в вузах профессиональных умений и навыков. Отмечается, что существенным общепризнанным средством повышения качества обучения является включения в содержание образования учебных умений. Особенно, уделяется внимание тому что, по существу это вопрос не образования, а воспитания, вопрос формирования целостной личности.

SUMMARY
PEDAGOGICAL ACTIVITY OF MODERN MATHEMATIC
Hadiyeva S.S., Safarli I.I.

Keywords: *pedagogical skill, the problem of teaching lectures, pedagogical skill, communication skills, constructive skill.*

This article is devoted to pedagogical activites of mathematic-pedagogue. The article state that pedagogical activity pf Mathematic-pedagogue is like solution of different coutinnously varying task the quality of desolving depend on the levels of professional skills and training fond in the university. The generally accepted way of educational quality has been shown to be the inclusion of teaching stilss in educational program. Special attention is paid that actually this is not a problem of education but training a problem of personal quality formation.

INNOVATIVE METHODS APPLIED IN THE TEACHING OF MATHEMATICS

Hasanova Khalida Sidgali, Bayramova Novrasta Sidgali
Sumgayit State University, Sumgayit, Azerbaijan
hesenova_1975@list.ru, abdullayev_ayxan@list.ru

Keywords: *subject mathematics, mathematical knowledge, training process, innovative method.*

Today, the application of active and interactive training methods in the teaching process, using from the new pedagogical technologies, computer equipment, innovations, electronic boards, electronic textbooks and teaching aids no doubt, increase significantly the quality of teaching, and causes the competent as well as quality personnel preparation, development of creative and logical thinking, technical skills and abilities of students, a long time memorization, and more effective absorption.

“A Reform Program in the Education Field of the Azerbaijan Republic” signed since 1999 by

the Great Leader Haydar Aliyev as a foundation of the improvement of education has opened a way to making newer reforms, in the period of the plenty of information increasing day by day, during a rapid improvement of techniques and technologies it has established a need for the applying of new pedagogical technologies and innovations in the training process of subjects, also.

Today it is very difficult to imagine education, training and pedagogical process without any technique and technology. Large reforms conducting in the education system, particularly, lately renewal both in content and form of higher education system have caused to the creation of new organizing forms and methods of training. Distance education, virtual education, innovative education, electronic lessons, electronic boards, electronic textbooks and teaching aids, multimedia, automated learning systems have significantly updated and developed the teaching process, and made it more educational, developing and educative, and raised it to a new stage of advancement.

A rapid development of the economy of the Azerbaijan Republic, integration into the advanced countries, and globalized world brings the solution of many issues to the fore. Formation of a human potential having a great importance for high technologies, and establishment of intellectual human resources are one of the important issues Now there is a great revival in this direction, such as education and science. The preparation of these resources with a supervision and special attention of the president of the Republic of Azerbaijan Mr. Ilham Aliyev who brings the development of human capital to the fore, is being strengthened by the way of both reforms, international cooperation and investments. Increasing of focus on the training of mathematics in high school, especially in the grades of V-XI, in fact, the teaching of quality mathematics will effect in a positive direction to our students, and will push to set goals for themselves in order to create new technologies instead of using from future ready technology. Namely, in this stage of education (on the grades of V-XI) the professors should be able to show the students with the role of the mathematical knowledge, what they will gain thanks to the mathematical knowledge that there can be no development in any field without a mathematical knowledge with vital examples. The training of math - not only to mathematical education in the narrow sense, but also should be directed to the education itself with the help of math [1]. Adaptation of a mathematical course as a teaching subject to the requirements of life and practical reality, as well as the modeling of the mathematical methods in science and technics at the present time are one of the necessary issues.

Today, the only purpose of education workers who implemet these innovations and of those who make the innovations, conduct the reforms, to reach at the same level as developed countries, using from the advanced experiences looking at the world and events happening in the world from the same window as those countries. The active training methods are being used in the educational institutions of our republic which the world states where possess enough experience in challenges made in the education field are using this method in their education system. Of course, the role of using from new training methods in forming the learners' personalities is priceless. The applying of modern training methods to the training process enables to at first, thinging independently of students, and having their own thoughts. These methods not only form the high communication culture on students, but also develop their creative abilities. the application of modern training methods to the training process does not mean to reject from the traditional training methods thought of being more convenient in the teaching of certain subjects, and having certain advantages. By the way, using from selected traditional methods with advantages and guarantee of effectiveness, using from synthesis of modern training methods by a traditional method are considered such as actual problems. A traditional training method can be such a training method that the teacher applies for due to its advantage of practical possibilities.

The are a lot of factors conditioning to the renewal and development of education that the

most important of them is the application for education of innovative approaches. Innovation is applied for an education sector such as being applied for all the branches. Exactly, an innovation appled for a teaching process is called a pedagogical innovation. A teacher should know what kind of advantages do the innovations possess while using from it in the training process.

If the teachers conduct their lessons by using from the new pedagogical technologies, they are able to implement the regularities in dependence and correlation between a teaher activity and a student activity during a training, and it will make the effectiveness of the lesson increase.

Choosing of new training technologies according to the characteristics of mathematics subject forms the desire of learning the math on students. Deceased professor Oruj Hasanli writes down: "The training method should be chosen in such a way that it to draw the students to thinking of, or to creative activity."

The training method should be chosen in such a way that let both a teacher and students to corporate with and the both to get a positive result in a learning process. In our opinions, it forms the basis of the learning process. Each lesson or subject has its own technology according to its item. With other word, a pedagogical technology in the training process is called a pedagogical process depending on the student's needs, prepared beforhand and directed to giving the guaranteed results [2].

Either the reasons that make learning mathematics necessary or the items depending upon the applying sectors of mathematics can be formed in accordance with different age groups or various purposes. Therefore, learning mathematics lesson in the same level of all of the students who study in the same class or same school doesn't express the reality. Just, the teacher must try in order to prevent the harsh differences. The teacher should try to maximal reduce the problems by using from the different, special methods, individual approach with other word, from the training aids in accordance with the available condition for the students with poor mathematical understanding.

A teaching process of the properly structured mathematics serves to the work of maximum using from the potential possibilities of the students, stimulates their activity, organizes and regulates, so affects productively to the children's development [1]. The achievement of this process depends seriously on substituting of their in what sequence, and how selecting of the activity acts, and it is very important to take into account in order to be controlled by the scientific-pedagogical basis of the process.

It is clear that mathematics improves with the regularities peculiar to itself as a science arising from the daily needs of people, mathematical knowledge plays an unparalleled role in the scientific-tecnical development of the students using in the solution of the problems arising ranging from the daily life to the other science fields. All of this is enough to assign the place of the mathematics subject in secondary schools, and during the teaching of this subject has made it necessary to mention a number of goals [5]. So that to form an idea of being a method to describe and understand the realities of mathematics in life, to substantiate of being a tool creating a real ground in order to keep next step on of education, to have necessary knowledge, skills and abilities applying in a daily life, to learning the other subjects are considered as the main goals to indicate of being a motivator force to the improvement of society. It is very necessary to use of a teacher who will implement the purposes from new training technologies. Making of a modern lesson up referring to new training technologies, and its essence is to pay modern level of science, and requirements of new pedagogical technologies by taking into consideration the uniqueness of society and its requirements. Therefore, arranging of a modern lesson requires enough flexibility and dynamism. Present teaching programs require the facilitators to know the training technologies.

New training technologies enable a real condition and possibility to the development of the

students' creative ability compared to traditional training methods. When training technologies are used properly and regulated, a condition will establish to corporate of students both with teachers and the students, also, to work independently, to improve research and investigation abilities, and to appreciate their result [5].

An optimal orgainizing of training, intensification by using modern training methods, as well as in the adaptation of ensuring of equality and a sense of responsibility, an optimal approach, obviousness, a developer content of result orientation, volume of material, and a complex approach to them, activities of a trainer (teacher) and a learner (student) in training are characterized as important training components.

The cognition of students should be achieved to the improvement of activity, thinking independently, logical analysis capabilities of information by using of the modern pedagogical technologies during the math lessons. The development of students arranges the basic of modern training, and its nucleus [2]. The Psychical, mental development of schoolchildren during the educating process appear in the formation of development of knowledge, their applied mechanisms and general properties of personality. Here, the goal is to formation of the model of improving the teaching of subjects with the application of new information technologies in the teaching process.

In general, the classification of pedagogical technologies are shown below:

1. Training technology - is a collection of transactions implementing in order to interpret the knowledge, skills and practices taken into consideration.
2. Teaching technology – is a complete set of operations in order to purposeful implemet of the generalized relationships according to relative, stable and regularly.
3. Development technology – is related to both a training technology and educating technology.
4. Diagnostic technology – It is the diagnosis of children's preparations for school by pedagogues and psychologists.

The application of innovative technologies, new training methods in the present day should change the relations, and update the activity in accordance with conducting research independently due to get knowledge of students depending on work method of teacher, referring to creative activities, thinking, and interests to learning.

Generally, the innovative methods applied for students in the teaching of mathematics form the abilities shown below:

- They gain new matematical knowledge by solving the problem from the beginning till the end;
- They are able to utilize from the various methods in ordert to solve a problem;
- The ability of solving the mathematical issues give a form to make a solution the other problems faced by them.

Learning to solve the mathematical issues make the students get the ability to trust themselves in finding the ways of thinking, in having interesting and persistent habits, as well as in the unfamiliar situations being out of math classes. When we look through the experience of advanced countries possessing substantial results in the education field, help to achieve high results with the usage of training methods based on ICT and individual approaches to learners [3].

Of course, the internal possibilities of schools should be taken into account while applying the innovations. It includes the material and technical base of school, training level of teachers, etc.

Psixoloqlar R.Yerks və C.Dodson qanununa görə, ən yaxşı nəticə orta səviyyəli motivasiya ilə alına bilər. Motivasiyanı gücləndirdikcə, o elə bir həddə gəlib çata bilər ki, fəaliyyət effektiv olmaz. Ona görə də motivasiyanın optimum qiyməti düzgün təyin edilməlidir. Bu qanuna əsasən, 10 ballıq şkalada mürəkkəb məsələlər üçün 2-3 bal, orta səviyyəli məsələlər üçün təxminən 5 bal, sadə məsələlər üçün 7-8 və daha artıq ballı motivasiya təmin edilir. Daha doğrusu, mürəkkəb riyazi məsələnin həllində daha az motivasiya ilə, sadə məsələnin həllində isə yüksək motivasiya ilə daha yaxşı nəticə almaq olar. Bütün bunlardan belə bir nəticə almaq olar ki, hər bir məsələnin qoyuluşunda müəllim həmin məsələnin çətinlik dərəcəsinə uyğun motivasiyanı yarada bilməlidir. [4]

Ədəbiyyat

1. Həsrət A. İKT-dən istifadə etməklə şagirdlərin informasiya mədəniyyətinin formalaşdırılmasının pedaqoji yolları // Təhsildə İKT, № 3, 2016, s. 6
2. Əhmədov I. Ali təhsildə kompüter texnologiyaları // Təhsildə İKT, № 3, 2016, s. 15
3. Nəzərov A. Müasir təlim texnologiyaları (mühazirə mətnləri). Bakı, 2012, 53 s.
4. Подошва Н.В. Мотивация познавательной активности студентов вуза //Инновационные технологии обучения математике в школе и вузе, Орск, 2009, с.33-35
5. Ризоев Э.С. Теоретико-методические основы применения информационно-коммуникационных технологий при обучении высшей математике в условиях кредитной системы обучения в высших учебных заведениях: Дис.…канд.пед.наук. Душанбе, 2019, 197 с.

РЕЗЮМЕ

ВОЗМОЖНОСТИ ПРИМЕНЕНИЯ КОМПЬЮТЕРНОЙ ТЕХНИКИ В ПРЕПОДАВАНИИ ВЫСШЕЙ АЛГЕБРЫ

Новрузова Х.Т.

Ключевые слова*: образование, математика, алгебра, компьютер, мотивация*

Данная статья посвящена современным проблемам преподавания высшей математики, в частности высшей алгебры, которая является одной из самых основных его разделов. Для того, чтобы организовать процесс преподавания курса высшей алгебры, следует принимать во внимание практическую направленность программного материала, в том числе, применение программных и технических средств компьютера. Программные пакеты Mathematica, MathLab, MathCad способствуют получению высоких результатов в преподавании высшей алгебры, также усиливают учебную мотивацию.

SUMMARY

APPLIED OPPRTUNITIES OF COMPUTER TECHNOLOGY IN TEACHING HIGHER ALGEBRA

Novruzova K.T.

Keywords*: education, mathematic, algebra, computer, motivation*

The article is devoted to the modern problems of the algebra course, which is one of the important sections of higher mathematics taught in universities (high schools). To effectively organize the teaching the higher algebra course, one should take into account the connection of the materials included in the curriculum with practice and real life, and apply computer technical and software tools. The use of such computer programs as Mathematica, MathLab, MathCad helps to achieve better results in teaching the course and to increase the motivation of the lesson.

RİYAZİYYATIN TƏCRÜBƏ YÖNÜMLÜ TƏLİMİNİN MAHİYYƏTİ VƏ FUNKSİYALARI

Səfərli İlqar Seyfəddin oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
i.safarli@mail.ru

Açar sözlər: *məktəb, təhsil, tələbə, müəllim, riyaziyyat*

Bu məqalədə riyaziyyatın təcrübə yönümlü təliminin mahiyyəti və funksiyaları təhlil edilir. Təcrübə yönümlü təlimin mahiyyəti biliklərin mənimsənilməsinin vəhdətini təmin etmək və həyati məsələlərin həllində onlardan istifadədə praktiki təcrübənin formalaşdırılmasından ibarətdir. Təcrübə yönümlü təlimin əsas məqsədi tələbələri insanın praktik fəaliyyətində yaranan problemlərin həllinə hazırlamaq, onların bilik və bacarıqlarını həyat prosesində tətbiq etməyə hazırlığını formalaşdırmaqdır.

XXI əsr təlim-tərbiyə modelinin ilkin şərti tələbənin və məktəblinin şəxsiyyətinə hörmət və onun inkişafına yardımdan ibarətdir. Söhbət təhsildə insan faktorunun nəzərə alınmasından gedir. Bu şəraitdə şəxsiyyətin hansı bilik, bacarıq və vərdişlərə malik olması sualı ortaya çıxır. Qoyulan sualın cavabı bundan ibarətdir: o, həm öz ölkəsinin iqtisadi inkişafına təkan verməli, həm də inkişaf edən və daha da mürəkkəbləşən cəmiyyətin həyatında real iştirak etməlidir. Deməli, təhsilin əsas məqsədi ətraf mühitin kəsilməz dəyişən şəraiti daxilində düzgün istiqamət seçə bilən və uyğunlaşma qabiliyyətinə malik olan insanın formalaşdırılması olmalıdır. Beləliklə, təlim prosesi təkcə biliklərin verilməsinə və onların bərpa edilməsi bacarıqlarının formalaşmasına yox, daha çox tələbələrin və şagirdlərin düşünmə qabiliyyətinin artırılmasına, fəaliyyətin planlaşdırılmasıqabiliyyətinin inkişafına yönəldilməlidir. Məhz bu məsələlərin həlli fənn kurikulumlarının tələbəyönümlü və şagirdyönümlü xarakterini müəyyənləşdirir [1,2].

Tələbyönümlülük, nəticəyönümlülük, tələbəyünümlülük və şagirdyönümlülük ümumi təhsilin müasir məzmununun didaktik əsasını təşkil edir və "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu)" [1] çərçivə sənədi bilavasitə həmin prinsiplərin üzərində qurulmuşdur.

Bu gün inkişaf etmiş bir çox ölkələrdə, o cümlədən Avropa məkanında ali və orta məktəb məzunları üçün müəyyənləşdirilən bir sıra əsas baza kompetensiyaları (bacarıqları) mövcuddur ki, məktəb, ilk növbədə, onların təmin edilməsinə birbaşa cavabdehlik daşıyır. Hal-hazırda zəruri informasiyaları toplayıb onlarla işləmək; təhlil və tətbiq etmək; müstəqil qərarlar qəbul etmək; ideyalar irəli sürmək və qoyulan məsələlərə yaradıcı, tənqidi münasibət bəsləmək; icraçılıq, təşkilatçılıq və idarəetmə qabiliyyəti, ünsiyyət mədəniyyəti, tolerantlıq, rəqabətədavamlılıq nümayiş etdirmək; müasir texnika və kommunukasiya vasitələri ilə davranmaq; əməkdaşlıq etmək və sair kimi keyfiyyətlər şəxsiyyəti şərtləndirən ən vacib kompetensiyalar hesab olunur [3, *s*.25].

Bu kompetensiyaların əldə edilməsi yollarından biri tələbələrin və məktəblilərin hazırlığının praktiki tərəfinin, nəzəri biliklərin və praktiki bacarıqların formalaşması proseslərinin inteqrasiyası hesabına gücləndirilməsindən ibarətdir. Praktik yönümlü öyrənmənin nəzəriyyəsində bu yanaşmanın əsas ideyaları öz əksini tapmışdır.

[4]-də praktik yönümlü öyrənməyə təlim prosesinin bütün komponentlərini və onların qarşılıqlı təsirinin seçimini müəyyənləşdirən ideya və müddəalardan ibarət olan didaktik yanaşma kimi baxır. Öyrənməyə bu cür yanaşmanın əsasında nəzəriyyə və praktikanın optimal nisbəti durur.

Praktik yönümlü öyrənmə tədris prosesində nəzəriyyənin və praktikanın nisbətini müəyyənləşdirir.

Praktik yönümlü öyrənmənin reallaşması tələbələrin və məktəblilərin əldə etdikləri biliklərin təsirliliyini yüksəltmək, tələbələrin və şagirdlərin şəxsiyyət statusunu qaldırmaq, onlarda müasir cəmiyyətdə yaşamaq üçün vacib olan keyfiyyətləri formalaşdırmaq imkanı verir.

[5]-də verilən təsnifata görə praktik yönümlü öyrənmə pedaqoji prosesin ətraf mühitlə əlaqəsini müəyyənləşdirən prinsiplərə daxildir. Bu yanaşmaya uyğun olaraq pedaqoji prosesdə praktik yönümlü öyrənmənin vəzifələrini müəyyənləşdirmək olar:

- tələbənin və məktəblinin şəxsiyyətinin tədris fənni vasitəsilə sosiallaşması;
- tələbənin və şagirdin fəaliyyətinin istiqamətləndirici əsaslarının formalaşması;
- ixtisas və sosial mobilliyin inkişafı;
- şəxsiyyət və mühitin balanslaşmış münasibətinin saxlanması;
- mühitdə fəaliyyət üsulu kimi tələbələrin və şagirdlərin sərbəst yaradıcılıq fəaliyyətinin inkişafı.

[4,6] işlərinin araşdırılması aşağıdakı müddəanı söyləməyə imkan verir: praktik yönümlü öyrənmənin mahiyyəti, təlim prosesini yeni biliklərin əldə edilməsi və onların həyati vacib məsələlərin həllində istifadəsi üçün praktik təcrübənin formalaşması biliyinin əsasında qurmaqdan ibarətdir. Təcrübə dedikdə formalaşmış şəxsi kompetensiyalar nəzərdə tutulur.

Riyaziyyatın təlimi prosesində tələbələrdə və şagirdlərdə aşağıdakı praktiki təcrübələri formalaşdırmaq olar:

- anlayışların, proseslərin, sistemlərin kompleks analizi (müqayisə etmə, qiymətləndirmə);
- daxili və xarici münasibətlərin səbəb-nəticə əlaqələrinin aşkara çıxarılması;
- elementar axtarış-tədqiqat fəaliyyəti (məsələnin qoyuluşu, ziddiyyətlərin aşkarlanması, problemin aydınlaşdırılması, hipotezin yaradılması, həll üsullarının axtarışı və s.);
- riyazi biliklər tələb edən problemli və fövqəladə situasiyalarda (ekoloji, iqtisadi, mexaniki, texniki və s.) seçim və qərarların qəbulu;
- riyazi bilik tələb edən məsələ və problemlərin axtarışı;
- özünütəhsil sistemində fənn biliklərinin dərinləşdirilməsi və çoxaldılması;
- tələbələri və şagirdləri əhatə edən həyatda yaranan spesifik situasiyalarda istiqamət tapmaq;
- tələbələrin və məktəblilərin şəxsiyyətinin sosiallaşması və s.

Praktik yönümlü öyrənmə fənn biliklərinin (xüsusi halda riyaziyyat) qiymətli biliklər sisteminə daxil edilməsini nəzərdə tutur ki, bunlar da insanın həyatda sərbəstliyinə şərait yaradır. Praktik yönümlü öyrənmə tələbələrin və şagirdlərin təbiət, istehsal, məişət obyektləri ilə praktik qarşılıqlı münasibətə hazırlıq səviyyəsini yüksəldir və bununla onları səriştəli əməl səviyyəsinə çıxarır. Belə öyrənmə eyni zamanda indiki və gələcək həyata hazırlıq deməkdir. Praktik yönümlü öyrənmə bu və ya digər fənn sahəsində savadsızlığı aradan qaldırır, tələbələrdə və şagirdlərdə zəruri səriştə formalaşdırır.

Praktik yönümlü öyrənmədə məqsəd orientasiyaları kimi aşağıdakıları seçmək olar:

- praktiki fəaliyyətdə ortaya çıxan məsələləri həll etmək üçün fənn biliklərini istifadə etmək bacarığının formalaşması;
- özünütəhsil, özünümükəmməlləşdirmə, özünüreallaşdırma ehtiyaclarının inkişafı;
- sərbəst fəaliyyət üsullarının mənimsənilməsi;
- təlim prosesində idrak fəallığının təmin olunması;
- əldə edilən bilik və bacarıqların həyati fəaliyyətdə tətbiqinə hazırlığın formalaşması.

[7,8] işlərində “hazırlıq” anlayışına tərif verilir və hazırlığın əsas əlamətləri araşdırılır. Göstərilir ki, tələbələrin və şagirdlərin əldə etdikləri bilik və bacarıqları tətbiq etməyə hazırlığı, eyni

zamanda, həm məqsəddir, həm də məktəb illərində onların praktiki hazırlığı prosesinin nəticəsidir. Tam hazırlığa çatmanın vacib şərti tələbələrin və şagirdlərin bilik və bacarıqlarının tədricən və sistemli şəkildə genişləndirilməsidir.

Praktik yönümlü öyrənmənin əsasında aşağıdakı konseptual müddəalar durur:

- təlim fənlərinin məzmununu təşkil edən elmi əsasların mənimsənilməsi və biliklərin praktiki istifadə təcrübəsinin əldə edilməsi tələbələrdə və şagirdlərdə geniş dünyagörüşünün formalaşmasına imkan yaradır;
- nəzəri biliklərin formalaşması və praktiki bacarıqların inkişafı tələbələrin və məktəblilərin praktiki fəaliyyətə vahid hazırlığı prosesinin iki tərəfidir;
- öyrənmənin əsas motivasiya bazası həyat fəaliyyətində tələbənin və şagirdin əldə etdiyi bilik və bacarıqların tətbiqi perspektivlərini görməsidir;
- tələbədə və şagirddə praktiki fəaliyyət təcrübəsinin formalaşması təlim prosesində nəzəriyyə və praktikanın optimal nisbətini nəzərdə tutur (nəzəri biliklərin aparıcı rolu ilə).

Təlim prosesində nəzəriyyə və praktikanın optimal nisbəti problemi indi də aktualdır.

Praktika məzmun etibarı ilə təbiət və sosial obyektlərin qavranılmasını və çevrilməsini nəzərdə tutur. O insan cəmiyyəti və şüurunun inkişafının ümumi əsası və hərəkətverici qüvvəsidir [10].

Nəzəriyyə və praktikanın qarşılıqlı münasibətini araşdıraraq və praktikanın nəzəriyyəyə və əksinə təsirini nəzərə alaraq bəzi münasibətlərdə praktikanın, digərlərində isə nəzəriyyənin prioritet olduğu qeyd olunmalıdır. Bu qarşılıqlı münasibətdə müəyyən ziddiyyət vardır. Ziddiyyət tərəfləri bir-biri ilə uyğunlaşmış, harmoniya halında ola bilər, lakin konfliktə də çata bilər. Tərəflərdən biri inkişafda geri qala bilər ki, bu da onların arasındakı ziddiyyətin ifadəsidir.

Ziddiyyətin aradan qaldırılması onların münasibətini yeni səviyyəyə çatdıra bilər. Bu yolda həm nəzəriyyə, həm də praktika inkişaf tapır.

Nəzəriyyə və praktikanın qarşılıqlı münasibət problemi təhsil prosesinə əhəmiyyətli təsir göstərir.

Birincisi, məlumdur ki, təhsil adamları həyata, real məsələlərə, ixtisas fəaliyyəti və digərlərinə uyğunlaşdırmaq üçündür. Adamın uyğunlaşması bir proses kimi nəzəriyyə və praktikanın qarşılıqlı təsirində baş verir, bu qarşılıqlı təsirdən kənarda o, sadəcə baş vermir.

İkincisi, istər nəzəriyyə, istərsə də praktika təklikdə tam idrak prosesinin yaranması üçün kifayət deyil. Onlar qarşılıqlı olaraq bir-birini tamamlayır və qarşılıqlı inkişafa səbəb olur.

Üçüncüsü, təlimdə nəzəriyyə və praktikanın birləşməsi uşaq əxlaqının xüsusiyyətlərinə görə vacibdir. O xarici şəraitdən çox asılıdır.

Beləliklə, təlim prosesini əks əlaqəli nəzəriyyədən praktikaya və əksinə dairəvi keçidli sistem kimi layihələndirmək vacibdir. Bu sistemdə tələbələrin və şagirdlərin nəzəri hazırlığının aparıcı rolu saxlanılır. Belə öyrənmə prosesinin nəticəsində fənn biliyinin "istifadəsi" formalaşır.

Praktik yönümlü öyrənmənin reallaşması hesabına tələbələrin və şagirdlərin praktiki hazırlığının səmərəliliyinin artırılması probleminə həsr edilmiş işlərin [4,6,9] araşdırılması göstərir ki, riyaziyyatın təlimi prosesinin praktiki aspektin gücləndirilməsi yolu ilə qurulmasında aşağıdakı qaydalara əməl etmək lazımdır.

1. Elə öyrətmək lazımdır ki, tələbə və şagird başa düşsün və hiss etsin ki, öyrənmə onun üçün həyati zərurətdir.
2. Öyrənərkən həyatdan biliyə doğru və ya əksinə getmək lazımdır.
3. Nəzəriyyə və praktikanın sıx qarşılıqlı əlaqəsini göstərməklə qeyd etmək lazımdır ki, elm praktiki ehtiyacların təsiri ilə inkişaf edir, praktika isə elmi nəzəriyyənin həqiqiliyinin meyarı kimi çıxış edir.

4. Tələbələrə və şagirdlərə müasir texnologiyalardan, inkişaf edən əmək metodlarından, yeni istehsal münasibətlərindən danışmaqla tətbiq xarakterli fənn biliklərini mümkün qədər genişləndirmək lazımdır.
5. Tələbələrə və şagirdlərə öz biliklərini praktikada yoxlamağı və tətbiq etməyi, ətrafdakı gerçəkliyi və onların praktiki tətbiq oblastını bilik mənbəyi kimi istifadə etməyi öyrətmək lazımdır.
6. Hər dərsdə tələbələrin və şagirdlərin gördükləri işin həyati əhəmiyyətini göstərmək lazımdır.
7. İmkan daxilində məktəb və istehsalatın əlaqəsindən istifadə etməklə çalışmaq lazımdır ki, bu əlaqə təlim-tərbiyə işini davam etdirsin.
8. Praktiki məzmunlu məsələ və tapşırıqlar həll etmək və ya tərtib etmək.
9. Təlimi regional perspektivlərin inkişafı ilə əlaqələndirmək.
10. Tələbələrin və şagirdlərin hazırlıq səviyyəsini, onların ixtisas meyllərini, qabiyiyyətlərini, maraqlarını, dünyagörüşlərini nəzərə almaq lazımdır.
11. Təlimdə tələbələrin və şagirdlərin şəxsi təcrübəsindənnümunələr və materiallar istifadə etmək lazımdır, hər bir dərsi konkret mühitlə və sinfin tələbələrinin və şagirdlərinin həyat fəaliyyəti ilə birlikdə araşdırmaq lazımdır.
12. Tələbələrə və şagirdlərə ən məhsuldar və iqtisadi cəhətdən əlverişli metodlar tətbiq etməyi, analiz etmək, proqramlaşdırmaq və öz fəaliyyətini proqnozlaşdırmağı öyrətmək.
13. Tələbələri və şagirdləri dərsin analizinə, onun hazırlanmasına, nəticənin qiymətləndirilməsinə cəlb etmək lazımdır.
14. Təlim-tərbiyə prosesində əqli fəaliyyəti praktika ilə birləşdirmək lazımdır.

Praktik yönümlü öyrənmənin mahiyyəti yeni bilik qazanılması və həyati vacib məsələlərin həllində onların istifadəsi üçün praktik təcrübə formalaşması birliyinin təmin edilməsindən ibarətdir. Bu mahiyyət riyaziyyatın təlimi prosesində praktik yönümlü öyrənmənin reallaşması modelinin yaradılmasına imkan verir.

Nəzəri biliklərin formalaşması və praktik bacarıqların inkişafı proseslərinin birliyinin təmini modelinin elementləri bunlardır:

- didaktik proseslərin strukturlarının birliyi;
- biliklərin formalaşması və praktik bacarıqların inkişafı vasitələrinin birliyi;
- təlimi-idrak fəaliyyətinin nəticələrinin birliyi.

Nəticə olaraq qeyd etmək lazımdır ki, praktik yönümlü öyrənmənin mahiyyəti ümumi təhsilin məzmununu müəyyənləşdirən "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu)"n tələblərinə tam uyğundur.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurrikulumu) // "Kurrikulum" Elmi-metodik jurnal, 2008, №1, s.131-150.
2. Abbasov Ə. Yeni kurrikulumların səciyyəvi xüsusiyyətləri // "Kurrikulum" Elmi-metodik jurnal, 2008, №1, s.31-37.
3. Əhmədov A. Ümumi təhsil sistemində kurrikulum islahatı: real nəticələrə doğru // "Kurrikulum" Elmi-metodik jurnal, 2008, №1, s.21-30.
4. Калугина И.Ю. Образовательные возможности практико-ориентированного обучения учащихся: Дис. … канд. Пед. Наук / Урал. Гос. Проф.-пед. Ун-т. Екатеринбург, 2000, 215 с.
5. Безрукова В.С. Словарь нового педагогического мышления. Екатеринбург: Б.и., 1992, 93 с.
6. Чекалева Н.В. Теоретические основы учебно-методического обеспечения процесса изучения педагогических дисциплин в педагогическом вузе: Дис. … д-ра пед. Наук: СПб, 1998, 426 с.

7. Земцова В.И. Адаптация студентов педагогических специальностей к профессиональной деятельности: Монография / Под ред.В.И.Земцовой.- Орск: Издательство ОГТИ, 2003, 307 с.
8. Кандыбович Л.А. Психология высшей школы: Учеб. Пособие для магистров пед. Спец. Вузов / М.И.Дьяченко, Л.А.Кандыбович.-Минск: Тесей, 2003, 352 с.
9. Гершунский Б.С. Философия образования для XXI века: В поисках практико-ориентир. образоват. концепций / Рос. Акад. образования и педагогики. М.: Совершенство, 1998, 608 с.
10. Большой энциклопедический словарь. – 2-е изд., переработанное и дополнен. М.: Большая Российская энциклопедия; СПб.: Норинт, 1997, 952 с.

РЕЗЮМЕ
СУЩНОСТЬ И ФУНКЦИИ ПРАКТИКО-ОРИЕНТИРОВАННОГО ОБУЧЕНИЯ МАТЕМАТИКЕ
Сафарли И.С.

Ключевые слова: *школа, образование, студент, преподаватель, математика*

В данной работе анализируется сущность, функции практико-ориентированного обучения математике. Сущность практико-ориентированного обучения заключается в обеспечении единства приобретения знаний и формирования практического опыта их использования при решении жизненно важных задач. Основной целью практико-ориентированного обучения является подготовка учащихся к решению задач, возникающих в практической деятельности человека, и формирование у них готовности к применению знаний и умений в процессе своей жизнедеятельности.

SUMMARY
THE ESSENCE FUNCTIONS OF THE PRACTICAL-ORIENTED TRAINING TO THE MATHEMATICS
Safarli I.S.

Keywords: *school, education, student, teacher, mathematic*

In the given work the essence, functions of the practical-oriented training to the mathematics is analyzed. The essence of the practical-oriented training consists in maintenance of unity of acquisition of knowledge and formations of practical experience of their use at the decision of the vital problems. A main objective of the practical-oriented training is preparation of pupils for the decision of the problems arising in practical activities of the person, and formation at them readiness for application of knowledge and abilities in the course of the ability to live.

RİYAZİYYAT TƏLİMİNDƏ ŞAGİRDLƏRİN YARADICI TƏFƏKKÜRÜNÜN VƏ TƏDQİQATÇILIQ QABİLİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ

[1]Əfəndi Sadəddin Nəsrəddin oğlu, [2]Hüseynov Zəfər Qaffar oğlu,
[3]Qasımov Elmağa Ağaqasım oğlu
[1,3]Bakı Dövlət Universiteti, [2]Sumqayıt Dövlət Universiteti
efendi_sadeddin@mail.ru

Açar sözlər*: *təfəkkür, təlim, idrak, məqsəd, təhsil.

İdrak fəaliyyəti ilə əlaqədar olan yaradıcı təfəkkürün formalaşması ətraf aləmin daha dərindən və hər tərəfli dərk etməyə yönəldən mürəkkəb prosesdir. Müasir təhsil sisteminin əsas məqsədi yüksək elmi qabiliyyətə, yaradıcı təfəkkürə malik şəxsiyyətlətrin formalaşmasıdır.

Riyazi təfəkkürün ən vacib növlərindən biri olan yaradıcı təfəkkürün inkişafı idrak fəaliyyəti prosesində problemin başa düşülməsi, problemin həllinin axtarılmasının planlaşdırılması, ideyaların verilməsi, alınan nəticələrin əsaslandırılması kimi yeni cəhətlər yaradır.

Baxılan işdə şagirdlərin yaradıcı təfəkkürü və tədqiqaqatçılıq qabiliyyətinin inkişafında məsələ həllinin rolu öyrənilir.

İdrak nəzəriyyəsi mürəkkəb quruluşa malik olan təlim prosesinin metodoloji əsasını təşkil edir.

Fəaliyyətin bütün elementlərini özündə əks etdirən təlim prosesi şagirdlərin diqqət, təfəkkür və təxayülünün inkişafını təmin edir.

Təlimin məqsəd və vəzifələri, təlimin məzmunu, təlimin vasitə və metodları, təlimin təşkili formaları təlim prosesində qarşılıqlı vəhdətdə özünü göstərir. Təlim prosesində şagirdin öyrənmə yolu bir çox cəhətdən idrak yoluna əsaslanır. Başqa sözlə, təlim idrak fəaliyyətinin bir növüdür [3].

Məlumdur ki, idrak prosesi olan, öyrənmə, mənimsəmə, uyğunlaşma və nizamlama kimi mərhələlərdən ibarətdir.

Müasir təhsil sisteminin əsas məqsədi yüksək elmi qabiliyyətə,yaradıcı təfəkkürə malik şəxsiyyətin formalaşmasıdır. Qeyd edək ki, təlim prosesində şagirdlərin yaradıcı, təfəkkürünün əqli nəticə çıxarma, müstəqil düşünmə, təhlil etmə kimi qabiliyyətlərinin inkişaf etdirilməsinə xüsusi fikir verilməlidir. İdrak fəaliyyəti ilə əlaqədar olan, yaradıcı təfəkkürün formalaşması ətraf aləmin daha dərindən və hərtərəfli dərk etməyə yönəldən mürəkkəb prosesdir. Belə təfəkkür elmi axtarışlar və tədqiqatçılıq fəaliyyəti zamanı meydana çıxır [4].

Yaradıcı təfəkkür insanın əmək fəaliyyətindən yaranır və məqsədə çatmaq üçün qarşıya çıxan çətinlikləri aradan qaldıraraq inkişaf edir. Yaradıcı təfəkkür təlim prosesində şagirdlərin tədqiqatçılıq qabiliyyətini inkişaf etdirir.

Riyazi təfəkkürün ən vacib növlərindən biri olan yaradıcı təfəkkürün inkişafı idrak fəaliyyəti prosesində problemin başa düşülməsi, yeni problemi digər problemlərdən fərqləndirmək, problemin həllinin axtarılmasının planlaşdırılması, ideyalarının verilməsi, səmərəli həll planının seçilməsi, alınan nəticələrin əsaslandırılması kimi yeni çəhətlər yaradır [1]. Qeyd edək ki, yaradıcı təfəkkür riyazi təfəkkürün qalan növləri ilə sıx bağlıdır və riyazi təfəkkürün bütün növləri bir-birini tamamlayır.

A.N.Leontyev göstərir ki, "təfəkkürün quruluşu praktik fəaliyyətinin quruluşuna yaxınlığı ilə prinsipial xarakter daşıyır. Belə ki, təfəkkür vasitəsi ilə insan dünyanı dərk edir, ona təsir edərək dəyişir". Riyazi təfəkkürün inkişafı təlim işinin təşkilindən çox asılıdır.

Təlim elə təşkil edilməlidir ki, şagird topladığı faktları mücərrəd təfəkkürdə təhlil etsin, fikri əməliyyatlar apararaq problemləri həll etsin, nəzəri bilikləri məsəslə həllinə tətbiq etsin, müstəqil və yaradıcı düşünüb, tədqiqatçılıq qabiliyyətini inkişaf etdirsin [2].

Təfəkkürün fəallığı təlim metodlarının dərk edilməsi prosesini sürətləndirir.



Qeyd edək ki, təlim prosesində məsələ həlli şagirdlərin biliklərini möhkəmləndirir, öyrənilən nəzəri materialların şüurlu dərk olunmasına, onların tədqiqatçılıq qabiliyyətinin inkişafına kömək edir. Bunun nəticəsində şagirdlərin yaradıcı təfəkkürü inkişaf edir.

Nümunə üçün aşağıdakı məsələnin həllinə baxaq.

Məsələ. Düzgün dördbucaqlı piramidanın həcminin $12\ sm^3$ və yan üzünün oturacaqla 60^0-li bucaq əmələ gətirdiyini bilərək, tam səthinin sahəsini tapın.

Həlli. $SABCD$ verilmiş düzgün dördbucaqlı piramida olsun. $\angle SKO = 60^0$, $V = 12\ sm^3$, $S_T = ?$

$ABCD$ kvadrat olduğundan $KO = \frac{1}{2}AB,\ \angle KSO = 30^0$ olar (SKO – düzbucaqlı üçbucaq və $\angle SKO = 60^0$ olduğundan) 30^0-li bucaq qarşısındakı katet haqqındakı teoremə əsasən: $SK = 2KO = AB$ olar. ΔSKO-dan

$$H = SO = \sqrt{AB^2 - \frac{AB^2}{4}} = \frac{AB\sqrt{3}}{2}.$$

Piramidanın oturacağının sahəsi $Q = AB^2$ olduğundan, həcm düsturuna əsasən:

$$V = \frac{1}{3}Q \cdot H;\ \frac{1}{3}AB^2 \cdot \frac{AB\sqrt{3}}{2} = 12,$$

$$AB = 2\sqrt{3}\ sm.$$

Piramidanın tam səthi:

$$S_T = Q + S_Y = AB^2 + 2AB^2 = 3 \cdot 12 sm^2 = 36\, sm^2\ ,$$

$$S_T = 36\, sm^2.$$

olar.

Ədəbiyyat

1. Adıgözəlov A.S. Orta məktəblərdə riyaziyyatın tədrisi metodikası. Bakı: Maarif, 2009, 245 s.
2. Əliyeva T.M. və b. Orta məktəblərdə riyaziyyatın tədrisi metodikası. I-II h., Bakı, ADPU, 1993.
3. Tahirov B.Ö. və b. Riyaziyyatın tədrisi üsulları. Bakı: AzTU, 2008, 182 s.
4. Əfəndi S.N., Hüseynov Z.Q. Şagirdlərin riyazi təhsil səviyyəsinin artmasında məsələ həllinin rolu // SDU, Elmi xəbərlər, 2020, cild 16, №1, s.88-91.
5. Черкасов Р.С., Столяр А.А. Методика преподавания математики. М.: Просвещение, 1985, 335 с.

РЕЗЮМЕ

РАЗВИТИЕ ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ И ИССЛЕДОВАТЕЛЬСКИХ СПОСОБНОСТЕЙ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ МАТЕМАТИКЕ

Афанди С.Н., Гусейнов З.Г., Гасымов Е.А.

***Ключевые слова*:** *мышление, обучение, познание, цель, образование.*

Формирование творческого мышления, связанного с познавательной деятельностью, представляет собой сложный процесс, ведущий к более глубокому и всестороннему пониманию окружающего мира. Главной целью современной системы образования является формирование личности с высокими научными способностями и творческим мышлением.

Развитие творческого мышления, являющегося одним из важнейших видов математического мышления, создает новые аспекты в процессе познавательной деятельности, такие как осмысление проблемы, планирование поиска решения задачи, подача идей, обоснование полученных результатов.

В данной работе изучается роль решения задач в развитии творческого мышления и исследовательской способности учащихся.

SUMMARY

DEVELOPMENT OF CREATIVE THINKING AND RESEARCH ABILITIES OF STUDENTS IN MATHEMATICAL EDUCATION

Afandi S.N. Huseynov Z.G., Gasimov E.A.

Keywords: thinking, learning, cognition, goal, education.

The formation of creative thinking associated with cognitive activity is a complex process leading to a deeper and more comprehensive understanding of the world around us. The main goal of the modern education system is the formation of a personality with high scientific abilities and creative thinking.

The development of creative thinking, which is one of the most important types of mathematical thinking, creates new aspects in the process of cognitive activity, such as understanding the problem, planning the search for a solution to the problem, submitting ideas, substantiating the results obtained.

This paper studies the role of problem solving in the development of creative thinking and research ability of students.

"İNFORMATİKA" FƏNNİNİN TƏDRİSİDƏ ÖZÜNÜYOXLAMA VƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜÇÜN SEMANTİK MODELİN YARADILMASI

Əliyeva Aynur Eldar qızı

Azərbaycan Dövlət Pedaqoji Universiteti, İdarəetmə Sistemləri İnstitutu,

Bakı, Azərbaycan

aynur.aliyeva@gmail.com

Açar sözlər*: *ali məktəb informatikası, özünüyoxlama, biliyin qiymətləndirilməsi, semantik model, istiqamətlənmiş qraf.

Ali məktəblərdə hibrid tədris metodlarının tətbiqi tələbənin özünü yoxlama və biliklərin qiymətləndirilməsi metodlarının rolunu artırır. "İnformatika" fənninin tədrisi prosesində tələbənin özünü yoxlama və tələbələrin biliyinin qiymətləndirilməsi üçün semantik model əsasında biliyin strukturlaşdırılmasının rolu araşdırılmışdır.

Rəqəmsal cəmiyyətin bilik və bacarıqları informatika fənnində verildiyi üçün bu fənnin tədrisi həmişə müasir tələblərə cavab verən təşkil olunmalıdır. Belə ki, informatikanın hibrid tədrisi zamanı bilik və bacarıqların tələbə tərəfindən yaxşı mənimsənməsi üçün tələbənin öz-özünü yoxlamağı və yaxşı qavramadığı bölmələri yenidən oxumağı üzərində təşkil olunmalıdır [6]. Tədris prosesinin müxtəlif mərhələlərində ənənəvi təhsil sistemi tələbələrə mümkün qədər çox faktiki material verməyə çalışır. "İnformatika" fənninin tədrisi timsalında informatikada istifadə olunan anlayışlar ardıcıl, bir-biri ilə əlaqəli olduğundan, anlayışlar arasında əlaqələr və daha ümumiləşdirilmiş kateqoriyalarından konkret anlayışların məntiqi çıxarılması qaydaları bir kənarda qalır. Tədris prosesində biliyin qiymətləndirilməsi üçün fənnin materialını semantik şəkildə təqdim etmək vacibdir. Problemin həlli üçün mövzular arasındakı bütün əlaqələri nəzərə alan strukturlaşdırılmış model şəklində göstərməyə imkan verən məntiqi-semantik yanaşmaya əsaslanan biliyin təqdimat sistemi yaradılmalıdır. Yaradılacaq sistemin ənənəvi və distant hibrid tədris sistemində tətbiqi vacibdir. Bundan başqa bu sistem öz-özünə öyrənməni, öz-özünü qiymətləndirməni və nəzarəti təmin edəcəkdir.

Ali məktəblərdə təhsilin təkmilləşdirilməsinə imkanlar yaradan və "İnformatika" fənninin tədrisi prosesində biliyin yoxlanılması üçün təlim nəzəriyyəsinin qurulması aktual məsələdir. Bu məsələnin həlli üçün semantik modelin qurulması məqəsədəuyğundur.

Tədris materialının semantik modelini istiqamətlənmiş qraf şəklində təsvir etmək əlverişlidir. Qrafda hər bir təpəyə bir neçə daxil olan və çıxan tillər ola bilər. Bu qrafa uyğun insident matrisi ixtiyari doldurulmuşdur və matrisin sıfır olan elemntləri ixtiyari yerdə yerləşdirilmişdir. Hər bir təpə nöqtələrində ona aid olan mövzunun anlayışları və bilikləri, ədəbiyyat və s., tilləri isə istiqamətləndirilmiş qraflarla təmsil olunan semantik şəbəkə şəklində çoxsəviyyəli iyerarxik quruluş göstərir. İearxik sistemin layları və strukturu ekspertlər tərəfindən müəyyən olunmalıdır [1-3].

Biliyin təqdim edilməsinə bu yanaşmanın əsas ideyası ondan ibarətdir ki, mövzu sahəsi obyektlər və onlar arasındakı əlaqələr toplusu kimi qəbul edilir [4, 5].

Semantik şəbəkənin iki komponentdən ibarət olur: bir qövs və ona düşən təpələr. Predmet sahəsinin bilikləri qrafın təpə nöqtələri üzrə paylandığını, qövslər isə bu biliklər arasında əlaqəni təsvir edir.



Şəkil. Semantik modelin qrafı.

Təklif olunan model biliyin qiymətləndirilməsi üçün əhəmiyyətlidir. Hal-hazırda olan qiymətləndirmə sistemləri biliyin ümumi qiymətləndirilməsinə imkan verir. Təqdim olunan model tələbəyə konktret yaxşı mənimsiyə bilmədiyi mövzuların ardıcıl öyrənməyi göstərir.

"İnformatika" fənnin tədrisi prosesində biliyin semantik model vasitəsi ilə qiymətləndirilməsi aşağıdakı məsələlərin həllini təmin edəcəkdir:

- bu fənnin öyrənilməsi prosesində tələbənin özünü yoxlamasnı;
- tələbənin konkret mövzular üzrə bilik səviyyəsini aşkar etməsini;
- tələbənin bilmədiyi mövzu üzrə biliyini artırmağa yönəldilməsini.

Təklif olunan model ali təhsil məktəblərdə "İnformatika" fənninin tələbələr tərəfindən qısa zamanda daha yaxşı mənimsəməsinə kömək edəcəkdir.

Ədəbiyyat

1. Кудрявцев Д.В., Беглер А.М. и др. Метод коллективной визуальной разработки онтологического графа знаний. Искусственный интеллект и принятие решений 1/2019. DOI 10.14357/20718594190103

2. Голенков В.В., Гулякина Н.А., Давыденко И.Т., Шункевич Д.В. Семантическая модель представления и обработки баз знаний. Труды XIX Международной конференции «Аналитика и управление данными в областях с интенсивным использованием данных» (DAMDID/ RCDL'2017), Москва, Россия, 10–13 октября 2017 года.

3. Болотникова Е. С., Гаврилова Т. А., Горовой В. А. Об одном методе оценки онтологий // Известия Российской академии наук. Теория и системы управления. 2011. № 3. С. 98–110.
4. Каширин Д.И., Каширин И.Ю. Модели представления знаний в системах искусственного интеллекта. ISSN 1995-4565. Вестник РГРТУ. № 1 (выпуск 31). Рязань, 2010.
5. Голенков В.В., Гулякина Н.А. Проект открытой семантической технологии компонентного проектирования интеллектуальных систем. «Ontology of Designing» scientific journal, 1(11)/2014.
6. Əliyeva A.E. Ali tədris müəssisələrində informatika fənninin hibrid tədris modellərinin tətbiqinin təhlili. “Azərbayca Respublikasının Təhsil İnstitutu Elmi əsərləri”. cild 89, № 1, 2022 s.156-162.

РЕЗЮМЕ
СОЗДАНИЕ СЕМАНТИЧЕСКОЙ МОДЕЛИ ДЛЯ САМОПРОВЕРКИ И ОЦЕНКИ ЗНАНИЙ ПРИ ПРЕПОДАВАНИИ ПРЕДМЕТА «ИНФОРМАТИКА»
Алиева А.Е.

Ключевые слова: *информатика в высшей школе, самопроверка, оценка знаний, семантическая модель, ориентированный граф.*

В условиях использования смешанных методов преподавания в учебных заведениях повышается роль методов самопроверки знаний студентами, а также оценки уровня их знаний. В работе для процесса преподавания предмета «Информатика» в высшей школе исследована роль структуризации знаний на основе семантической модели для эффективного как обучения, самопроверки, так и оценки знаний студентов.

SUMMARY
CREATION OF A SEMANTIC MODEL FOR SELF-CHECK AND KNOWLEDGE ASSESSMENT IN THE TEACHING OF THE SUBJECT "INFORMATICS"
Aliyeva A.E.

Keywords: *higher school informatics, self-examination, knowledge assessment, semantic model, directed graph.*

In the context of the use of mixed methods of teaching in educational institutions, the role of methods of self-examination of knowledge by students, as well as assessing the level of their knowledge, is increasing. In the work for the process of teaching the subject "Informatics" in higher education, the role of knowledge structuring based on a semantic model for effective teaching, self-examination and assessment of students' knowledge is investigated.

ALİ TƏHSİL MÜƏSSİSƏSİNDƏ RİYAZİYYAT FƏNNİNİN TƏDRİSİNDƏ İKT-NİN PEDAQOGİKA İLƏ İNTEQRASİYASI ƏSASINDA TƏHSİL PROSESİNİN KEYFİYYƏTİNİN VƏ EFFEKTİVLİYİNİN ARTIRILMASI

Əzizov Bəhrəm Bəhlul oğlu, Ələkbərli Aytən Hafiz qızı
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
bah-aziz@rambler.ru

Açar sözlər*: *təhsil, İKT, sistem, model, pedaqoji kommunikasiya, məsələ, elektron təhsil kursu, tətbiqi proqram paketləri.

Təhsildə informasiya və kommunikasiya texnologiyaların (İKT) tətbiq sahəsi genişlənməkdədir. Bu dəyişikliklər təhsil sahəsinə həm təhsil məsələlərinin tərkibi baxımımdan, həm də təhsilin məqsədlərinə çatmaq üçün açılan texnoloji imkanların istifadəsi baxımımdan təsirsiz ötüşə bilməzdir.Bu kimi üstünlüklərə baxmayaraq İKT-nın hərtərəfli tətbiqi əsasında inovativ dəyişikliklərin çevrilmələrini yeridilməsi yolu ilə təhsilin keyfiyyətini artırmaq yönəmi hələdə reallaşmamışdır. Bu baxımdan məqalədə təklif edilir ki, İKT-nin pedaqogikayla inteqrasiyası əsasında təhsil prosesini və onun nəticələrini təhsilin bütun səviyyələrində keyfiyyətin və effektivliyin artırılması məqsədi ilə, İKT-nın tətbiqi proqram paketlərindən istifadəsi və praktik işləmələrinin tədqiqi zəruridir.

EHM (elektron hesablama maşınları-kompüterin) - yaradılması insan cəmiyyətinin inkişafında ən böyük rol oynayan elmi nailiyyətlərdən biridir. İlk olaraq riyazi hesablama proseslərinin sürətləndirilməsi və avtomatlaşdırılması üçün istifadə olunan elektron hesablama maşınları hazırda təbiət (riyaziyyat, texnika, iqtisadiyyat, biologiya, kimya və humanitar elmlərin nəzəri və praktiki sahələrinə problemlərin həlli zamanı tətbiq olunur.Artıq kompütersiz həyatı və fəaliyyatı düşünmək çox çətindir.

Ona görə kompüter texnikasının tətbiqi ilə bağlı prosesləri idarə edən və onların geniş imkanlarını tətbiq etməyi bacaran mütəxəssis yetişməlidir. Deməli, gənc nəsil informasiya cəmiyyətində işləməyə və yaşamaqa hazır olmalıdır. İndiki zamanda, cəmiyyətin ən əsas istiqamətlərindən biri cəmiyyət həyatının bütün sahələrinin kompüterləşdirilməsi və informasiyalaşdırılmasıdır.

Təsadüfi deyil ki, BMT-nın bütün üzv dövlətlərinin qəbul etdiyi üçüncü minilliyin səkkiz inkişaf məqsədindən biri kimi qlobal tərafdaşlığın inkişaf etdirilməsi istiqamətində göstərilir ki, informasiya-kommunikasiya texnologiyalarından (İKT) bəhrələnmək imkan yaradılmışdır. İKT cəmiyyətin və iqtisadiyyatın inkişafına ciddi təsir göstərdiyinə görə **aktual tədqiqat istiqaməti** olaraq, dinamik templə sosial və iqtisadi həyatın bütün sahələrinə tətbiq olunur[1]. Hal-hazırda İKT-nin əhatə dairəsi hökümət təşkilatların, qeyri-hökümət və özəl qurumları, iqtisadi-sosial, elmi-mədəniyyət, ictimayi –siyası, tədris-təhsil və s. sahələri əhatə edir. İKT-nin inkişafı biliklər iqtisadiyyatının, başqa sözlə neftsiz iqtisadiyyatın qurulmasına təkan verir. Ona görə də Azərbaycanda neft sahəsinə alternativ İKT sektorunun inkişaf tedirilməsi dövlətin iqtisadi siyasətinin vacib istiqamətlərindən hesab olunur.

Hazırda Azərbaycanda bu sahədə çox ciddi tətbirlər işlənilməkdə və həyata keçirilməkdədir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan Respublikası ilə BMT İnkişaf Proqramı(İP) arasında imzalanmış proqram-layihəyə müvafiq olaraq hazırlanmış "Azərbaycan Respublikası inkişafı naminə İKT üzrə Milli strategiya (2003-2012-ci illər)" Azərbaycan Respublikası Prezidenti tərəfindən 17 fevral 2013-cü ildə imzalanmışdır.

Bu programın- İKT üzrə Milli Strategiyanın (İKTMS) yerinə yetirilməsi işi ümum dövlət, ümumxalq əhəmiyyətinə malik olmaqla cəmiyyət həyatının bütün sahələrində İKT-tətbiqini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, YUNESKO-nun əsas prioritetlərindən biri təhsil sahəsində strategiyanın hazırlanması və həyata keçirilməsində YUNESKO-nun üzvü olan dövlətlərə yardım göstərilməsi təhsilin informasiyalaşdırılması siyasətidir.

İnnovasiya idarəetmə modellərinin və müasir İKT-ın milli təhsil sistemləriniə tətbiqi qabaqcıl pedaqoji üsulların modernləşdirilməsi, təhsil müəssisələrində gündəlik tədris təcrübə əsasında problemlərin həlli strategiyası sahəsində təhsilin keyfiyyətinin yüksəldilməsi əsas prioritetləridəndir. Azərbaycan layihə iştirakçısı kimi hesab edir ki, təhsil onların mədəni, iqtisadi və sosial inkişafında əsas elementlərdən biridir.

Bu dəyişikliklər həm təhsil sahəsinə aid məsələlərinin məzmunu, həm də açılmış texnoloji imkanlardan istifadə edilməsi baxımından təhsil məqsədlərinə təsirsiz ötüşməmişdir. Tətbiq sahəsi olan təhsildə kompüter texnikası daim genişlənir: informasiya texnologiyaları və kompüter istifadəçisindən yani informatika fənninin öyrənilməsi obyektindən fərqli olaraq, aksent onun ümumtəhsil fənləri üzrə tədris prosesinin intensivləşdirilməsi vasitəsi kimi geniş istifadə olunmasına keçirilir.

Beləliklə, müasir dövrdə İKT-nin tədris və təhsildə aktuallıqı kompyuter texnologiyaları və düzgün seçilmiş təlim texnologiyaların birgə istifadəsindən ibarətdir.

Elm və onun inkişafını təmin edən tədris və təhsil sahələrində informasiyalaşdırma, kompüter, telekommunikasiya texnologiyalarının və müasir informasiya sistemlərinin tətbiqi yeni səviyyədə və keyfiyyətdə biliklərin alınmasını, ümumilləşdirilməsini, yaranmasını və istifadəsini təmin edir. Tələbələrin , gənc alim və mütəxəssislərin zəruri elmi informasiya və biliklərlə təmin edilməməsi Azərbaycanda gənc nəslin gələcəkdə elmi potensalının inkişaf tempinin düşməsinə apara bilər. Dünya təcrübəsi göstarir ki, informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir və məhz bu texnologiyalar əhalinin sosial-iqtisadi vəziyyətinda mövcud olan problemlərin həll olunması va yoxsulluğun azaldılması üçün tutarlı vasiələrdəndir.

Son illərdə Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarından istifadə sahəsində müəyyən addımlar atılmış, bir sıra sahələrdə bu texnologiyaların tətbiqində ciddi uğurlar qazanılmış va ümumiyyətlə, bu istiqamət dövlət siyasətinin prioritetlərindən birinə çevrilmişdir.

Hazırda Azərbaycanda Elmi tədqiqat işlərinin informasiyalaşdırılması, elektron nəşrlər, bir çox elmi-kütləvi, təhsil, mədəni-marif və s. tipli saytlar-portallar, tədris proqramları, informasiya sistemləri, elektron dərsliklər, distant tədris texnologiyaları yaradılır və istifadə edilir.

Bu baxımdan, tətbiqi proqram paketlərinin kompüter tədrisində istifadə təcrübəsini nəzərə alaraq effektiv vasitə olduğunu əsaslandırmaq olar.

Kompüter təliminin **ən aktual problemlərdən biri** məqsədyönlü didaktik "Nümayiş-Tədris, Təlim proqramları " -n yaradılmasıdır.

"Nümayiş- Tədris,Təlim proqramları" - tətbiqi proqram vasitələri kimi tədris fəaliyyətinin müxtəlif mərhələlərində həm şagirdlərin auditoriya məşğələ dərslərində həm də fərdi dərslərdə istifadə oluna bilər. Bir qayda olaraq, belə proqramlarla iş, istifadəçi və proqramla dialoq əsasında qurulur və müəllim müdaxiləsi tələb olunmur. Lakin, əgər "Nümayiş- Tədris,Təlim proqramları"

istifadəçisi - müəllimdirsə, onda o tədrisdə , nümayiş üçün kompüter modelindən istifadə edə bilər və bu onun pedaqoji yaradıcılığında geniş imkanlar aça bilər. Elektron Hesablama Maşınları vasitəsi ilə tədqiq olunan obyekt və proses modellərinin üstünlükləri idarəetmə, çeviklik və dəyişkənlik, davranış, interaktiv rejimə keçməsi imkanından irəli gəlir.

Ədəbiyyat

1. Bəhrəm Əzizov, Nigar Qafarova, Çinarə Qasımova. "Ali Məktəblərdə Riyaziyyat Fənni Tədrisində İnformasiya və Kommunikasiya Texnologiyalarının Tətbiqində İnnovativ Yanaşma". Azərbaycan Texniki Universiteti, Elmi əsərlər., 2019, N 1, səh.136-143.

РЕЗЮМЕ
ПОВЫШЕНИЕ КАЧЕСТВА И ЭФФЕКТИВНОСТИ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА В ПРЕПОДАВАНИИ МАТЕМАТИКИ В ВУЗЕ НА ОСНОВЕ ИНТЕГРАЦИИ ИКТ С ПЕДАГОГИКОЙ
Азизов Б.Б., Алекберли А.Х.

Ключевые слова*: *образование, ИКТ, система, модель, педагогическое общение, задача, электронный учебный курс, пакеты прикладных программ.

Область применения информационно-коммуникационных технологий (ИКТ) в образовании расширяется. Эти изменения не могут остаться незатронутыми в сфере образования как с точки зрения состава содержательных вопросов, так и с точки зрения использования открывшихся технологических возможностей для достижения целей образования.Несмотря на такие преимущества, повышение качества образования за счет внедрения инновационных изменений на основе комплексного применения ИКТ еще не реализовано. С этой точки зрения в статье высказывается мысль о том, что на основе интеграции ИКТ с педагогикой необходимо изучение использования пакетов прикладных программ и их практического функционирования с целью повышения качества и эффективности образовательного процесса и его результатов на всех уровнях образования.

SUMMARY
INCREASING THE QUALITY AND EFFICIENCY OF THE EDUCATIONAL PROCESS BASED ON THE INTEGRATION OF ICT WITH PEDAGOGY IN THE TEACHING OF MATHEMATICS IN A HIGHER EDUCATION INSTITUTION
Azizov B.B., Alakbarli A.H.

***Keywords*: *education, ICT, system, model, pedagogical communication, problem, electronic education course, application software packages*.**

The field of application of information and communication technologies (ICT) in education is expanding. These changes cannot remain unaffected in the field of education both from the point of view of the composition of educational issues and from the point of view of the use of technological opportunities opened up to achieve the goals of education. Despite such advantages, the direction of increasing the quality of education by introducing innovative changes based on the comprehensive application of ICT has not yet been realized. From this point of view, the article suggests that, based on the integration of ICT with pedagogy, it is necessary to study the use of ICT application software packages and their practical functioning in order to increase the quality and effectiveness of the educational process and its results at all levels of education.

NİSBƏT ANLAYIŞI İLƏ ƏLAQƏDAR OLAN BƏZİ HƏNDƏSƏ MƏSƏLƏLƏRİ

Hümbətov Müsəllim Mövsüm oğlu
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
musallim.hummatov@mail.ru

Açar sözlər: *fəndaxili inteqrasiya, nisbət, trapesiya, tənbölən, median, sahə, perimetr*

Məqalə nisbət və tənasüb anlayışları ilə əlaqədar olan bir sıra həndəsə məsələsinin həlli metodikasına həsr olunmuşdur. Burada üçbucağın tənbölənininin xassəsinə, oxşarlıq çevirməsinə və bu şevirmədən alınan bir sıra nəticələrə əsaslanan tipik məsələlərə baxılır. Belə məsələlər fəndaxili inteqrasiyanın reallaşdırılması vasitəsi rolunu oynayır ki, bu da şagirdlərin riyazi təfəkkürünün və fəza təsəvvürünün inkişafına xidmət edir.



Şəkil 1.

Riyaziyyatın, xüsusi halda məktəb riyaziyyat kursunun ayrı-ayrı bölmələri arasında üzvi əlaqələr mövcuddur. Belə ki, bir bölməyə aid olan anlayış və faktlardan digər bölmənin şərhində, həmçinin həmin bölməyə aid olan məsələlərin həllində geniş istifadə edilir. Məsələn, Analitik həndəsə kursunun şərhi vektorlar və matrislər cəbrinə əsaslanır. Birdəyişənli bərabərsizliklərin həlli zamanı tətbiq

olunan intervallar metodu bərabərsizliyin həllini uyğun tənliyin həllinə gətirməyi nəzərdə tutur. Yaxud silsilə mövzusuna aid olan məsələlərin həllində tənlik və tənliklər sistemindən geniş şəkildə istifadə edilir. Parçada kəsilməz funksiyanın ən kiçik və ən böyük qiymətinin tapılması zamanı diferensial hesabı elementlərindən istifadə olunur. Bir sıra hallarda sahələrin və həcmlərin tapılmasına ibtidai funksiya və müəyyən inteqral anlayışları tətbiq edilir. Beləliklə, kursun tədrisi prosesində fəndaxili inteqrasiya reallaşdırılmış olur ki, bu da tədris materialının daha dərindən dərk olunmasına və şagirdlərin riyazi təfəkkürünün inkişafına xidmət edir.

Həndəsi xarakterli anlayışların və faktların böyük bir qismi nisbət və tənasüb anlayışları ilə əlaqədardır. Həndəsə məsələlərinin həlli zamanı nisbət və tənasüb anlayışlarından geniş şəkildə istifadə olunur. Nisbət və tənasüb anlayışlarının tətbiqi ilə həll olunan bir neçə tipik məsələyə baxaq.



Şəkil 2.

Məsələ 1. $ABCD$ trapesiyasında $MN \| AD, AB = 12sm, DN = 12sm$ və $CN = 4sm$-dir. MB-ni tapın. [1, s.201]

Həlli. $MB = x$ qəbul edək. Onda $AM = 12 - x$ olar. Fales teoreminə əsasən:

$$\frac{MB}{CN} = \frac{AM}{DN} \Rightarrow \frac{x}{4} = \frac{12-x}{12} \Rightarrow 12x = 48 - 4x \Rightarrow 16x = 48 \Rightarrow x = 3.$$ Onda $MB = 3sm$ olar.

Məsələ 2. ABC üçbucağında $AB = 6sm, BC = 7sm, AC = 8sm.$ AT tənbölənin uzunluğunu tapın.

Həlli. Məlumdur ki, üçbucağın tənböləni çə-kildiyi tərəfi o biri tərəflərlə mütənasib hissələrə bölür: $BT : TC = AB : AC$. $BT = x$ qəbul edək. Onda:

$TC = 7 - x$ olar. Bunları və məsələnin verilənlərini nəzərə alsaq:

$$x : (7 - x) = 6 : 8 \Rightarrow 8x = 6 \cdot (7 - x) \Rightarrow 8x = 42 - 6x \Rightarrow 14x = 42 \Rightarrow x = 3.$$

Onda $BT = 3, TC = 4$. Digər tərəfdən tənbölənin uzunluğu üçün aşağıdakı düstur da məlumdur: $AT = \sqrt{AB \cdot AC - BT \cdot TC}$. Beləliklə, $AT = \sqrt{6 \cdot 8 - 3 \cdot 4} = 6(sm)$.

Məsələ 3. ΔABC-də $AB = 8; BC = 5; AC = 4$. $\angle CBF$-in tənböləni AC düz xətti ilə D nöqtəsində kəsişir. CD parçasının uzunluğunu tapın.[2, s.170]



Şəkil 3

Həlli. Həndəsə kursundan məlumdur ki, A daxili bucağının və B və C xarici bu-caqlarının tənbölənləri eyni bir T nöqtəsində kəsişirlər. T nöqtəsi xaricdən daxilə çəkilmiş çevrənin mərkəzidir. $CD = x$ olsun. ΔABD-də AT tənbölənin xassəsinə görə:

$$\frac{BT}{TD} = \frac{AB}{AD} \Rightarrow \frac{BT}{TD} = \frac{8}{4+x}.$$

ΔBCD-də CT tənbölənin xassəsini görə: $\frac{BT}{TD}=\frac{CB}{CD}\Rightarrow\frac{BT}{TD}=\frac{5}{x}$. Sonuncu iki münasibətdən: $\frac{8}{4+x}=\frac{5}{x}$ tənasübü alınır. Bu tənasübü həll edərək $x=6\frac{2}{3}$ alırıq. Beləliklə, $CD=6\frac{2}{3}$ olur.

Məsələ 4. $ABCD$ düzbucaqlı trapesiyasında $\angle BAD=90^\circ$, $BC=32sm, AC\perp BD$ və $AC:BD=4:5$. AD-ni tapın. [3, s. 202]

Həlli. DA oturacağının uzantısı üzərində $AE=BC=32$ parçası ayıraq. B və E nöqtələrini birləşdirək. Onda $AEBC$ paraleloqram olar. Buna görə də $BE\parallel AC,\ BE=AC$ olar. $BE\parallel AC,\ AC\perp BD\Rightarrow BE\perp BD$. Həndəsədən məlum olan fakta əsasən



Şəkil 4

$$\frac{AE}{AD}=\frac{BE^2}{BD^2}=\left(\frac{BE}{BD}\right)^2=\left(\frac{4}{5}\right)^2=\frac{16}{25}\Rightarrow AE=16x, AD=25x$$

.Buradan $16x=32$, $x=2$ və $AD=25\cdot 2=50$ olacaqdır.

Məsələ 5. Hündürlüyü 12, iti bucağının tangensi $\frac{3}{2}$ olan bərabəryanlı trapesiyanın diaqonalı yan tərəfə perpendikulyardır. Trapesiyanın böyük oturcağını tapın.

[1,s. 203].



Səkil 5.

Həlli. Şərtə görə $ABCD$ bəraabəryanlı trapesi-yadır və $AC\perp CD$, $CK\perp AD, CK=12, tg\angle D=\frac{3}{2}$. AD oturacağını tapmaq tələb olunur. $tg\angle D=\frac{CK}{KD}\Rightarrow\frac{CK}{KD}=\frac{3}{2}$ $CK=3x$ qəbul edək, onda $KD=2x$ olar. Şərtə görə $3x=12\Rightarrow x=4\Rightarrow KD=2\cdot 4=8$. Həndəsədən məlum olan teoremə əsasən:

$CK^2=AK\cdot KD\Rightarrow 12^2=AK\cdot 8\Rightarrow AK=18$. Onda $AD=AK+KD=18+8=26$ olar.



Şəkil 6 .

Məsələ 6. $ABCD$ trapesiyasının diaqonalları O nöqtəsində kəsişir. Oturacaqlar: $AD=a,\ BC=b$. O nöqtəsindən oturacaqlara paralel olaraq keçən MN parçasının uzunluğunu tapın.

Həlli. Aşkardır ki, $\Delta BOC\sim\Delta DOA$. Buradan:

$\frac{BC}{AD}=\frac{CO}{OA}\Rightarrow\frac{CO}{OA}=\frac{b}{a}$. Həmçinin $\Delta AMO\sim\Delta ABC$. Onda: $\frac{AO}{AC}=\frac{MO}{BC}\Rightarrow\frac{AO}{AO+OC}=\frac{MO}{BC}$.



Şəkil 7.

Sonuncu tənasübdən: $\frac{1}{1+\frac{CO}{OA}}=\frac{MO}{BC}\Rightarrow\frac{1}{1+\frac{b}{a}}=\frac{MO}{b}\Rightarrow MO=\frac{ab}{a+b}$. Eyni ilə $NO=\frac{ab}{a+b}$. Nəticədə $MN=MO+NO=\frac{ab}{a+b}+\frac{ab}{a+b}=\frac{2ab}{a+b}$.

Bu məsələnin həllində nisbət və tənasübün xassələrindən daha dolğun şəkildə istifadə olunduğunu gördük.

Məsələ 7. *ABC* üçbucağının *BC* tərəfi üzərində *D* nöqtəsi götürülmüşdür. *BM* medianı *AD* parçası ilə *O* nöqtəsində kəsişir. $BD:DC=2:3$ və $AD=35$ olarsa, *AO*-nu tapın. [1, s.172]

Həlli. O nöqtəsini C ilə birləşdirək. Məlum təklifə əsasən $BD:DC=2:3\Rightarrow S_{\Delta DBO}:S_{\Delta DOC}=2:3$. Onda $S_{\Delta DBO}=2S$ olarsa, $S_{\Delta DOC}=3S$ olar. $S_{\Delta MOC}=x$ olsun. Onda *OM* parçası ΔAOC-nin medianı olduğuna görə $S_{\Delta AOM}=x$ olar. Digər tərəfdən *BM* parçası median olduğuna görə $S_{\Delta ABM}=S_{\Delta BMC}\Rightarrow S_{\Delta ABO}=5S$. Yenə də məlum təklifə görə: $\frac{AO}{OD}=\frac{S_{\Delta ABO}}{S_{\Delta DBO}}=\frac{5S}{2S}=\frac{5}{2}$. $AO=5k$ qəbul edək, onda $OD=2k$ olar. $AO+OD=AD\Rightarrow 5k+2k=35\Rightarrow 7k=35\Rightarrow k=5$. Nəticədə $AO=5k=5\cdot 5=25$ olar.



Səkil 8.

Məsələ 8. İsbat edin ki, oxşar coxbucaqlıların perimetrləri nisbəti oxşarlıq əmsalına bərabərdir.

İsbatı. Fərz edək ki, *P* və *Q* çoxbucaqlıları oxşardır və oxşarlıq əmsalı *k*-ya bərabərdir. P çoxbucaqlısının tərəfləri $a_1,a_2,...,a_n$, *Q* çoxbucaqlısının uygun tərəfləri isə $b_1,b_2,...,b_n$-dir. Onda *P* və *Q* çoxbucaqlılarının perimetrləri uyğun olaraq $P_1=a_1+a_2+...+a_n$ və $P_2=b_1+b_2+...+b_n$ olar. *P* və *Q* çoxbucaqlıları oxşar olduğundan uyğun tərəfləri mütənasibdir və mütənasiblik əmsalı *k*-ya bərabərdir: $\frac{a_1}{b_1}=\frac{a_2}{b_2}=...=\frac{a_n}{b_n}=k\ (*)$. Bərabər nisbətlərin xassəsinə əsasən:

$$(*)\Rightarrow\frac{a_1+a_2+...a_n}{b_1+b_2+...+b_n}=\frac{a_1}{b_1}=k\Rightarrow\frac{P_1}{p_2}=k$$

Məsələ 9. Sahəsi S olan üçbucağın hündürlüyü üç bərabər hissəyə bölünmüş və bölgü nöqtələrindən oturacağa paralel düz xətlər keçirilmişdir. Verilmiş üçbucağın bölündüyü hissələrin sahəsini tapın.



Səkil 9.

Həlli. Fərz edək ki, $S_{\Delta ABC}=S, BD\perp AC$ və $BL=LE=ED$. $BL=1$ qəbul edək onda, $BE=2$ və $BD=3$ olar. $\Delta MBN\sim\Delta ABC$ və oxşarlıq əmsalı $k_1=\frac{1}{3}$. Onda $\frac{S_{\Delta MBN}}{S_{\Delta ABC}}=k_1^2=\frac{1}{9}\Rightarrow S_{\Delta MBN}=\frac{S}{9}$. Eyni qayda ilə

$\Delta FBT \sim \Delta ABC$ və oxşarlıq əmsalı $k_2 = \frac{2}{3}$. Onda $\frac{S_{\Delta FBT}}{S_{\Delta ABC}} = k_2^2 = \frac{4}{9} \Rightarrow S_{\Delta FBT} = \frac{4S}{9}$.

$S_{FMNT} = S_{\Delta FBT} - S_{\Delta MBN} = \frac{4S}{9} - \frac{S}{9} = \frac{3S}{9} = \frac{S}{3}$ olacaqdır. İndi də $AFTC$ trapesiyasının sahəsini tapaq:

$S_{AFTC} = S_{\Delta ABC} - S_{\Delta FBT} = S - \frac{4S}{9} = \frac{5S}{9}$.

Beləliklə, $S_{\Delta MBN} = \frac{S}{9}$, $S_{FMNT} = \frac{S}{3}$, $S_{AFTC} = \frac{5S}{9}$.

Məsələ 10. ABCD trapesiyasında $\angle ABD = \angle BCD$ və $BC = 12sm$ və $BD = 15sm$ olarsa, AD-ni tapın. [1, s. 188]

Həlli. Şərtə görə $\angle ABD = \angle BCD$, daxili çarpaz bucaqlar olduğu üçün $\angle ADB = \angle DBC$. Onda

$\Delta ABD \sim \Delta DCB \Rightarrow \frac{AD}{BD} = \frac{BD}{CB} \Rightarrow AD \cdot CB = BD^2$

Buradan

$AD \cdot 12 = 15^2 \Rightarrow AD = \frac{225}{12} = 18{,}75(sm)$ olar.



Şəkil 10.

Məsələ 11. İsbat edin ki, diaqonalları qarşılıqlı perpendikulyar olan düzbucaqlı trapesiyanın hündürlüyü onun oturacaqlarının həndəsi ortasına bərabərdir.

İsbatı. Fərz edək ki, $ABCD$ düzbucaqlı trapesiyadaır: $AD \parallel BC, \angle BAC = 90^\circ, \angle ABC = 90^\circ$ və $AC \perp BD$. Aşkardır ki, AB trapesiyanın hündürlüyüdür. $AB = h, AD = a, BC = b$ qəbul edək. İsbat edək ki, $h = \sqrt{ab}$. Bu məqsədlə DA tərəfinin uzantısı üzərində $AE = b$ parçsı ayıraq. Onda $AEBC$ paraleloqramdır; $EB \parallel AC$. $EB \parallel AC, AC \perp BD$ olduğundan $EB \perp BD$ oacaqdır. Deməli, EBD düzbucaqlı üçbucaqdır, BA isə düz bucaq təpəsindən endirilmiş perpendikulyardır. Bucaqları bərabər olduğuna görə

$\Delta AEB \sim \Delta ABD \Rightarrow \frac{AB}{AD} = \frac{AE}{AB} \Rightarrow AB^2 = AD \cdot AE \Rightarrow AB = \sqrt{AD \cdot BC} \Rightarrow h = \sqrt{ab}$. Bunu da isbat etmək tələb olunurdu.

Məsələ 12. Şəkildə verilənlərə görə x-i tapın (BD, DF və DE tənbölənlərdir).

Həlli. Üçbucağın tənbölənininin xassəsinə görə, ΔBDC-dən: $\frac{BD}{DC} = \frac{BF}{FC} = \frac{6}{3} = \frac{2}{1}$; həmçinin ΔABD-dən: $\frac{AD}{BD} = \frac{x}{8}$. Alınan bərabərlikləri tərəf-tərəfə vursaq: $\frac{AD}{DC} = \frac{2}{1} \cdot \frac{x}{8} \Rightarrow \frac{AD}{DC} = \frac{x}{4}$. Digər tərəfdən ΔABC-dən: $\frac{AD}{DC} = \frac{AB}{BC} \Rightarrow \frac{x}{4} = \frac{x+8}{9} \Rightarrow 9x = 4x + 32 \Rightarrow 5x = 32 \Rightarrow x = 6{,}4$



Şəkil 11.

Baxdığımız məsələlər nisbət və tənasüb anlayışları ilə əlaqədar olan məsələlərin az bir qismini təşkil edir. Belə məsələlərin sayını və çeşidini istənilən qədər artırmaq olar.

Nəhayət qeyd edək ki, bir sıra həndəsi faktların mahiyyəti nisbət və tənasüb anlayışları ilə əlaqədardır və bir çox məsələlərin həllində nisbət və tənasüb anlayışlarından geniş istifadə olunur.

Bu isə öz növbəsində fəndaxili inteqrasiyanın reallaşdırılması vasitəsi rolunu oynayır ki, bu da şagirdlərin riyazi təfəkkürünün və fəza təsəvvürünün inkişafına xidmət edir.

Ədəbiyyat

1. Dövlət İmtahan Mərkəzi. Riyaziyyat, Test toplusu /2019-cu il/ - I hissə. Bakı: "CBS" ROLYRAPHİC PRODUKTION, 280 s.
2. V.X.Şərbətov, F.Ə.Rüstəmov. Riyaziyyat (Abituriyentlər üçün praktiki vəsait). Bakı: "Səda" nəşriyyatı, 2006, 317 s

РЕЗЮМЕ

НЕКОТОРЫЕ ГЕОМЕТРИЧЕСКИЕ ЗАДАЧИ, СВЯЗАННЫЕ С ПРОПОРЦИЕЙ

Гумбатов М.М.

***Ключавые слова**: внутрипредметные интеграции, отношение, трапеция, биссектриса, медиан, площадь, периметр.*

Статья посвящена методике решения ряда задач по геометрии, связанных с понятиями соотношения и пропорции. Здесь рассматриваются типичные задачи, основанные на свойстве фактора треугольника, преобразовании подобия и ряде результатов этого преобразования. Такие задачи служат средством реализации внутри предметной интеграции, что служит развитию у учащихся математического мышления и пространственного восприятия.

SUMMARY

SOME GEOMETRIC PROBLEMS RELATED TO PROPORTION

Humbatov M.M.

***Keywords:** intrasubject integration, ratio, trapezoid, bisector, median, area, perimeter.*

The article is devoted to the methodology for solving a number of problems in geometry related to the concepts of ratio and proportion. Here we consider typical problems based on the property of the triangle factor, the similarity transformation and a number of results of this transformation. Such tasks serve as a means of implementing intra-subject integration, which serves to develop students' mathematical thinking and spatial perception.

İNFORMATİKANIN TƏDRİSİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN EFFEKTİVLİYİ

Novruzova Günel Siyavuş qızı

Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan

gunel.novruzova91@mail.ru

***Açar sözlər*:** informasiya texnologiyaları, müasir innovativ texnologiyalardan istifadə etməklə təlim, informasiya və metodiki dəstək.

Hal-hazırda cəmiyyətdəki müasir innovativ texnologiyalar təhsil proseslərinin həyata keçirilməsi texnologiyalarına yeni tələblər qoyur. Məqalədə informatikanın effektiv tədrisi üçün informasiya və metodiki dəstəyin əsas məsələləri müzakirə olunur. Müasir innovativ texnologiyadan istifadə edərək informatika tədrisinin effektivliyini təmin etmək üçün əsas vəzifələr və amillər müəyyən edilmişdir.

Təhsildə informatika şəxsiyyətin formalaşmasında və inkişafında iştirak edir, mövzunun öyrənilməsində təbii və alqoritmik təfəkkürün inkişafına xüsusi diqqət yetirilir, nəticədə informatika

tədrisinin aktuallığı hazırda dalğalanmalara səbəb olmur, lakin tədris prosesinin təşkili və tədris metodlarında bir sıra vəzifələr var. Təhsilin modernləşdirilməsi meyarlarında getdikcə daha çox izləyici tələbələrin müstəqil yaradıcı və kreativ düşüncəsini, şəxsi yönümlərini gücləndirmək, təhsildə təsirli komponentləri gücləndirmək düşüncələrini tapır. İnformatika fənninin tədrisində səmərəliliyin təmin edilməsində onun yeni müasir texnologiyalardan, o cümlədən innovativ texnologiyalardan istifadə əsasında aktivləşdirilməsi mühüm rol oynayır [2]. Bu baxımdan, hazırda məktəbdə informatika tədris edərkən şagirdlərin fərdi yanaşmasına, şagirdlərin müstəqil bilik əldə etmək və mənimsəmək üçün müxtəlif yolları mənimsəməsi, yaradıcılıq potensialını inkişaf etdirməsi üçün şərait yaradılmasına xüsusi diqqət yetirilir. Yeni innovativ texnologiyaların tətbiqi tədris prosesini daha səmərəli həyata keçirməyə imkan verir, tələbələrə tədris materialının əldə edilməsinin yeni və yeni yollarını, metodlarını və mənbələrini verir. İnnovativ texnologiyalardan istifadə etməklə informatikanın intensiv tədrisinin yollarından biri problemli təlim, layihə metodu, interaktiv texnologiyalar, oyun texnologiyaları, inteqrasiya olunmuş dərslər və s. hesab olunur [3].

Oyun texnologiyaları tələbələrin işinin intensivləşməsinə əsaslanan pedaqoji texnologiyalara aiddir. Oyun, davranışla özünüidarəetmənin formalaşdığı və inkişaf etdirildiyi bir sosial bacarıqın yenidən qurulmasına və mənimsənilməsinə yönəlmiş vəziyyət və vəziyyətlərin meyarları və şərtlərindəki fəaliyyət növüdür. Oyun texnologiyalarının tətbiqi öyrənmə prosesində tələbələrin qəsdən və intensiv rolunun ləyaqətinin metodlarından biri hesab olunur. Oyunun iştirakçıların hərəkətlərə və hadisələrə ən çox emosional cəlb olunmasına zəmanət verdiyinə inanmadan, hərəkəti geri qaytarmaq və fərqli bir strategiya sınamaq imkanı verərək, düşüncə və qətiyyətin uzaqgörənliyini, elastikliyini inkişaf etdirmək üçün uyğun şərait hazırlayır.

İnteraktiv texnologiyalardan, o cümlədən multimedia təqdimatlarından istifadə edən dərslər tələbələrə tədris materialını vizual şəkildə mənimsəməyə imkan verir. İnformatika tədrisində multimedia təqdimatları təmin edir: təlimin intensivləşdirilməsi, tələbə fəaliyyəti, təlimin fərdiləşdirilməsi, müstəqilliyin inkişafı, motivasiyanın artırılması və s.

İstifadəsi tədris prosesində innovativ texnologiyalar tələbələrin qrup və fərdi dərslərini daha maraqlı, dinamik və inandırıcı etməyə imkan verir və öyrənilən məlumatların böyük axını daha əlçatan olur. Müasir innovativ texnologiyalar müəllimə vaxtının əhəmiyyətli bir hissəsini tələbələrlə canlı ünsiyyət üçün sərbəst buraxan böyük bir texniki və texnoloji dəstək ehtiyatı verir [1].

İnnovativ texnologiyalar əsasında informatika tədrisinin təşkili dərsin fərqli planlaşdırılması, mövzunun məzmununun öyrənilməsində motivasiyanın artması səbəbindən tələbə biliklərinin daha yüksək keyfiyyətinə zəmanət verir. Onların tətbiqi müvafiq yeni məlumatlara giriş qabiliyyətini, bilik mənbəyi ilə "dialoq" un təcəssümünü təmin edir, müvəqqəti mənbənin aşağı qiyməti ilə təlimin xüsusiyyətləri və keyfiyyətinin daha yüksək nəticəsinə nail olmağa imkan verir.

Beləliklə, bir universitetdə kompüter elminin öyrənilməsində müasir innovativ texnologiyalar tələbələrin yaşına və bilik dərəcəsinə baxmadan tədris prosesinin fərdiləşdirilməsinə, məsafəsinə və hərəkətliliyinə yönəldilir, eyni zamanda tədris prosesində informatika dərslərində istifadə edilə bilən innovativ texnologiyaların daha çox metodu təqdim olunur.

Ədəbiyyat

1. Педагогические технологии: какие и как они используются в школе. / Науч. Т.И. Шамова, П.И. Третьякова. М.: Тюмень, 1994.

2. Полат Э.С., Бухаркина М.Ю., Моисеева М.V., Петров А.Е. Новые педагогические и информационные технологии в системе образования: Учеб. пособие. М.: Академия, 2000.

3. Селевко Г. К. Современные образовательные технологии: учебник. М.: Государственное Образование, 1998.

РЕЗЮМЕ
ЭФФЕКТИВНОСТЬ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПРЕПОДАВАНИИ ИНФОРМАТИКИ
Новрузова Г.С.

***Ключевые слова**: информационные технологии, обучение с применением современных инновационных технологий, информационное и методическое обеспечение*

В настоящее время современные инновационные технологии в обществе предъявляют новые требования к технологиям реализации образовательных процессов. В статье рассмотрены основные вопросы информационного и методического обеспечения для эффективного обучения информатике. Выделены основные задачи и факторы для обеспечения эффективности обучения информатики с применением современной инновационной технологии.

SUMMARY
THE EFFECTIVENESS OF INNOVATIVE TECHNOLOGIES IN TEACHING COMPUTER SCIENCE
Novruzova G.S.

***Keywords:** information technologies, training with the use of modern innovative technology, information and methodological support.*

At present, modern innovative technologies in society impose new requirements on technologies for the implementation of educational processes. The article deals with the main issues of information and methodological support for effective teaching of computer science. The main tasks and factors for ensuring the effectiveness of computer science education with the use of modern innovative technology are highlighted.

HƏNDƏSİ MƏSƏLƏLƏRƏ KÜTLƏ MƏRKƏZİ TƏTBİQİ METODİKASI

Qasımov Elmağa Ağaqasım oğlu, Əfəndi Sadəddin Nəsrəddin oğlu
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
gasymov-elmagha@rambler.ru, efendi_sadeddin@mail.ru

***Açar sözlər*:** kütlə mərkəzi, fəza dördbucaqlısı, tetraedr, oturacaqları fəza dördbucaqlıları olan fəza fiquru.

Məqalədə kütlə mərkəzinin tətbiqilə bir sıra çətin həndəsi məsələlər qısa, aydın və dəqiq həll edilir: kütlə mərkəzi metodunun üç əsas xassəsi şərh olunur; ixtiyari fəza dördbucaqlısı üçün teorem 1 isbat edilir; tetraedrin təpə nöqtələrilə qarşıdakı izlərin ağırlıq mərkəzini birləşdirən parçaların xassələri verilir; oturacaqları ixtiyari fəza dördbucaqlıları olan fəza fiqurlarının bəzi xassələri şərh olunur. Təklif olunmuş metodla digər bir sıra həndəsi məsələləri həll etmək olar.



Şəkil.

Kütlə mərkəzi metodunun tətbiqilə biq sıra çətin həndəsi məsələlər qısa, aydın və dəqiq həll edilir. Bu metodu həndəsi məsələlərin həllinə tətbiq etmək üçün onun aşağıdakı (sadə mexaniki mənası olan) üç xassəsindən istifadə olunur [1,2].

$ABCD$ - fəza dördbucaqlısının (bu dörd nöqtə eyni bir müstəvi üzərində olmayada bilər) tərəflərinin orta

nöqtələrini E, F, G, H ilə, diaqonallarının orta nöqtələrini isə K və L ilə işarə edək (Şəkil). Başqa sözlə, E, F, G, H nöqtələri uyğun olaraq $[AB],[BC],[CD]$ və $[AD]$ parçalarının, K, L nöqtələri isə uyğun olaraq $[AC]$ və $[BD]$ parçalarının orta nöqtələridir.

Teorem 1. *Yuxarıdakı qayda ilə təyin olunan* $[EG]$, $[FH]$ *və* $[KL]$ *parçalarının üçüdə (şəkildə bu parçalar göstərilməyib) eyni bir* Z *nöqtəsində kəsişirlər və kəsişmə nöqtəsində yarıya bölünürlər*.

İsbatı. Xassə 1^0-a əsasən [1, s.13],

$$mA,\ mB,\ mC,\ mD \tag{1}$$

maddi nöqtələr sisteminin (m - hər hansı qeyd olunmuş kütlədir) kütlə mərkəzi var və yeganədir; onu Z ilə işarə edək. Xassə 3^0-a əsasən [1, s.14],

$$2mE,\quad 2mG \tag{2}$$

$$2mF,\quad 2mH \tag{3}$$

$$2mK,\quad 2mL \tag{4}$$

maddi nöqtələr sistemlərinin də hər birinin kütlə mərkəzi Z nöqtəsi olacaq. Xassə 2^0-a əsasən [1, s.13],

$$Z \in [EG],\ Z \in [FH],\ Z \in [KL] \quad \text{və}$$
$$\rho(E,Z) = \rho(G,Z),\ \rho(F,Z) = \rho(H,Z),$$
$$\rho(K,Z) = \rho(L,Z)$$

olacaq (burada $\rho(E,Z)$ ilə $[EZ]$ parçasının uzunluğu işarə olunub).

Teorem isbat olundu.

Analoji qayda ilə aşağıdakı teoremlər isbat edilir [2].

Teorem 2. *Tetraedrin təpələri ilə qarşıdakı üzlərin ağırlıq mərkəzlərini (qarşıdakı üz üçbucaqdır və üçbucağın ağırlıq mərkəzi onun medianlarının kəsişmə nöqtəsidir) birləşdirən parçaların dördü də eyni bir nöqtədə kəsişirlər və kəsişmə nöqtəsində təpədən hesablandıqda 3:1 nisbətində bölünürlər*.

Oturacaqları $ABCD$ və $A'B'C'D'$ (fəza dördbucaqlıları) və tilləri $[AA']$, $[BB']$, $[CC']$, $[DD']$ parçaları olan fəza fiqurunun qarşı üzlərini

$$S_1 = ABCD \quad \text{və} \quad S_1' = A'B'C'D'$$
$$S_2 = AA'D'D \quad \text{və} \quad S_2' = BB'C'C$$
$$S_3 = AA'B'B \quad \text{və} \quad S_3' = DD'C'C$$

ilə işarə edək. M_i $(i = 1, 2, 3)$ nöqtəsi S_i üzünün (M_i' nöqtəsi S_i' üzünün) dioqonallarının orta nöqtələrini birləşdirən parçanın orta nöqtəsi olsun.

Teorem 3. *Yuxarıdakı qayda ilə qurulmuş* $[M_1M_1']$, $[M_2M_2']$ *və* $[M_3M_3']$ *parçalarının üçü də eyni bir nöqtədə kəsişirlər və kəsişmə nöqtəsində yarıya bölünürlər*.

Ədəbiyyat

1. Qasımov E.A. Elementar riyaziyyat kursunun elmi əsasları. Bakı: ELM, 2016, 498 s.
2. Qasımov E.A. Məktəb riyaziyyat kursunun bəzi məsələlərinin ənənəvi olmayan üsullarla həlli. Bakı: Elm, 2010, 122 s.

РЕЗЮМЕ

МЕТОДИКА ПРИМЕНЕНИЯ ЦЕНТРА ТЯЖЕСТИ К ГЕОМЕТРИЧЕСКИМ ЗАДАЧАМ

Гасымов Э.А., Эфенди С.Н.

***Ключевые слова*:** *центр тяжести, пространственные четырехугольники, пространственные фигуры, основаниями которых являются пространственные четырехугольники.*

В статье некоторые геометрические задачи, с применением центра тяжести, решаются ясно, четко и кратко, изучаются основные три свойства метода центра тяжести, доказывается теорема для произвольных пространственных четырехугольников. Устанавливаются свойства отрезков, соединяющих вершины тетраэдра с серединой противолежащей стороны. Доказываются некоторые факты для пространственных фигур, основаниями которых являются пространственные четырехугольники.

SUMMARY

APPLICATION OF THE CENTER OF GRAVITY TO GEOMETRIC PROBLEMS

Gasymov E.A., Efendi S.N.

Keywords: *centre of gravity, spatial quadrangles, spatial figures whose bases are spatial quadrangles.*

In the article, some geometric problems, using the centre of gravity are solved clearly and briefly, the main three properties of the centre of gravity method are studied, a theorem is proved for arbitrary spatial quadrangles. The properties of the segment connecting the vertices of the tetrahedron with the midpoint of the opposite side are set. Some facts are proved for spatial figures whose bases are spatial quadrangles.

TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN ƏSAS PRİNSİPLƏRİ

Şamilova Rəsmiyyə Ənvər qızı

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Rasmiyya.Shamilova@au.edu.az

Açar sözlər: *informasiya tədris sistemi, informasiya təhlükəsizliyi, təhlükə.*

Məqalədə təhsil müəssisələrində informasiya təhlükəsizliyinin risk faktorları və təhlükələr təhlil edilir. Eləcə də təhsil müəssisələrinin fəaliyyətinə informasiya təhlükəsizliyi sisteminin daxil edilməsinin zəruriliyi əsaslandırılır.

İnformasiya texnologiyalarınını cəmiyyətin bütün sferalarına daxil olması artıq normal hala çevrilib. İnformasiya texnologiyalarının inkişafı tempi çox yüksəkdir və bu yüksək göstəricilər bir tərəfdən cəmiyyətin özünü təkmilləşdirməyə doğru davamlı hərəkətindən xəbər verir, digər tərəfdən isə texnologiyaların inkişafı və informasiya resurslarının təhlükəsizliyi ilə bağlı problemlər yaradır.

Təhsil prosesində informasiya texnologiyalarının tətbiqi, internet məkanından fəal istifadə ilə əlaqədar təhsil müəssisələrində təhlükəsizliyin təmin edilməsi zəruridir. Təlim prosesinin effektivliyi bilavasitə informasiya istehlakının səmərəliliyindən və informasiyanın yaradılmasından asılıdır ki, bu da təhsil alanları müəyyən dərəcədə onlara zərər verə biləcək informasiyadan qorumaq zərurəti məsələsini ortaya çıxarır.

Müasir təhsil müəssisələrində informasiya təhsil prosesinin ən mühüm komponentidir. Təhsil təşkilatlarının ən mühüm resurslarına maliyyə resursları ilə yanaşı informasiya resursları da daxildir [1]. Tədris prosesinə informasiya texnologiyalarının tətbiqi və sinif otaqlarının kompüter avadanlığı ilə aktiv şəkildə təchiz edilməsi ilə bütün təşkilatın informasiya təhlükəsizliyinin tam

təmin edilməsi zərurəti yaranır ki, bu da kompüter texnikasının fasiləsiz işləməsinə və informasiya dövriyyəsinə kömək edir.

Tədris prosesinin informasiya təhlükəsizliyinin əsas komponentləri kompüter təhlükəsizliyi və istifadəçilərin mühafizəsidir. Ali təhsil müəssisələrində istifadəçilərin mühafizəsi ən vacib komponentdir. Bu, ilk növbədə, təhsil prosesinin bütün iştirakçılarının şəxsi məlumatlarının, o cümlədən onların şəxsi, maliyyə, tədris məlumatlarının qorunması ilə bağlıdır. İnformasiya təhlükəsizliyinin təmin edilməsi qəbul komissiyasından başlayaraq kadrlar şöbəsinə qədər qurumların bütün struktur bölmələrinə şamil edilməlidir. Bu gün informasiya təhlükəsizliyini təmin etmək üçün vahid siyasətin işlənib hazırlanması zəruridir [2].

Aydındır ki, açıq kommunikasiya kanalları vasitəsilə şəbəkə istifadəsi zamanı qarşılıqlı əlaqənin bütün iştirakçıları təhsil müəssisəsinin və şəxsin informasiya təhlükəsizliyinə həm obyekt, həm də təhdid mənbəyi ola bilər. Bəzi müəlliflərin məqalələrində göstərildiyi kimi, "İnternet azad kiberməkandır" ifadəsi heç vaxt doğru olmayıb. İnternetin həqiqətən tək sahibi yoxdur, lakin əsas resursların və əsas funksiyaların idarə edilməsi fəaliyyətlərinə nəzarət təşkilatlar dairəsi tərəfindən həyata keçirilir.

İnformasiya tədris sisteminin bir sıra üstünlüklərinə baxmayaraq (istifadəçinin istənilən vaxt istənilən yerdən təhsil materiallarına çıxışı, təlimin və nəzarətin fərdiləşdirilməsi, qabaqcıl təhsil təcrübələrinin sürətlə yayılması və s.), qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyinin təmin edilməsi problemi təkcə tədris prosesinin subyektləri üçün deyil, həm də təhsil təşkilatı üçün aktualdır.

Planlaşdırılmış keyfiyyət göstəricilərinə nail olmağa yönəlmiş bir təhsil müəssisəsinin idarə edilməsi prosesi, digər məsələlərlə yanaşı, bütün təhsil prosesi subyektlərinin informasiya təhlükəsizliyinin təmin edilməsi, eləcə də, təhsil müəssisəsinin informasiya təhlükəsizliyi mühitinin lazımi səviyyədə yaradılmasına və saxlanmasına yönəldilməlidir.

Təhsil müəssisəsinin informasiya təhlükəsizliyi mühiti aşağıdakıları təmin etməlidir:

− təhsilalanların sağlamlığına və inkişafına zərər verə biləcək məlumatlardan qorunması;

− təhsil təşkilatının informasiya resurs və sistemlərinin qorunması;

− təhsil prosesinin bütün iştirakçılarının şəxsi məlumatlarının qorunması.

Effektiv kompleks mühafizəni təmin etmək üçün ilk növbədə informasiya təhsil sisteminə təhlükə yaradan amilləri nəzərə almaq və təhlil etmək lazımdır. Uşaq və gənclər üçün potensial təhlükə yaradan informasiya mühitinin risk faktorlarına aiddir:

1) gənc nəslin mənəvi inkişafına təsir göstərən qeyri-qanuni məzmun, zərərli məlumatlar;

2) təhsilalanların psixofizioloji vəziyyətini məqsədyönlü şəkildə dəyişdirən spesifik elementlər;

3) təhsilalanların diqqətini yayındıran, manipulyasiya xarakterli materiallar;

4) gizli məlumatların mühafizəsi mexanizmlərinin həyata keçirilməsində çətinliklər.

İnformasiya məkanının qorunması və informasiya təhlükəsizliyinin təmin edilməsi probleminin aktuallığı bilavasitə informasiya təhlükəsizliyinin real və potensial təhlükə və riskləri ilə bağlıdır. Bu təhdid və risklərin səviyyəsi və miqyası son on ildə dəfələrlə artmış, onların təsirinin nəticələri son dərəcə təhlükəli olmuşdur.

İnformasiya təhlükəsizliyi sahəsində əsas anlayışlardan biri təhdid anlayışıdır. Ümumi halda təhdid kiminsə maraqlarına potensial olaraq zərər vura bilən mümkün hadisə, hərəkət və ya proses kimi başa düşülür. İnformasiya təhlükəsizliyi obyektinə təhdid müxtəlif obyektlər və ya onların elementləri arasında qarşılıqlı əlaqə prosesində yaranan və konkret informasiya təhlükəsizliyi obyektinə mənfi təsir göstərə bilən amillər və şərtlər toplusudur.

Elmi ədəbiyyatda informasiya təhlükəsizliyi təhdidlərinin müxtəlif təsnifatları mövcuddur. Mənfi təsirlər vurulmuş zərərin xarakterinə görə fərqlənir, yəni: təhlükəsizlik obyektinin xassələrinin dəyişmə dərəcəsinə və təhlükənin təzahürünün nəticələrinin aradan qaldırılması imkanlarına görə.

İnformasiya təhlükəsizliyinə təhdidlərlə bağlı təhsil prosesinin subyektləri üçün dörd təhlükə səviyyəsi mövcuddur (Cədvəl).

Təhsilalanların şəbəkə vasitəsilə əldə etdikləri informasiya təcrübəsi növü onların məruz qaldıqları risk növlərini və buna görə də ən təsirli ola biləcək təhlükəsizlik növlərini müəyyən etmək üçün vacib amildir. İnformasiya təhlükələrinə bu sistemin elementləri kimi təkcə İnformasiya tədris sisteminin subyektləri deyil, həm də onlar arasındakı əlaqələr də məruz qalır. Nəzərə alsaq ki, İnformasiya tədris sistemi çərçivəsində onun subyektlərinin qarşılıqlı əlaqəsi mövcuddur, informasiya qarşılıqlı əlaqələrini təhsil prosesinə təhlükə hesab etmək olar.

Cədvəl.

İnformasiya təhlükəsizliyi təhdidlərin səviyyələri və təzahürləri

Təhdid səviyyəsi	Tədris prosesinin subyektləri üçün təhlükənin həyata keçirilməsinin mümkün təzahürləri
Aşağı	kiçik neqativ təsirlər
orta	Neqativ təsirlər
Yüksək	Neqativ nəticələr
Kritik	əhəmiyyətli mənfi nəticələr

Risklərin idarə edilməsi metodologiyası dörd əsas risk qiymətləndirmə addımını əhatə etməlidir:

1. Qiymətləndirmənin əhatə dairəsinə daxil olan şəbəkə resurslarının inventarlaşdırılması;
2. Bu aktivlərlə bağlı təhlükələrin müəyyən edilməsi;
3. İnformasiya tədris sistemi və əlaqələrin subyektləri üçün təhlükələrin həyata keçirilməsi ehtimalının və potensial nəticələrinin təsnifatı;
4. Müəyyən edilmiş riskləri məqbul səviyyəyə endirmək üçün zəruri olan nəzarət vasitələrinin müəyyən edilməsi.

Təhsil müəssisələrində informasiya təhlükəsizliyi sisteminin yaradılmasının məqsədi aşağıdakılardan ibarət olmalıdır:

1) tələbələrin, müəllimlərin, onların hüquq və mənafelərinin, habelə əmlakının informasiya mühitinin yaratdığı təhlükəli təsirlərdən qorunması;

2) təhsil müəssisəsinin səmərəli fəaliyyətinin və inkişafının təmin edilməsi;

3) informasiya təhlükəsizliyi təhdidlərinin mənfi təsirlərindən zərərin azaldılması, təhlükələrin baş vermə ehtimalının və riskin reallaşdırılması nəticələrinin azaldılması;

Təhsil müəssisəsində informasiya təhlükəsizliyi sistemi yaradılarkən şəbəkə qarşılıqlı əlaqəsinin həyata keçirildiyi informasiya mühitinin əsas xüsusiyyətlərini nəzərə almaq lazımdır. Belə bir mühit aşağıdakı xüsusiyyətlərə malikdir:

• konkret məqsədlər üçün yaradılır və saxlanılır;
• dinamikdir;
• sürətlidir;
• nisbətən qeyri-məhduddur;

• zəif giriş baryerlərinə malikdir;
• sürətlə inkişaf edir;

Ədəbiyyat

1. Филяк П.Ю. Информационная безопасность и комплексная система безопасности анализ, подходы. Информация и безопасность. 2016, Т. 19, № 1, с. 72–79.
2. Роберт И.В. Перспективные научные исследования, определяющие развитие информа тизации образования. Педагогическое образование в России. 2014, №4, с. 199-204.

РЕЗЮМЕ
ОСНОВНЫЕ ПРИНЦИПЫ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ
Шамилова Р.А.

Ключевые слова: *информационная образовательная система, информационная безопасность, угроза.*

В статье анализируются факторы риска и угрозы информационной безопасности в образовательных учреждениях. Также обосновывается необходимость включения системы защиты информации в деятельность образовательных учреждений.

SUMMARY
BASIC PRINCIPLES OF INFORMATION SECURITY IN EDUCATIONAL INSTITUTIONS
Shamilova R.A.

Keywords**:** *information educational system, information security, threat.*

The article analyzes risk factors and threats to information security in educational institutions. It also substantiates the need to include an information security system in the activities of educational institutions.

ŞAGİRDİN RİYAZİ BİLİYİNİN YETƏRSİZ OLMASI PROBLEMİ

Tahirov Bahadur Ömər oğlu, Ağazadə Şahin Mütarif oğlu
Bakı Dövlət Universiteti, Azərbaycan
marius-85@mail.ru

Açar sözlər**:** *təlim nəticələri, riyazi biliyin keyfiyyəti, beynalxalq standartlar, riyazi biliyin yetərsizliyi, şagirdin fərdi xüsusiyyətləri,"intellektual tənbəl" şagird.*

Riyazi təhsilin keyfiyyətini yüksəltmək, riyaziyyatın tədrisi metodikasının həmişə aktual olan problemlərindən biridir. Bu problemin həlli yollarından biri şagirdin riyazi biliyinin yetərsiz olması probleminin aradan qaldırılmasıdır. Şagirdin riyazi biliyinin səviyyəsinin beynəlxalq standartlara cavab verməsi təkcə təhsil sisteminin yox, bütövlükdə cəmiyyətin tələbidir. Bu işdə şgirdin biliyinin yetərsiz olması probleminin yaranması səbəblərіaraşdırılmış və onu qabaqlamaq yolları müəyyən edilmişdir.

Bu problem riyaziyyat müəllimlərinin əsas problemi hesab olunur.Şagirdin riyazi fənlərdən biliyinin yetərsiz olması problemi pedaqoji ədəbiyyatda müntəzəm müzakirə olunan problemlərdəndir. Çünki bu problemin həlli sosioloq, nevroloq, psixoloq, pedaqoq, metodist və riyaziyyat müəllimlərini çox maraqlandırır. Son otuz il ərzində PİZA-nın tədqiqatlarına görə, Şərqi Avropa ölkələrində yeniyetmələrin 32%-ə qədərinin oxu, riyaziyyat və təbiət fənlərindən nəticələri

beynəlxalq standartlardan aşağı olmuşdur (PİSA – şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsi üzrə beynəlxalq proqram). Şagirdin riyazi biliyinin yetərsiz olması problemi təkcə məktəbin yox, bütövlükdə cəmiyyətin problemidir. Riyazi təhsilin keyfiyyət səviyyəsinin aşağı olmsı abituriyentləri riyaziyyatla əlaqəsi olan ixtisaslardan yayınmağa sövq edir. Bu isə, öz növbəsində, fizika-riyaziyyat fakültələrində, təbiət elmləri ilə əlaqəsi olan sahələrdə işləmək üçün tələb olunan mütəxəssislər hazırlayan fakültələrdə tələbələrin sayının azalmasına səbəb olur. Digər tərəfdən, riyazi təhsilin səviyyəsinin yeyərsiz olduğu məktəbdə şagirdlərin emosional və intellektual diskomfort yaşamasını da qeyd etmək lazımdır. Bələ məktəblərin məzunları sosial və humanitar sahələr üzrə ixtisaslara yiyələndikdən sonra , əmək fəaliyyətində lazım gəldikdə belə, riyazi metodları tətbiq edə bilmirlər. Ona görə də şagirdin riyazi biliyinin yetərsiz olması müasir riyazi təhsi nəzəriyyəsi və praktikasının aktual problemlərindən biridir. Şagirdin riyazi biliyinin yetərsiz olması müəllim və şagird, müəllim və valideynlər arasındakı konfiktlərin əsas səbəbləridir. Bu konflitlər isə, öz növbəsində nevroz və depressiyaların inkişafına səbəb olur, özünü qiymətləndirmənin aşağı enməsinə, valideynlər və müəllimlər arasında münasibətlərin korlanmasına gətirib çıxarır.

Bu problemin daim diqqət mərkəzində saxlanılması, onun aradan qaldırılmasına səy göstərmək hər bir riyaziyyat müəlliminin əsas vəzifəsidir.

Riyaziyyat təlimində şagirin təlim nəticələrini azaldan səbəblərlə tanış olaq. Bu səbəblər aşağıdakılardır:

– psixoloji;

– pedaqoji;

– metodiki.

Psixoloji səbəblərə aşağıdakıları aid etmək olar:

–şagirdin motivasiyasındakı çatışmazlıqlar (düzgün seçilməyən motivlər; riyazi fənlərə mənfi münasibət ;riyazi fənləri öyrənməyə həvəsin olmaması);

– şagirdin riyazi fəaliyyətindəki çatışmazlıqlar (intellektual passivlik; koqnitiv maneələr; dərslikdəki riyazi materialı pis mənimsəmək; tədris materialını anlamamaq) ;

–şagirdin bilik və bacarıqlarında probellərin olması (əsas riyazi anlayışların və bacarıqların formalaşmaması; müxtəlif riyazi məsələləri həll etmək təcrübəsinin olmaması; məsələlərin həlli prosəsində müəllimin göstərişi ilə fəaliyyət göstərmək);

–riyazi fəaliyyət zamanı refleksiv strategiyalardan az istifadə edilməsi (özünü intellektual fəaliyyətə hazırlaya bilməmək; öz intellektual ehtiyatlarını düzgün qiymətləndirməmək; öz gücünə inamsızlıq; süstlük).

Pedaqoji səbəblər şagirdin ümumfənn bacarıqlarlarının və vərdişlərinin formalaşmaması ilə əlqədardır (riyaziyyat dərslik və dərs vəsaitlərindən istifadə edə bilməmək; riyazi fəaliyyətini sərbəst təşkil edə bilməmək; intizamsızlıq).

Aşağıdakı metodiki səbəblər isə, riyaziyyat müəlliminin fəaliyyəti ilə əlaqədardır:

–müəllim və şagirdin bir-birindən narazı olması;

–müəllimin riyaziyyat təliminin prinsiplərinə (sistemlilik; ardıcıllıq; elmilik; fəallıq; müvafiqlik prinsiplərinə və s.) əməl etməmək;

–təlimdə şagirdin fərdi xüsusiyyətlərinin və bacarıqlarının nəzərə alınmasını düzgün təşkil etməmək;

–müxtəlif riyazi bölmələrin öyrənilməsi zamanı müasir və ənənəvi yanaşmalardan düzgün istifadə etməmək;

–şagirdin riyaziyyatdan sərbəst işinin icrası səmərəsiz təşkil olunması;

–şagirdin universal bacarıqlarının formalaşdırılması üzrə iş səmərəsiz təşkil olunması.

Riyazi biliyi yetərsiz olman şagirdlərin aşağıdakı tipləri fərqləndirilir:

– riyaziyyatı öyrənməyə həvəsi olmayan şagirdlər;

– riyazi materialı çətinliklə mənimsəyən şagirdlər;

–riyazi fəaliyyətini çətinliklə idarə edən şagirdlər.

Göstərilən tiplərdən olan şagirdlərin hər birinin mühüm xüsusiyyətləri ilə tanış olaq:

Riyaziyyatı öyrənməyə həvəsi olmayan şagirdlərə riyaziyyata mənfi münasibəti olan şagirdləri, riyaziyyat müəllimi ilə pis münasibətdə olan şagirdləri və riyazi tapşırqları həll edərkən diskomfort yaşayan şagirdləri aid edirlər. Belə şagirdlər haqqında müəllimlər "onlar üçün heç nə maraqlı deyil və ya onlar heç nə isəmirlər" kimi gileylənirlər.

Riyazi materialı çətinliklə mənimsəyən şagirdlərin koqnitiv bacarıqlarının inkişaf səviyyəsi riyazi fəaliyyət üçün yetərli olmur. Bu tipə mənsub olan şagirdlər riyazi anlayışları pis qavrayır, riyazi bacarıqların formalaşmasına şox vaxt sərf edir, riyazi düsturları yaddaşında pis saxlayır və pis xatırlayırlar. Onlar məsələ və misalların həllində ümumi qaydalardan zəif istifadə edə bilirlər, hər məsələni yeni məsələ kimi qəbul edirlər. Onların işçi yaddaşı həcmcə kiçik olduğundan həndəsə məsələlərinin həllində çətinlik çəkirlər. Çünki onlar eyni zamanda məsələnin şərtini, həndəsi anlayışların xassələrini, məntiqi mühakimələri və məsələnin çertyojunu yadda saxlaya bilmirlər. Pedaqoji psixologiyada " intellektual tənbəl şagird" anlayışı vardır. Belə şagirdlər intellektual inkişafı normal olan şagirlərdən tədris fəaliyyətlərinə görə fərqlənirlər. "İntellektual tənbəl olan sagird"lər düşünməyi bacarmırlar. Onlarda zehni əməyə mənfi münasibət formalaşmışdır və onlar aktiv zehni fəaliyyətdən qaçırlar. Ona görə də onlar riyazi fəaliyyətləri zamanı intellektual yapşırıqları həll etmək zərurəti yarandıqda digər yollara əl atırlar (məsələn, nümunə üzrə fəaliyyətə, materialı anlamadan əzbərləməyə, köçürməyə və s.).

Şagirdin "intellektual tənbəl" olması əlamətləri aşağıdakılar ola bilər:

1) intellektual əhəmiyyəti olan fəaliyyətdə təşəbbüssüz olmaq;

2) köməkçisi olmadan zehni fəaliyyətə başlamamaq;

3) iş qabiliyyətinin zəif olması;

4) intellktual gərginlikdən qaçmaq və s.

"İntellektual tənbəl" olan şagird eyni tipdən olan məsələlərin həlli zamanı aparılan mühakimələri ardıcıllığını, teoremlərin isbatını, düsturların çıxarılışını yadda saxlaya bilmir.

Bu tipə aid olan şagird müəllimin izahını çətinliklə anlayır, məsələlərin həllində təşəbbüssizlik göstəririr, şifahi hesablamalarda çətinlik çəkir, riyaziyyayt dərslərində tez yorulur.

Riyazi fəaliyyətini çətinliklə idarə edən şagirdin əsas xüsusiyyətləri hansılardır? O, öz

səhvini görmür və düzəldə bilmir, öz intellektual ehtiyatlarını qiymətləndirə bilmir, öyrənmə

fəaliyyəti az səmərəli olur.

Şagirdin riyaziyyat təlimində uğurlu olması əlamətləri aşağıdakılardır:

1) Şagirdin riyazi təaliyyətə, riyaziyyat dərslərində iştirak etməyə və uğur qazanmağa hazır olması;

2) Şagirdin öyrənmə bacarıqlarının inkişaf səviyəsinin, formalaşmış riyazi bilik, bacarıq və vərdişlərin səviyəsinin məlum standartlara cavab verməsi;

3) Şagirdin öz riyazi fəaliyyətinin nəticələrinə adekvat olan məmunluq hissi, mümkün çətinliklərin dərk edilməsi və yüksək təlim nəticələrinin qazanılmasında sərf etdiyi əməyin dərk olunması;

4) Ailədə riyaziyyata, riyaziyyat müəlliminə münasibətin müsbət olması, şagirdin özünün riyaziyyata dayanıqlı müsbət münasibətinin olması.

Riyaziyyat təlimində şagirdin biliyinin yetərsiz olması problemini necə qabaqlamaq olar?

Aparılan təcrübələr göstərir ki, aşağıdakıların köməyi ilə buna nail omaq olar:

1. Şagirdin hazırlığını müntəzəm yoxlamaqla onu öyrənməyə həvəsləndirmək;

2. Yeni materialın şərhi zamanı yeni anlayışların mahiyyətni şagirdin necə anladığını yoxlamaq, şagirdin sual verəsini qiymətləndirmək, şagirin fəal öyrənməsinə şərait yaratmaqdır;

3. Ən çətin və mühüm olan mövzuları sərbəst işlər kimi vermək lazımdır. Sərbəst işlərdə səhvlərin tapılmasına və düzəldilməsinə aid tapşırıqlar olmalıdır;

4. Ev tapşırıqlarındaında keçilmiş materialların təkrarına aid tapşırıqlar olur. Ən çətin və mühüm materialların necə mənimsənildiyini yoxlamaq lazımdır;

5. Tipik səhvlərin tapılmasına və düzəldilməsinə aid tapşırıqlara xüsusi diqqət ayırmaq lazımdır. Zəif şagirlərin belə səhvləri necə düzəltməsinə nəzarət etmək lazımdır;

6. Şagirdlərə təlim tapşırıqlarını optimal ölçüdə ayırmaq lazındır(bu məqsədlə digər həmkarlarla məsləhətləşmək lazımdır).

7. Bir qayda olaraq, təlimdə uğursuzluq pis tərbiyənin nəticəsi olur. Ona görə də uğursuz təlim nəticəsi olan şagirdlərin ailələri ilə kontaktları artırmaq və tərbiyəvi işləri artırmaq lazımdər.

Şagirdin təlin nəticələrini, bilik və bacarıqlarının keyfiyyətini yüksəltməyə nail omaq üçün aşağıdakılara nail olmaq lazıdır:

1) tədris məşğələlərini şaglrdlərin, bütün sinfin, xüsusiyyətlərini nəzərə alan metodika əsasında aparmaq lazımdır;

2) şagirdlərdə öyrənməyə mənfi münasibətin formalaşmasına yol verməmək üçün təsirli tərbiyəvi vasitələr sistemi hazırlamaq və tətbiq etmək lazımdır;

3) şagirdlərdə biliklərə dayanıqlı tələbat formalaşdırmaq və onları çətinlikləri aradan qaldırmağa həvəsləndirmək lazımdır.

Ədəbiyyat

1. Селевко Г.К. Современные образовательные технологии. М.: Академия, 1998, 210 с.
2. Селевко Г.К. Современные образовательные технологии: учебник. М.: Государственное Образование, 1998.

РЕЗЮМЕ

ПРОБЛЕМА НЕДОСТАТОЧНОСТИ МАТЕМАТИЧЕСКИХ ЗНАНИЙ УЧАЩИХСЯ

Тахиров Б.О., Агазаде Ш.М.

Ключевые слова*: *образовательные результаты, качество математических знаний, международные стандарты, недостаточные математические знания, индивидуальные особенности школьника, «интеллектуально ленивый» школьник.

Повышение качества математического образования всегда было одной из актуальных проблем методики преподавания математики. Одним из путей решения этой проблемы является решение проблемы неуспеваемости учащихся по математике. Уровень математических знаний учащегося, соответствующий международным стандартам, является требованием не только системы образования, но и общества в целом. В данной работе были исследованы причины возникновения неуспеваемости учащихся по математике и определены пути ее устранения.

SUMMARY

THE PROBLEM OF INSUFFICIENT MATHEMATICAL KNOWLEDGE OF THE STUDENT

Tahirov B.O., Agazada Sh.M.

Keywords*: *educational results, quality of mathematical knowledge, international standards, insufficient mathematical knowledge, individual characteristics of a student, "intellectually lazy" student.

Improving the quality of mathematical education has always been one of the urgent problems of mathematics teaching methodology. One way to solve this problem is to solve the problem of student underachievement in mathematics. The level of mathematical knowledge of a student that meets international standards is a requirement not only for the education system, but also for society as a whole. In this study, the causes of student failure in mathematics were investigated and ways to prevent it were identified.

PEQAQOJİ PROSES ZAMANI ALİ MƏKTƏB MÜƏLLİMİNİN PEŞƏKARLIĞINI GÖSTƏRƏN AMİLLƏR

Talıbova Albina Nəbi qızı, Bayramova Aysel Alim qızı
Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dovlət Texniki Kolleci, Sumqayıt, Azərbaycan
albinanabiyevna@mail.ru , aysel-bayramova-1986@mail.ru

Açar sözlər: *ali məktəb müəlliminin peşəkarlığı, ustad müəllim, pedaqoqun xüsusiyyətləri, peşəkarlıq və fərdi xüsusiyyət.*

Məqalədə ali məktəb müəllimin təməl olaraq malik olmalı xüsusiyyət və keyfiyyətlərindən, tələbələrinə qarşı olan vəzifə borclarından danışılır. Müasir peşəkar müəllimin auditoriyada malik olmalı xüsusiyyətləri sadalanır. Dərsin təşkili zamanı müəllimin sahib olmalı fərdi keyfiyyətliri göstərilir.

Peşəkarlığın və ustalığın təzahürü ali məktəb müəlliminin peqaqoji əməyin üsul və metodlarını yaxsı bilməsidir. Pedaqoji peşəkarlıq-müəllimin, məhsuldarlıq fəaliyyətini təmin edən başlıca ünsürlərdən biridir. Bu prosesin intensivliyi yüksəltmək pedoqoji ustalıq əlamətidir. İşinin ustası olan müəllim tədris etdiyi fənni, təlim-tərbiyə norma və texnologiyalarını bilməli, yeniliklərə açıq olmalıdır. O həmçinin, pedaqoji innavasiyaların əsas qaydalarını bilməli, nəinki tədris etdiyi fənni, həmçinin tədris etdyi fənnə yaxın olan fənləri, elmin müxtəlif sahələrinə bələd olmalıdır. Yaradıcı fəaliyyəti və ən mühümi yüksək mədəniyyətə malik olmalıdır.

Yuxarıda sadalanan keyfiyyətləri özündə əks etdirən müəllim təhsil-tərbiyənin qanunauyğunluqlarını, prinsip və qaydalarını dərindən bilir. Əlavə olaraq proqnozlaşdırma, diaqnostlaşdırma və layihələşdirmə məharətinə malikdir. Onun ustalığı ilə yanaşı müəllimin bilik və bacarıq həmçinin vərdişlər sistemi ilə şəxsi xüsusiyyətlərinin vəhdətini ozündə cəmləyir.

Hal-hazırda ixtisaslaşan kadrlara qoyulan indiki dövrün tələbləri, daha fikrini müstəqil ifadə edə bilən, səlist nitq qabiliyyəti olan, rahat ünsiyyətçil, elmi-texniki yeniliklərdən xəbərdar, müasir texnikalarla davrana bilən, daha cəsarətli olmasıdır. Müasir gənclərə artıq köhnə üsullarla təsir etmək mümkün deyildir. Deyilənləri ümumiləşdirsək, peşəkar müəllimin hal-hazırdakı gənclərə yeni yanaşma tərzlərini araşdırmalı, texnologiyalardan məharətlə istifadə qabilliyəti olmalıdır. Bilik və elmi praktiki fəaliyyət baximından hər zaman tələbələri qabaqlamalıdır.

Hər mütəxəssis peşə fəaliyyətində bir sıra etik davranış prinsiplərini gözləməlidir. Müvafiq tələblərə ciddi şəkildə əməl etməli və bu tələblərin aşağıdakılardan ibarətdir:

- Qanunun aliliyi
- Vicdanlılıq
- Loyallıq
- Peşəkarlıq və fərdi məsuliyyət
- Qərəzsizlik
- İctimai etimad
- Gender bərabərliyi.

Bir sıra aşağıdakı sadalanan keyfiyyətləri ilə peşəkar ali məktəb müəllimi fərqlənməlidir:

-məntiqi təfəkkürə malik olmaqla yanaşı, zəngin erudisiyaya və elmin bütün sahələrinə nüfuz etməyi bacarır;

- ədalətli və prinsipialdır, öz fəaliyyətində dövlətin mənafeyi və cəmiyyətin tələblərini daima əsas götürür və möhkəm əqidəyə malikdir;

-tədris prosesi zamanı hər bir akademik qrupa fərdi yanaşır;

- elmi potensial hazırlığını təkmilləşdirmək məqsədilə öz üzərində daima işləyir;

- akademik qrupun hər bir üzvünün bilik səviyyələrini, bacarıqlarını, maraq və meyilləri ilə tanışdır, öz fəaliyyərini layihələşdirərkən bunları nəzərə alır;

- metodik hazırlığı səviyyəsi təhsil-tərbiyə prosesini rasional surətdə qurmağa imkan verir;

Müəllimin peşə səriştəliliyinə malik olmasının əsas atributlarından biri onun peşə mədəniyyətinə sahib olamsıdır. Ümumi mədəniyyətinin tərkib hissəsi-şəxsi keyfiyyətlərini, peşəkarlığını, pedaqoji ustalığını nüfuzunu, və s. özündə birləşdirən keyfiyyətlərin məcmusu ali məktəb müəlliminin peşə mədəniyyətdən xəbər verir. Ümumiyyətlə bu haqda söhbət açanda aşkardır ki, mədəniyyət olmadan peşə mədəniyyəti mümkün olmadığı kimi, peşə mədəniyyətinin də olmaması ümumi mədəniyyətdə müəyyən boşluqların nəticəsi kimi meydana çıxması labüddür.

Əsas amillərdən biri olan pedaqoji taktika- ali məktəb müəlliminin profesionallığı, peqaqoji ustalığı və peşəkarlığı göstərən ən əsas şərtlərdəndir. Bu şərt dərin psixoloji biliklərə əsaslanır. Təcrübəli müəllimin xarakterinin möhkəmliyini və məharətini, onun bütövlüyünü nümayiş etdirir. Pedaqoqun, (müəllimin ümumiyyətlə, nüfuzlu, böyük yaşda və hər bir çətin tərbiyə olunanlara təsir etmək isyəyən şəxsin, təlimçinin) mənəvi zənginliyi, sözü ilə əməlinin üst-üstə düşməsi, sözünün bütövlüyü,, müəllim adının müqəddəsliyinin qorunub saxlanması, hər cür xırda anlaşılmamazlıqlar, xüdbin, şəxsi kədəri ilə heç kəsi narahat etməməsi və əhvalını nizamlaya bilməsi kimi keyfiyyətləri olmalıdır. Mütəxəssis həmçinin, auditoriyada tələbələrlə münasibətdə nikbin, gümrah, yaradıcılıq əhval-ruhiyyəsi yaratmalı və öz imkanlarına inanması onun peşəkarlığıdır. Pedaqoq öz yetirmələrini pedaqoji taktla səhvlərdən çəkindirməyə, xəbərdarlıq etmək kimi xüsusiyyətlərə malik olmalıdır. Bu zaman həm də pedaqoji texnikaya yiyənmək lazımdır.

Hər bir təlimçinin adının qarşısında usdad kəliməsinin işlənməsi üçün, xüsusi istedad lazım deyil. Ən əsası, işini sevmək, yetirmələrin sevmək,əsl vətəndaş olmaq, möhkəm əqidə sahib olmaq, psixologiyanı dərindən bilmək, pedoqoji bacarıqları daim inkişaf etdirmək lazımdır. Bu zaman hər bir müəllim- peşəkar, usdad müəllimə çevrilər.

Elə məhz buna görədir ki, müəllim adı, müəllimlik peşəsi bütün cəmiyyətlərdə ən nüfuzlu, ən hörmətli peşə, müəllim adı ən yüksək ad hesab olunur. “Mən müəllim adından yüksək ad tanımıram” - kəlamını deyən Böyük Öndər Heydər Əliyev məhz bunları nəzərdə tuturdu.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Təhsil üzrə Dövlət Strategiyası. Bakı: 2013.
2. Селевко Г.К.Современные образовательные технологии. М.: Академия, 1998, 210 с.
3. Хуторской А.В. Современная дидактика. СПб.: Питер, 2001, 35-38 с.
4. Məmmədzadə M. Pedaqoji proses zamanı ali məktəb müəlliminin ustalığı / Gənc tədqiqatçıların I beynəlxalq elmi konfransı. Materiallar. Azərbaycan Qafqaz Universiteti, 25-26 aprel 2013, s.650-651.

РЕЗЮМЕ

ФАКТОРЫ, УКАЗЫВАЮЩИЕ НА ПРОФЕССИОНАЛИЗМ ПРЕПОДАВАТЕЛЯ ВУЗА В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

Талыбова А.Н., Байрамова А.А.

Ключевые слова: *профессионализм учителя высшей школы, мастер-педагог, педагогические характеристики, профессионализм и личностные качества*.

В статье говорится о характеристиках и качествах, которыми должен обладать преподаватель высшей школы, а также о его обязанностях по отношению к учащимся. Перечислены характеристики, которыми должен обладать современный профессиональный педагог в аудитории. При организации занятия указываются личностные качества, которыми должен обладать преподователь.

SUMMARY

FACTORS INDICATING HIGH SCHOOL TEACHER'S PROFESSIONALISM DURING THE PEGAGOGY PROCESS

Talibova A.N., Bayramova A.A.

Keywords: *high school teacher's professionalism, master teacher, pedagogue's characteristics, professionalism and personal characteristics.*

The article talks about the characteristics and qualities that a high school teacher should have as a foundation, as well as his duties towards his students. The characteristics that a modern professional teacher should have in the audience are listed. During the organization of the lesson, the personal qualities that the teacher should have are indicated.

İNFORMATİKANIN TƏDRİSİNƏ İNNOVATİV YANAŞMA

Verdiyeva Gülmira Zahid qızı

Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan

qverdieva@mail.ru

Açar sözlər: *innovativ, İnternet, təlim, təhsil, texnologiya.*

Məqalədə əsasən informatika dərslərinə innovativ yanaşma əks olunub. Təhsilə innovativ yanaşma mexanizmlərini inkişaf etdirməsi və eləcə də həyati problemlərin həlli üçün yaradıcı yollar tapması haqqında geniş məlumatlar verilir. Eyni zamanda informatika dərslərin keçirilməsində istifadə olunan texnologiyalar araşdırılır.

Dərs prosesində informasiya səriştəsini formalaşdırmaq və inkişaf etdirmək üçün üsullar araşdırılır. Eyni zamanda dərsdə istifadə edilən və innovativ xarakter daşıyan bəzi tədris metodları nəzərdən keçirilir.

Müasir həyat reallıqları fənlərin tədrisinin ənənəvi üsul və texnologiyalarını səmərəsiz və maraqsız edir. İKT-dən istifadə fənnin özünün tərkib hissəsi olduğu üçün informatika həmişə digər fənlərə nisbətən üstün mövqedə olmuşdur. Ancaq bu üstünlükdən necə düzgün istifadə edəcəyinə müəllim özü qərar verir.

İnnovativ təhsil texnologiyalarının əsas məqsədi insanı daim dəyişən dünyada həyata hazırlamaqdır. Belə təlimin mahiyyəti təhsil prosesinin insanın potensialına yönəldilməsi və onların həyata keçirilməsidir.

Təhsil innovativ fəaliyyət mexanizmlərini inkişaf etdirməli, həyati problemlərin həlli üçün yaradıcı yollar tapmalı, yaradıcılığın insan mövcudluğunun norma və formasına çevrilməsinə töhfə verməlidir.

İnnovasiya - aktual problemin həlli üçün nəzərdə tutulmuş yenilik (tədris prosesinin optimallaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, materialın öyrənilməsi üçün əlverişli şəraitin təşkili).

İnformatika dərslərinin keçirilməsi üçün aşağıdakı texnologiyalardan istifadə olunur:

1. fəaliyyət öyrənmə - praktiki iş üsulu ilə ifadə edilir;

2. problemli öyrənmə - qismən axtarış metodu, problemli vəziyyətlərin həlli metodu ilə ifadə edilir;

3. layihə əsaslı təlim - layihələrin metodundan istifadə olunur;

4. oyun təlimi - işgüzar oyun metodundan istifadə olunur;

5. Diskussiya təlimi - müzakirə və beyin həmləsi üsullarından istifadə olunur.

Sinifdə informasiya səriştəsini formalaşdırmaq və inkişaf etdirmək üçün aşağıdakı üsullardan istifadə olunur:

• təqdimat prosesində müəllimin iddia edilən rəqibə əks-arqumentləri;

• bu işdə əldə edilmiş nəticələrin müəllim tərəfindən qəsdən pozulmuş təqdimat, sübut və təhlil məntiqinin tələbələrə təqdim edilməsi;

• problemlərin həlli yolunda rast gəlinən uğursuzluqların səbəblərini və xarakterini müəllim tərəfindən açıqlaması;

• yanlış fərziyyələrin mümkün nəticələrinin müəllim tərəfindən müzakirəsi;

• müəllimin təqdim etdiyi materialın inkişaf edən semantik məqamlara bölünməsi;

• tələbələrin diqqətini problemlərin həlli zamanı yaranan ziddiyyətlərin ardıcıllığına yönəltmək;

• sualın sonrakı ifadəsi ilə qeyd olunan obyektin müəllim tərəfindən maraqlı təsviri;

• təqdimat zamanı irəli sürülmüş məntiqi tapşırığın tələbələr tərəfindən əqli həlli üzərində müəllimin quraşdırılması;

• təqdimat zamanı müəllimin ritorik sualları;

• tələbələrə münaqişə nümunəsinin təqdim edilməsi.

• müəllimin irəli sürdüyü fərziyyənin arqumentasiyasına tələbələrin daxil edilməsi;

• tələbələrə müəllimin təklif etdiyi əsaslandırmada gizli əsas əlaqələri axtarmaq tapşırığı;

• çətin ilkin tapşırıqdan seçilmiş bir neçə alt tapşırığı həll etmək üçün tələbələrə tapşırıq, bundan sonra tələbələr ilkin tapşırığa qayıdırlar;

• tələbələrə suallar vermək, problemin həlli yollarını düzgün seçməyə kömək etmək, eyni zamanda ona müxtəlif yanaşmaları göstərmək;

• şagirdlərə ilkin düşüncə tələb edən əsaslandırmada səhvləri tapmaq tapşırığı;

• problemin formalaşdırılmasına təkan verən tələbənin konkret müşahidələrinin təşkili;

• şagirdlərə müəllimin söylədiyi faktları xüsusi ardıcıllıqla ümumiləşdirmək tapşırığı;

• şagirdlə daxili əlaqələrini qismən açmaqla fəaliyyət metodunu göstərmək;

• şagirdlərə müəllimin verdiyi məntiqlə əsaslandırmanın növbəti addımını irəli sürmək tapşırığı;

• mahiyyəti təcrid etməyə sövq edən predmetin, hadisənin nümayişi;

• rəsmin bir hissəsinin rənglə vurğulanması, diaqram, qeyd, şagirdlərin problemi irəli sürməyə istiqamətləndirilməsi və s.

Tədris fəaliyyətimdə də daim internet resurslarından istifadə edilir:

• vebsayt və ya təqdimat yaradarkən və dərsə hazırlaşarkən material seçərkən;

• şəxsi peşəkar inkişaf üçün;

• tələbələrin öyrənmə motivasiyasını artırmaq. Bunun üçün mən tanınmış təhsil platformalarının distant təhsil resurslarından istifadə edirəm: Uchi.ru; videouroki.net; Yandex resursları və s.

İnternet resurslarından istifadə edərək sinifdə tələbələrin işini aşağıdakı kimi təşkil etmək olar:

• frontal (virtual səyahət, ekskursiyalar, şəbəkə layihələri);

• fərdi (informasiyanın axtarışı, seçilməsi və təhlili);

• qruplarda (ümumi təhsil layihəsinin icrası).

Şagirdlərin dərsdə və müstəqil iş prosesində idrak fəaliyyətinin təşkilində internet informasiya ehtiyatlarından istifadə edərkən onların hazırlıq səviyyəsini və bunun üçün mövcud olan şəraiti nəzərə almaq lazımdır.

Hal-hazırda ən populyar və effektiv aşağıdakı texnologiyalardır:

1) aşağıdakılara imkan verən interaktiv texnologiyalar:

• birincisi, uşaqlar və qrupdakı həmyaşıdları və böyüklər arasında əlaqə yaratmaq;

• ikincisi, təhsil prosesinə daxil olmağa imkan verir;

• üçüncüsü, qrupda müxtəlif təlim vəziyyətlərinin yaradılmasına kömək edir (hər bir uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq), onların həlli üçün müxtəlif variantlardan istifadə etmək olar.

Bu texnologiyalar müəllimlərə uşaq üçün onun xüsusiyyətlərini və ehtiyaclarını nəzərə alaraq müstəqil şəkildə tədris materialı yaratmağa, həmçinin lazımi dəyişiklikləri mümkün qədər tez və çevik şəkildə etməyə imkan verir. Fərdi layihələr üçün mövzu seçərkən tələbələrin maraqlarını, onların meyl və hobbilərini nəzərə alıram.

